# Xəzər Universiteti

**(Təhsil müəssisəsinin adı)**

**İnstitusional akkreditasiyası üzrə özünütəhlilin nəticələri haqqında**

**HESABAT**

**Hesabat Xəzər Universitetinin**
**Elmi Şurasının**
**29.03.2023-cü il tarixli iclasının qərarı ilə**
**təsdiq edilmişdir.**

**Tarix** 29.03.2023

**İmza** ____________
**(müəssisənin rəhbəri)**

**M.Y** ____________

KHAZAR UNIVERSITY XƏZƏR UNİVERSİTETİ 1991

**2023**

**Mündəricat**

**I. Giriş** .......... 3

**1. Təhsil müəssisəsinə dair ümumi məlumatlar** .......... 3

**2. Təşkilat komissiyasının tərkibi və fəaliyyət qrafiki** .......... 4

**3. Təhsil müəssisəsinin öncəki akkreditasiya qiymətləndirilməsi zamanı verilmiş tövsiyələrin icra vəziyyəti** .......... 9

**II. Təhsil müəssisəsinin özünütəhlili** .......... 10

**4. Özünütəhlil qiymətləndirməsinin icmalı** .......... 10

**STRATEJİ İNKİŞAF** .......... 10

**KEYFİYYƏT TƏMİNATI** .......... 17

**TƏLİM VƏ TƏDRİS** .......... 25

**ELMİ TƏDQİQAT** .......... 80

**İDARƏETMƏ SİSTEMİ** .......... 109

**İNFRASTRUKTUR** .......... 128

**BEYNƏLMİLƏLLƏŞMƏ** .......... 137

**6. Təşkilat komissiyasının gəldiyi nəticə və qeydlər** .......... 152

# I. Giriş

## 1. Təhsil müəssisəsinə dair ümumi məlumatlar

| | |
|---|---|
| Təhsil müəssisəsinin adı | Xəzər Universiteti |
| Sonuncu akkreditasiyaya dair şəhadətnamənin verilmə tarixi və müddəti | Verilmə tarixi - 18 iyul 2019-cu il<br>2016/17-2020/21-ci tədris illəri |
| Təhsil müəssisəsinin lisenziyasına dair məlumatlar (dövlət təhsil müəssisələri istisna olmaqla) | İSN/0 – 488/2056 “25” fevral 2016-cı il, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən müddətsiz lisenziya verilmişdir |
| Təhsil müəssisəsinin rəhbəri | Dos. İradə Xəlilova |
| Fakültələrin sayı | 5 |
| Kafedraların sayı | 19 |
| Bakalavriat pilləsi üzrə ixtisasların sayı | 36 |
| Magistratura pilləsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | 30 |
| Doktorantura səviyyəsi üzrə ixtisasların (elm sahələri üzrə) sayı | 23 |
| Təhsil müəssisəsinin təhsilalan kontingenti | **Təhsilalan sayı**<br>Bakalavriat: 2952<br>Magistratura: 486<br>Doktorantura: 63<br>Elmlər doktorluğu proqramı üzrə: - |
| Ştatdakı professor-müəllim (və ya pedaqoji) heyətin sayı | 127 |
| Əvəzçilik və saathesabı yolu ilə işləyənlərin sayı | 210 |
| Müəssisənin elektron ünvanı və əlaqə telefonu | contact@khazar.org;<br>(+994 12) 421 10 93<br>(+994 12) 421 79 16 |

| | |
|---|---|
| Müəssisənin hüquqi ünvanı | Məhsəti küç.,41, AZ1096, Bakı, Azərbaycan |
| Müəssisənin faktiki ünvanı | Məhsəti küç.,41, AZ1096, Bakı, Azərbaycan |

## 2. Təşkilat komissiyasının tərkibi və fəaliyyət qrafiki

Təşkilat komissiyasının tərkibi

| № | Pedaqoji adı (elmi dərəcə), ad, soyad | Vəzifə | E-mail ünvanı |
|---|---|---|---|
| 1. | Biologiya üzrə fəlsəfə doktoru, dosent İradə Xəlilova Sərxan qızı | Rektor | ikhalilova@khazar.org |
| 2. | Texnika elmləri doktoru, professor Məhəmməd Nuriyev Nurməhəmməd oğlu | Tədris işləri üzər prorektor | mnouriev@khazar.org |
| 3. | Filologiya elmləri doktoru, professor İsaxan İsaxanlı Abdulla oğlu | İdarəetmə və tələbə işləri üzrə prorektor | iisaxanli@khazar.org |
| 4. | Vlad Alex Vernyqora | Beynəlxalq əlaqələr üzrə prorektor | vvernygora@khazar.org |
| 5. | Fizika üzrə fəlsəfə doktoru Fəxrəndə Əfəndiyeva Namik qızı | Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı | falimardanova@khazar.org |
| 6. | İqtisad elmləri üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov İsa oğlu | İqtisadiyyat və menecment fakültəsinin dekanı | jmammadov@khazar.org |
| 7. | Filologiya üzrə fəlsəfə doktoru, dosent Elza Səmədova Nizami qızı | Humanitar, Təhsil və Sosial elmlər fakültəsinin dekanı | esemedova@khazar.org |

| | | | |
|---|---|---|---|
| 8. | Biologiya üzrə fəlsəfə doktoru, dosent Səidə Şərifova Sədaqət qızı | Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekanı | saida.sharifova@khazar.org |
| 9. | İqtisad elmləri doktoru İnqilab Əhmədov Ağacan oğlu | İqtisadiyyat və biznes yüksək təhsil fakültəsinin dekanı | ingilab@khazar.org |
| 10. | Yer elmlər üzrə fəlsəfə doktoru, Elşən Abdullayev Əlinasir oğlu | Neft mühəndisliyi departamentinin müdiri | elshan.abdullayev@khazar.org |
| 11. | Fizika üzrə Fəlsəfə doktoru, dosent, Fəridə Tatardar Nasir qızı | Fizika və elektronika departamentinin müdiri | farida.tatardar@khazar.org |
| 12. | Riyaziyyat üzrə fəlsəfə doktoru, Əli Hüseynli Abbas oğlu | Riyaziyyat departamentinin müdiri | ahuseynli@khazar.org |
| 13. | Texnika üzrə fəlsəfə doktoru, Rasim Bayramlı Allahyar oğlu | İnşaat mühəndisliyi departamentinin koordinatoru | r.bayramli@yandex.ru |
| 14. | Coğrafiya üzrə fəlsəfə doktoru, Rövşən Abbasov Xanış oğlu | Coğrafiya və ətraf mühit departamentinin müdiri | rabbasov@khazar.org |
| 15. | Tarix üzrə fəlsəfə doktoru, Telman Quliyev Nüsurət oğlu | Tarix və arxeologiya departamentinin müdiri | telman.guliyev@khazar.org |
| 16. | Javad Mehri | Kompüter elmləri departamentinin koordinatoru | Jmehri@khazar.org |

| | | | |
|---|---|---|---|
| 17. | Nano-texnologiya və kimya mühəndisliyi üzrə fəlsəfə doktoru Rasoul Moradi | Kimya və kimya mühəndisliyi departamentinin koordinatoru | rmoradi@khazar.org |
| 18. | Mexanika mühəndisliyi üzrə fəlsəfə doktoru, Mehdi Kiyasatfar | Mexanika mühəndisliyi departamentinin koordinatoru | mkiyasatfar@khazar.org |
| 19. | Filologiya üzrə fəlsəfə doktoru, dosent, Dilbər Zeynalova Vəkil qızı, | Dillər və ədəbiyyatlar departamentinin müdiri | Dzeynalova@khazar.org |
| 20. | Filologiya üzrə fəlsəfə doktoru, Milana Abbasova Yunis qızı | İngilis dili və ədəbiyyatı departamentinin müdir əvəzi | mabbasova@khazar.org |
| 21. | Hüquq elmləri üzrə fəlsəfə doktoru, Cabir Xəlilov Zahid oğlu | Hüquq departamentinin müdiri | Cxalilov@khazar.org |
| 22. | Memarlıq üzrə fəlsəfə doktoru, dosent, Şəhla Abbasova Abdul Əhəd qızı | Memarlıq və dizayn departamentinin müdiri | shabbasova@khazar.org |
| 23. | Dosent, Zülfiyyə Sadıqova Şükür qızı | Musiqi və incəsənət departamentinin müdiri | Zsadiqova@khazar.org |
| 24. | Siyasi elmlər üzrə fəlsəfə doktoru, Fərid Quliyev Zakir oğlu | Siyasi elmlər və fəlsəfə departamentinin müdiri | fguliyev@khazar.org |

| | | | |
|---|---|---|---|
| 25. | Mələk Kərimova Feruz qızı | Psixologiya departamentinin koordinatoru | Mkerimova@khazar.org |
| 26. | Lyudmila Sotova Vyaçeslavovna | Keyfiyyətin Təminatı Mərkəzinin direktoru | lsotova@khazar.org |
| 27. | Lamiyə Xəlilova Bayram qızı | Qəbul və Tələbə şöbəsinin müdiri | lnamazova@khazar.org |
| 28. | İqtisad elmləri üzrə fəlsəfə doktoru Tatyana Zaytseva Nikolayevna | Kitabxana İnformasiya Mərkəzinin direktoru | tzaytseva@khazar.org |
| 29. | Şahin İsayev Abdulla oğlu | Təmir və tikinti işləri üzrə menecer | shisayev@khazar.org |
| 30. | Ləman Vurğun | Baş mühasib | lvurgun@khazar.org |
| 31. | Aybəniz Namazova Süleyman qızı | Kadrlar şöbəsinin assistenti | anamazova@khazar.org |
| 32. | Səbinə Allahverənova Mübariz qızı | Peşə Mərkəzinin meneceri | sallahveranova@khazar.org |

Təşkilat komissiyasının fəaliyyət qrafiki

| № | Komissiyanın üzvü | Fəaliyyət |
|---|---|---|
| 1. | İradə Xəlilova | Ümumi rəhbərlik |
| 2. | Məhəmməd Nuriyev | Ümumi rəhbərlik |
| 3. | İsaxan İsaxanlı | Ümumi rəhbərlik |
| 4. | Vlad Alex Vernyqora | Beynəlmiləlləşmə istiqaməti üzrə hesabatın yazılması |
| 5. | Fəxrəndə Əfəndiyeva | Təlim və tədris istiqaməti üzrə hesabatın yazılması |
| 6. | Ceyhun Məmmədov | Hesabat üzrə tələb olunan məlumatların hazırlanması |
| 7. | Elza Səmədova | Təlim və tədris istiqaməti üzrə hesabatın yazılması |

| | | |
|---|---|---|
| 8. | Səidə Şərifova | Elmi-tədqiqat istiqaməti üzrə hesabatın yazılması |
| 9. | İnqilab Əhmədov | İdarəetmə sistemi istiqaməti üzrə hesabatın yazılması |
| 10. | Elşən Abdullayev | Hesabat üzrə tələb olunan məlumatların hazırlanması |
| 11. | Fəridə Tatardar | Hesabat üzrə tələb olunan məlumatların hazırlanması |
| 12. | Əli Hüseynli | Hesabat üzrə tələb olunan məlumatların hazırlanması |
| 13. | Rasim Bayramlı | Hesabat üzrə tələb olunan məlumatların hazırlanması |
| 14. | Rövşən Abbasov | Hesabat üzrə tələb olunan məlumatların hazırlanması |
| 15. | Telman Quliyev | Hesabat üzrə tələb olunan məlumatların hazırlanması |
| 16. | Javad Mehri | Hesabat üzrə tələb olunan məlumatların hazırlanması |
| 17. | Rasoul Moradi | Hesabat üzrə tələb olunan məlumatların hazırlanması |
| 18. | Mehdi Kiyasatfar | Hesabat üzrə tələb olunan məlumatların hazırlanması |
| 19. | Dilbər Zeynalova | Hesabat üzrə tələb olunan məlumatların hazırlanması |
| 20. | Milana Abbasova | Hesabat üzrə tələb olunan məlumatların hazırlanması |
| 21. | Cabir Xəlilov | Hesabat üzrə tələb olunan məlumatların hazırlanması |
| 22. | Şəhla Abbasova | Hesabat üzrə tələb olunan məlumatların hazırlanması |
| 23. | Zülfiyyə Sadıqova | Hesabat üzrə tələb olunan məlumatların hazırlanması |
| 24. | Mələk Kərimova | Hesabat üzrə tələb olunan məlumatların hazırlanması |
| 25. | Lyudmila Sotova | Keyfiyyət təminatı istiqaməti üzrə hesabatın yazılması |
| 26. | Lamiyə Xəlilova | Təhsilalan qəbulu, bərpa və xaric olunma dair məlumatların hazırlanması |
| 27. | Tatyana Zaytseva | Təlim və tədris istiqaməti üzrə hesabatın yazılması |
| 28. | Şahin İsayev | Hesabat üzrə tələb olunan məlumatların hazırlanması |
| 29. | Ləman Vurğun | Maliyyə təminatına dair məlumatların hazırlanması |

| | | |
|---|---|---|
| 30. | Aybəniz Namazova | Fakültə və departamentlərə dair məlumatların hazırlanması |
| 31. | Səbinə Allahverənova | Karyera xidməti və məzunlara dair məlumatların hazırlanması |

## 3. Təhsil müəssisəsinin öncəki akkreditasiya qiymətləndirilməsi zamanı verilmiş tövsiyələrin icra vəziyyəti

Xəzər Universitetində son institusional akkreditasiya 2016/2017-ci tədris ilinin yaz semestrində keçirilmişdir. Azərbaycan Respublikası Təhsil Nazirliyinin Akkreditasiya və Nostrifikasiya İdarəsi tərəfindən Xəzər Universitetinin 2016/17-ci tədris ilində keçirilən akkreditasiyası üzrə yaradılmış komissiyanın 2017-ci ildə hazırlanan yekun arayışının 88-ci səhifəsində qeyd olunan tövsiyələrin həyata keçirilməsinə dair tədbirlər planı hazırlanmışdır. Tədbirlər planı Xəzər Universitetinin rektoru tərəfindən 27 noyabr 2020-ci il tarixində TKTA-ya təqdim edilmişdir.

Tədbirlər planı tədbirin adı, əsas icraçı, digər icraçılar, nəticə indikatoru, icra müddəti və tədbirlərin icrasından ibarət olmuşdur. Tədbirlər planı əsasında görülmüş işlər haqqında tədris ilinin sonunda hesabat hazırlanmışdır. Planda icrası nəzərdə tutulan 25 tədbir qeyd olunmuşdur. Onlardan 20 tədbir tam, 4 tədbir qismən icra edilmiş, 1 tədbir isə icra olunmamışdır. Akademik departamentlərin fəaliyyətinin sərgilənməsi tədbiri Covid-19 pandemiyası ilə bağlı olaraq kütləvi yığıncaq, nümayiş və tədbirlərin keçirilməsində məhdudiyyətlərlə əlaqədar həyata keçirilməmişdir.

**Qeyd:** Təhsil müəssisəsinin əvvəlki akkreditasiya qiymətləndirilməsi nəticələrinə dair ümumi məlumat və Yekun Hesabatda Komissiyanın verdiyi tövsiyələrin ümumi icrasına və çatışmazlıqların aradan qaldırılması vəziyyətinə dair mövcud vəziyyət əks olunur.

# II. Təhsil müəssisəsinin özünütəhlili

## 4. Özünütəhlil qiymətləndirməsinin icmalı

Xəzər Universiteti Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (bundan sonra – Agentlik) F-181 nömrəli 2022-ci il 14 noyabr tarixli əmri ilə təsdiqlənmiş metodologiyaya əsaslanaraq qiymətləndirilmişdir. Özünütəhlilin məqsədi təhsil müəssisələrinin davamlı olaraq təkmilləşdirilməsini, daxili keyfiyyət təminatının qiymətləndirilməsini təmin etmək və ictimaiyyəti təhsilin keyfiyyəti barədə məlumatlandırmaqdır. Xəzər Universitetinin özünütəhlili Elmi Şurasının 2023-cü il 29 mart tarixli iclasının qərarı ilə təsdiqlənmiş Təşkilat Komissiyası tərəfindən aparılmışdır. Təşkilat Komissiyasının istiqamətlər üzrə yekun qiymətləndirmə nəticələri aşağıdakı kimidir[1]:

**1. STRATEJİ İNKİŞAF**

*1.1. Ali təhsil müəssisəsinin missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri*

| |
|---|
| Xəzər Universitetinin missiyası ali təhsilin hər üç səviyyəsində tələbə mərkəzli keyfiyyətli təhsil verən, tədqiqat yönümlü, öz fəaliyyətini davamlı inkişaf etdirən, Azərbaycana və bütövlükdə regiona xidmət edən universitet olmaqdır.<br>Xəzər Universitetinin 2018-2023-cü illəri əhatə edən Strateji Planı aşağıdakı 7 istiqamətdən ibarətdir:<br>1. Aparıcı tədqiqat yönümlü Universitetə çevrilmək;<br>2. Təlim tədris prosesinin davamlı inkişafını təmin etmək;<br>3. Universitetin davamlı inkişafını təmin etmək üçün professor-müəllim və işçi heyətinin peşəkar inkişafına dəstək vermək;<br>4. Universitetin beynəlmiləlləşmə siyasətini gücləndirilmək;<br>5. Tələbə-müəllim, eləcə də işçi heyətinin keyfiyyətli iş aparması üçün maddi-texniki bazanı gücləndirərək universiteti rahat, cəlbedici təhsil məkanına çevirmək;<br>6. Tələbəmərkəzli öyrənmə mühitini daimi təkmilləşdirməklə tələbələrin daha yaxşı nəticə əldə etməsinə nail olmaq;<br>7. Universitet-sənaye münasibətlərini universitetin tədqiqat, innovasiya və sahibkarlıq imkanlarının inkişafı istiqamətində təkmilləşdirmək. |

[1] Uyğun istiqamət və meyarlar üzrə qısa icmal müvafiq indikatorların təhlili əsasında aparılmalıdır. Belə ki, hər bir icmal təsdiqedici sənədlər, qoşma və ya keçidlərdən (link) istifadə edilməklə, eləcə də informasiyanın ümumiləşdirilməsi məqsədilə təqdim edilmiş şablon formalar doldurulmaqla müfəssəl hala gətirilməlidir.

2018-2023-cü illər üçün Strateji İnkişaf Planının (SİP) hazırlanması ilə əlaqədar 10 oktyabr 2017-ci ildə keçirilmiş 1 saylı iclasda strateji inkişaf planının cari vəziyyəti müzakirə olunmuş, növbəti beş illik Strateji İnkişaf Planın hazırlanması üçün komissiya yaradılmış və əmrləşdirilmişdir. Komissiya 2018-ci ilin mart ayına qədər plan üzərində işləmiş və 12 mart 2018-ci il 2 saylı iclasda plan müzakirə olunmuş, komissiyanın üzvlərinin və sənayedən dəvət olunan mütəxəssislərin fikirləri dinlənilmişdir. Plan təkmilləşdirildikdən sonra Elmi Şuranın 13 aprel 2018-ci il tarixli iclasında təsdiqlənmişdir.

SİP-in hazırlanması zamanı "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı və "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının həyata keçirilməsi ilə bağlı fəaliyyət planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2015-ci il № 995-li Sərəncamı və təlimatları əsas götürülmüşdür.

https://e-qanun.az/framework/29145
https://president.az/az/articles/view/9779

Universitetin hədəfi, milli və beynəlxalq səviyyədə bütün tərəfdaşlarla çoxşaxəli əməkdaşlıq quraraq təhsil və tədqiqat sahəsindəki nüfuzu ilə tanınan dünya səviyyəli təhsil müəssisəsinə çevrilməkdir. Universitetin missiyası onun fəaliyyətinin hədəflərinə uyğunluq təşkil edir.

Xəzər Universiteti Azərbaycanda sənaye və iş dünyası ilə, aparıcı yerli və beynəlxalq şirkətlərlə geniş əlaqəsi olan ali təhsil müəssisələrdən biridir. Professor-müəllim heyətinin böyük əksəriyyəti müxtəlif proqramlar, qrantlar üzrə dünyanın müxtəlif ali təhsil müəssisələrdə təcrübə keçmiş, öz sahələrində söz və nüfuz sahibi olan ingilisdilli mütəxəssislərdir. Xəzər Universiteti tədris proqramlarının və dərslərin hazırlanıb təqdim edilməsində, elmi tədqiqat istiqamətlərinin müəyyən edilməsində UNDP-nin dayanıqlı inkişaf məqsədlərini daima əsas götürmüşdür.

Peşəkar professor-müəllim heyətinə malik fakültələr əmək bazarının tələblərinə cavab verən, cəmiyyətin dayanıqlı inkişafına töhfə verən, milli və beynəlxalq mühitdə uğurla çıxış edən mütəxəssislər hazırlamaqdadır (Strateji hədəf 2.1 – Tələbələrin nəzəri biliklərini zənginləşdirmək, gələcək uğurlu karyerasını qurması üçün 21-ci əsr bacarıqlarını inkişaf etdirmək).

Bu xüsusda, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyatı üzrə Strateji Yol Xəritəsi"ndən faydalanılmış, Avropa Birliyinin "EU Business Climate Report"larında əks olunmuş

Azərbaycanda fəaliyyət göstərən Avropa Birliyi ölkələrinin şirkətləri arasında keçirilmiş sorğunun Azərbaycan universitetlərindən məzun olanların əmək bazarının tələblərinə uyğunluğu ilə əlaqədar göstəriciləri təhlil edilmişdir.

SİP-nin hazırlanmasında ölkə iqtisadiyyatının dayanıqlı inkişafına daha çox töhfə vermək üçün universitet-sənaye əlaqələrinin genişləndirilməsi, innovasiya və sahibkarlıq imkanlarının inkişaf etdirilməsi nəzərdə tutulmuşdur.
https://euneighbourseast.eu/news/publications/eu-business-climate-report-azerbaijan-2021/

Universitetin fəaliyyətinin prioritet istiqamətləri universitetin məqsəd və hədəflərinə uyğundur. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyatı üzrə Strateji Yol Xəritəsi"ndə nəzərdə tutulmuş insan kapitalının inkişaf etdirilməsi (7.3. Strateji hədəf 3), təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi (7.3.1. Prioritet 3.1) hədəflərinə uyğunluq təmin edilmişdir (ümumi təhsilin keyfiyyətinin yüksəldilməsi və təmayülləşməsinin inkişaf etdirilməsi, təhsil-tədqiqat-innovasiya formatında inkişafın təşviqi, innovativ təlim metodları və texnologiyaları vasitəsilə təhsilin keyfiyyətinin yüksəldilməsi, insan kapitalının inkişafında iştirak edən fiziki və texnoloji infrastrukturun təkmilləşdirilməsi)

7 strateji istiqamət üzrə cəmi 18 hədəf və 62 alt hədəf müəyyən olunmuşdur:

1-ci strateji istiqamət 5 hədəf, 20 alt hədəf;
2-ci strateji istiqamət 2 hədəf, 7 alt hədəf;
3-cü strateji istiqamət 2 hədəf, 7 alt hədəf;
4-cü istiqamət 4 hədəf, 9 alt hədəf;
5-ci strateji istiqamət 1 hədəf, 4 alt hədəf;
6-cı strateji istiqamət 2 hədəf, 8 alt hədəf;
7-ci strateji istiqamət 2 hədəf, 7 alt hədəf

SİP-də müəyyən edilmiş əsas strateji məqsəd və hədəflər üzrə görüləcək tədbirlər illik fəaliyyət planlarında əks olunmuşdur.

2018-2023-cü illər SİP-nin hədəfləri əsasında hər tədris ili üçün hazırlanan fəaliyyət planının hədəfləri üzrə ölçülə bilən kəmiyyət və keyfiyyət göstəriciləri və icrasının qiymətləndirilməsi meyarları müəyyən edilmişdir. 1.1.6 və 1.1.7 maddələri üzrə "Dövlət proqramlarının tərtibi, icrası,

monitorinqi və qiymətləndirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 6 mart tarixli 1294 nömrəli Fərmanının müddəaları əsasında SİP-nin icrasının qiymətləndirilmə mexanizmi təkmilləşdirilmişdir.

https://e-qanun.az/framework/47063

SİP-də nəzərdə tutulmuş fəaliyyətlərin icrası üçün tələb olunan resurslar təmin edilmişdir.

Strateji hədəf 1.1 – Elmi tədqiqat işlərinin nəticələrinin artırılması üçün insan potensialının gücləndirilməsini təmin etmək; 1.3.3 – Departamentlərin inkişaf planına, fərdi tədqiqatçıların inkişaf ehtiyacına uyğun olaraq onları maliyyə resursları ilə dəstəkləmək və bu resursların ayrılması üçün şəffaf və ədalətli mexanizmlərin hazırlamasını təmin etmək.

Strateji hədəf 5.1 – Universitetin infrastrukturunun inkişafını əlçatanlıq, rahatlıq və innovativlik prinsiplərinə və standartlarına uyğun davam etdirmək (5.1.2 Mövcud korpuslarda maddi-texniki bazanı inkişaf etdirmək; 5.1.3 Prioritet sahələri müəyyən edib müasir avadanlıqlarla təchiz olunan laboratoriyalar yaratmaq)

**İnsan resursları**

| Tədris ili | Akademik heyət | Tələbə sayı | Tələbə sayının akademik heyətin sayına nisbəti |
|---|---|---|---|
| 2017-2018 | 211 | 2048 | 10 |
| 2018-2019 | 210 | 2235 | 11 |
| 2019-2020 | 229 | 2610 | 11 |
| 2020-2021 | 232 | 2985 | 13 |
| 2021-2022 | 294 | 3421 | 12 |

Xəzər Universitetinin kadr siyasətinin təkmilləşdirilməsi ve peşəkar kadr seçimi məqsədi ilə 11.03.2020-ci ildə U/267 saylı ƏMR ilə işə qəbul üzrə komissiya yaradılmışdır. Komissiya işə qəbul ilə əlaqədar sənədlər ilə tanış olur, namizəd ilə müsahibə keçirir, tələb və meyarlara uyğunluğu barədə rəy və təklifləri rektora təqdim edir.

**Maliyyə resursları**

SİP-in hədəflərinin həyata keçirilməsi üçün tələb olunan maliyyə resurslarının təminatı məsələləri SİP-də öz əksini tapmışdır. Büdcədən çıxarış 1.1.9-da verilmişdir.

**İnfrastruktur**

Tədris resursları və maddi-texniki baza - Xəzər Universitetinin ümumi sahəsi 27670 kv.m-dir. Tədris prosesi üç binada - Neftçilər korpusu, Bəşir Səfəroğlu (Nizami) korpusu və Dünya məktəbində təşkil olunur. Universitetin infrastrukturu, maddi-texniki bazası, zəruri müasir texniki və əyani vəsaitlər ilə təchiz olunmuş auditoriyaları və laboratoriyaları dövlət standartlarına uyğunluq təşkil edir və tədrisin yüksək keyfiyyətdə aparılmasına zəmin yaradır. İnzibati və akademik heyətin fəaliyyətini təmin edən normativlərə uyğun otaqlar mövcuddur.

Xəzər Universitetinin maddi-texniki bazası üzrə statistik hesabatın hazırlanması zamanı Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin "Ümumi təhsil müəssisələrinin maddi-texniki bazası haqqında" 1-maddi baza №-li illik rəsmi statistika hesabatı və onun doldurulmasına dair göstəriş haqqında 21 yanvar 2015-ci il № 8/09-li qərarı və təlimatları əsas götürülmüşdür.

https://e-qanun.az/framework/29291

Kitabxana infrastrukturu - Kitabxana İnformasiya Mərkəzi tələbələrə və universitetin professor-müəllim heyətinə tədris, öyrənmə və tədqiqat üçün dəstəyi təmin edir. Kitabxananın elektron və ənənəvi resurslarının və istifadəçilərinin sayında artım dinamikası aşağıdakı cədvəldə verilmişdir.

| | 2017/2018 | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 |
|---|---|---|---|---|---|---|
| Elektron və çap resursları | 129432 | 135047 | 142265 | 159054 | 171711 | 184309 |
| Ümumi istifadəçilər (Tələbə, akademik və inzibati heyət) | 1332 | 1386 | 1405 | 1410 | 1689 | 2748 q |

Universitetin informasiya resurslarının toplanması və yayılması vasitəsi kimi elektron kitabxanada 89 mindən artıq biblioqrafik qeyd mövcuddur. Buraya məlumat bazaları (18 xarici abunə bazası və 3 şəxsi məlumat bazası), xarici daşıyıcılardakı sənədlər (ensiklopediyalar, lüğətlər, məlumat kitabçaları, dərsliklər), soraq-axtarış aparatı, biblioqrafik məhsullar (Xəzər Universiteti nəşrlərinin biblioqrafik göstəricisi) daxildir.

SİP-in maliyyə təminatının büdcə planlaşdırması aşağıdakı cədvəldə verilmişdir:

| **Maliyyə təminatı** | **2018** | **2019** | **2020** | **2021** | **2022** |
|---|---|---|---|---|---|
| Əmək haqqı üçün ayrılan vəsaitin ümümi büdcədə payı, faizlə | 38.54 | 45.67 | 52.10 | 55.17 | 54.7 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Elmi-tədqiqat fəaliyyəti üçün ayrılan vəsait, manatla | 244,061.80 | 353,510.79 | 302,863.13 | 352,131.35 | 488,341.32 |
| Dərsliklər, elmi ədəbiyyatlar və elmi bazalardan istifadə üçün ayrılan vəsait, manatla | 87,203.47 | 67,669.37 | 33,027.10 | 30,979.71 | 72,051.77 |
| Tədrisin elektronlaşdırılması (LMS sisteminin tətbiqi və distant tədrisin texniki bazasının qurulması) üçün ayrılan vəsait, manatla | 162,034.37 | 129,532.01 | 43,206.42 | 131,434.92 | 181,374.29 |
| Kitabxana resurslarının yenilənməsi üçün (və ya elektron kitabxananın tətbiqi üçün) ayrılan vəsait, manatla | 168,338.73 | 164,396.08 | 99,907.07 | 117,732.14 | 173,066.18 |
| Beynəlmiləşmə siyasətinin icrası üçün ayrılan vəsait, manatla | 289,970.63 | 339,475.43 | 285,450.60 | 383,426.14 | 487,753.16 |

Sosial məsuliyyət, biliklərin idarə edilməsi, sənaye ilə münasibətlərin gücləndirilməsi SİP-in tərkib hissələrindəndir.

Strateji hədəf 1.5 – Tədqiqatlar zamanı yaranmış biliyin idarə edilməsini gücləndimək

- Tədqiqatdan yaranan biliyin, nəticənin qeydiyyatı və idarə edilməsi;
- Yaranmış yeni biliklərin universitetin ümumi sistemində qeydiyyatdan səliqəli və vaxtında keçirilməsi;
- Tədqiqat nəticələrinin kommersiyalaşdırılması üçün dəstək verilməsi.

Strateji hədəf 6.1.5 - Tələbələrin sosial aktivliyini və məsuliyyətini artırmaq üçün müxtəlif sosial tədbirlər həyata keçirərək onların könüllü sosial fəaliyyətə cəlb edilməsi

Strateji hədəf 7 – Universitet-sənaye münasibətlərini universitetin tədqiqat innovasiya və sahibkarlıq imkanlarının inkişafı istiqamətində təkmilləşdirilməsi

Ayrı-ayrı dövrlər üçün hazırlanan planların əvvəlki dövrlərin planları ilə uzlaşmasına xüsusi diqqət yetirilir. Xəzər Universitetinin Elmi Şurasının 28 sentyabr 2017-ci il tarixli iclasında universitetin akkreditasiyası üzrə yaradılmış komissiyanın yekun arayışı müzakirə olunmuş, nəticə və təkliflər əsasında 2018-2023-cü illər üçün Strateji İnkişaf Planı hazırlanmışdır. Eyni zamanda, cari il üçün fəaliyyət planı hazırlanan zaman əvvəlki ilin fəaliyyət planının icra vəziyyəti nəzərə alınmışdır.

SİP-in hazırlanması zamanı Xəzər Universitetinin Elmi Şurasının 28 sentyabr 2017-ci il tarixli iclasında akkreditasiya üzrə yaradılmış komissiyanın yekun rəyi, universitetin güclü və zəif tərəfləri, imkanlar və gözlənilən təhdidlər (risklər) nəzərdən keçirilmiş və sonrakı dövrdə dəqiqləşdirilmişdir.

SİP-in hazırlanmasında sənayenin nümayəndələrinin iştirakı təmin edilmişdir: Azərbaycan Respublikası Mərkəzi Bankı, Deloitte, KPMC, Ernst & Young Global Limited və s.

Eyni zamanda, Xəzər Universitetinin iştirak etdiyi yerli və beynəlxalq layihələr çərçivəsində universitetin inkişaf mexanizminin müzakirəsində iştirak edən mütəxəssislərin faydalı fikirləri, tədris proqramlarının əmək bazarının tələblərinə uyğunlaşdırılması üçün Karyera mərkəzinin dəstəyi ilə aparıcı şirkətlərin rəyləri, biznesdə, sənayedə və digər sahələrdə işləyən və həmçinin, Xəzər Universitetində xidməti müqavilə ilə müəllim vəzifəsində çalışan mütəxəssislərin rəyləri və tələbələr arasında keçirilən sorğunun nəticələri nəzərə alınmışdır.

SİP-in icrası üçün bütün hədəflər üzrə struktur bölmələri müəyyən edilib, müvafiq iş bölgüsü aparılmışdır. SİP üzrə tədbirlərin icrasına məsul struktur bölmələr hər tədris ilinin fəaliyyət planında öz əksini tapmışdır:

Tədris işləri üzrə Prorektorluq, Elmi işlər üzrə Prorektorluq, İdarəetmə və tələbə işləri üzrə Prorektorluq, İnkişaf Departamenti, Keyfiyyətin Təminatı Mərkəzi, Fakültələr, Yüksək Təhsil Fakültələri, Departamentlər, Tədqiqat mərkəzləri, Tədqiqatlara dəstək mərkəzi, Kitabxana informasiya mərkəzi, Maliyyə şöbəsi, Karyera mərkəzi, Kadrlar şöbəsi, İnformasiya texnologiyaları şöbəsi, Beynəlxalq əlaqələr ofisi və s.

https://khazar.org/en/item/53
https://khazar.org/az/item/16
https://khazar.org/az/item/19
https://khazar.org/az/item/18
https://khazar.org/az/item/870
https://khazar.org/az/item/886
https://khazar.org/az/item/887
https://khazar.org/az/item/1245

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

### *1.2. Strateji inkişaf proqramının icrası və monitorinqi*

Universitetin strateji və fəaliyyət planlarında müəyyən edilmiş məqsədlər və hədəflər əsasında universitetin struktur bölmələri tərəfindən hazırladıqları illik hesabatları hər tədris ilinin iyun ayında təqdim olunur. İllik hesabatlar bölmələrin aidiyyatı üzrə təşkilati, tədris, tədqiqat, beynəlxalq və digər fəaliyyətlərini, nailiyyətlərini və qarşıda duran problemləri əks etdirir. Hesabat forması Elm və Təhsil Nazirliyinin göstəricilərini və beynəlxalq təcrübələri nəzərə alır. Hesabat kəmiyyət göstəricilərini özündə ehtiva edir.

Universitetin struktur bölmələrinin illik hesabatları monitorinq strategiyası əsasında rektorluq tərəfindən qiymətləndirildikdən sonra iyun ayının sonu (iyul ayının əvvəlində) bölmə rəhbərlərinin iştirakı ilə müzakirə edilir, fəaliyyətin təkmilləşdirilməsinə dair təkliflər irəli sürülür.

SİP-nin icrasının monitorinqi üzrə il ərzində struktur bölmələri ilə mütəmadi olaraq görüşlər keçirilir, SİP-in icrasının gedişatı təhlil edilir və ehtiyac hiss olunan məsələlərdə dəstək verilir.

Rektorluq həmin tədris ilində struktur bölmələrinin təqdim etdiyi özünütəhlil hesabatları əsasında hazırladığı monitorinq hesabatını iyul ayının birinci həftəsi müzakirə edir, fəaliyyət planının hədəflərinin yerinə yetirilmə səviyyəsini təhlil edir, növbəti tədris ilinin fəaliyyət planının təkmilləşdirilməsi üçün təkliflər irəli sürür.

SİP-in icrasının illik monitorinqinin nəticələrinə əsasən növbəti tədris ili üçün fəaliyyət planı təkmilləşdirilir, təsdiqlənir və universitetin fəaliyyət planına, hədəflərinə və əvvəlki tədris ilinin özünütəhlil hesabatlarının nəticələrinə əsasən aidiyyatı üzrə öz fəaliyyət planlarının hazırlanması üçün struktur bölmələrinə təqdim edilir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

## 2. KEYFİYYƏT TƏMİNATI

### *2.1. Keyfiyyət təminatı siyasəti*

Təsis olunduğu gündən etibarən Xəzər Universitetinin əsas hədəfi keyfiyyətli təhsil verən ali təhsil müəssisəsi olmaqdır.
2018-2023-cü illəri əhatə edən və strateji idarəetmənin bir hissəsini təşkil edən Keyfiyyət təminatı siyasəti sənədi 2019-cu ildə rektor tərəfindən təsdiq olunmuşdur.
Xəzər universitetinin keyfiyyət təminatı siyasəti onun missiyasını - ali təhsilin hər üç səviyyəsində tələbəmərkəzli keyfiyyətli təhsil verən, tədqiqat yönümlü, öz fəaliyyətini daim inkişaf etdirən ali təhsildə lider olmağı həyata keçirməyə xidmət edir.
Keyfiyyət təminatı siyasətinin hazırlanması bir neçə mərhələdən ibarət idi. İlk olaraq, rektorun əmri ilə Keyfiyyət Təminatı Siyasəti sənədinin hazırlanması məqsədilə işçi qrupu yaradılmışdır. İşçi qrupuna Universitetin akademik və inzibati heyəti, bir nəfər məzun, bir nəfər cari tələbə olmaqla 8 nəfər cəlb olunmuşdur. İşçi qrupu siyasəti hazırlayanda Azərbaycan Respublikasının Təhsil haqqında qanunundan, Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyasının

prinsiplərindən, Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyasından, o cümlədən Avropa Ali Təhsil Məkanında Keyfiyyətin Təminatı üzrə Avropa Standartları və Təlimatlarından (ESG) və digər sənəd və qanunvericilik aktlarından istifadə etmişdir. İşçi qrupunun siyasət sənədinin müzakirəsi üçün 2 dəfə görüş keçirilmişdir. Sənəd hazırlandıqdan sonra Elmi Şuranın 8 may 2019-cu il tarixli iclasında müzakirədən sonra rektorun əmri ilə təsdiq edilmişdir.

Keyfiyyət təminatı siyasətinin universitetin strateji planına uyğun olaraq vaxtaşırı yenilənməsi nəzərdə tutulur.

Xəzər Universitetinin Keyfiyyət təminatı siyasəti sənədi bütün maraqlı tərəflər (tələbələr, işəgötürənlər, məzunlar, akademik və inzibati heyəti) üçün anlaşılan, gərəkli məlumatları özündə əks etdirən və icrasına tam şərait yaradan şəkildə tərtib olunmuşdur.

Keyfiyyət təminatı siyasəti sənədi təsdiq olunduqdan sonra universitet əməkdaşlarına və ictimaiyyətə əlçatanlığını təmin etmək üçün Xəzər Universitetinin veb-saytında öz əksini tapır. Eyni zamanda, sənəd struktur bölmələrin məlumat lövhələrində yerləşdirilir. Bununla yanaşı, Xəzər universitetində işə yeni qəbul olunmuş əməkdaşlar fəaliyyətlərinə başlayarkən sənədlə tanış edilir.

Keyfiyyət təminatı siyasəti Xəzər universitetinin strateji planında qeyd olunan hədəflərinə uyğun hazırlanmışdır və bu sənəd idarəetmə, tədris prosesi, professor-müəllim heyəti və tələbələri əhatə edir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

## *2.2. Daxili keyfiyyət təminatı mexanizmləri*

Yarandığı gündən etibarən Xəzər universiteti təhsilin keyfiyyətini hər zaman diqqət mərkəzində saxlayır. Xəzər Universitetində 2000-ci ildə Nottingham Trend Universiteti və Haarlem Universitetinin birgə əməkdaşlığı ilə həyata keçirilən TEMPUS proqramı çərçivəsində Keyfiyyətin təminatı mərkəzi yaradılmış və bununla keyfiyyət təminatı sisteminin təşkilinin təməli qoyulmuşdur. 2008-ci ildə isə TEMPUS proqramının "Azərbaycan universitetlərində təhsildə keyfiyyətin təminatı sistemlərinin yaradılması" layihəsi çərçivəsində Xəzər universitetində Keyfiyyətin təminatı mərkəzinin fəaliyyəti genişlənmişdir. Mərkəzin qurulmasında əsas məqsəd Avropa ali təhsil müəssisələrindəki keyfiyyət təminatı sisteminin öyrənilməsi və Xəzər Universitetində tətbiq edilməsi idi.

Hazırda mərkəz öz fəaliyyətini Keyfiyyət təminatı mərkəzinin əsasnaməsi ilə müəyyən edilmiş fəaliyyət istiqamətləri üzrə həyata keçirir.

Xəzər universiteti ESG standartlarına cavab verən daxili keyfiyyət təminatı sisteminə malikdir. Daxili keyfiyyət təminatı sistemi təhsilin keyfiyyətinin davamlı olaraq yaxşılaşdırılması və daxili keyfiyyət mədəniyyətinin inkişafına töhvə verən təşkilati struktur, daxili qaydalar və əsasnamələr, müəyyən olunmuş proseslər və resurslardan ibarətdir.

Daxili keyfiyyət sisteminin inkişafı davamlı və sistematik bir prosesdir. Beləliklə, universitetin daxili keyfiyyət təminatı sisteminin təkmilləşdirilməsi məqsədilə 2021/22-ci tədris ilində Keyfiyyət Təminatı Komitəsi yaradılmışdır. Komitə Universitetin strateji planı və məqsədlərinə uyğun olaraq keyfiyyət təminatı sisteminin inkişaf etdirilməsi və koordinasiyasını təmin edən kollegial orqandır. Komitənin tərkibi akademik, inzibati heyət və digər maraqlı tərəflərdən ibarətdir.

Komitə Universitetin Elmi Şurasının 8 oktyabr 2021-ci il tarixli iclasında qəbul olunmuş və rektor tərəfindən təsdiq edilmiş əsasnaməyə uyğun olaraq fəaliyyət göstərir. Əsasnamə komitənin iş prinsipləri, fəaliyyət istiqamətləri, iş bölgüsü, və s.-ni müəyyən edir. Komitənin iclasları ildə ən azı iki dəfə həyata keçirilir. Komitənin illik fəaliyyət planı müəyyən olunmuş forma üzrə komitənin ilk iclasında müzakirə olunduqdan sonra rektor tərəfindən təsdiq edilir.

Daxili Keyfiyyət təminatı üzrə komitənin üzvləri rektorun əmri ilə 2 tədris ili müddətinə təyin olunmuşdur. Komitənin tərkibinə prorektorlar, fakültə dekanları, keyfiyyət təminatı mərkəzinin rəhbəri, İnkişaf direktoru, tələbə və məzunlar daxil olunmuşdur. 2021/22-ci tədris ili, eyni zamanda 2022/23-cü tədris ili üzrə komitə üzvləri 14 nəfərdən ibarətdir.

Komitənin Universitetin Strateji Planındakı hədəflərini, Keyfiyyət Təminatı Siyasətini, aparılmış monitorinq nəticələrini, həmçinin, maraqlı tərəflərin rəylərini və fikirlərini əsas tutaraq 2021/2022-ci və 2022/2023-cü illər üzrə hazırlamış fəaliyyət planı mövcuddur.

Keyfiyyət sisteminin əsas məqsədi universitetin missiyasının, strategiyasının, keyfiyyət siyasətinin və fəaliyyət planlarının icrasını dəstəkləməkdir.

Universitetin keyfiyyət idarəedilməsi sistemi prosesə əsaslanan yanaşma üzərində qurulmuş və əsas proseslər təhsil və tədris, tədqiqat, beynəlxalq əlaqələr və cəmiyyətə xidmət kimi müəyyənləşdirilmişdir. Keyfiyyətin idarəedilməsi sistemi Deminq dövrü prinsiplərinin əsasında qurulmuşdur: planlaşdır - icra et - nəzarət et – öyrən (nəticə çıxar) və təkmilləşdir (PİNT).

Xəzər universitetində PİNT dövriyyəsi modeli aşağıdakı kimidir:




Keyfiyyətin təminatı universitet rəhbərliyinin, bütün struktur bölmələrin, əməkdaşların və tələbələrin ümumi məsuliyyətidir.

Universitet rəhbərliyi, akademik və inzibati heyət, tələbələr keyfiyyətə dair məsuliyyəti öz üzərinə götürür və universitetin bütün səviyyələri üzrə keyfiyyət təminatında iştirak edir.

Universitetdə daim inkişaf edən keyfiyyət təminatı sisteminin təşkilati strukturu mövcuddur – universitetin struktur bölmələrinin və səlahiyyətli şəxslərinin vəzifələri dəqiq müəyyən olunmuşdur, onların təkrarlanmasına yol verilmir. Bununla yanaşı, monitorinq mexanizmi işlənib hazırlanmışdır, hər hansı bir fəaliyyət istiqaməti üzrə yaranmış vəziyyət vaxtında obyektiv qiymətləndirilir və onun əsasında tədbirlər həyata keçirilir.

Müvafiq əsasnamələrdə və əməkdaşların vəzifə təlimatlarında fakültələrin, departamentlərin, digər struktur bölmələrin  funksiyaları və vəzifələri haqqında məlumat öz əksini tapmışdır. Rəhbərlərin, akademik və inzibati heyətin vəzifələrinin dəqiq müəyyənləşdirilməsi əməyin səmərəli təşkilinə xidmət edir.

Universitetin əsas və dəstəkləyici prosesləri, hər proses üzrə rəhbər(lər), icra edənlər, proseslərə dair qaydalar haqqında məlumat keyfiyyət təminatı bələdçisinin əlavəsində öz əksini tapmışdır.

Universitetin daxili keyfiyyət təminatı sistemi təhsil, tədqiqat, beynəlxalq əlaqələr və cəmiyyətə xidmət kimi əsas sahələri əhatə etməklə fəaliyyət planına  təhsil proqramları, fakültələr, akademik heyət, inzibati heyət, təhsilalanlarla görüləcək işləri daxil edir.

Daxili keyfiyyət təminatı sistemi bələdçisi hazırlanmış, təsdiq edilmiş və struktur bölmələrin istifadəsinə verilmişdir. Daxili keyfiyyət təminatı bələdçisi keyfiyyət təminatı siyasətini, universitetin daxili keyfiyyət təminatı modelini və sistemini özündə birləşdirir.

Daxili qiymətləndirmə keyfiyyət mədəniyyətinin bir hissəsi olaraq universitetin inkişafına və fəaliyyətinin təkmilləşdirilməsinə imkan yaradır. Daxili qiymətləndirmə aşağıdakıları əhatə edir:

1. Maraqlı tərəflərin arasında sorğuların keçirilməsi;

| Maraqlı tərəf | Sorğu | Sorğu nəticələrindən istifadə edilməsi |
|---|---|---|
| Tələbələr | Tələbələr arasında tədris prosesini qiymətləndirmə sorğusu | Müəllim – fənnin təkmilləşdirilməsi;<br>Departament rəhbərləri – müəllimlərin fəaliyyətinin qiymətləndirilməsi, təhsil proqramının təkmilləşdirilməsi;<br>Universitet rəhbərliyi - müəllimlərin fəaliyyətinin qiymətləndirilməsi məqsədilə |
| | Tələbələr arasında təhsil keyfiyyətindən məmnunluq sorğusu | Departament rəhbərləri: təhsil proqramının təkmilləşdirilməsi<br>Təcrübənin təkmilləşdirilməsi |
| Professor-müəllim | Professor-müəllim heyəti arasında məmnunluq sorğu | Departament rəhbərləri – departament fəaliyyətinin təkmilləşdirilməsi<br>Universitet rəhbərliyi – öz fəaliyyətinin yaxşılaşdırılması |
| Məzunlar | Məzunlar arasında sorğu | Karyera Mərkəzi – əlaqə məlumatlarının yenilənməsi<br>Departament rəhbəri - təhsil proqramının təkmilləşdirilməsi<br>Universitet rəhbərliyi – məzunların işlə təmin olunması vəziyyəti |

2. Keyfiyyətə təsir edən hər hansı bir məsələdən irəli gələn təhlilin aparılması; Məsələn, tələbələrin Xəzər universitetindən digər universitetlərə köçürülməsinin səbəbini araşdırmaq məqsədilə 2018-ci ildə təhlil aparılmış və hesabat hazırlanmışdır. Digər bir misal, universitet 2019/20-ci tədris ilinin yaz semestrində COVİD-19 pandemiyası səbəbindən

MS TEAMS platformasından istifadə edərək onlayn təhsilə keçmişdir və 2020-ci ilin iyun ayında onlayn təhsildə yaranmış çətinliklərlə bağlı təhlillər aparılmışdır.

3. Tədris proqramlarının monitorinqi və qiymətləndirilməsinin aparılması;
4. Universitetin hər bir struktur bölmələrinin fəaliyyətinə dair illik hesabatın tərtib edilməsi və təhlilin nəticələrinə əsasən növbəti il üçün fəaliyyət planının hazırlanması;

   Yuxarıda qeyd olunan təhlil nəticələri əvvəl departament iclasında, fakültə elmi şurasında və daha sonra isə universitet rəhbərliyi qarşısında müzakirə olunmuşdur, 2021-ci ilin sentyabrdan etibarən keçirilən sorğu nəticələri Keyfiyyət təminatı üzrə komitənin iclaslarında müzakirə olunur.

Bu, universitetin Deminq dövrü prinsiplərinə uyğun fəaliyyət göstərdiyini sübut edir və onun davamlı təkmilləşdirmələr aparmağını təmin edir.

Universitetdə ilin sonunda Keyfiyyət təminatı komitəsinin üzvlərindən ibarət işçi qrupu tərəfindən özünütəhlil aparılır və hər ilin sonunda illik özünütəhlil hesabatı hazırlanır. Həmin qrup özünütəhlil hesabatını departament rəhbəri, fakültə dekanları, mərkəz, şöbə rəhbərləri və struktur bölmələr tərəfindən təqdim olunmuş illik hesabatlar əsasında formalaşdırır. Hesabat Keyfiyyət təminatı komitəsinin iclasında müzakirə olunur.

2021/22-ci tədris ili üzrə Özünütəhlil hesabatı 2022-ci ilin iyulun 11-də komitənin iclasında müzakirə olunmuşdur.

Xəzər Universitetində son institusional akkreditasiya 2016/2017-ci tədris ilinin yaz semestrində keçirilmişdir. Azərbaycan Respublikası Təhsil Nazirliyinin Akkreditasiya və Nostrifikasiya İdarəsi tərəfindən Xəzər Universitetinin 2016/17-ci tədris ilində keçirilən akkreditasiyası üzrə yaradılmış komissiyanın 2017-ci ildə hazırlanan yekun arayışının 88-ci səhifəsində qeyd olunan tövsiyələrin həyata keçirilməsinə dair tədbirlər planı hazırlanmışdır. Tədbirlər planı Xəzər Universitetinin rektoru tərəfindən 27 noyabr 2020-ci il tarixində TKTA-ya təqdim olunmuşdur.

Tədbirlər planı tədbirin adı, əsas icraçı, digər icraçılar, nəticə indikatoru, icra müddəti və tədbirlərin icrasından ibarətdir. Tədbirlər planı əsasında görülmüş işlər haqqında tədris ilinin sonunda hesabat hazırlanmışdır. Planda icrası nəzərdə tutulan 25 tədbir qeyd olunmuşdur. Onlardan 20 tədbir tam, 4 tədbir qismən icra edilmiş, 1 tədbir isə icra olunmamışdır. Akademik departamentlərin fəaliyyətinin sərgilənməsi tədbiri Covid-19 pandemiyası ilə bağlı olaraq kütləvi yığıncaq, nümayiş və tədbirlərin keçirilməsində məhdudiyyətlərlə əlaqədar həyata keçirilməmişdir.

Universitetin maraqlı tərəflərinin (tələbə, müəllim, işəgötürən, məzunlar) məmnunluq səviyyəsinin ölçülməsi, onların fikir və tövsiyələrinin dəyərləndirilməsi universitetin inkişafında, idarə olunmasında və keyfiyyətin yüksəldilməsində mühüm rol oynayır.

Sorğu-anketləri ilə yanaşı, fokus qruplarla görüşlər, məzunlarla və işəgötürənlərlə görüşlərin həyata keçirilməsi də aparılır.
Sorğular Keyfiyyət Təminatı Mərkəzi tərəfindən illik fəaliyyət planına uyğun olaraq həyata keçirilir. Son 5 ildə tələbələr, professor-müəllim və inzibati heyət, məzunlar və işəgötürənlər arasında 30 sorğu təşkil olunmuşdur.
Xəzər Universitetində 1993-cü ildən hər semestrin sonunda tədris olunan hər bir fənnin qiymətləndirilməsi məqsədilə anonim “Tələbə sorğusu” keçirilir. Tələbə sorğusu müəllim, ünsiyyət, tələbələri həvəsləndirmə, dərsin təşkili hissələrindən ibarət suallar əsasında aparılır. 2014-cü ilə qədər bu sorğu ənənəvi qaydada, 2014-cü ildən başlayaraq onlayn SIMS sistemi vasitəsilə keçirilir. Bu sorğuda hər bir tələbənin iştirakı tam təmin olunur. Departament rəhbərləri sorğu nəticələrini SIMS vasitəsilə birbaşa izləyirlər. Sorğu nəticələrinə görə, həm professor-müəllim heyətinin fəaliyyətinin dəyərləndirilməsi, həm də tədris prosesinin qiymətləndirilməsi aparılır və nəticələrin təhlili əsasında tövsiyə və qərarlar qəbul olunur. Sorğu nəticələri, həm departament, həm fakültə, həm də keyfiyyət təminatı komitəsi səviyyəsində iclaslarda müzakirə olunur.
2020-ci ilin iyun ayında Universitetdə “Covid-19 pandemiyası dövründə onlayn tədrisin təşkili ilə bağlı” sorğu keçirilmişdir. Sorğuda 233 nəfər respondent iştirak etmişdir. Respondentlərin 59%-i onlayn tədrisin təşkilindən məmnun qalıb, onların 63%-i onlayn dərslərdə müəllimlərlə kommunikasiyanın yüksək olduğunu dəyərləndirib.
2021-cı ilin may ayında tələbələr arasında məmnunluq sorğusu keçirilib. Sorğuda 134 respondent iştirak edib. Respondentlərin 90.5%-i Xəzər Universitetində təhsilin səviyyəsindən razı qaldığını ifadə etmişdir. Sorğuda iştirak edən tələbələrin 56%-i universitetin ixtisas hazırlığını və onlara qazandırdığı peşə kompetensiyalarını “razıyam” şəklində dəyərləndirib. Respondentlərin 60%-dən çoxu universitetin onlara qazandırdığı 10 fərqli kompetensiyalar üzrə razıyam şəklində qiymətləndirmə aparıb.
Tələbələr arasında mütəmadi keçirilən sorğularla yanaşı, birinci kurs tələbələri arasında tələbə dəstək xidməti haqqında (kitabxana, yeməkxana, yataqxana xidmətləri), akademik və inzibati heyət, müəllimlər, məzunlar və işəgötürənlər arasında da sorğular keçirilir. Keçirilmiş sorğuların nəticələri təhlil olunur və nəticələr Keyfiyyət təminatı komitəsinin iclaslarında müzakirə olunur.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

## *2.3. Keyfiyyət təminatı mədəniyyəti*

Keyfiyyət Təminatı Sisteminin həyata keçirilməsində bilavasitə məsul şəxslər iştirak edirlər. Universitet rəhbərliyi strategiyanın, missiyanın, keyfiyyət təminatı siyasətinin hazırlanmasında

birbaşa iştirak edir.  Bununla yanaşı, universitet rəhbərliyi keyfiyyət təminatı sisteminin tətbiqini, eləcə də onun effektivliyinin davamlı olaraq təkmilləşdirilməsi üçün öz üzərinə məsuliyyət götürür. Universitet rəhbərliyinin iştirakı ilə hazırlanmış keyfiyyət təminatı siyasəti haqqında hər bir əməkdaşın məlumatlandırılması təmin edilir.

Rektorun sədrliyi ilə fəaliyyət göstərən Keyfiyyət təminatı komitəsinin gündəliyinə onun inkişafı və təkmilləşdirilməsi ilə bağlı məsələlər, monitorinq nəticələrinin təhlili və özünüqiymətləndirmə nəticələri daxil edilir və müzakirə olunur.

Akademik və inzibati heyətlə rəhbərlik arasında müxtəlif məlumat mübadiləsi aşağıdakı şəkildə həyata keçirilir:

- Universitet Elmi Şurası vasitəsilə;
- Korporativ elektron məktub vasitəsilə əmr və qərarların təqdim edilməsilə;
- Universitetin veb-saytında elan və xəbərlərin yerləşdirilməsi ilə;
- Aylıq bülletenlərlə;
- Müxtəlif səviyyələrdə görüşlərlə.

2022-ci ildə professor-müəllim heyəti arasında keçirilən sorğu nəticəsində kommunikasiyanın əsasən aşağıdakı mənbələrdən- fakültə/departament əməkdaşlarından-22%, universitetin veb-saytından-16%, departament iclaslarından-14%, dekan və prorektor qərarlarından-12% olmaqla həyata keçirildiyi daxili kommunikasiya şəbəkəsinin mövcudluğunu göstərir.

Universitetin və əməkdaşlarının fəaliyyətini təkmilləşdirmək məqsədilə akademik və inzibati heyət arasında əks əlaqə yaradılması istiqaməti üzrə iş aparılır. Əks-əlaqənin təmin edilməsində əsas vasitələr sorğu-anketi, universitet rəhbərliyi ilə görüşlər, fakültə və universitet elmi şurasının iclasları, Keyfiyyət təminatı komitəsinin görüşlərində irəli sürülən təkliflərin müzakirəsidir.

Əks əlaqənin təmin olunmasında əsas nəticələri 2022-ci ildə keçirilən sorğu nəticələrində görmək mümkündür. Belə ki, 2022-ci ildə akademik heyət arasında təşkil olunmuş sorğuda professor-müəllim heyətinin 62%-i rəhbər şəxslərlə əks əlaqənin qurulmasında tamamilə razıyam, 35%-i razıyam şəklində qiymətləndirmişdir. Həmin sorğuda akademik heyətin 76%-i universitetin onların maraqlarını əks etdirən qərarlarını şəffaf və obyektiv olaraq dəyərləndirmişdir. Bundan başqa, 130 nəfərin iştirak etdiyi sorğuda iş mühitində əsas motivasiya mənbəyiniz sualına şəffaflıq, akademik fəaliyyətə dəstək olunması, professor-müəllim heyətinin peşə fəaliyyətində azadlığın mövcud olması, kollektivin səmimi, ünsiyyətcil və bir-birinə dəstək verən şəklində cavablar verilmişdir.

Universitetdə tətbiq olunan əks əlaqə vasitələrindən biri də “açıq qapı” yanaşması ilə dəstəkləyici, yaradıcı, işgüzar mühitin təmin edilməsidir.  Bu zaman hər bir əməkdaş və tələbə universitet rəhbərliyi ilə görüşüb təkliflərini və rəylərini açıq şəkildə bildirə bilir.

Universitetin təhsilin keyfiyyətinə töhfəsini Xəzər Universitetinin təsisçisi professor Hamlet İsaxanlının timsalında daha aydın görmək mümkündür. Onun, "Təhsildə keyfiyyət konsepsiyası və Amerika təcrübəsi" kimi 10-dan çox məqaləsi, bir neçə kitabı nəşr olunmuş, bununla yanaşı, Hamlet İsaxanlı son beş ildə 60-dan çox media nümayəndəliyinə müsahibə vermiş, elmi-praktik konfrans və seminarlarda öz nitqində keyfiyyətli təhsil siyasətinə toxunmuşdur.

Universitetin struktur bölmələrində iş bölgüsünün öncədən aparılması, dəyişiklik və yeniliklər haqqında zamanında məlumat verilməsi, fəaliyyət nəticələrinin paylaşılması ilə koordinasiyanın effektiv təşkili aparılır. Bunun ən bariz nümunəsini, Keyfiyyət Təminatı Mərkəzi və Karyera Mərkəzi tərəfindən sorğuların keçirilməsində aparılan iş bölgüsündə aydın şəkildə görmək olar. Məsələn, məzunlarla və işəgötürənlərlə bağlı aparılan sorğular Karyera Mərkəzinin fəaliyyətinə, akademik, inzibati heyət və tələbələr arasında keçirilən sorğular isə Keyfiyyət Təminatı Mərkəzinin fəaliyyətinə daxil edilmişdir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

## 3.TƏLİM VƏ TƏDRİS

### *3.1. Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması*

Xəzər universitetində tələbə qəbulu üzrə sifarişlərin hazırlanması bütün ixtisaslar üzrə kadr hazırlığı aparmaq üçün təhsil proqramının sonunda məzunun yiyələnməli olduğu ümumi və peşə kompetensiyalarını əldə etməyə imkan verən infrastruktur və kadr potensialı, Azərbaycan Respublikasının "Təhsil Qanunu"nun 6-cı və 10-cu maddələrində öz əksini tapmış təhsil standartları nəzərə alınmaqla həyata keçirilir. Bu məqsədlə hər tədris ilinin oktyabr - noyabr aylarında ixtisas departamentlərinin və fakültələrin fikir və rəyləri nəzərə alınaraq rektorluqda müzakirə olunur və qəbul planı müəyyənləşdirilir.

Tələbə qəbulu sifarişlərinin optimal müəyyənləşdirilməsi universitetdə yaradılmış, əmək bazarının və işəgötürənlərin təmsil olunduğu "Məsləhət Şuraları"yla keçirilən görüşlərdə müzakirələr aparılmaqla, həmçinin, yerli və beynəlxalq əmək bazarının tələblərini müəyyən edən müxtəlif bazar araşdırmaları təhlil edilərək həyata keçirilir. Eləcə də, "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı", "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nda müəyyən edilmiş prioritet ixtisaslar üzrə (informasiya texnologiyaları, mühəndislik, fundamental və tətbiqi elmlər, təhsil və s.) qəbul planı artırılmışdır. Məsələn, "Kompüter elmləri" ixtisası üzrə qəbul planı 2017-ci ildə 15, 2022-ci ildə isə 50 qəbul planı, "Kompüter mühəndisliyi" ixtisası üzrə 2017-ci ildə 35 qəbul planı, 2022-ci ildə 60 qəbul

planı, “Turizm işinin təşkili” üzrə 2020-ci ildə 40 qəbul planı, 2022-ci ildə 50 qəbul planı, İbtidai sinif müəllimliyi (tədris ingilis dilində) 2019-cu ildə 15 qəbul planı, 2022-ci ildə isə 30 qəbul planı nəzərdə tutulmuşdur. Bununla bərabər, qəbul planı artırılan ixtisaslarda demək olar ki, plan yerləri tam olaraq tutulmuşdur. Aşağıdakı qrafiklərdən də göründüyü kimi, Xəzər Universitetində illər üzrə faktiki tələbə qəbulunun dinamikasında, eləcə də dövlət sifarişi ilə qəbulun sayında artım müşahidə olunur. Dövlət sifarişi faktiki olaraq ölkəmizin əmək bazarın tələblərini və dövlətimizin prioritetlərini əks etdirir.












Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilən Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalı üzrə Strateji Yol Xəritəsində qeyd olunan "Mübahisələrin alternativ həlli imkanlarının təkmilləşdirilməsi" prioritet istiqaməti, 2019-cu il 29 martda qəbul olunan Mediasiya haqqında Azərbaycan Respublikasının Qanunu əsasında Xəzər Universitetində 2020-ci ildə cəmiyyətin və əmək bazarının tələblərini ödəmək məqsədilə "Mediasiya üzrə MBA proqramı" yaradılmışdır.

Xəzər Universitetində əmək bazarının ehtiyaclarına uyğun olaraq tələbə qəbulu yerləri üzrə sifarişlərin müəyyənləşdirilməsi üçün universitetdə yaradılmış əmək bazarının və işəgötürənlərin təmsili olunduğu "Məsləhət Şurası" ilə görüşlər keçirilir.
"Məsləhət Şurası"nın fəaliyyəti Xəzər Universiteti "Əsasnamələr və Qaydalar Toplusu"nda yer alan "Məsləhət Şurası haqqında Əsasnamə"nin tələblərinə görə tənzimlənir.
Xəzər Universitetinə qəbul olmuş tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması "Kreditlərin transferi (köçürülməsi)" haqqında əsasnaməyə uyğun olaraq həyata keçirilir.
Kreditlərin transferi (köçürülməsi) haqqında əsasnamə digər ali təhsil müəssisələrindən fənlərin köçürülməsi, Xəzər universiteti daxilində transfer prosesini, mübadilə proqramları zamanı qazanılan kreditlərin qəbulu prosesini özündə ehtiva edir.
Transfer zamanı fənlər köçürülərkən fənnin adı, proqramı (sillabus) və fənnin tədrisi üçün nəzərdə tutulan saatlar müqayisə olunur.
Kreditlərin transfer prosesi 3 qrupda kateqoriyalaşdırılır.

1. Başqa ali təhsil müəssisəsindən Xəzər universitetinə köçürülmə zamanı qazanılan kreditlər;
2. Xəzər Univeristeti daxilində bir ixtisasdan digərinə köçürülmə zamanı qazanılan kreditlər;
3. Mübadilə proqramları ilə qazanılan kreditlər.

Qazanılan kreditlərin Xəzər Universitetində tələbənin SIMS hesabına köçürülməsi üçün rəsmi transkriptin əlavə olunduğu Kredit Transfer forması tərtib olunur. Kredit Transfer formasında köçürülən fənnin kodu, adı, krediti və qiyməti, eləcə də Xəzər universitetində fənnin kodu, adı, krediti, bloku və qiymətinin ekvivalenti qeyd olunur.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

*3.2. Təhsil proqramları*

Xəzər Universitetində ömürboyu təhsil üzrə Milli Kvalifikasiya Çərçivəsinin tələblərinə uyğun olaraq (MKÇ) 6-cı, 7-ci və 8-ci səviyyələr (bakalavriat, magistratura və doktorantura) üzrə mütəxəssis hazırlığı həyata keçirilir.
Xəzər Universitetində ali təhsilin bakalavriat səviyyəsində aşağıda qeyd olunan 36 ixtisas, magistratura səviyyəsində 30 ixtisaslaşma, doktorantura səviyyəsində isə 22 ixtisas üzrə mütəxəssis hazırlığı həyata keçirilir.
Universitetdə tətbiq edilən təhsil proqramları ömürboyu təhsil üzrə MKÇ sənədində nəzərdə tutulan müvafiq səviyyələr üzrə peşə və kvalifikasiya standartlarını reallaşdıracaq şəkildə tərtib olunmuşdur.
Eyni zamanda ixtisas üzrə təhsil proqramları və tədris planları hazırlanarkən, universitetin strategiyasının məqsədləri və hədəfləri əsas götürülərək bu sahədə tanınmış universitetlərin

təcrübəsi öyrənilmiş, ən son yeniliklər, onları doğuran səbəblər müəyyən edilmiş, əmək bazarının və cəmiyyətin tələbləri nəzərə alınmışdır.

Bunun üçün əmək bazarının ehtiyacları araşdırılmış, universitetdə yaradılmış, əmək bazarının və işəgötürənlərin təmsil olunduğu "Məsləhət Şurası" ilə görüşlər keçirilmiş, 2007-2015-ci və 2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyin artırılması üzrə Dövlət Proqramında prioritet qoyulmuş ixtisaslar öyrənilmiş və universitetin strategiyasına uyğunluq gözlənilmişdir.

Tədris planlarının tərtibində, təlim nəticələrinin müəyyənləşdirilməsi, proqram təlim nəticələri ilə uyğunlaşdırma və təlim nəticələrinin reallaşdırılacağı məcburi və seçməli dərslərin təyin olunması standartlara və beynəlxalq təcrübəyə əsaslanılmışdır.

Təhsil proqramlarının tərtibi zamanı nəzərə alınan əsas məqamlardan biri də universitetdə işlək beynəlxalq mübadilə proqramlarının tələblərinə cavab verməsi aspektidir. Belə ki, beynəlxalq əməkdaşlıqlar və mübadilə proqramlarında iştirak etmənin əsas tələblərindən biri olan "kreditlərin tanınması" məsələsi təhsil proqramlarının hazırlanmasında nəzərə alınan vacib amillərdən olmuşdur.

Universitet Azərbaycanda ali təhsilin Avropa ali təhsil məkanının tələblərinə daha da uyğunlaşdırılması məqsədilə həyata keçirilmiş müxtəlif layihələrin, o cümlədən TWINNING (2013-2017) layihələrdə aktiv iştirak etmiş və bu layihələr çərçivəsində təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun mütəmadi olaraq yenilənməsi və təkmilləşdirilməsi zamanı ixtisasların peşə və kvalifikasiya standartlarının və Milli Kvalifikasiya Çərçivə sənədinin tələblərinə uyğunlaşdırmaq istiqamətində paralel addımlar atmışdır. Belə ki, 2015-ci ildən başlayan təhsil proqramlarının təlim nəticələrinin hazırlanmasına dair Suonsi Universitetinin akademik əməkdaşlıq üzrə direktoru, Böyük Britaniya üzrə Bologna mütəxəssisi, Avropa üzrə Ali Təhsil İslahatları mütəxəssisi Huw L. Morris tərəfindən aparılan təlimlərlə peşəkarlıq qazanan Xəzər Universitetinin akademik departament və fakültələrin rəhbərləri, KTM-nin əməkdaşları bu təcrübələrini və təlimlərlə formalaşdırılan ənənələri daxili və beynəlxalq təcrübələrlə davamlı təkmilləşdirərək yeni ixtisaslaşmalara tətbiq ediblər.

Xəzər Universitetində tədris olunan ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğu təmin olunur.

Xəzər Universitetinin təhsil proqramları Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin tələbləri ilə uyğunluq təşkil edir. Belə ki, universitetdə ixtisasından asılı olmayaraq yerli və xarici tələbələrin Azərbaycan dili, ədəbiyyatı, tarixi və mədəniyyətinə bələd olmaları, işgüzar ünsiyyət dili olaraq Azərbaycan dilindən istifadə edə bilmələri, milli-mənəvi dəyərlərə yiyələnmələri universitetin strategiyasından irəli gəlir. Bu baxımdan, bakalavr

pilləsində Azərbaycanşünaslıq modulu, əsasən, 24 kreditdən ibarətdir. Ancaq ixtisaslaşmadan asılı olaraq bu kreditlərin bir qismi ixtisas-peşə fənlərinə ayrılmış kreditlərə də aid ola bilər. Məsələn, Tarix müəllimliyi, Azərbaycan dili və ədəbiyyatı müəllimliyi, filologiyası və s.

Xəzər Universiteti ingilis dilli ilk Azərbaycan universiteti olaraq təsis olunduğu üçün ixtisasından asılı olmayaraq bütün məzunların xarici dildə ünsiyyət bacarıqlarına yiyələnməsi əsas səriştələrdən və strategiyasında müəyyənləşdirilmiş hədəflərdəndir.

Bu hədəfləri və səriştələri əldə etmək üçün universitet tələbi fənlər modulunda ingilis dilinə ayrılmış kredit sayı 30 AKTS-dir. Universitetdə ümumi təhsil müddəti bakalavr pilləsi üzrə 8-10 semestrdən ibarət olduğundan ingilis dilinin öyrədilməsi üçün ayrıca hazırlıq ili nəzərdə tutulmamışdır. Təhsil proqramında, əsasən, birinci ildə tədris olunan azərbaycanşünaslıq və ingilis dili modulları, eyni zamanda, Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə MKÇ-da nəzərdə tutulan ana dilində və xarici dildə ünsiyyətlə bağlı əsas peşə səriştələrinə nail olmağa imkan verir.

Ömürboyu təhsil üzrə MKÇ sənədində nəzərdə tutulan müvafiq səviyyələrin peşə və kvalifikasiya standartlarını reallaşdırmaq üçün təhsil proqramlarındakı məcburi və seçməli fənlər hər il əldə edilən təlim nəticələri əsasında gözdən keçirilərək, tədris planlarındakı lazımi dəyişikliklər ixtisaslaşma üzrə departamentlərdə araşdırılır və gərəkli hallarda əmək bazarı və işəgötürənlərin təmsil olunduğu Məsləhət Şuraları ilə müzakirə edilərək, Elmi Şuralarda dəyişikliklər haqqında qərar qəbul edilir. Məsələn, humanitar və müəllimlik ixtisaslarında peşə etikası və sosial həyati bacarıqların, yeni ideyaların tətbiqi və iş yerində problem həllində komanda olma kimi səriştələrin formalaşması üçün tədris proqramına Təşkilati davranış, Təhsilin idarə edilməsi, Peşə psixologiyası, məsələlərin qanunvericilik çərçivəsində həlli yollarına nail olmaq üçün hüquq sahəsinə dair müxtəlif seçmə fənlərin tədrisi daxil edilmişdir. Eyni zamanda, Creative Spark və UniLab layihələri çərçivəsində, əmək bazarının və iqtisadi inkişafın tələbi olaraq tələbələrdə sahibkarlıq bacarıqlarının formalaşdırılması üçün sahibkarlıq kursunun ixtisas üzrə məcburi, qeyri ixtisaslar üçün isə seçmə fənn kimi daxil edilmişdir.

Universitetin təhsil proqramlarında dərs saatlarının bölgüsü Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTS) prinsiplərinə əsasən uyğunluq təşkil edir. Təhsil proqramlarında dərs saatları AKTS-nin tələblərinə uyğun olaraq 1 kredit = 30 saat prinsipinə əsasən tətbiq edilir.

Qeyd edildiyi kimi universitetin təhsil proqramındakı ümumtəhsil tələbləri (Humanitar elmlər - 12 kredit; Sosial elmlər - 12 kredit; Texnologiya və təbiət elmləri-18 kredit (texniki elmlər və riyaziyyat; həyat elmləri; kompüter elmləri) modulu ali təhsil pilləsinin dövlət standartlarına uyğunlaşdırılmışdır.

Xəzər Universitetindəki bütün ixtisaslar üzrə təhsil proqramlarının tətbiqi zamanı Azərbaycan ali təhsil məkanında tətbiq edilən 2009, 2014 və 2020-ci illərdə qəbul edilən ali təhsil pilləsinin dövlət

standartı və proqramları və Azərbaycan ali təhsil məkanında kredit sisteminin tətbiqinə dair müvafiq qanunvericilik sənədləri ("Ali təhsil pilləsinin dövlət standartı və proqramı", "Bakalavriat təhsilinin məzmunu və təşkili qaydaları", "Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcəsinin verilməsi qaydaları"na və Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili qaydaları) davamlı olaraq izlənilmiş və müvafiq uyğunlaşdırmalar aparılmışdır. Eyni zamanda, Xəzər Universiteti yarandığı dövrdə tətbiq edilən Amerika kredit sistemi Avropa Kredit Transfer Sisteminə inteqrasiya edilmişdir.

Tədris fənləri, ömürboyu təhsil üzrə MKÇ sənədində nəzərdə tutulan müvafiq səviyyələrin peşə və kvalifikasiya standartlarının əsasında təhsil proqramında nəzərdə tutulmuş təlim nəticələrini əks etdirəcək şəkildə tərtib edilmişdir və ümumi fənlər, ixtisas-peşə məcburi fənlər və ixtisas-peşə seçmə fənlər və təcrübə modullarından ibarətdir.

Tədris planlarında hər bir modul və fənlər üzrə kreditlərin həcmi, auditoriya və auditoriyadan kənar saatlar müvafiq qanunvericiliyə uyğun olaraq göstərilmişdir. Tədris planları daha öncə qeyd edildiyi kimi hər bir fəndə 1 kredit=30 saat nisbətində tərtib edilmişdir.

Xəzər Universitetində fənlərin auditoriya saatları əsasən ümumi kreditin\saatın 1\3-ini təşkil etməklə birlikdə ixtisaslaşmadan və fənnin xüsusiyyətindən asılı olaraq (xarici dil, incəsənət, dizayn) bu nisbət 1\2 də ola bilər.

Universitetdə bakalavr təhsili əsasən ingilis dilində və 4 tədris ili müddətində təşkil olunduğu üçün ilk tədris ilində İngilis dili hazırlıq dərslərinin ümumi saatı 240, auditoriya saatı 180-dir.

Həftəlik auditoriya və auditoriyadan kənar saatların miqdarı tələbəyönümlü təhsil yanaşmasına uyğun olaraq tələbələrin o semestr üzrə yazıldığı fənlərin sayından asılı olaraq dəyişir. Universitetin daxili qaydalarına əsasən tədrisə tam cəlb olunan (full-time) tələbənin semestr üzrə yazıldığı fənnin minimum krediti 24 AKTS-dir. Ancaq istisna hallarda tədrisə qismən cəlb olunan (part-time) tələbələrə, öz müraciətləri əsasında 18-20 AKTS götürməyə icazə verilir. Buna görə tələbənin həftəlik auditoriya saatı 16-26 saat olur. Auditoriyadan kənar saatların miqdarı ixtisaslaşmadan asılı olaraq fənn müəllimləri tərəfindən sillabusda nəzərdə tutulan auditoriyadan kənarda yerinə yetiriləcək fəaliyyətlərə görə müəyyənləşdirilir. Beləliklə, həftəlik auditoriya və auditoriyadan kənar saatların miqdarı Xəzər Universitetinin təhsil proqramlarına uyğundur.

Təhsil proqramları və onun icrası nəticəsində əldə olunacaq təlim nəticələri ictimaiyyət üçün əlçatanlığı təmin etmək məqsədilə təhsil proqramları ilə birlikdə Xəzər Universitetinin veb-saytında yerləşdirilir. Təhsil proqramlarının icrası nəticəsində əldə ediləcək təlim nəticələri ixtisasın təlim nəticələri ilə uyğunlaşdırılmış fənnin təlim nəticələri şəklində fənn üzrə sillabuslarda təsvir edilir. Sillabuslar fənn müəllimləri tərəfindən təlim nəticələrinə əsasən tərtib edilir,

departament rəhbərləri tərəfindən təsdiq edildikdən sonra universitetin Keyfiyyətin Təminatı Mərkəzi tərəfindən yoxlanılır və universitetin veb-saytında yerləşdirilir.

Eyni zamanda, pandemiya dövrünə təsadüf edilən semestrlərdən etibarən MS TEAMS platformasında yaradılan sinif otaqlarında fənnin təlim nəticələri digər tədris resursları ilə birlikdə yerləşdirilir.

Daha öncə qeyd edildiyi kimi, universitetdə yaradılmış, əmək bazarının və işəgötürənlərin təmsili olunduğu "Məsləhət Şurası" təhsil proqramlarının hazırlanması, təlim nəticələrinin müəyyənləşdirilməsi görüş və müzakirələrinə cəlb olunmaqdadır.

Məsləhət Şurası əmək bazarında yaranmış peşə bacarıqlarının və kvalifikasiya tələblərinin öyrənilməsi, ehtiyacların müəyyənləşdirilərək, bu ehtiyacların təlim nəticələrində əks olunması istiqamətində töhfə verməklə birlikdə, tədrisdə müasir texnologiya və kommunikasiyaların, kompüter proqramlarının istifadəsini və beynəlxalq sertifikat proqramlarının tələblərinin qarşılanmasını təşviq edir.

Eyni zamanda, universitetdə kənardan tədrisə cəlb olunan müəllimlərin mühüm hissəsi işəgötürənləri təmsil edir. Bu müəllimlər departament iclaslarında və təhsil proqramlarının müzakirəsində iştirak edirlər.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

*3.3. Tədrisin təşkili*

Xəzər Universitetində tədris prosesi quruluşundan etibarən kredit sisteminin tələbləri əsasında təşkil edilir. Tədrisin təşkilində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 24 iyun tarixli 117 nömrəli qərarı ilə təsdiq edilmiş Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları və 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş Ali təhsil müəssisələrində bakalavirat və magistratura səviyyələrində (əsas (baza ali) tibb təhsili) kredit sistemi ilə tədrisin təşkili Qaydalarının tələbləri gözlənilir.

Universitetdə ixtisasın tədris planında göstərilmiş fənlərin tədris ili və semestr üzrə bölgüsünü əks etdirən tədris qrafiki mövcuddur.

Tədris planında məcburi və seçmə fənlərin bölgüsü aparılmışdır. Təhsil planında həm ümumi, həm də ixtisas fənlər blokunda seçmə fənlər möcvuddur.

Tədris planlarında həm ümumi həm də ixtisas-peşə seçmə fənlərinin bölgüsü aparılmışdır. E-tədris sistemində (SIMS) də tələbələr fənn qeydiyatından keçərkən fənlərin məcburi və ya seçmə, ümumi, yoxsa ixtisas qrupuna daxil olduğunu görür və fərdi tədris planını bunun əsasında sərbəst tərtib edir.

Xəzər Universiteti fəaliyyətə başladığından bəri ixtisaslaşma üzrə təhsil proqramlarının strukturu aşağıdakı modullardan ibarət olmuşdur:

1. Universitet tələbi
   1.1. Azərbaycanşünaslıq
   1.2. İngilis dili
2. Ümumtəhsil tələbi (seçməli)
   2.1.1. Humanitar fənlər bloku
   2.1.2. Sosial fənlər bloku
   2.1.3. Elm və texnika bloku
3. İxtisas tələbi
   3.1.İxtisas-peşə məcburi
   3.2. İxtisas-peşə seçməli

Təcrübə

Xəzər Universitetinin təhsil proqramlarında nəzərdə tutulan alt modullar ali təhsil pilləsinin dövlət standartı və proqramlarına uyğunlaşdırılmışdır.

Fənnin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi sillabusların tərtibi zamanı fənn müəllimləri tərəfindən nəzərə alınır. Departament tərəfindən tərtib edilmiş təlim nəticələrinin matrisi, fənnin təsvirinin və təlim nəticələrinin yer aldığı fənn proqramına əsasən fənn sillabusu fənn müəllimi tərəfindən tərtib edilir, departament tərəfindən yoxlanılıb təsdiq edildikdən sonra universitetin Keyfiyyətin Təminatı Mərkəzinə təqdim olunur. Əmək bazarının və işə götürənlərin tələblərinə uyğun tədris planına daxil ediləcək yeni seçməli fənlərin tədrisi zamanı yeni fənnin təlim nəticələri məsləhət şurasının əlaqədar üzvləri ilə müzakirə edilərək təhsil nəticələri matrisinə daxil edilir.

Təlim nəticələrinin əldə edilməsinə nəzarət və qiymətləndirilməsi universitetdə həm departament, həm dekanlıq, həm də KTM tərəfindən həyata keçirilir. Fənn çərçivəsində sillabuslarda nəzərdə tutulan təlim nəticələrinin və bacarıqların formalaşdırılmasına, semestr ərzində nəzərdə tutulan fəaliyyətlərin reallaşdırılması vəziyyəti formativ izlənilmişdir. Aralıq və final imtahanlarının təşkili və keçirilməsi zamanı da imtahan tapşırıqlarının təlim nəticələrini əks etdirməsinə, validliyinin təmin olunmasına xüsusi diqqət yetirilmişdir.

Təlim nəticələrin reallaşması fənlər çərçivəsində formativ qiymətləndirmə üçün təşkil edilən fəaliyyətlər (ixtisaslaşmadan asılı olaraq müxtəlif layihələrin, laboratoriya işlərinin, tədbirlərin, görüşlərin, case study (nümunə hadisələr) metodu, debat və qonaq mühazirəçilərin seminar və praktiki təlimlər) vasitəsilə izlənilir.

Universitetdə tələbələrin semestr üzrə fənlərinin sayı və həftəlik dərs yükünün miqdarı ümumiləşmiş xüsusiyyət daşımır, hər bir tələbədə fərdi yanaşma əsasında müəyyənləşdirilir. Həftəlik dərs saatlarının miqdarı hər bir tələbənin fərdi planı əsasında müəyyənləşdirilir. Əsasən

isə universitetdə tələbələrin semestr üzrə kreditləri minimum 18-20 AKTS ilə maksimum 36-40 AKTS arasında fərdi olaraq dəyişir. Bu da təxminən 3 fənlə 7 fənn arasında dəyişir (sonuncu semestrdə). Tələbələrə sonuncu semestrdə praktika ilə birlikdə maksimum 42 kreditə qədər dərsə yazılmağa icazə verilir.

Xəzər Universitetində tədrisin təşkilində tələbəyönümlülük diqqətə alınaraq semestrlik tədris fənlərinin miqdarı tələbənin sərbəst seçimi əsasında müəyyən edilir. Daha öncə qeyd edildiyi kimi, tələbələr tədrisə tam cəlb olunma (full-time) və ya qismən cəlb olunma (part-time) qərarını qəbul etməkdə sərbəstdirlər. Tədrisə qismən cəlb olunma tələbənin yükü öz ərizəsi, akademik nailiyyəti və akademik məsləhətçinin tövsiyyəsi əsasında müəyyən edilir.

Xəzər Universitetində tədrisin təşkili rəqəmsallaşdırıldığı üçün tələbələr tədris planının illər və yarım illər üzrə bölgüsünü əks etdirən tədris qrafiki əsasında hazırlanmış fərdi planlarını, daha öncəki semestrlərdə oxuduqları fənləri, qazandıqları kreditləri və nailiyyətlərini əks etdirən transkriptlərini, semestrlər üzrə təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, qruplarını, fənn kodlarını, məcburi və ya seçmə olduğunu, ixtisas-peşə və ya ümumi fənlər olduğunu, fənlər üzrə müəllimlərin siyahısını semestrin əvvəlində fənn qeydiyyatı zamanı öz elektron kabinetlərində ayrı-ayrı menyular şəklində görürlər və qeydiyyat müddətində fənnə yazıldıqdan sonra o semestr üzrə fərdi tədris planları elektron olaraq hazırlanır və bütün məlumatlar, dərs cədvəlləri də daxil olmaqla elektron kabinetlərində əks olunur.

İxtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən ixtisaslar (ixtisaslaşmalar) üzrə illik\ semestrlik işçi tədris planları mövcuddur.

İllik işçi tədris planları ixtisas departamentləri tərəfindən ali təhsil standartları və Xəzər Universitetinin tələbləri nəzərə alınaraq hazırlanan tədris planları əsasında e-tədris sistemində avtomatik tərtib edilir.

Müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin, fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planı da rəqəmsallaşdırılmış e-tədris sistemində mövcuddur.

Boloniya prosesinə qoşulmazdan əvvəl də Xəzər universitetində tədris tələbəyönümlülük prinsiplərinə əsaslandığı üçün dərslərdə, müəllimyönümlü mühazirə, seminar kimi birbaşa və təqdimetmə təlim strategiyaları ilə yanaşı, tələbəyönümlü təlim strategiyalarına uyğun korporativ, probleməsaslı, sinif müzakirələri strategiyalarından istifadə edilir.

Xəzər Universitetində tələbələrə göstərilən məsləhət xidmətinin müxtəlif növləri və formaları mövcuddur. Məsləhət xidməti universitetə qəbul olduqdan etibarən başlayır, sadəcə akademik

məsləhətlə məhdudlaşmır. İlk olaraq tələbələr üçün hazırlanmış və əsasən, təlim tədris prosesini əhatə edən "Tələbə yaddaş kitabçası" hər il yenidən, əlavələrlə nəşr edilərək 1-ci kursa qəbul olunan tələbələrə təqdim olunur. "Yaddaş kitabçası" ilə yanaşı "İmtahan qaydaları haqqında əsasnamə" və "Tələbə nizam-intizam qaydaları" da tələbələrə paylanmaqdadır.

Universitetdə tələbələrə akademik məsləhət xidməti dekanlıqlarda və departamentlərdə təşkil edilir. Pandemiya dövründə bu xidmətin əlçatanlığını və operativliyini təmin etmək üçün universitetdə tətbiq edilən e-tədris sistemi (SIMS) təkmilləşdirilərək tələbə kabinetindən birbaşa dekanlığa müraciət modulu yaradıldı. Eyni zamanda, Teams Platformasından istifadə aktivləşdirildi. Akademik məsləhətçilər dekanlıqlarda tələbələrin departmentlərlə razılaşdırılmış fərdi tədris planlarının planlaşdırılmasında, tələbələrin semestr ərzində götürəcəkləri kreditlərin miqdarının müəyyənləşdirilməsində, fənn qeydiyyatı zamanı, dərs cədvəlləri, fənn sillabusları, dərs və dərsdənkənar fəaliyyətlər haqqında məlumatların təmin edilməsində dəstək göstərməkdədir.

Universitetdə məsləhət xidmətinin operativ təşkili üçün bütün tələbə və əməkdaşlar koorporativ emaildən istifadə etməklə yanaşı, SIMS platformasında yaradılmış tələbə kabinetindən dekanlıqda fəaliyyət göstərən akademik məsləhətçisinə müraciət ünvanlaya bilir. Eyni zamanda, 2015-2018-ci illərdə Avropa ittifaqının maliyyələşdirdiyi "Advocacy Establishment for Students through Ombudsman Position (AESOP)" layihəsi çərçivəsində təsis edilmiş "Universitet Ombudsman"ı tələbələrin universitetdəki problemlərinin müzakirəsi və həlli ilə məşğul olur.

Xəzər Universitetində qiymətləndirmə komponenti olaraq sərbəst işlərin təşkili fənn müəllimi tərəfindən sillabuslarda nəzərdə tutulmuş fəaliyyətlər şəklində həyata keçirilir. Bu fəaliyyətlər arasında formativ qiymətləndirmənin müxtəlif üsulları tətbiq edilir. Məsələn, portfolioların hazırlanması, quizlər, qrup işləri, esse, layihələr və s.

Universitetdə sərbəst işlərin daha səmərəli təşkili üçün "Formativ qiymətləndirmə haqqında təlimat" hazırlanmışdır və bu təlimat veb-saytda yerləşdirilmişdir. Eyni zamanda, universitetdə ERASMUS+ proqramının PETRA layihəsi çərçivəsində yaradılmış "Təlim-Tədris Mərkəzi"nin təşkil etdiyi "akademik yazı" seminarları vasitəsilə dəstək göstərilir. Hazırlanmış esseler və layihələr dekanlıqlar tərəfindən plagiarizmin yoxlanılması üçün KTM-nə göndərilir və plagiat yoxlanışı hesabatı ilə birlikdə qiymətləndirilməsi üçün fənn müəllimınə göndərilir.

Universitetin tələbələri hər il tədris planına və tədris qrafikinə uyğun olaraq istehsalat və pedaqoji təcrübələrdə iştirak edirlər.

Universitetdə təcrübə "İstehsalat təcrübəsi haqqında Əsasnamə" nin, ixtisaslar üzrə təcrübə bəndlərinə uyğun olaraq təşkil edilir.

Universitetin tələbələri üçün istehsalat təcrübəsini təşkil etmək məqsədilə aparıcı şirkətlər və müəssisələrlə müqavilə bağlanmışdır. Mühəndislik və tətbiqi elmlər fakültəsinin tələbələri Metal

konstruksiyaların yığılması ilə məşğul olan MQS şirkəti, layihələndirmə şirkəti ENCOTEK, sement istehsal edən NORM, dəmir-beton istehsalı Az INŞAAT, AKKORD, bina tikintisi ilə məşğul olan YENİ Masazır MTK, SİNAM, SOCAR, ENKOTEK və digər şirkətlərdə, Heydər Əliyev adına Bakı Neft Emalı zavodunda, Humanitar və sosial elmlər fakültəsinin tələbələri isə Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzi, Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti, Azərbaycan Respublikası Milli Məclisi, Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondunda və digər qurumlarda istehsalat təcrübəsi keçirlər.

Fakültələrdə ixtisasların profilinə uyğun təcrübənin təşkilinə dair istehsalat və pedaqoji təcrübələrin proqramları, sillabusları, qiymətləndirmə və hesabat formaları mövcuddur və təcrübə bu sənədlər əsasında qiymətləndirilir.

Universitetdəki müəllimlik ixtisasları üzrə pedaqoji təcrübə Xəzər Universiteti nəzdindəki Bakı və Sumqayıt Dünya Məktəbləri ilə bağlanmış müqavilə əsasında bakalavr pilləsinin 4-cü ilində, payız və yaz semestrlərində, hər semestrdə 12 həftə ərzində, 24 (AKTS) kredit həcmində təşkil olunur. Fənlər üzrə müəllimlik ixtisasının sonuncu il tələbələri payız semestrində passiv, yaz semestrində isə aktiv pedaqoji təcrübə keçirlər. Təcrübəyə rəhbərliyi fakültə tərəfindən təyin olunmuş Təcrübə rəhbəri icra edir. Təcrübə rəhbəri, tələbələrə mentor müəllimlərin təyin olunmasına və onların təcrübə keçəcəkləri siniflərin müəyyən olunmasına, məktəb rəhbərliyi ilə görüşlərin təşkili və il ərzində məktəbdə görüləcək işlərin planlaşdırılmasına və tələbələrin praktika ilə əlaqədar bütün məsələlərin həlli istiqamətində işlər görülməsinə görə məsuliyyət daşıyır.

Pedaqoji təcrübəyə gedən “təcrübəçi müəllimlər” könüllülük əsasında “müəllim assistenti” olaraq da fəaliyyətə cəlb olunur.

Xəzər Universitetində stajkeçmənin təşkili Azərbaycan Respublikasının Nazirlər Kabinetinin “Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi” haqqında qanunvericiliyin 4-cü bəndinə uyğundur. Universitetdə stajkeçmə əsasən universitet əməkdaşlarının iştirak etdiyi beynəlxalq layihələr, beynəlxalq konfrans, seminar və görüşlər çərçivəsində dəstəklənir və həyata keçirilir. Son beş ilin statistikasına əsasən 2017-ci ildə 15, 2018-ci ildə 61, 2019-cu ildə 55, 2020-ci ildə (pandemiya dövrü) 17, 2021-ci (pandemiya dövrü) ildə 7, 2022-ci ildə 55 əməkdaş beynəlxalq proqramlarda iştirak etmiş və təcrübə mübadiləsi aparmışdır. Eyni zamanda, son beş ildə universitet üzrə 210 əməkdaş xarici universitetlərdə (ABŞ universitetləri, Sarbon Universiteti, Middlesex Universiteti, Valensia Politexnik Universiteti, Oslo Metropolitan Universiteti, Vyana Tətbiqi Elmlər Universiteti, Gazi Universiteti, Bragança Politexnik universiteti, Celal Bayar Universiteti, Dumlupınar Universiteti, İstanbul Aydın Universiteti, Koç Universiteti və s.) təcrübə mübadiləsi və ixtisasartırma məqsədilə müxtəlif proqramlarda iştirak etmişdir.

Kurs layihəsinin (işi) və referatların hazırlanması, məzmunu, onun strukturuna qoyulan tələblər və qiymətləndirilmə meyarları "Kurs işlərinin (layihələrinin) yerinə yetirilməsi haqqında Əsasnamə"də öz əksini tapmışdır.

Magistr dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili Xəzər Universitetində qəbul edilmiş "Elmi-tədqiqat işlərinin tərtib olunma Qaydaları" və "Magistratura haqqında Əsasnamə"nin tələbləri çərçivəsində təşkil edilir. 2013-cü ildə yenidən gözdən keçirilərək universitetin veb-saytına yerləşdirilən bu qaydalar 2022-ci ildə "Magistr tezisinin yazılması və müdafiəsi Qaydaları " adı ilə müəyyən dəyişikliklərlə yenidən təsdiq edilmişdir.

Universitetdə imtahan sessiyasının obyektiv, şəffaf, qərəzsiz və hesabatlılıq şəraitində təşkil olunması üçün Xəzər Universitetinin Elmi Şurası tərəfindən təsdiq edilmiş "İmtahan qaydaları" haqqında Əsasnamə mövcuddur. İmtahan sessiyası tamamilə müvafiq əsasnamənin və qaydaların bəndlərinə uyğun olaraq həyata keçirilir. İmtahan sessiyasında imtahan tapşırıqlarının universitet tərəfindən hazırlanmış "Test tapşırıqlarının hazırlanması qaydaları (metodiki göstərişlər)" adlı sənədə uyğunluğuna departamentlər nəzarət edir və tapşırıqlar imtahan otağına möhürlü kağızlarda və zərflərdə gətirilir. İmtahan işləri imtahandan dərhal sonra Tələbə və qeydiyyat şöbəsi tərəfindən kodlaşdırılaraq yoxlanılması üçün fənn müəllimlərinə verilir.

Universitetdə imtahan qaydaları haqqında Əsasnamənin tətbiqinə nəzarət üçün hər semestr rektor tərəfindən ayrıca İmtahan Komissiyası yaradılır.

Universitetdə yay semestrinin təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarının 3.2.1. və 3.4. bəndlərinin tələblərinə uyğun olaraq yay tətili müddətində 6 (altı) həftədən və 2 fəndən çox olmayaraq təşkil olunur. Universitetdə yay semestri universitetin "Yay semestrinin təşkilinə dair təlimat" əsasında təşkil edilir. Pandemiya dövründə bu təlimat "Məsafədən yay semestrinin təşkilinə dair Təlimat" olaraq yenidən hazırlandı.

Universitetdə tələbələrin fərdi tədris planlarına dəyişiklik ərizələri əsasında dekanlıqlar tərəfindən yay semestrinin təşkilinə dair rektorun qərarına müvafiq olaraq fakültələr tərəfindən yay semestrində açılacaq fənlər, kreditləri, fənnin ön şərtləri, cədvəli və fənn müəllimi SIMS e-tədris platformasında elan edilir. Hər bir tələbə 2 fəndən çox olmayaraq fənlərə qeydiyyatdan keçə bilər.

Universitetdə kredit borcu olan tələbələrin tədris illəri üzrə dinamikası fakültələr və KTM tərəfindən e-tədris (SIMS) sistemi vasitəsilə statistik məlumat olaraq əldə edilir. Bu statistik məlumatlar fənlər üzrə fakültələr və departamentlər tərəfindən təhlil edilir, səbəbləri araşdırılır. Aşağıdakı cədvəllərdən də anlaşıldığı kimi birinci kursdan yuxarı kursa doğru kredit borcu olan tələbələrin sayı azalır.


Bakalvriat səviyyəsi üzrə kredit borcu olan tələbələr (2017-2021)
1774
495
271
170
230
8
1848
740
301
263
146
1
2016
592
718
254
244
7
2298
712
544
685
238
5
2589
784
644
526
484
34
2017-2018-CI TƏDRIS ILI
2018-2019-CU TƏDRIS ILI
2019-2020-CI TƏDRIS ILI
2020-2021-CI TƏDRIS ILI
2021-2022-CI TƏDRIS ILI
Tələbələrin ümumi sayı
1-ci kurs
2-ci kurs
3-cü kurs
4-cü kurs
5-ci kurs


Magistratura səviyyəsi üzrə kredit borcu olan tələbələr (2017-2021-ci illər)
450
400
350
300
250
200
150
100
50
0
231
53
58
200
57
49
209
130
24
312
229
62
396
219
149
2017-2018-CI TƏDRIS ILI
2018-2019-CU TƏDRIS ILI
2019-2020-CI TƏDRIS ILI
2020-2021-CI TƏDRIS ILI
2021-2022-CI TƏDRIS ILI
Tələbələrin ümumi sayı
1-ci kurs
2-ci kurs

Kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası aşağıdakı qrafikdə təsvir olunmuşdur. Həmin qrafikdəki məlumatlara əsasən, deyə bilərik ki, kredit borcu yaranmış fənlərin faiz göstəricisi 2017-2018-ci tədris ilində 61%, 2018-2019-cu tədris ilində 58%, 2019-2020-ci tədris ilində 48%, 2020-2021-ci tədris ilində 44%, 2021-2022-ci tədris ilində 61% təşkil etmişdir. Pandemiya dövrünə təsadüf edən 2019-2020-ci və 2020-2021-ci tədris illərinin imtahanlarının faiz göstəriciləri digər tədris illəri ilə müqayisədə aşağıdır.




Universitetdə tədrisin səmərəli və sistemli təşkil olunması üçün universitet daxili aşağıdakı qaydalar və əsasnamələr tərtib edilmiş və şəffaflıq, demokratiyanın təmin edilməsi və əlçatanlıq baxımından universitetin veb-saytına yerləşdirilmişdir.

- Tədris proqramlarının hazırlanması və təsdiq edilməsi qaydaları;
- Sillabus (fənn üzrə işçi tədris proqramı) haqqında əsasnamə;
- Fakültənin tədris ili üçün fəaliyyət planı (metodiki göstərişlər);
- Departamentin tədris ili üçün fəaliyyət planı (metodiki göstərişlər);
- Departamentin tədris ili üçün illik hesabatı (metodiki göstərişlər);
- Kurs işlərinin (layihələrinin) yerinə yetirilməsi haqqında əsasnamə;
- Müəllimin peşə fəaliyyətinin qiymətləndirilməsi haqqında əsasnamə;
- Formativ qiymətləndirmə haqqında təlimat kitabçası;
- Dərs jurnalının tərtib edilmə qaydaları;

- Fənlərin sərbəst öyrənilməsi qaydaları;
- Test tapşırıqlarının hazırlanması qaydaları;
- İmtahan qaydaları haqqında əsasnamə;
- Bakalavriat və magistratura üzrə məzunluq haqqında qaydalar;
- İstehsalat təcrübəsi haqqında əsasnamə;
- Universitet tədbirlərinin təşkil edilməsi haqqında əsasnamə.

Bundan əlavə universitetdə tədris prosesinin səmərəli təşkil edilməsi məqsədilə universitetdə qüvvədə olan bütün qayda-qanunlara dair Azərbaycan və ingilis dillərində yazılı vəsaitlər hazırlanmış, tələbə, müəllim və əməkdaşların istifadəsinə verilmişdir. Belə vəsaitlərə aşağıdakılar daxildir:

- Müəllimlərinin etik davranış qaydaları;
- İmtahan qaydaları haqqında əsasnamə;
- Tələbə yaddaş kitabçası;
- Tələbə nizam-intizam qaydaları;
- Əcnəbi tələbələr üçün yaddaş kitabçası;
- İşçilər üçün yaddaş kitabçası;
- Əmək və intizam qaydaları haqqında əsasnamə və s.

Universitetdə tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi üçün hər semestrdə aralıq və final imtahanları sonrası tələbələrin fənlərdən əldə etdikləri nəticələr fakültələrdə departament səviyyəsində və rektorluqda isə fakültə səviyyəsində müzakirə edilir. Universitetdə tətbiq edilən e-tədris sistemi (SIMS) bu statistik təhlillərin dəqiq və operativ aparılmasına şərait yaradır.

Müzakirələr zamanı əsasən tədris prosesinin formativ müşahidəsindən əldə edilən məlumatlar, statistik məlumatlarla əlaqələndirilərək təhlil edilir, fənn müəllimlərinin istifadə etdiyi tədris resurslarının, səviyyəsi, qiymətləndirmə tapşırıqlarının təlim nəticələrinə uyğunluğu, sərbəst işlərin yerinə yetirilmə səviyyəsi müzakirə edilərək optimal qərarların alınması təmin edilir.

Məsələn, müəyyən fənlərdən əlavə məşğələlərin və məsləhət saatlarının təşkili, auditoriyadan kənar fəaliyyətlərin səmərəli təşkili və tələbələrdə sərbəst öyrənmə məsuliyyətinin təşmilləşdirilməsi, tələbələrin auditoriyadan kənar laboratoriya işlərinin və sərbəst işlərinin hazırlanmasına dəstək göstərilməsi, hətta pandemiya dövründə tələbələrin kompüterlə təmin olunması kimi tədbirlər həyata keçirlmişdir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

*3.4. Tədris metodları və üsulları*

| |
|---|
| Xəzər Universiteti tədris prosesində təlim nəticələrinin innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə edilməsi baxımından ənənəsi olan və bunu təhsil fəlsəfəsində əks etdirən bir universitetdir.<br>Universitet fəaliyyətə başladığı ilk gündən etibarən, müəllimlər müxtəlif layihələr çərşivəsində xarici nüfuzlu universitetlərlə əldə etdiyi yaradıcı və interaktiv təlim təcrübələri daima auditoriyaya tətbiq etmişdir. Bundan başqa xarici universitetlərin aparıcı müəllimləri Xəzər Universitetində innovativ texnologiyalar əsasında müxtəlif fənnləri tədris etmiş və yerli müəllimlərlə təcrübə mübadiləsini təmin etmişlər. Universitetdə fəaliyyət göstərən müəllimlərin və inzibati əməkdaşların beynəlxalq təcrübə ilə olan tanışlığı bu prosesin tənzimlənməsinə ciddi töhfə verir.<br>İstər qruplardakı tələbə sayı, istərsə də müəllimlərin tələbəyönümlü yanaşmaları fənn sillabuslarında öz əksini tapır.<br>Universitetdə tədris prosesində tələbələrin fəallığını artırmaq, motivasiyanı yüksəltmək məqsədilə müəllimyönümlü deyil, tələbəyönümlü təlim və tədris, öyrətmə və öyrənmə metodlarından daim istifadə edilir. Müəllimlər tələbələrə mövzu ilə bağlı fikirlərini bildirməkdə sərbəstlik verir, onlara tənqidi düşünmə bacarıqlarını inkişaf etdirməyə imkan yaradır. O cümlədən, aşağıdakı metodlardan geniş şəkildə istifadə olunur:<br>*Ayrı-ayrı fənlərə uyğun olan real hal və misalların təhlili (case analysis)*- Xəzər universitetində fənlərin tədrisini həyata keçirən müəllimlərin əksəriyyəti akademik fəaliyyətlə yanaşı müxtəlif məşhur şirkətlərdə və müəssisələrdə çalışırlar ki, bu da həmin müəssisələrdə olan real misalları və təcrübələri həmin sahə ilə bağlı fənnin tədrisi zamanı öyrətmə metodu kimi istifadə edə bilirlər. Nəticədə tələbələr iş yerində olmadan həmin yerdə baş verən problemlərin həll yollarını axtararaq bir növ iş mühiti ilə tanış olur və gələcəkdə yaranacaq problemlərin həllinə hazırlıqlı olurlar.<br>*Qrup müzakirələri və fikir mübadiləsi*- qrup müzakirələri və fikir mübadiləsi apararaq tələbələr bir-birindən öyrənir, tənqidi düşüncə bacarıqlarını inkişaf etdirirlər.<br>*Qrup və fərdi prezentasiyalar (təqdimatlar)*- Qrup və fərdi prezentasiyalar tələbələr arasında komanda işini inkişaf etdirməyə, eyni zamanda sərbəst işləməyə, ictimaiyyət qarşısında çıxış etmək bacarıqlarını artırmağa kömək edir.<br>Fənlərin ayrı-ayrı mövzularının tədrisi üçün kənardan aparıcı mütəxəssislərin dəvət edilməsi həmin mövzuları tələbələr üçün daha da maraqlı edir və ətraflı məlumatlandırır.<br>*Portfolio*- portfolio çərçivəsində tələbələr semestr ərzində yerinə yetirdiyi tapşırıqları bir qovluqda yerləşdirir və sonda onların işlərindən ibarət bir sənəd halına gətirir ki, bu da tələbənin semestr |

ərzində yerinə yetirdiyi işlərdən ibarət məhsulunu görməyə yardım edir. Bundan başqa tələbə portfolio vasitəsilə öz müvəffəqiyyət dərəcəsini də izləyir. Belə ki, ilk yerinə yetirdiyi tapşırıqla sonrakı dərslərdə etdiyi tapşırıqları tutuşdurmaqla nə dərəcədə irəlilədiyini müəyyən edir və hansı yeni biliklərə sahib olduğunu başa düşür.

*Debatların təşkili*- Tədris olunan mövzu ilə bağlı tələbələrin qruplara bölünməsi və debatların keçirilməsi də onların araşdırma qabiliyyətini, tənqidi düşüncə, nitqini və inandırma bacarıqlarını inkişaf etdirir.

*Praktiki ekskursiyaların təşkil olunması* – tələbələrin müxtəlif şirkətlərə və iş yerlərinə aparılması və iş prosesi ilə tanış olmaları onlara sinifdə öyrəndiklərini daha yaxşı başa düşməyə kömək edir.

*Təhsil yarışmalarının təşkil olunması* – Təhsil yarışmaları tələbələrə sağlam rəqabət aparmağa, hazırladıqları məhsulları ortaya çıxarmağa imkan yaradır. Xəzər universitetinin mühəndislik fakültəsinin tələbələri arasında hər il "Spagetti körpü" müsabiqəsi keçirilir ki, tələbələr makaron və spagettidən körpü inşa etməklə, mühəndislik mexanikası və materialların müqavimətinin ölçülməsində tələbələrin biliyi yoxlanılır.

Pandemiya dövründə məsafədən təhsilin zəruri olduğu 3 tədris semestrində də fənn müəllimlərin interaktiv təlim üsullarını tətbiq etməklə tələbələrin aktivliyini təmin etməyə cəhd etdilər. MS TEAMS platformasında kiçik qrupların yaradılması imkanından geniş istifadə olundu.

Xəzər Universitetində bir qayda olaraq bakalavr və magistr ixtisasları üzrə təhsil səviyyələrində tədris metodlarının və üsullarının tətbiqində müəyyən fərqliliklər mövcuddur. Belə ki, magistr səviyyəsində, əsasən tədqiqat yönümlü, layihə əsaslı və problem əsaslı təlim metod və texnikalarından daha çox istifadə edilir. Bu metod və texnikalar elm sahələri arasında sahəyə məxsusluqdan qaynaqlanmaqla yanaşı məqalələrin təhlilləri, refleksiya esselərinin hazırlanması, sahə üzrə layihələrin hazırlanması və tədqiqatların aparılmasına, təqdimatlara, müzakirə və "case/nümunə hadisə" təhlillərinə istiqamətlənmişdir. Bir qayda olaraq magistr səviyyəsində də aralıq və final imtahanları olmasına baxmayaraq, fənn müəllimləri semestrin əvvəlində fakültə rəhbərliyi və departamentlərlə razılaşdırılmış şəkildə müəyyən tədqiqat işlərinin və layihələrin imtahan işləri yerinə qəbul edilməsini razılaşdırır.

Universitetdə interaktiv öyrətmə və öyrənmə mühitinin yaradılması istiqamətində müxtəlif təlimlər, seminar və müzakirələr təşkil edilir. Bir qayda olaraq semestr ərzində dekanlıqlar və departamentlər arasında dərslərin keyfiyyəti, istifadə olunan təlim metodları müzakirə edilir, auditoriyalar interaktiv təlim mühiti üçün əlverişli vəziyyətə gətirilir. Belə ki, auditoriyalar texniki olaraq kiçik və böyük qrup işlərinin təşkili, müxtəlif audio və vizual materialların istifadəsinə uyğunlaşdırılıb, bütün sinif otaqları internetlə təmin edilib, müzakirələrin, debatların təşkilinə uyğunlaşdırılıb.

Universitet əməkdaşlarının və müəllim heyətinin peşəkar inkişafına dair fəaliyyət planına uyğun olaraq müxtəlif təlimlərə, yerli və beynəlxalq təcrübə mübadilə proqramlarına cəlb olunur. Universitetin professor müəllim heyəti müxtəlif təlim, seminar və görüşlərlə, metodiki vəsaitlərlə, təcrübə mübadilə proqramları vasitəsilə yeni təlim və tədris metodlarının və interaktiv öyrənməni tətbiq etməyə təşviq edilir.

Tədris metod və üsullarının dövrü olaraq monitorinqi həyata keçirilir. Bu məqsədlə KTM tərəfindən təlim tədris prosesinin keyfiyyətinin monitorinqi və önləyici tədbirlər almaq məqsədilə mütəmadi anket sorğular təşkil edilir.

Eyni zamanda, 2018-ci tədris ilində PETRA layihəsi çərçivəsində təlim və tədris prosesinin təkmilləşdirilməsi məqsədilə ehtiyacların müəyyənləşdirilməsi üçün həm Xəzər Universitetində, həm də layihədə iştirak edən digər Azərbaycan ali təhsil müəssisələrində müəllimlərin İKT-dən istifadə bacarıqları, istifadə etdikləri təlim üsul və texnologiyaları, yaradıcı tətbiqetmə bacarıqlarına dair anket sorğular keçirilmişdir.

Universitet pandemiya şəraitində tədrisin keyfiyyətinin öyrənilməsi üçün 2021-ci ildə respublikada 9 universitetdə aparılan "Pandemiya şəraitində ali məktəblərdə məsafədən təhsil: problemlər və imkanlar" adlı tədqiqata qoşularaq tələbələrin Xəzər Universitetində məsafədən təhsilin təşkilinə dair fikirlərini öyrənmiş və tədqiqat nəticələrini təhlil etmişdir.

Bütün bu anket- sorğuların nəticələri departamentlərlə müzakirə edilərək, müəllimlərin peşəkar ehtiyacları müəyyənləşdirilir və universitetin imkanları daxilində müxtəlif istiqamətlər üzrə peşəkar inkişafları təmin edilir. Bu həm universitet səviyyəsində, həm də müəllimlərin öz peşəkar inkişaflarını təmin etmə istiqamətində dəstəklənir, təşviq edilir.

Buna nümunə olaraq Universitetin professor-müəllim heyəti və inzibati əməkdaşları yaradılmış "Öyrətmə və öyrənmə mərkəzi"nin təşkilatçılığı ilə, British Counsil (Creative Spark), ABD Təhsil Departamentinin (CBELT), Avropa İttifaqının (PETRA, Mediation: Training & Society Transformation, UNILAB, PICASP, ECAR) və s. beynəlxalq qurumların maliyyələşdirdiyi layihələr çərçivəsində təşkil edilən silsilə təlimlərə cəlb olunur.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

### *3.5 Təlim və tədris resursları*

Xəzər Universitetində tədris məqsədlərindən asılı olaraq tələbələr həm sinxron, həm də asinxron öyrənmə üsullardan faydalana bilirlər.

Asinxron öyrənmə daha çox tələbələrə yönəldilir, müəyyən bir yerdə və zamanda olma ehtiyacı ilə məhdudlaşdırılmadan kurslara qatılmalarına imkan verir. Nə qədər ki, onların internetə çıxışı

var, tələbələr istənilən vaxt, istənilən yerdə tədris kurslarının materiallarını mənimsəməkdə sərbəstdirlər.

Covid-19 pandemiyası zamanı Xəzər Universiteti "Microsoft Teams" platformasından (sinxron öyrənmə) geniş istifadə edib və hal hazırda da bütün fakültələr istifadə etməkdədir. Hər bir tələbənin Microsoft Teamsdə şəxsi hesabı var. Xaricdə olan müəllimlərin dərsləri Microsoft Teams platforması üzərindən keçirilir.

Xəzər Universiteti "Moodle" Elektron Təhsilin İdarəetmə Sisteminin (ETİS) əsasında (https://elearning.khazar.org), qarışıq (sinxron və asinxron) təhsil mühitini yaratmışdır. Bu mühit özündə ənənəvi və onlayn (distant) əsaslı tədrisin həyata keçirilməsinə imkan verir.

Xəzər Universitetində qarışıq tədris ilk dəfə 2009-cu ildə tətbiq edilmiş və hazırkı dövrə qədər davam etdirilir. Tələbələr fənnin tədrisində istifadə edilən bütün materialları (elektron formatda) – kursun tədris planı (syllabus), tövsiyə olunan cari tədris materialları (ppt, pdf, video, audio), həftəlik tapşırıqlar (assignment) və aralıq imtahanları (quiz) tələbə idarəetmə sistemi üzərindən mənimsəyir. Hal-hazırda Xəzər Universitetində LMS "Moodle" üzərindən müəyyən sayda tədris kursları həyata keçirilir.

Xəzər Universitetinin informasiya sistemi fəaliyyətinin iki mühüm istiqamətini əhatə edir:

1. Tələbə informasiya sistemi;
2. İnzibati idarəetməyə dəstək verən informasiya sistemi (kadr, mühasibat uçotu və maliyyə).

**1. Tələbə işləri üzrə məlumat sistemi** -Xəzər Universitetində informasiya idarəetmə sisteminin ayrı-ayrı elementlərinin yaradılmasına 1994-cü ildən başlanıb. Tələbə informasiya idarəetmə sistemi **(Student Information Management System - SIMS)** 2014-cü ildə istifadəyə qəbul olunub və bu sistemin təkmilləşdirilməsi, imkan və əhatə dairəsinin genişləndirilməsi ilə əlaqədər işlər davam edir. 2021-ci ildə sistemin daha geniş imkanlara malik olan tam yenilənmiş versiyası istifadəyə verilib.

Hal-hazırda Xəzər Universitetində istifadə olunan "SIMS" bir universitetin bütün akademik ehtiyaclarına cavab verən yüksək səviyyəli informasiya sistemidir.

**2. İnzibati idarəetməyə dəstək verən informasiya sistemi**

15 may 2017-ci il tarixli 01-17/KS saylı müqaviləyə əsasən Xəzər Universiteti insan resursları, maliyyə və mühasibatlıq əməliyyatlarının bir qismini SERP (SİNAM şirkəti, Enterprise Resource Planning) proqram təminatında icra edir.

Hal-hazırda Xəzər Universitetində tədris prosesi ilə bağlı İKT və digər təminatı haqqında məlumat:

- Kompüter laboratoriyalarının sayı – **4**;
- Proyektorla təmin edilmiş auditoriyaların ümumi auditoriyalara faiz nisbəti – **95%**:

- Ümumi auditoriya sayı – **68** (bundan 63-ü proyektorla təmin edilib);
- Ağıllı lövhələrlə təmin edilmiş auditoriyaların ümumi auditoriyalara faiz nisbəti – 3**8%:**
- Agıllı lövhə ilə təmin edilmiş auditoriya sayı -12 (ümumi auditoriya sayı 68);
- Akademik heyətin fəaliyyətini təmin edən zəruri otaq sayı – **36**;
- İnzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq sayı – **43**.

Bütün fənnlərin və tələbələrin qeydiyyatı Elektron jurnal üzərindən aparılır. Xəzər Universitetində elektron jurnal sistemi 2021/2022-ci tədris ilinin yaz semestrindən tətbiq olunmağa başlayıb. Elektron jurnaldan istifadə SIMS tələbə informasiya sistemi üzərindən aparılır.

Xəzər Universitetində "Microsoft Teams", "Google Classroom", "Zoom", "Go To Meeting" rəqəmsal xidmətlərdən geniş istifadə olunur (təqdimatlar, vebinarlar, virtual sinif otaqları, videokonfranslar).

Bundan başqa tədris prosesinin fasiləsiz və davamlı fəaliyyəti üçün müxtəlif istiqamətlər üzrə texniki dəstək göstərilir:

İnternet texnologiyaları:

- Bütün universitet kampusunu əhatə edən lokal kompüter və Wi-Fi şəbəkələri;
- Ayrılmış xətt üzrə yüksək sürətli (fiber optik) İnternet xidməti – 150 Mbit/s;
- Korporativ elektron poçt xidməti (email) @khazar.org domeni üzərində;
- Universitetin hər bir tələbə, professor-müəllim heyəti və əməkdaşlar üçün Microsoft Office 365 (Word, Excel, PowerPoint, Teams, OneNote, SharePoint, OneDrive, OutLook, Sway, Forms) lisenziyalı hesablarının yaradılması.

Kompüter və orgtexnika xidmətləri:

- Kompüter və orgtexnikada istismar zamanı yaranan müxtəlif nasazlıqların operativ şəkildə aradan qaldırılması;
- Kompüterlərin vaxtaşırı antivirus profilaktikası;
- Müxtəlif tipli proqram təminatının (o cümlədən tədrislədə bağlı) yenidən qurulması və yenilənməsi;
- Yeni kompüter və orgtexnikanın istismara verilməsi və lokal kompüter şəbəkəsinə və Wi-Fi (ya) qoşulması.

  Xəzər Universitetində hal-hazırda dörd kompüter labarotoriyası fəaliyyət göstərir**.**
- Tədris laboratoriyaları və auditoriyalarında internetə çıxışı olan kompüterlərin sayı – 178;
- İnternet şəbəkəsinin orta sürəti – 150 Mbit/s;
- İnternetə qoşulmuş kompüterlərin sayının ümumi təhsilalan sayına nisbəti (faizlə) – 10%:
- İnternetə qoşulan kompüter sayı-361,

- İnternetlə təchiz olunmuş auditoriyaların ümumi auditoriyalara faiz nisbəti – 100%:

ATM-in auditoriya fondu tələbə sayına uyğundur.

| | 2017/2018 | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 |
|---|---|---|---|---|---|
| Ümumi sahə, kv.m | 11486.38 | 11486.38 | 11486.38 | 11486.38 | 12625.78 |
| Tələbə sayı | 2048 | 2235 | 2610 | 2985 | 3421 |
| Tələbə sayına uyğun kv.m | 5.6 | 5.1 | 4.4 | 3.8 | 3.7 |

Akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun dinamikası cədvəldən göründüyü kimi qənaətbəxşdir.

| | 2017/2018 | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 |
|---|---|---|---|---|---|
| Ümumi sahə | 1976.76 | 1976.76 | 2126.76 | 2126.76 | 2436.25 |
| Akademik və inzibati heyətin sayı | 220 | 236 | 242 | 244 | 306 |
| Akademik və inzibati heyətin payına düşən kv.m | 8.9 | 8.4 | 8.8 | 8.7 | 6.98 |

Son illər Kitabxana-İnformasiya Mərkəzində (KİM) fəaliyyət istiqamətləri, informasiya resurslarının növləri, iş texnologiyası, istifadəçilərə göstərilən xidmətlər, işçilərin hazırlıq səviyyəsi xeyli dəyişmişdir

Kitabxananın elektron və ənənəvi resurslarının tələbə və akademik heyətin sayına nisbətdə artım dinamikası qənaətbəxşdir.

| | | 2017/2018 | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 |
|---|---|---|---|---|---|---|---|
| | Elektron və çap resursları (nüsxə) | 129432 | 135047 | 142265 | 159054 | 171711 | 184309 |
| | Ümumi istifadəçilər (Tələbə, akademik heyət və işçilər) | 1332 | 1386 | 1405 | 1410 | 1689 | 2748 |




KİM-nin elektron resurslarının artım dinamikası qənaətbəxşdir.

| | 2017/2018 | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 |
|---|---|---|---|---|---|---|
| Elektron kataloq (Follett) | 35183 | 36523 | 38012 | 38512 | 45214 | 48955 |
| Məlumat bazaları | 23289 | 24234 | 29300 | 29504 | 30125 | 35455 |
| DSpace | 1289 | 1584 | 2211 | 2378 | 3798 | 4674 |
| Calibre | 58 | 93 | 129 | 198 | 212 | 363 |
| Cəmi (nüsxə) | 59819 | 62434 | 69652 | 70592 | 79349 | 89447 |




**Digər resurslar**

- Elektron Məlumat bazaları - https://khazar.org/en/item/1306

- EBSCO Discovery axtarış sistemi;
- Azərbaycan Milli ISBN Agentliyi Məlumat bazası; https://khazar.org/en/item/10137
- Xəzər Universitetinin nəşrlərinin elektron kataloqu;
- Khazar Journal of Humanities and Social Sciences (KJHSS)
    - Hal-hazırda KJHSS Açıq Jurnal Sistemi (OJS) platformasının yeni versiyasından istifadə edilir.
- Elektron jurnallara abunəlik: The Economist, Time, National Geographic, Harvard Business Review.

2017-2022-ci illər ərzində KİM-in tədris resurslarının artım dinamikası qənaətbəxşdir.

| | **2017/2018** | **2018/2019** | **2019/2020** | **2020/2021** | **2021/2022** | **2022/2023** |
|---|---|---|---|---|---|---|
| Kitabxana fondu (nüsxə) | 129432 | 135047 | 142265 | 159054 | 171711 | 184309 |
| Dərslik və dərs vəsaitinin (elektron və çap şəklində.) (nüsxə) | 58848 | 60580 | 61692 | 66179 | 73347 | 73547 |




Aşağıda göstərilən cədvəldə KİM-in çap və elektron formatda olan aktiv kitab fondu göstərilmişdir. Tədris dili ingilis dilli olduğu üçün əsasən kitabxana fondunda ingilis dilində resurslar üstünlük təşkil edir

KİM-nin tədris dillərinə uyğun kitab fondunun mövcudluğu və artım dinamikası qənaətbəxşdir.

| | **2017/2018** | **2018/2019** | **2019/2020** | **2020/2021** | **2021/2022** |
|---|---|---|---|---|---|
| İngilis dili (nüsxə) | 53456 | 54178 | 54219 | 55586 | 56785 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Azərbaycan dili (nüsxə) | 30028 | 33457 | 36857 | 39144 | 42112 |




ATM-də dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayrılan vəsaitin həcmində artım dinamikası qənaətbəxşdir

| | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 |
|---|---|---|---|---|---|
| **Vəsait (AZN)** | 87203,47 | 67669,37 | 33027,10 | 30979,71 | 72051,77 |




Təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqinin icrası illik monitorinq nəticələrinə əsasən növbəti tədris ili üçün təkmilləşdirilir, təsdiqlənir.

Xəzər Universitetində müxtəlif tipli elektron resursların kolleksiyaları tədris prosesinin əsasını təşkil edir:

- Tədris resursları — tədris prosesinin həyata keçirilməsini təmin edən ənənəvi və elektron formatda təqdim olunan tədris-metodiki materiallar toplusu.
- Rəqəmsal tədris resurslarına aşağıdakılar aiddir:
  - Elektron tədris resursları;

- Qarışıq tədris üçün onlayn kurslar;
- Tədris proqramının rəqəmsal analoqu.

Elektron tədris resursları tədris proqramına uyğun olaraq tədris boyu tələbələrə istifadə imkanı verən Universitetin həm daxili (Moodle, Microsoft Teams), həm də xarici açıq tədris platformalarında yerləşdirilə bilər.

Qarışıq tədris üçün onlayn kurslar — tədris videomaterial və təqdimatlarının elektron tədris və informasiya mühitində strukturlaşdırılması və yerləşdirilməsi

Xəzər Universitetinin gündəlik təcrübəsində həm ənənəvi, həm də müxtəlif innovativ tədris texnologiyalarından geniş istifadə olunur. KİM dövrün tələbinə uyğun olaraq bütün yeni texnoloji üsullardan istifadə etməyi qarşısına məqsəd qoymuşdur.

Xəzər Universitetinin elmi və tədris resursları informasiya əlçatanlığı baxımından bir neçə istiqamətdə formalaşır. Birincisi, müəllim və tələbələrin özləri üçün ilkin məlumatları əldə edə biləcəkləri müxtəlif saytlar; İkincisi, universitetin akademik heyətinin elmi resursları böyük əhəmiyyət kəsb edir. Bu materiallar universitetin internet saytında cəmlənib. Üçüncüsü, elmi və tədris resursları universitetin struktur bölmələri, ilk növbədə kafedralar tərəfindən təqdim olunur. Nəhayət, müasir informasiya şəraitində elmi və tədris resursları tələbələrin və müəllimlərin özləri tərəfindən sosial xidmətlərdə (bloqlar, sosial şəbəkələr, vikilər) və şəxsi səhifələrdə yaradılır.

Mərkəzi kitabxanada elektron-informasiya xidmətləri, komplektləşdirmə, kataloqlaşma, sorğu-məlumat və xidmət (abonement) şöbələri vardır. Kitabxana İnformasiya Mərkəzi informasiya xidmətlərini aktiv şəkildə inkişaf etdirir.

Kitabxana İnformasiya Mərkəzi (KİM) dövrün tələbinə uyğun olaraq bütün yeni texnoloji üsullardan istifadə etməyi qarşısına məqsəd qoymuşdur:

- Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemi (AKİS) – Follett Destiny (Electron Catalog) https://khazaruniversity.follettdestiny.com;
- Elektron arxiv – Dspace (Institutional Repository) (http://dspace.khazar.org);

Tədris materiallarının aktuallığını və əlçatanlığını təmin etmək üçün onların biblioqrafik qeydləri elektron kataloqda, bu sənədlərin tam mətnləri isə institusional repozitoriyada yerləşdirilir.

Kitabxana aşağıdakı məqsəd və vəzifələrə nail olmaq üçün də bibliometrik təhlildən istifadə edir:

- öz tədris və elmi ədəbiyyat fondunun (fiziki və elektron) vəsaitlərinə tələbatın təhlili;
- fondun komplektləşdirilməsini optimallaşdırmaq üçün tədris və elmi ədəbiyyat bazarının təhlili.
- Elektron kitabxana – Calibre (eLibrary) (http://elib.khazar.org);
- Elektron portfolio – Mahara (ePortfolio) – (https://eportfolio.khazar.org);

Xəzər Universitetin Kitabxana İnformasiya Mərkəzinin veb-səhifəsində müxtəlif onlayn elektron resurslar haqqında məlumatlar yerləşdirilib:

- Kitabxana kolleksiyaları (https://khazar.org/az/item/1335);
- Depozitar kitabxana kolleksiyası (https://khazar.org/az/item/1337);
- Azərbaycan onlayn dövri mətbuatı (https://khazar.org/az/item/1336);
- Azərbaycanın elmi onlayn jurnalları (https://khazar.org/az/item/1297);
- Xəzər Universiteti e-Nəşrləri (https://khazar.org/az/item/1308);
- Təlim və tədqiqat xidmətləri (https://khazar.org/az/item/1352);
- Sərbəst giriş mənbələri (https://khazar.org/az/item/1307);

"Əlilliyi olan tələbələr üçün Mərkəz"- in fəaliyyəti əlilliyi olan tələbələrə aid məsələləri təşkil və idarə etməkdən ibarətdir (https://khazar.org/az/item/954).

Mərkəz bütün akademik və administrativ işçiləri təlimatlarla təmin edir. Mərkəzin xidmət və proqramlarına aşağıdakılar daxildir.

Mərkəzin maddi resursları və avadanlıqları layihə çərçivəsində yaradılmış, onların davamlılığı mərkəz tərəfindən təmin olunmuş və layihə başa çatdıqdan sonra Universitetin mülkiyyətinə çevrilmişdir. Hal-hazırda sağlamlıq imkanları məhdud şəxslərin təhsilinin təmin olunması üçün universitetdə tədris infrastrukturu mövcuddur. Belə ki, Neftçilər korpusunun yeni binasının girişində fiziki məhdudiyyəti olan tələbələr üçün lift (ramp) mövcuddur. Fiziki məhdudiyyətli tələbələr üçün dərslərin planlaşdırılması (dərs otaqları, dərslərin və imtahanların keçirilmə üsulları) uyğun dekanlıqlarla həyata keçirilir. Tədris prosesi interaktiv (təqdimatlar) şəkildə həyata keçirildiyi üçün bu sağlamlıq imkanları məhdud şəxslərə təhsili əlverişli edir.

Xəzər Universitetinin KİM-in işçi heyəti əlilliyi olan insanlar üçün hər zaman xoş bir təhsil mühiti yaratmaqdan məmnunluq duyur və həmin şəxslərə daha çox audio resurslar vasitəsilə xidmət edir.

Xəzər Universitetinin təlim-tədris resurslarının mühüm tərkib hissəsini universitetdə yaradılmış və universitetin və onların struktur bölmələrinin - fakültələrin, kafedraların, kitabxanaların internet saytında, eləcə də, müəllim və əməkdaşların şəxsi internet səhifələrində yerləşdirilən tədris resursları təşkil edir. Belə resurslara həm universitetdə nəşr olunan çap nəşrlərin elektron variantları (dərsliklər, laboratoriya məşğələləri, təlimatlar və s.), həm də tək elektron nəşrlər şəklində mövcud olan materiallar daxildir.

Təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsi fakültələrdən alınan sillabuslar vasitəsilə, elektron kitablara abunəliklə, tələbə və müəllimlərin istəklərinə uyğun olaraq yerli mağazalardan, xarici kitablar olduğu halda isə müxtəlif onlayn saytlardan sifariş olunur.

Xəzər Universitetində son illər ən tələb olunan resurslar sırasında tam mətnli sənədlər əhəmiyyətli yer tutmuşdur. Hazırda universitetin elektron kitabxanasında, elektron arxivin Tezis və

dissertasiyalar, akademik heyətin şəxsi səhifələri, elmi məqalələr və fakültələrin elmi nəşrlər kolleksiyası toplanmışdır və daimi olaraq yeni resurslarla zənginləşdirilir.

Kitabxana İnformasiya Mərkəzi (KİM) dövrün tələbinə uyğun olaraq bütün yeni texnoloji üsullardan istifadə etməyi qarşısına məqsəd qoymuşdur.

Xəzər universitetində müxtəlif tələbə təşkilatları və klubları fəaliyyət göstərir. Hər hansı bir tələbə təşkilatı fəaliyyətə başlamaq üçün öz nizamnaməsini Universitet Şurasına təqdim etməli və qeydiyyatdan keçməlidir.

Xəzər Universiteti klub və peşə yönümlü tələbə təşkilatları vasitəsilə tələbələrdə öz peşələrinə olan marağın artmasını da aşılayır. Məsələn, universitetdə Neft Mühəndisləri Cəmiyyətinin tələbə bölməsi və digər peşə yönümlü tələbə təşkilatları uğurla fəaliyyət göstərir.

Universitetin həyatında tələbə klublarının xüsusi əhəmiyyəti var. Universitetdə tələbələrdən ibarət SPA, debat klubu, texnoklub, astroklub, futbol, voleybol, basketbol, şahmat klubu və müxtəlif döyüş növləri üzrə idman bölmələri fəaliyyət göstərir.

Tələbə klublarınn, tələbələrin sosial, mədəni və idman fəaliyyətləri üçün resursların (inzibati və büdcə resrursları), dəstək planlarının mövcudluğu qənaətbəxşdir.

| | **2018/2019** | **2019/2020** | **2020/2021** | **2021/2022** | **2022/2023** |
|---|---|---|---|---|---|
| **Vəsait (AZN)** | 12240.73 | 7613.96 | 3280.00 | 14107.75 | 20435.93 |




Xəzər Psixoloji Xidmət Mərkəzi tələbələrə psixoloji dəstək xidməti vermək məqsədi ilə 2016-cı ildə Psixologiya Departamentinin təşəbbüsü ilə qurulmuşdur.

Mərkəz fəaliyyətə başladığı gündən etibarən psixoloji dəstəyə ehtiyac duyan bütün təhsil pillələrində olan (bakalavr, magistr, doktorantura) tələbələri müəyyənləşdirərək onlarla psixoloji konsultasiyalar təşkil etmişdir.
Mərkəzə 2018-ci ildə 30 nəfər, 2019-cu ildə 35 nəfər, 2020-ci ildə 15 nəfər (online müraciət əsasında), 2021-ci ildə 32 nəfər, 2022-ci ildə isə 40 nəfər tələbə müraciət etmişdir. Müraciət səbəblərinə baxıldığı zaman şəxsi problemlər, qarşı cinslə münasibət çətinlikləri, ailə məsələləri, akademik uğursuzluq, müəllimlərlə yaşanan problemlər, yaxın ailə üzvünü itirməklə bağlı və s. məsələlərlə əlaqədar olduğu müəyyən olunmuşdur.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

### *3.6 Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi*

Xəzər Universitetində təhsil alanların bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı prosedur və qaydalar hazırlanmış və universitetinin veb-saytında ictimaiyyət üçün əlçatanlığı təmin edilmişdir. Bu qayda və metodiki göstərişlərdən bəziləri aşağıdakılardır:

1. “Sərbəst işlərin və layihələrin hazırlanması və qiymətləndirilməsi qaydaları”;
2. “Bilik və bacarıqların taksonomik qiymətləndirilməsi haqqında metodiki göstəriş”;
3. “Tapşırıqların hazırlanmasının metodik əsasları”;
4. “Test tapşırıqlarının hazırlanması qaydaları”;
5. “İmtahan qaydaları haqqında əsasnamə”.

Xəzər Universitetinin qiymətləndirmə siyasəti fəaliyyətə başladığından etibarən 100 ballıq və hərfli qiymətləndirmə sisteminə əsaslanır.
Bakalavr səviyyəsindən keçid balı 60, məzun olmaq üçün isə minimum orta qiymət (G.P.A.) 70, magistr səviyyəsində keçid balı 65, məzun olmaq üçün isə minimum orta qiymət (G.P.A.) 75-dir.
Dekanlıq semestr ərzində akademik göstəriciləri yüksək olan tələbəni fəxri vərəq ilə təltif edir. Dekanın fəxri vərəqi semestr boyu 30 AKTS kreditdən az götürməmək şərtilə semestr üzrə orta qiyməti 85 və daha yüksək olan tələbəyə verilir. Əgər tələbə semestrdə hər hansı bir fəndən 60-dan aşağı bal alarsa, digər fənlərdən çox yüksək qiymətlər alsa belə, ona dekanın fəxri vərəqi verilmir.
Xəzər Universiteti rektorunun müvafiq əmrinə əsasən 100 balın bölgüsündə xüsusi yaradıcılıq tələb edən fənlər istisna olmaqla, bir qayda olaraq aralıq və final imtahanlarının toplamı, cəmi qiymətləndirmə minimum 60% maksimum 75% təşkil etməlidir. Bu qaydalara görə digər 25-40% isə formativ qiymətləndirmə olaraq fənn müəllimləri tərəfindən fəaliyyət əsasında müəyyənləşdirilir.

Həmin 25-40% çoxballı qiymətləndirmə sistemində davamiyyət, fəallıq, fərdi və ya qrup işləri, təqdimatlar, laboratoriya işləri, portfolio, tədqiqat layihələri və s. kimi fəaliyyət əsaslı qiymətləndirilir. Qiymətləndirmə bölgüsü ilə bağlı geniş məlumatlar müəllim tərəfindən hazırlanan sillabuslarda öz əksini tapır və həmin sillabuslar hər semestrin əvvəlində tələbəyə təqdim olunur.

Eyni zamanda, fənn müəlliminin fənnin işçi tədris planında (sillabus) qeyd etdiyi bölgü semestrin əvvəlində e-tədris (SIMS) sistemində fənn müəllimi tərəfindən qeyd edilib təsdiqlənərək möhürlənir.

Universitetin "Layihələrin hazırlanması və qiymətləndirilməsi Qaydaları", "Bilik və bacarıqların taksonomik qiymətləndirilməsi haqqında metodiki göstəriş", "Tapşırıqların hazırlanmasının metodik əsasları" və "Test tapşırıqlarının hazırlanması Qaydaları"nın mövcudluğu və bu qaydalarda imtahan tapşırıqlarının hazırlanmasına qoyulan tələblər də qiymətləndirmə tapşırıqlarının ölçüləbilən və etibarlı olmasını təmin etməyə xidmət edir.

Xəzər Universitetində müəllimlər üçün hazırlanmış "Formativ qiymətləndirmə haqqında təlimat", "Layihələrin hazırlanması və qiymətləndirilməsi Qaydaları", "Bilik və bacarıqların taksonomik qiymətləndirilməsi haqqında metodiki göstəriş", "Tapşırıqların hazırlanmasının metodik əsasları" "Test tapşırıqlarının hazırlanması Qaydaları", "İmtahan qaydaları haqqında Əsasnamə"lərin müvafiq bəndlərində qiymətləndirmə prosesində istifadə ediləcək üsul və vasitələr haqqında ətraflı təsvirlər mövcuddur. Hər bir departament yeni başlayan üzvlərini universitetin müvafiq sənədləri ilə tanış etməkdə və bu qaydalara əməl etməsini nəzarət altında saxlayır.

Universitetdə cari və aralıq qiymətləndirmə və yekun qiymətləndirmələrdən istifadə edilir. Cari və aralıq qiymətləndirmə üçün formativ qiymətləndirmənin üsul və vasitələri ixtisaslaşmanın və fənnin xüsusiyyətindən asılı olaraq fənn müəllimi tərəfindən tərtib edilir. Bu üsul və vasitələr portfolioların hazırlanması, laboratoriya işləri, tədqiqat işləri, məqalə dəyərləndirmə, layihələrin hazırlanması, təqdimatların hazırlanması, müxtəlif tipli esselərin tərtib edilməsi və s. tipli sərbəst işlərdir.

Quiz, aralıq və final imtahanlarının tapşırıqları isə yuxarıda qeyd olunmuş qaydalar və təlimatlar əsasında açıq və qapalı tapşırıqlardan ibarət tərtib edilir.

Yuxarıda qeyd edilən bütün bu sənədlərlə Xəzər Universitetinin "Əsasnamələr və qaydalar toplusu"nun aşağıda qeyd olunmuş link vasitəsilə ictimaiyyət üçün əlçatanlığı təmin edilmişdir.

http://dspace.khazar.org/bitstream/20.500.12323/2305/1/%C6%8Fsasnam%C9%99l%C9%99r%20v%C9%99%20qaydalar%20toplusu%20isaxan.pdf

Yuxarıda qeyd olunan qiymətləndirmə mexanizmi və Xəzər Universiteti Elmi Şurası tərəfindən təsdiq edilmiş “Formativ qiymətləndirmə haqqında təlimat”, “Test tapşırıqlarının hazırlanması qaydaları”, “İmtahan qaydaları haqqında əsasnamə” bütövlükdə Xəzər Universitetində qiymətləndirmə meyarlarının ölçülə bilən, etibarlı, ədalətli və obyektiv olmasını təmin edir.

Xəzər Universitetinin veb-saytında yerləşdirilmiş yuxarıda qeyd olunan və digər bənzəri metodiki göstərişlərin nümunələr əsasında təşkil edilməsi fənn müəllimlərinə imtahan tapşırıqlarının və formativ qiymətləndirmənin tərtibatında, tətbiqində, əks-əlaqənin qurulmasında ədalətliliyi, obyektivliyi, şəffaflığı təmin edir.

Universitetdə qiymətləndirmədə ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması üçün imtahan işləri imtahandan dərhal sonra Tələbə və qeydiyyat şöbəsi tərəfindən kodlaşdırılaraq yoxlanılır.

Xəzər Universitetində tələbəyönümlü təlim strategiyasının tətbiqi, fənn sillabusların strukturu, tapşırıqların hazırlanması və tədris prosesində çox tərəfli interaksiyanın təmin edilməsi tələbələrdə özöyrənməsinə məsuliyyəti və dərs prosesinə aktiv iştirakı zəruri edir. Fənn müəllimlərinin sillabuslarında formativ qiymətləndirmə komponenti olaraq portfoiloların hazırlanması, laboratoriya işləri, tədqiqat işləri, məqalə dəyərləndirmə, layihələrin hazırlanması və s. tipli tapşırıqlar tələbələrə öyrənmə məsuliyyəti aşılamaqla birlikdə təhsilin keyfiyyətinin yüksəldilməsinə də xidmət edir.

Xəzər Universiteində informasiya kommunikasiya texnologiyalarının tədris prosesində istifadəsi 2009/2010-cu tədris ilindən başlanmışdır. Moodle platformasından formativ qiymətləndirmə tapşırıqlarının hazırlanması və qiymətləndirilməsi, müzakirələrin təşkili, qapalı tipli imtahan tapşırıqlarından ibarət imtahanların keçirilməsi üçün istifadə edilməkdədir. Pandemiya dövründə isə məsafədən tədrisin təşkilində MS TEAMS Platformasının imkanlarından fəal şəkildə istifadə edilmişdir. Zoom, Google One kimi platformaların imkanlarından yararlanmaqla birlikdə pandemiyadan sonrakı dövrdə də Teams Platforması universitet tərəfindən aktiv şəkildə istifadə edilir.

Pandemiyanın başladığı 2019/2020-ci tədris ilinin yaz semestrindən etibarən də universitetdə bütün fənlər və qruplar üzrə sillabusun, dərs materiallarını, tapşırıq və müzakirələrin icrası və aktiv kommunikasiyanı təmin etmə imkanı baxımından Teams Platformasında virtual siniflər yaradılmışdır. Bu virtual siniflər vasitəsilə formativ qiymətləndirmənin tapşırıqlar, esselər, tədqiqat işləri kimi müəyyən komponentlərinin daha sistemli tərtib edilməsi, vaxtında təslim edilməsi, qiymətləndirmə və refleksiyaların (feedback) aparılması daha sistemli xarakter daşıyır.

Universitetdə sağlamlıq imkanları məhdud olan tələbələrin sayı 2017-2022-ci illər üzrə aşağıdakı qrafikdə göstərildiyi kimidir.




Universitetdə sağlamlıq imkanları məhdud tələbələrin hər birinə sağlamlığındakı məhdudiyyətlərə individual yanaşma göstərilir. Belə ki, görmə məhdudiyyəti olan tələbələrə tədris prosesi zamanı əlavə fərdi dərs və konsultasiya saatları təyin edilir. Fənnin xüsusiyyətindən asılı olaraq imtahanların təşkil forması şifahi və ya əlavə vaxtın verilməsi şəklində təşkil edilir.

Eyni zamanda, sağlamlıq imkanları məhdud tələbələrin də yararlanacağı "Əlilliyi olan tələbələr üçün Mərkəz" və Xəzər Psixoloji Xidmət Mərkəzi mövcuddur.

Xəzər Universitetində çoxballı qiymətləndirmə sistemində cari və aralıq qiymətləndirmələrin faizi və qiymətləndirmə üsulu ixtisaslaşma və fənnin xüsusiyyətindən asılı olaraq müxtəliflik göstərir. Belə ki, davamiyyət, fəallıq, fərdi və ya qrup işləri, müxtəlif tipli esselər, təqdimatlar, laboratoriya işləri, portfolio, tədqiqat layihələri və s. kimi fəaliyyət əsaslı qiymətləndirmə komponentləri fənn müəllimi tərəfindən müəyyənləşdirilir, əlaqədar departament rəhbəri tərəfindən təsdiq edilərək, fənn sillabusuna daxil edilir. Fənn müəllimlərinə bu qiymətləndirmə komponentlərinin hazırlanması və tətbiqi zamanı Xəzər Universitetinin veb-saytında yerləşdirilmiş "Formativ qiymətləndirmə haqqında təlimat", "Test tapşırıqlarının hazırlanması Qaydaları" ından isitfadə edilməsi tövsiyə edilir.

Xəzər Universitetində cari və aralıq qiymətləndirmələrdə şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsiplərinin təmin olunması üçün, tələbələr bu qiymətləndirmələrdən də apellyasiyalarını e-sistem üzərindən müraciətlə həyata keçirir. Müraciətlərə baxılması proseduru universitetin İmtahan qaydaları haqqında Əsasnamədə ətraflı və aydın şəkildə təsvir olunmuşdur. Hər bir tələbəyə paylanan Yaddaş kitabçasında da qeyd edilmişdir.

Xəzər Universitetində yekun qiymətləndirmə yekun Dövlət Attestasiya Komissiyaları tərəfindən aparılır. Hər bir məzunluğa namizəd Xəzər Universitetinin diplomunu ala bilməsi üçün universitet tərəfindən müəyyənləşdirilmiş aşağıdakı şərtləri yerinə yetirilməlidir:

1. Məzun bakalavr və magistr tədris planında müəyyənləşdirilmiş bloklar, məcburi və seçmə fənlər üzrə kreditləri toplamalıdır;
2. Bakalavriat dərəcəsi almaq üçün məzunluğa namizədin bütün fənlərdən minimum 60 (D), magistraturada minimum 65 (D+) qiyməti almalıdır;
3. Bakalavriat üzrə minimum ÜOMG (GPA) 70 (C), magistratura üzrə 75 (C) olmalıdır;
4. Magistratura səviyyəsində magistrlik dissertasiyası yazmalıdır. Magistrlik dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili Xəzər Universitetinin "Magistr dissetasiyasının yazılması və müdafiəsi Qaydaları"nda mövzunun və elmi rəhbərin təyini, tezisin tərtib olunma qaydaları, tezisin müdafiəyə təqdim olunması, müdafiə prosesi, təkrar müdafiə və apellyasiya qaydaları ətraflı və aydın şəkildə təsvir olunmuşdur.
5. Məzunluğa namizəd yekun qiymətini yüksəltmək istəyərsə, tədris müddəti ərzində bakalavrda 60-69 (D), magistraturada 65-74 (D+) aralığında aldığı qiymətlər üçün yenidən imtahan verə bilər.

Hesabatın əlaqədar bölmələrində və xüsusilə də 3.6.-cı maddəsinin müvafiq bəndlərində Xəzər Universitetində təhsil alanların qiymətləndirilməsinə dair qeyd olunan mexanizmlər, prosedur və qaydalarda yaranmış ehtiyaclar çərçivəsində dəyişikliklər universitetin əlaqədar qurum rəhbərlərinin müzakirələrindən sonra rektorun əmri ilə nizamlanır. Məsələn, pandemiya dövründə yaranmış fövqəladə vəziyyətdə tədrisin təşkili və qiymətləndirmə mexanizmindəki dəyişikliklər rektorun U/283 saylı, 04 sentyabr 2020-ci il tarixli əmri ilə tənzimlənmişdir.

Pandemiya kimi istisna vəziyyətlər xaricində müxtəlif ixtisaslar üzrə bilik və bacarıqların qiymətləndirilməsi sisteminin təhlilinin aparılması, proseslərin izlənilməsi və təkmilləşdirmələr mexanizmi universitetdə əsasən iki istiqamətlidir.

Öncəliklə birinci mərhələdə,

- -departament -dekanlıq- KTM-nin iştirakı ilə semestrin əvvəlində sillabusların təsdiqlənməsi müzakirə edilir;
- -aralıq və yekun qiymətləndirmələrdən sonra təhlillər aparılaraq mövcud vəziyyət müzakirə edilir,

İkinci mərhələdə final imtahanlarının nəticələri müzakirə edilərək təlim nəticələrinin əldə olunması səviyyəsi araşdırılır. Ehtiyac yarandığı hallarda fənn sillabuslarında dəyişikliklər müzakirə edilərək müvafiq qərarlar qəbul edilir.

Bəzi hallarda isə yenilik və təkmilləşdirmələr fənn müəllimlərinin təklifləri əsasında öncə departament, daha sonra fakültə şuraları və universitetinin Keyfiyyət Təminatı Komitəsində müzakirə edilərək müvafiq qərarlar qəbul edilir.

Xəzər Universitetində təhsil səviyyəsinin bitirilməsi qaydaları və şərtləri hər il birinci il tələbələrinə paylanan "Yaddaş kitabça"sında qeyd edilmişdir. Bundan əlavə SIMS e-tədris sistemində hər bir tələbə öz kabinetində əks olunan transkriptinin bölmələrindən məzun olması üçün lazım olan şərtləri ətraflı və aydın şəkildə görməkdədir. Bunlarla yanaşı akademik məsləhətçilər vasitəsilə təhsil səviyyəsinin bitirilməsinə dair aşağıdakı qaydalar tələbələrə hər fənn qeydiyyatı zamanı xatırladılır:

- tədris planında müəyyənləşdirilmiş bloklar, məcburi və seçmə fənlər üzrə kreditləri;
- bakalavriat üzrə minimum ÜOMG 70, magistratura üzrə 75 olması;
- magistratura səviyyəsində magistrlik dissertasiyası yazmalı olduğu.

Xəzər Universitetində təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin və ya təhsil səviyyəsini bitirməyən şəxslərə müvafiq arayışın verilməsi qanunvericiliyin tələblərinə uyğun şəkildə həyata keçirilir. Təhsilalanın universitetdən məzun olması üçün bakalavriat səviyyəsi üzrə Dövlət Attestasiya Komissiyalarının və magistratura səviyyəsi üzrə Magistr Dissertasiyalarının Müdafiə Şurasının qərarları Fakültə Şurası tərəfindən universitetin Elmi Şurasına təsdiq edilməsi üçün təqdim edilir. Universitetin Elmi Şurası məzun olması haqqında verdiyi son qərar rektorun əmri ilə rəsmiləşdirilir. Məzunluq əmrləri Elm və Təhsil Nazirliyinin portalına işlənilir və bundan sonra diplomların alınması üçün nazirliyə müraciət edilir. Təhsil səviyyəsinin bitirməsinə dair müvafiq rəsmi sənədlər (diplom və əlavəsi) universitet rektoru, fakültə dekanı və buraxılış üzrə yekun Dövlət Attestasiya Komissiyasının və Magistr Dissertasiyalarının Müdafiəsi üzrə Elmi Şuranın sədrlərinin imzaları ilə tələbəyə təqdim edilir.

Təhsil səviyyəsini bitirməyən şəxslərə isə universitet tərəfindən oxuduğu fənlərə dair rəsmi transkript verildiyi kimi, Elm və Təhsil Nazirliyi tərəfindən tərtib edilən xüsusi rəsmi arayış da müraciət olunduğu təqdirdə verilir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

*3.7.Professor-müəllim heyəti və inzibati-texniki işçilər*

Xəzər universitetində akademik heyətin işə qəbulu, yüksəliş və digər vəzifəyə təyinat mexanizminin mövcudluğu və tətbiq edilən yanaşmanın şəffaf və ictimaiyyət üçün əlçatanlığı təmin edilmiş və bu istiqamət üzrə universitetin qüvvədə olan əsasnaməsinə (Əsasnamələr və qaydalar toplusu) əsasən həyata keçirilir. Bu Əsasnamə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin sənədlərinə uyğun olaraq Xəzər Universitetində akademik heyətin

qiymətləndirilməsi mexanizminə əsasən onların idarəetmə və akademik vəzifələrə yüksəlməsi qaydalarını müəyyən edir.

Vakansiyalar haqqında məlumat bir qayda olaraq universitetin veb-saytında verilir, bununla yanaşı məlumatın dekanlar, departament rəhbərləri sosial və peşəkar şəbəkələr vasitəsilə də bu informasiyanın yayılmasını təmin edirlər. Namizədlərin müraciətləri universitetdə İşə Qəbul üzrə Komissiyaya yönəldilir. İşə Qəbul üzrə Komissiyasının tərkibi və onun fəaliyyət müddəti universitetin rektorunun əmri ilə təsdiq edilir. Komissiyasının tərkibinə sədr (prorektor) və üzvlər daxildir. Dekan, mərkəz rəhbəri, departament müdiri, ştatda olan müəllim vəzifələrinə müraciətlərin dəyərləndirilməsi bu komissiya tərəfindən həyata keçirilir. Bu dəyərləndirmələrin nəticəsi olaraq akademik heyətin yüksəliş və digər vəzifəyə təyinatı da aparılır. Vakant vəzifələrə təyin olunmuş şəxslərlə universitet arasında əmək münasibətləri 1 il müddətinə (ilk 3 ay sınaq müddəti olmaqla) bağlanmış əmək müqaviləsi ilə tənzimlənir. Müqavilə tərəflərin qarşılıqlı razılığı əsasında qüvvədə olan qanunvericiliyə uyğun tərtib olunur.

Xəzər Universitetində çalışan şəxslər isə vakant yerlərə ərizə ilə birlikdə yalnız elmi və elmi-metodiki işlərinin siyahısını təqdim edirlər. Müəllim vəzifələrinə iddia edən şəxşlərin sınaq dərsi keçirilir və komissiya tövsiyəsini rektorluğa təqdim edir. Eyni qaydada, departament müdiri, koordinator vəzifələrinə iddia edən şəxslərin də namizədliyi komissiyada və rektorluqda müzakirə olunur. Müstəsna hallarda vakant vəzifələr (inzibati) müvəqqəti olaraq bilavasitə rektorun əmri ilə müəyyən müddətə birbaşa təyin olunur.

Xəzər Universiteti tədris prosesində akademik heyət arasında pedaqoji və texnoloji səriştələrin yüksəldilməsi üçün stimullaşdırıcı meyarlarların işlənib həyata keçirilməsini nəzarətdə saxlayır. Belə ki, əməkdaşların fəaliyyəti təhlil olunur, bir neçə ilin nəticələri dəyərləndirilərək qərar (növbəti müddət üçün müqavilənin uzadılması, əmək haqqının artırılması və ya mükafatlandırılması) verilir. Təkliflər əsasən qurum rəhbərləri tərəfindən irəli sürülür.

Qeyd etmək lazımdır ki, pedaqoji və texnoloji səriştələrin məqsədyönlü mənimsənilməsi tədris prosesində effektiv nəticələr verir. Belə ki, müasir texnologiyalar ilə məlumatın saxlanılmasını və ötürülməsi, eyni zamanda məsafədən və zamandan asılı olmayaraq, açıq məlumat mənbələrinə, kitabxanalara, elmi tədqiqat mərkəzlərinə daxil olmağa əlverişli şərait yaradır. Texnoloji səriştələr akademik heyətə tədris prosesində tələbələrə müasir proqramlarla işləmək bacarıqlarını, aktiv öyrənmə, müstəqil axtarış və tədqiqat işi bacarıqlarının formalaşması və inkişaf etdirilməsi imkanlarını təmin edir. Həmçinin, pandemiya dövründə onlayn təhsildə tədris prosesinin səmərəliliyinin məqsədilə müxtəlif internet resursları və vasitələrinin (Microsoft Teams, ZOOM, Youtube və s.) istifadəsinə geniş yer verilmiş, mütəmadi olaraq akademik heyət üçün bu istiqamətdə dövri təlimlər (onlayn, təlimat xarakterli videoların hazırlanıb göndərilməsi)

keçirilmişdir. Bu prosesdə universitetin İnkişaf mərkəzi və Təlim-tədris mərkəzi və digər aidiyyatı qurumlar birbaşa iştirak edir.

Xəzər Universitetində 2009-cu ildən tədris prosesini daha səmərəli təşkil etmək məqsədilə Moodle onlayn platforması müəllim və tələbələrin istifadəsinə verilmişdir. Burada professor-müəllim heyətinə elektron kursların yaradılması, onlayn quizin keçirilməsi, zəruri olan informasiya resurslarının yerləşdirilməsi, mövzular ətrafında müzakirənin keçirilməsi və s. imkanları verilir. Başlanğıc mərhələdə müxtəlif ixtisaslar üçün 30-dan çox e-kurslar yaradılmışdır. Akademik heyətin dərsləri pandemiya dövründə Microsoft Teams, Zoom, Google platformaları üzərindən onlayn şəkildə (distant) təşkil olunmuşdur.  Bu dərslərin bütün lazımi elektron materialları tələbələr üçün Teams platformasında yerləşdirilmişdir. Pandemiya dövründən başlayaraq mütəmadi olaraq interaktiv və aktiv tədris metodları və onlayn tədrisin təşkilinə dair təlimlər keçirilmiş və lazımi təlimatlar elektron şəkildə akademik heyətə təqdim edilmişdir. Həmçinin, Xəzər Universitetində akademik heyət üçün tədris və təlim strategiyasının inkişafı ilə bağlı PETRA təlimi, “Creative Spark” və UniLab layihəsinin təlimləri, “Təlim və tədris strategiyasının təkmilləşdirilməsi” mövzusunda vörkşoplar və digər təlimlər keçirilmişdir. Bu prosesdə universitetin İnkişaf mərkəzi və Təlim-tədris mərkəzi və aidiyyatı qurumlar bir başa iştirak etmişdir.

Xəzər universiteti akademik heyətin inkişafi üçün mütəmadi olaraq öz ixtisas sahələrinə aid yerli və beynəlxalq ixtisasartırma və digər təlim kurslarında iştirakını dəstəkləyir. Bunun üçün universitet təlim-tədris prosesini müasir tələblərə uyğun təşkil etmək məqsədilə professor-müəllim heyəti üçün davamlı təlim və inkişaf proqramını həyata keçirir. Bunlara misal olaraq, mütəmadi keçirilən ingilis dili kurslarını, texnoloji bacarıqların artırılması üçün keçirilən proqramlaşdırma kurslarını, İngilis dili və ədəbiyyatı departamentinin silsilə olaraq ingilis dili müəllimləri üçün keçirdiyi TKT kurslarını göstərmək olar.

Son beş ildə universitet üzrə 210 əməkdaş xarici universitetlərdə (ABŞ universitetləri, Sarbon Universiteti, Middlesex Universiteti, Valensia Politexnik Universiteti, Oslo Metropolitan Universiteti, Vyana Tətbiqi Elmlər Universiteti,  Bragança Politexnik Universiteti, Gazi Universiteti, Celal Bayar Universiteti və s.)  təcrübə mübadiləsi və ixtisasartırma məqsədilə müxtəlif  proqramlarda iştirak etmişdir.

Xəzər universitetinin əsas strateji hədəflərindən biri də universitetin davamlı inkişafını təmin etmək üçün professor-müəllim və inzibati heyətinin peşəkar inkişafına dəstək verməkdir. Bunun üçün çoxsaylı xarici universitetlər və digər qurumlarla beynəlxalq əlaqələri qurulur, ikili diplom proqramı reallaşdırılır, müxtəlif beynəlxalq layihələr, tələbə-müəllim mübadilə proqramları həyata keçirilir. Bu həmçinin,  Xəzər Universitetinin beynəlmiləlləşmə strategiyasının

hədəflərindəndir. Xəzər Universitetinin professor-müəllim heyəti 2017-2022-ci illərdə Avropa Birliyinin proqram, qrant və layihələri, Avropa və dünyanın bir sıra ölkələrində yerləşən universitetlərlə qarşılıqlı əməkdaşlıq və mübadiləyə əsaslanan qarşılıqlı müqavilə və razılaşmalar çərçivəsində həyata keçirilən çoxsaylı universitetlərarası mübadilə, təlim və peşəkar inkişaf proqramlarında iştirak etmişdir. Belə ki, son beş ilin statistikasına əsasən 2017-ci ildə 15, 2018-ci ildə 61, 2019-cu ildə 55, 2020-ci ildə (pandemiya dövrü) 17, 2021-ci (pandemiya dövrü) ildə 7, 2022-ci ildə 55 əməkdaş beynəlxalq proqramlarda iştirak etmiş və təcrübə mübadiləsi aparmışdır.

Xəzər Universitetində keyfiyyət həmişə diqqət mərkəzində saxlanılır. Fəaliyyətdə olduğu müddətdə, Xəzər Universitetində əsas təhsil dilinin ingilis dili olması və tətbiq etdiyi tədris proqramlarının beynəlxalq standartlara cavab verməsi, tələbələrin müasir dərs vəsaitlərindən və elektron məlumat bazalarından istifadə etməsinə, təhsillərini dünyanın aparıcı universitetlərində davam etdirməsinə, xarici universitetlərin professor-müəllim heyətinin yaradıcı və innovativ dərslərinin təşkilinə geniş imkan verir. Xəzər universitetində akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sistemi mövcuddur. Akademik heyətin fəaliyyətinin qiymətləndirilməsinin məqsədi təhsilin keyfiyyətinin yüksəldilməsi, qabaqcıl pedaqoji təcrübənin yayılması və şəraitə uyğun qərar verilməsi üçün professor-müəllim heyətinin akademik fəaliyyəti barədə obyektiv məlumat əldə etməkdən ibarətdir. Bu qaydalar Xəzər Universitetində həm tam ştat, həm də saat hesabı heyət olaraq çalışan müəllimlərə şamil edilir. Xəzər Universitetində müəllimin fəaliyyəti üç istiqamət - tədris fəaliyyəti, elmi-tədqiqat, ictimai və təşkilati işlər üzrə qiymətləndirilir.

Qiymətləndirmədə üç informasiya mənbəyindən istifadə edilir:

1. Müəllimin akademik fəaliyyətinin həmkarı tərəfindən qiymətləndirilməsi;
2. İnzibati (rəhbərliyinin keçirdiyi) qiymətləndirmə;
3. Tələbə sorğusunun nəticələri.

Yuxarıda 3-cü bənddə qeyd edildiyi kimi universitetin Keyfiyyətin təminatı mərkəzi tələbələr arasında hər semestrin sonu müəllimlərin fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı SIMS vasitəsilə onlayn sorğu keçirir. Müəllimin tədris bacarıqları, tələbələrlə ünsiyyəti, tələbələri həvəsləndirməsi və dərsin təşkili ilə bağlı suallardan ibarət sorğuda tələbələr 5 ballıq şkala üzrə müəllimi qiymətləndirir və öz rəylərini və fikirlərini qeyd edirlər. Sorğunun nəticələri departament və fakültənin iclaslarında müzakirə olunur və keyfiyyəti yaxşılaşdırmaq məqsədilə lazımi tədbirlər həyata keçirilir. Tələbələrlə hər semestrdə aparılan bu sorğu tədris prosesinə və universitetdəki digər şöbə və bölmələrinin fəaliyyətinə tələbələrin gözü ilə baxmağa və uyğun qərarlar qəbul etməyə imkan verir, universitetdə demokratik abu-havanı gücləndirir və

tələbəyönümlü tədris modelini inkişaf etdirir. Bununla yanaşı, hər tədris ili ərzində mütəmadi olaraq akademik heyətin açıq dərsləri təşkil olunur və təyin edilmiş meyarlar üzrə onların qiymətləndirilməsi həyata keçirilir.

Xəzər universitetində ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsü, professor-müəllim heyətinin dərs yükünün təyin edilməsi (auditoriya və auditroriyadan kənar) dərs saatlarının nisbətinin normativ tələblərə uyğunlaşdırılması "Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2010-cu il 215 nömrəli qərarı əsasında həyata keçirilir. Ümumi olaraq, departamentlərdə professor-müəllim heyətinin dərs yükünün bölgüsü kredit sisteminin tələblərinə uyğundur. Departamentlərin dərs yükləri saat/kreditlərlə hesablanır. Qruplar fənn birləşmələrinə görə formalaşdırılır.

Dərs yükünün bölgüsü universitetdə mövcud meyarlar üzərindən aparılır. Belə ki, ştatda olan departamentin əməkdaşının həftəlik maksimal dərs yükü, vəzifədən asılı olaraq, 8-24 saat aralığında dəyişir (intervalın yuxarı sərhədi əsasən dil departamentlərində tətbiq olunur). Yükün artırılması əmək haqqında öz əksini tapır.

Departamentdə saathesabı qaydada cəlb olunmuş əməkdaşın dərs yükü həftəlik 16-24 akademik saatdan çox ola bilməz. Saathesabı qaydasında cəlb olunmuş əməkdaşın dərs yükü müəyyən olunarkən onun tədrisi nəzərdə tutulmuş fənnlər üzrə tədris təcrübəsi, əməkdaşın elmi və pedaqoji fəaliyyət istiqamətinin tədrisi nəzərdə tutulmuş fənnlərlə uyğunluğu, hər tədris ilinin sonunda tələbələrin müəllimlər haqqında keçirilmiş anonim qiymətləndirmə sorğusunda müəllimin müxtəlif parametrlər üzrə qiymətləndirmə nəticələri, əməkdaşın əvvəlki tədris ilində imtahan nəticələrinin ətraflı təhlilindən gələnən nəticələr nəzərə alınmaqla müəyyən olunur.

Dərs yükünün bölgüsündə departamentlər üzrə ştatda olan professor-müəllim heyətinin bir stavka üzrə illik dərs yükü - 500 saatdan az olmaması (auditoriya saatları, laboratoriya və praktiki məşğələlər) gözlənilir.

Universitetdə 5 fakültə üzrə tələbələr bakalavriat, magistratura və doktorantura səviyyəsi üzrə təhsil alır:

1. Təbiət elmləri və Mühəndislik fakültəsi (bakalavriat səviyyəsi);
2. İqtisadiyyat və Menecment fakültəsi (bakalavriat səviyyəsi);
3. Humanitar, Təhsil və Sosial Elmlər fakültəsi (bakalavriat səviyyəsi);
4. Təbiət elmləri, Sənət və Texnologiya yüksək təhsil fakültəsi (magistratura və doktorantura səviyyəsi);
5. İqtisadiyyat və Biznes yüksək təhsil fakültəsi (magistratura və doktorantura səviyyəsi)

Bütün fakültələrdə cari semestr üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti vəziyyətinin analizi aşağıdakı kimidir:

1. Təbiət elmləri və Mühəndislik fakültəsində **966** tələbə təhsil alır, professor-müəllim heyətinin tələbə sayına nisbəti **103/966= 1/9;**
2. İqtisadiyyat və Menecment fakültəsində **439** tələbə təhsil alır, professor-müəllim heyətinin tələbə sayına nisbəti **66/439= 1/7;**
3. Humanitar, Təhsil və Sosial Elmlər fakültəsi **1547** tələbə təhsil alır, professor-müəllim heyətinin tələbə sayına nisbəti **168/1547= 1/9;**
4. Təbiət elmləri, Sənət və Texnologiya yüksək təhsil fakültəsi **252** tələbə təhsil alır, professor-müəllim heyətinin tələbə sayına nisbəti **44/252= 1/6**;
5. İqtisadiyyat və Biznes yüksək təhsil fakültəsi **293** tələbə təhsil alır, professor-müəllim heyətinin tələbə sayına nisbəti **34/293= 1/9 .**

2022/2023-cü tədris ili üzrə tədris prossesində 317 professor-müəllim (ştat, yarımştat, saat hesabı) heyəti iştirak edir. Tələbə sayı son beş ildə qeyd olunduğu kimi iki dəfə artması ilə bərabər ştat vahidində işləyən professor müəllim heyətininin sayı da artmışdır.

2018/2022-ci illər üzrə elmi dərəcəsi olan professor-müəllim heyətinin ümumi akademik heyətə olan nisbəti aşağıdakı cədvəldə verilmişdir:

| İl | Elmi dərəcəsi olanlar (cəmi) | Akademik heyət – tədris ili üzrə verilmişdir | % |
|---|---|---|---|
| 2018 | 93 | 211 | 44 |
| 2019 | 102 | 210 | 49 |
| 2020 | 88 | 240 | 37 |
| 2021 | 85 | 251 | 34 |
| 2022 | 86 | 337 | 27 |

Universitet üzrə tələbələrin sayındakı artım dinamikası, yüksək göstəricili tələbələrin qəbulu, ingilis dilli ixtisasların çoxluq təşkil etməsi və univeristet sənayə əlaqələrinin daha da gücləndirilməsi yolundakı görülən işlər tədris prossesinin təşkilində kənardan professor-müəllim heyətinin cəlb edilməsi zəruriliyini il-ildən artırır. Belə ki, kənardan cəlb olunan xarici və yerli mütəxəssislərin profili, bilik və bacarıqları tədrisin keyfiyyətinin təmin edilməsi üçün çox mühümdir. Bu mütəxəssislərin bir qismi natamam iş qrafiki ilə (çünki spesifik sahənin mütəxəssisi üçün kifayət qədər dərs yükünün təyin edilməsi mümkün olmur) müəllim vəzifəsinə cəlb olunurlar. Bu siyasət universitetin təlabatına uyğun çevik işəgötürmə sistemindən istifadə

etməyə imkan verir. Hal-hazırda universitet üzrə saat hesabı müəllimlərin sayının çox olması da yuxarıda qeyd olunan səbəblərdən yaranmışdır. Həmçinin, kənardan cəlb edilən professor-müəllim heyətinin əksəriyyətinin xaricdən, sənayədən, dövlət qurumlarından olması həm tədris, həm də elmi tədqiqat yönümlü qarşılıqlı əməkdaşlıqların gücləndirilməsində cox yaxşı nəticələr vermişdir.

Xəzər Universitetinin digər strateji hədəflərindən biri də yüksəksəviyyəli professor-müəllim və işçi heyətinin universitetlə uzunmüddətli əməkdaşlıqlarını təmin etmək üçün onların performansının qiymətlədirilməsi və bunun əsasında differensiallaşdırılmış əməkhaqqı sisteminin tətbiqidir. Akademik heyətin qiymətləndirilməsi aşağıdakı meyarlar üzərindən aparılır:

1. Tədris fəaliyyəti

- İxtisas üzrə bilik və bacarığı, dərs dediyi fənləri bilmə səviyyəsi;
- İzah etmə və tələbələrin həvəsləndirmə qabiliyyəti;
- Dekanın, departament müdirinin, həmkarların və ictimaiyyətin rəyi;
- Tələbə və məzunlar arasında sorğu nəticələri.

2. Elmi və yaradıcı işi

- Elmi jurnallarda (xüsusilə nüfuzlu jurnallarda, məsələn, anonim rəyli, beynəlxalq indeksli) məqalələri, monoqrafiyaları və ya yaradıcı işləri (memarlıq, rəssamlıq, musiqi, teatr-kino,ədəbi yaradıcılıq, texnoloji işlər), onların miqyası, orijinallığı, dərinliyi;
- Tədqiqat işlərinə görə şəxsi qrantları və ümumi qrantlarda iştirakı, beynəlxalq layihələrdə iştirakı;
- Elmi əsərlərinə istinadlar;
- Elmi dərəcələri və adları (magistr, fəlafə doktoru, elmlər doktoru);
- Elmi rəhbəri və ya məsləhətçi olduğu elmi-yaradıcı mövzular, dissertasiya və tədqiqat işləri;
- Universitetdaxili, ölkədaxili və beynəlxalq simpozium, konfrans, seminar və digər elmi və yaradıcı görüşlərdə fəallığı, məruzə və çıxışları;
- Yazdığı elmi-kütləvi yazılar, rəylər. Etdiyi tərcümələr;
- Elmi və ya yaradıcı sahələrdə aldığı fəxri adlar, tutduğu vəzifələr. Layiq görüldüyü mükafatlar;
- Yaradıcılığı haqqında yazılar, rəylər, fikirlər;

3. İctimai və təşkilatı işlər

- Ölkə və beynəlxalq səviyyədə fəaliyyəti;
- Konfrans, seminar və görüşlərin təşkili və təşkilatı fəallığı;
- Elmi şuraların, ayrı-ayrı komissiya və komitələrin üzvlüyü;
- Redaktor işi, redaksiya heyətinin, ittifaqların və assosiasiyaların üzvlüyü;

-Ümumi icitimai fəallığı (həmçinin layiq görüldüyü fəxri adlar, təşəkkür və mükafatlar);
- İdarəetmə təcrübəsi;
-Departament, fakultə və universitədə tətbiq olunan siyasətin müəyyən edilməsində rolu;
- Cəmiyyətə xidməti (humanitar işlər, məktəb işində iştirakı və s.);
Qiymətləndirmə meyarlarının tətbiq edilməsinin əsas məqsədi universitetdə akademik heyətin inkişaf potensialını yüksəltmək və sağlam rəqabəti formalaşdırmaqdır. 2018, 2019, 2020 tədris illərinin sonunda akademik heyət arasında "İlin ən yaşxşı müəllimi", "İlin ən yaxşı tədqiqatçısı" yönümlü qiymətləndirmə layıhələri həyata keçirilmişdir. Artıq neçə ildir ki, universitet üzrə qiymətləndirmə meyarları əsasında fərqlənmiş akademik heyətə differensiallaşdırılmış əməkhaqqı sistemi tətbiq edilərək aylıq əmək haqları artırılmışdır.
Universitetdə əsas təhsil dili ingilis dili olması tələbələrin müasir dərsliklərdən istifadə etməsi, təhsillərini xaricdə davam etdirməsi, mübadilə proqramlarında aktiv iştirak etməsinə, o cümlədən xarici ölkələrin nüfuzlu alimlərinin tədris prosesinə cəlb olunmasına geniş imkan verir. Universitetdəki 90-dan çox professor-müəllim heyəti xaricdə təhsil almış və ya dünyanın müxtəlif ali təhsil müəssisələrində təcrübə keçmiş, öz sahələrində söz və nüfuz sahibi olan ingilisdilli mütəxəssislərdir. Hər semestr təxminən 10-20 əcnəbi müəllim semestr boyu universitetdə dərs deyir. Bununla yanaşı, qısa müddətli fənn tədris və məruzələr etmək üçün tez-tez Fulbright, Erasmus+ mübadilə proqramı çərçivəsində xaricdən professor-müəllim heyəti, mütəxəssislər dəvət olunur. Onlar tələbələrə bir, iki və ya üç həftəlik intensiv dərs tədris etməklə kadr təminatımızı və tədris metodologiyasını gücləndirir. Onların rəhbərliyi ilə müəllimlər üçün təlimlər də təşkil edilir ki, bu da yerli müəllimlərin bilik, bacarıq və təcrübəsinin artırılmasına xidmət edir.

Universitet ölkə üçün xaricdə kadr hazırlanması məsələlərinə də ciddi önəm verir və müxtəlif proqramlarda aktiv iştirak edir. Növbəti illərdə kadr potensialının artırılması məqsədilə universitet 2019-2023-cü illər üçün "Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində prioritet sahələr üzrə xaricdə təhsilə dəstək verərək 37 doktorant ilə üç tərəfli müqavilə imzalamışdır. Tələbələr məzun olduqdan sonra 5 il müddətində Xəzər Universitetində fəaliyyət göstərəcəklər.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

*3.8.Tələbəyönümlü tədris*

Xəzər Universitetində tələbələrin fərdi planı hər bir tələbənin e-kabinetində (SIMS platformasında) 4\5 il 8-10 semestr üzrə bölgüsü aparılmış tədris qrafiki əsasında hazırlanır. Tələbə bu sistemdə öz kabinetində hər tədris ili və hər semestr üzrə götürəcəyi fənləri, kreditləri

özü müəyyənləşdirir. Beləliklə tələbələr fərdi tədris planının tərtib edilməsində birbaşa iştirak edir.

Universitetin daxili qaydalarına əsasən semestr üzrə hər bir tələbə minimum 24, maksimum 36 AKTS dərsə yazıla bilər. Part-time tələbələr öz ərizələri əsasında dekanlığa müraciət edək daha az (min. 10-12 AKTS) kredit götürə bilər.

Hər semestr dərslərin başlamasından əvvəlki həftə tələbə öz kodu və şifrəsi ilə sistemə daxil olaraq, ixtisası və tədris semestri üzrə açılmış fənlərin kodunu, adını, qruplarını, ön şərtlərini, kreditini, hansı bloka aid olduğunu, məcburi və ya seçməli dərs olduğunu, fənn müəlliminin adını və bloklar üzrə kreditlərini görür. Tələbə hər bir fənni/qrupu seçdiyi zaman fənn/qrupun cədvəlini öz səhifəsində görür və öz fərdi planını təyin etməkdə sərbəstdir.

Xəzər Universitetində yaradılmış e-tədris sistemi (SIMS) yuxarıda da qeyd edildiyi kimi həm təhsilalanın fərdi tədris planının tərtib edilməsində iştirak etməsinə, həm də tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlərin tələbələr tərəfindən seçiminin sərbəstliyinin təmin edilməsinə xidmət edir.

Qeyd edilən SIMS e-tədris sistemi tələbələrin akademik məsləhətçidən asılılığını azaltmaqla yanaşı təhsil sistemində ədalətlilik, şəffaflılığı təmin edir, eyni zamanda tələbələrin müstəqil qərarlar qəbul etməsinə, öz vaxtlarını planlaşdırmasına və nəticədə tələbəyönümlü tədrisin təşkilinə şərait yaradır.

Universitetdə, eyni zamanda hər semestr açılacaq dərslər, əlaqədar ixtisas üzrə akademik məsləhətçilər tərəfindən təlimat şəklində tələbələrin SIMS və MS TEAMS platformalarında elan edilir, elektron məktublar və virtual siniflər vasitəsilə məlumatın tələbələr üçün əlçatanlığı təmin edilir.

Xəzər universitetində tədris semestrinin birinci həftəsində tələbələr fənn və qrup dəyişikliyi, fəndən imtina üçün ixtisas üzrə akademik məsləhətçilərə müraciət edir.

Xəzər universitetində tədrisin keyfiyyətinin yüksəldilməsi, mövcud çatışmazlıqların aradan qaldırılması məqsədilə müntəzəm olaraq təhsilalanlar və məzunlar arasında rəy sorğuları keçirilir.

Son 5 ildə tələbələr arasında Survey Monkey sorğu proqramı vasitəsilə universitetin ümumi fəaliyyətinin qiymətləndirilməsinə dair 3 sorğu, SIMS platforması üzərindən fənlər üzrə məmnunluğa dair 11 sorğu keçirilmişdir.

Aşağıdakı qrafikdə 2017-2022-ci illər ərzində fənlər üzrə məmnunluq sorğularında iştirak edən tələbələrin say dinamikası verilmişdir.




Tələbələr arasında yuxarıda qeyd olunan sorğu istiqamətləri ilə yanaşı onlayn tədrisin təşkili, Kitabxana-İnformasiya Mərkəzi haqqında, Tələbə dəstək xidməti (yataqxana və yeməkxana) və s. barədə sorğular aparılmışdır.

Universitetin məzunları arasında Survey Monkey sorğu proqramı vasitəsilə karyera xidmətlərindən məmnunluğa dair 2 sorğu, Google forması vasitəsilə təhsil müddəti ərzində qazanılmış səriştələrdən məmnunluq sorğusu keçirilmişdir.

Tələbələr arasında universitetin ümumi fəaliyyətinin qiymətləndirilməsinə dair keçirilən sorğuların təhlili zamanı dərs cədvəlində ardıcıllığın pozulması, dərslər arasında zaman fərqinin çox olması kimi çatışmazlıqlar müəyyən olunmuşdur. Bu çatışmazlıqların aradan qaldırılması üçün cədvəl tərtib edilməsində nizamlı ardıcıllığın həyata keçirilməsi təmin olunmuşdur.

Tələbələr arasında keçirilən fənlər üzrə məmnunluq sorğularının təşkili zamanı bəzi imtahan tapşırıqlarında sualın qoyuluşunun qəliz olması problemi imtahan tapşırıqlarının monitorinqi keçirilməklə və nəticələri departament rəhbəri ilə müzakirə edilməklə aradan qaldırılmışdır.

Məzunlar arasında keçirilmiş karyera xidmətlərindən məmnunluq sorğularının təhlili nəticəsində məzunların işlə təmin olunması, məzunlarla daimi və daha sıx əməkdaşlıqların qurulması kimi təkliflərin mövcudluğu müəyyənləşdirilmişdir. Qeyd olunan təkliflərin həyata keçirilməsi məqsədilə məzunların Karyera yarmarkasında iştirak edilməsi, uğur qazanmış məzunların Universitetə dəvət olunması, onların master-klas verməsinə şərait yaradılması istiqamətində addımlar atılmışdır. Təhsil müddəti ərzində qazanılmış səriştələrdən məmnunluq sorğusunun təhlili nəticəsində isə məzunların təcrübə keçdikləri müəssisələr üzrə seçim imkanlarının geniş

olmamasından narazı qaldıqları meydana çıxmışdır. Qeyd olunanlar Karyera Mərkəzi tərəfindən müəssisə və təşkilatlarla yeni əməkdaşlıqların qurulması yolu ilə aradan qaldırılmışdır.

Universitetin KTM-nin SIMS-də və müxtəlif sorğu platformalarında keçirdiyi anket/ sorğulardan əldə edilən məlumatlar, təklif və rəylər sistemli şəkildə departament, dekanlıq və Keyfiyyət Təminatı Mərkəzi səviyyəsində müzakirə olunaraq, müvafiq tədbirlərin görülməsi və qərarların verilməsi üçün 2021/2022-ci tədris ilinə qədər rektorluqda universitet rəhbərliyi (rektor, prorektorlar, dekanlar, KTM rəhbəri və İnkişaf Mərkəzinin rəhbəri), 2021-ci ildən sonra isə Keyfiyyət Təminatı Komitəsinin iclaslarında müzakirə olunmuş, tədbirlərin həyata keçirilməsinin monitorinqi KTM tərəfindən aparılmışdır.

Tələbələr tərəfindən sorğularda qeyd olunan onlayn dərslərdə bəzi tələbələrin (1-ci kurs) kompüter çatışmazlığı problemi, bəzi imtahan tapşırıqlarında sualın qoyuluşunun qəliz olması, cədvəl tərtib edilməsində nizamlı ardıcıllığın təmin olunması kimi məsələlər qısa müddətdə öz həllini tapmışdır.

Universitetdə təhsilalanların irad, rəy və təklifləri üçün müxtəlif mexanizmlər mövcuddur. Tələbələr irad, rəy və təkliflərini:

1) İxtisas departamentindəki akademik məsləhətçilərinə və dekanlıqda ixtisas üzrə təyin edilmiş koordinatorlarına müraciət etməklə;
2) Universitetin müxtəlif strukturlarında (universitetin girişlərində, dekanlıqlarda və s.) yerləşdirilmiş “Təkliflər və rəylər qutu”sundan istifadə etməklə;
3) E-platformalardan müraciətlər: SIMS e-tədris platforması, MS Teams platforması və Outlook-dan istifadə etməklə;
4) Universitet üzrə təyin olunmuş “Universitet Ombudsmanı”na müraciət etməklə;
5) “Tələbə Məclisi”nin vasitəsilə irad, rəy və təkliflərin bildirilməsi;
6) Yazılı ərizə və ya elektron məktublarla dekanlara, prorektorlara, rektora və Direktorlar və Qəyyumlar Şurasının sədrinə müraciət etməklə ünvanlayırlar.

Xəzər Universitetində tələbələrin aktiv, şüurlu və demokratik vətəndaş kimi inkişaflarını təmin etmək və akademik problemlərin həllində dəstək olmaq üçün demokratik təlim tədris mühiti mövcuddur. SİP-də nəzərdə tutulan dəyər və bacarıqların formalaşması üçün universitetdə buna uyğun müxtəlif dəstək mexanizmləri yaradılıb:

1. Akademik yazı, gələcək karyera planlaşdırması və s. kimi sahələrdə müxtəlif bacarıqların formalaşdırılması üçün “Tələbə Məclisi”, “Təlim Tədris Mərkəzi” və Karyera Mərkəzinin təşkil etdiyi seminar, (workshop), müzakirə və təlimlərdə iştirak etməklə yanaşı hər üçü ofisə müraciət;

2. Akademik dəstək (sərbəst işlərin hazırlanmasında, dərs materiallarının təmini və müzakirəsi, fənlərdəki çətinlikləri) üçün ixtisas departamentindən kurslar üzrə təyin olunmuş müəllimə (akademik məsləhətçi) müraciət;
3. Təşkilati məsələlərlə (fənn seçimi, qeydiyyatı, cədvəl, qrup-fənn dəyişikliyi, arayışlar, apellyasiyalar, tədbirlərin təşkili və s.) bağlı dekanlıqda fəaliyyət göstərən ixtisas koordinatoruna müraciət.

Hər il 1-ci kurslar üçün keçirilən məlumatlandırma (oriyentasiya) görüşlərində bu dəstək mexanizmləri barədə məlumat verilməklə yanaşı, kitabxanadan istifadəyə dair məlumat da verilir.

Xəzər Universitetində tələbələr üçün yaradılmış demokratik təlim tədris mühitində tələbələr istədikləri sual, irad və ya təkliflə universitetin əlaqədar şöbələrinə həftə içi hər gün 09:00-18:00 saatlarında üz-üzə müraciət edə bildikləri kimi, 24 saat ərzində də email vasitəsilə müraciət etməkdə sərbəstdirlər.

Bununla yanaşı universitetdə hər bir tələbənin əlaqədar qurum və şəxslərlə daha rahat və sürətli ünsiyyət qurması üçün müxtəlif imkanlar və mexanizmlər yaradılmışdır:

1. Universitetdəki ilk məlumatlandırma görüşündə tələbələrə khazar.org korporativ elektron poçt adresləri, SIMS e-tədris platformasındakı istifadəçi adı və şifrəsi təqdim edilir.
2. Tələbələr dekanlıqlar tərəfindən yaradılmış MS TEAMS qruplarına üzv olurlar və akademik məsləhətçilərlə ünsiyyətdə olurlar.
3. SIMS e-tədris platformasından birbaşa dekanlığa müraciət edirlər. Tələbələrin istədikləri müraciətlər dekanlıqdakı əlaqədar akademik məsləhətçi tərəfindən araşdırılır, lazımi tədbir görülür. Məsələn, əgər tələbə hər hansı bir arayış, rəsmi transkript, tövsiyə (referans) məktubu və s. kimi məsələ ilə bağlı müraciət edirsə, sənəd hazırlanır, istəyə görə elektron poçt vasitəsilə skan edilərək göndərilir və ya tələbələr dekanlıqlardan təhvil alırlar. Dərs, qrup dəyişikliyi müraciəti SIMS e-platforması üzərində icra olunur. Apellyasiya müraciətləri yenə SIMS -e tədris platforması üzərindən həyata keçirilir.

Xəzər Universitetində 23 iyun 2015-ci il tarixindən Avropa İttifaqının "Əlilliyi olan şəxslərin Azərbaycanın ali təhsil müəssisələrinə inteqrasiyası" (ESFIDIP) layihəsi çərçivəsində "Əlilliyi olan tələbələr üçün Mərkəz" fəaliyyətə başlamış və bugün də işini davam etdirir. Mərkəzin maddi resursları və avadanlıqları layihə çərçivəsində yaradılmış, onların davamlılığı mərkəz tərəfindən təmin olunmuş və layihə başa çatdıqdan sonra Universitetin mülkiyyətinə çevrilmişdir. Hal-hazırda sağlamlıq imkanları məhdud şəxslərin təhsilinin təmin olunması üçün universitetdə tədris infrastrukturu mövcuddur. Belə ki, Neftçilər korpusunun yeni binasının girişində fiziki məhdudiyyəti olan tələbələr üçün lift (ramp) mövcuddur. Fiziki məhdudiyyətli tələbələr üçün

dəsrlərin planlaşdırılması (dərs otaqları, dərslərin və imtahanların keçirilmə üsulları) uyğun dekanlıqlarla birgə həyata keçirilir. Tədris prosesi interaktiv (təqdimatlar) şəkildə həyata keçirildiyi üçün bu sağlamlıq imkanları məhdud şəxslərə təhsili əlverişli edir.

Hazırda universitetdə üç görmə məhdudiyyətli tələbə təhsil alır. Onlar Humanitar, Təhsil və Sosial elmlər fakültəsində Tarix müəllimliyi (1 tələbə, 3-cü kurs), Filologiya və Azərbaycan dili Ədəbiyyatı (2 tələbə, 3-cü kurs) ixtisasları üzrə təhsil alırlar. Həmin tələbələrin tədrisinin təşkilində dekanlıq və mərkəz əməkdaşları birgə fəaləyyət göstərir. Tədris materiallarının brayl əlifbasına çevrilməsində mərkəz köməklik edir. Fərdi dərslər təşkil edilir. Dərs zamanı tələbələrə dərsin gedişatını diktofon yazmağa icazə verilir. Görmə məhdudiyyəti olan tələbələrə tədris prosesi zamanı əlavə fərdi dərs və konsultasiya saatları təyin edilir. Fənnin xüsusiyyətindən asılı olaraq imtahanların təşkil forması şifahi şəklində təşkil olunur və ehtiyac yarandıqda imtahan müddətində dəyişiklik edilir.

Layihə çərçivəsində universitetin professor-müəllim heyətinin bir hissəsi, o cümlədən inzibati heyət ardıcıl təlimlərdə iştirak etmişdirlər.

Xəzər Universitetində Qarabağ müharibəsi əlili və ya şəhid ailəsindən olan, valideyn himayəsindən məhrum, I və II qrup əlilliyi olan tələbələrə dövlət hesabına təhsil alma imkanı yaradılmışdır. 2017/2018-ci tədris ilindən 2022/2023-cü tədris ili ilə müqayisədə Xəzər Universitetində bu dinamikanın artdığı müşahidə edilir. Aşağıdakı cədvəldə bu dinamikanı izləmək mümkündür:




| | Tələbə ikən valideyinlərindən birini itirmiş tələbə sayı | valideyin himayəsindən məhrum tələbə | Qarabağ müharibə əlili və ya şəhid ailəsindən olan tələbə sayı |
|---|---|---|---|
| 2018/2019 | 2 | 22 | 47 |
| 2019/2020 | 3 | 27 | 59 |
| 2020/2021 | 6 | 38 | 84 |
| 2021/2022 | 14 | 39 | 93 |
| 2022/2023 | 14 | 28 | 104 |

2019/2020-ci tədris ilində başladılan və 3 semestri əhatə edən sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələr üçün yaradılan təhsil alma imkanından Xəzər Universitetinin 297 tələbəsi yararlanmışdır.

| | |
|---|---|
| 2019/2020-ci tədris ilinin 2-ci semestri | 100 tələbə |
| 2020/2021-ci tədris ilinin 1-ci semestri | 104 tələbə |
| 2020/2021-ci tədris ilinin 2 ci semestri | 93 tələbə |

Xəzər Universitetində 2021-ci ildə başladılan Tələbə təhsil kreditinə isə son üç semestr ərzində (2021/22-ci tədris ili və 2022/23-cü tədris ilinin payız semestri) 135 bakalavr , 69 magistr olmaqla 204 tələbə müraciət etmişdir.

Xəzər Universitetində tələbələrə yaradılan təqaüd və imtiyazlar imkanları aşağıdakı kateqoriyalar üzrə cədvəldə təsvir olunmuşdur:

| | 2017/2018 | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 |
|---|---|---|---|---|---|---|
| Qəbul imtahanında yığdığı bala görə | 43 | 90 | 181 | 274 | 309 | 362 |
| Bir ailədən 2 nəfər təhsil aldığına görə | 31 | 38 | 42 | 44 | 15 | 17 |
| Dünya məktəbinin məzunu | 6 | 6 | 6 | 6 | 1 | |
| Tələbə ikən valideynlərindən birini itirmiş | 3 | 9 | 10 | 12 | 13 | 11 |
| Xəzərin məzunu | 16 | 17 | 17 | 21 | 11 | 16 |
| Valideyni Xəzərdə işləyən tələbə | 6 | 7 | 7 | 8 | 1 | 2 |
| Olimpiadanın qalibi | 1 | 1 | 1 | 2 | 2 | 1 |
| Nailəxanım təqaüdü | - | - | - | - | 1 | 3 |
| Erasmus proqramları | 6 | 6 | 6 | 6 | 6 | 1 |

Akademik nailiyyyətinə görə xarici tələbələrə yaradılan təqaüd imkanı (güzəştlər) aşağıdakı cədvəldə göstərildiyi kimidir:

| | 25% | 50% | 75% | 100% |
|---|---|---|---|---|
| 2017/2018 | 2 | 19 | 26 | 30 |
| 2018/2019 | 8 | 24 | 40 | 36 |
| 2019/2020 | 9 | 28 | 50 | 38 |
| 2020/2021 | 11 | 34 | 66 | 38 |
| 2021/2022 | 11 | 34 | 45 | 17 |

| | | | | |
|---|---|---|---|---|
| 2022/2023 | 21 | 36 | 27 | 8 |

Eyni zamanda, akademik nailiyyətlərinə görə təqaüd alan yerli tələbələrin illər üzrə inkişaf dinamikası aşağıdakı qrafikdə təsvir olunmuşdur.




| | 2017-2018-ci tədris ili | 2018-2019-cu tədris ili | 2019-2020-ci tədris ili | 2020-2021-ci tədris ili | 2021-2022-ci tədris ili |
|---|---|---|---|---|---|
| Series 1 | 954 | 1435 | 1523 | 2920 | 2742 |

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

### *3.9.Təhsil proqramlarının monitorinqi və yenilənməsi*

Tədris planlarının monitorinq strategiyası mövcuddur, bu strategiya Universitetin strategiyasına və fəaliyyət planına uyğun olaraq həyata keçirilir. Monitorinq ilk növbədə bakalavr və magistr proqramlarını əhatə edir. Monitorinq semestrlərə uyğun olaraq reallaşdırılır.
Monitorinq strategiyası və fəaliyyət planları aşağıdakıları əhatə edir:

1. Tədris planlarının təqvim planına uyğun olaraq yerinə yetirilməsi;
2. Tədris prosesinin gedişatına nəzarət;
3. Fənn sillabuslarının fənn proqramlarına uyğunluğu;
4. Tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsi prosesinin monitorinqi;
5. Öyrənmə nəticələrinin tədris planında nəzərdə tutulanlara uyğunluğu;
6. Təcrübələrin tədris planlarına uyğun keçirilməsi;
7. Təcrübənin nəticələrinin tədris planında nəzərdə tutulanlara uyğunluğu;
8. Magistr dissertasiyalarının məzmun və keyfiyyətinin monitorinqi;
9. Tələbələr arasında sorğuların keçirilməsi.

Təlim nəticələrinin əldə edilməsinə nəzarət müxtəlif istiqamətlərdə aparılır:

-fənn sillabuslarının keyfiyyətinə nəzarət;

-mühazirələrin məzmun və keyfiyyətinə nəzarət;
-aralıq və yekun imtahan tapşırıqlarının məzmununa nəzarət;
-fərdi tapşırıqların yerinə yetirilməsinin keyfiyyətinə nəzarət.

Təhsil proqramlarının icrası nəticəsində əldə ediləcək təlim nəticələri ixtisasın təlim nəticələri ilə uyğunlaşdırılmış fənnin təlim nəticələri şəklində fənn üzrə sillabuslarda təsvir edilir. Sillabuslar fənn müəllimləri tərəfindən fənn proqramlarında nəzərdə tutulmuş məzmun və təlim nəticələrinə əsasən tərtib edilir. Daha sonra departament rəhbərləri tərəfindən təsdiq edildikdən sonra universitetin Keyfiyyətin Təminatı Mərkəzi tərəfindən yoxlanılır və universitetin veb-saytında yerləşdirilir.

SIMS informasiya sistemi vasitəsilə ayrı-ayrı fənlərin mənimsənilmə göstəricilərini əldə etmək mümkündür. Bu göstəricilər əsasında təhsil proqramlarının həyata keçirilməsinin effektivliyini qiymətləndirmək və gərək olduğu hallarda uyğun düzəliş və əlavələr etmək mümkündür. Monitorinq nəticəsində tədris proqramlarının tədris qrafiklərinə uyğun yerinə yetirilməsi təmin olunur, sillabuslar ətraflı təhlil olunur və lazım gəldikdə yenidən işlənilir, imtahan tapşırıqları hərtərəfli məzmun, əhatə dairəsi və mürəkkəblik baxımından təhlil edilir və nəzarət altında saxlanılır, fənn üzrə əldə edilmiş nəticələr həmin fənnin növbəti semestrlərdə tədrisin təkmilləşdirilməsi üçün istifadə olunur.

Departamentin illik fəaliyyətinə uyğun olaraq, tədris semestrin əvvəlində maraqlı tərəflərin təklifləri əsasında seçmə fənlərin siyahısına yenidən baxılır və monitorinqi keçirilir. Departament daxilində keçirilən iclaslarda təhsil proqramlarının monitorinq nəticələri müzakirə edilir.

Ümumilikdə, təhsil proqramlarının monitorinqinin aparılması universitet daxilində ayrı-ayrı ixtisaslar üzrə tədris proqramlarının yerinə yetirilməsinin, tədris planlarının, imtahan tapşırıqlarının zəif cəhətlərini müəyyən etməklə təkmilləşdirilməsi məqsədini daşıyır. Özünütəhlil hesabatının formatına da uyğun olaraq hər bölmənin sonunda SWOT analizi aparılır. Nəticədə, ixtisaslarla bağlı zəif cəhətlər üzə çıxarılır və mümkün tədbirlərin görülməsinə imkan yaradılır.

2019/2020-ci tədris ilində Twinning layihəsi çərçivəsində ingilis dili müəllimliyinin tədris proqramının pilot qiymətləndirilməsi həyata keçirmiş və təhsil proqramının özünüqiymətləndirmə hesabatı hazırlamışdır. Həmin hesabat uyğun şəkildə layihə iştirakçıları tərəfindən yüksək qiymətləndirilmişdir.

Xəzər universitetində tədris olunan təhsil proqramları əmək bazarının və cəmiyyətin tələblərinə uyğun olaraq yerinə yetirilir. Bunun üçün mütamadi olaraq əmək bazarında olan şirkətlərlə, müssisələrlə əlaqə saxlanılır, görüşlər keçirilir və müzakirələr aparılır, məzunların işlə təmin olunmasına dair  sorğular keçirilir. Əldə edilmiş məlumatlardan yeni seçmə fənlərin əlavə

edilməsi, mövcud fənlərin məzmununa dəyişiklik edilməsi, magistrlik dissertasiyalarının mövzularının müəyyən edilməsində istifadə olunur. Təcrübələrin nəticələrindən də məzmunun təkmilləşdirilməsi üçün istifadə olunur. Özünütəhlil hesabatının 3.3. tədrisin təşkili meyarında qeyd edildiyi kimi, universitetdə yaradılmış, əmək bazarının və işəgötürənlərin təmsil olunduğu "Məsləhət Şurası" da təhsil proqramlarının hazırlanması və təlim nəticələrinin müəyyənləşdirilməsinə cəlb olunur.

Məsləhət Şurası əmək bazarında yaranmış peşə bacarıqlarının və kvalifikasiya tələblərinin öyrənilməsi, ehtiyacların müəyyənləşdirilərək təlim nəticələrində əks olunması istiqamətində töhfə verməklə bərabər, tədrisdə müasir texnologiya və kommunikasiyaların, kompüter proqramlarının istifadəsini və beynəlxalq sertifikat proqramlarının tələblərinin qarşılanmasını təşviq edir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

### *3.10. Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi*

Karyera Mərkəzi 1 noyabr 1999-cu ildə ABŞ-ın Avrasiya Fondu tərəfindən maliyyələşdirilən "Xəzər Universitetində 1999-2001-ci illərdə Karyera Mərkəzinin İnkişafı Layihəsi" çərçivəsində yaradılmışdır. Böyük Britaniyanın Nottingham Trent Universitetinin karyera ekspertləri yeni yaradılmış Mərkəzin əməkdaşlarına təlimlər keçərək və dərs vəsaitləri hədiyyə edərək daimi dəstək göstərmişlər.

Mərkəz Universitetin tələbələrinə karyera seçimlərini araşdırmaq və karyera inkişafı ilə bağlı materiallara, o cümlədən, onlayn resurslara və müxtəlif alternativ xidmətlərə çıxış təmin etməklə bakalavr və magistratura təhsilindən karyeraya keçiddə köməklik göstərir.

Vaxtaşırı yenilənən onlayn karyera veb-saytı (www.khazar.org/career) müvafiq karyera imkanları və potensial namizədlər haqqında tələbələrə və işəgötürənlərə məlumat verməkdədir.

Karyera Mərkəzi tələbə və şirkətlər arasında körpü rolunu oynayır. Məqsədimiz bazarın tələblərini nəzərə alaraq, tələbələrin yeni iş imkanlarını tapmasına yol açmaq və gələcəyin tələb olunan güclü kadrlarını yetişdirməkdir. Karyera mərkəzi müxtəlif şirkət və qurumlarla əməkdaşlıq edir və iş bazarındakı dəyişiklikləri yaxından müşahidə edir. Şirkətlərlə əlaqələrin gücləndirilməsi və genişləndirilməsi mərkəzin fəaliyyətinin mühüm bir hissəsidir.

Bugünədək mərkəz bir çox işə imza atmıştır. Dövlət səviyyəsində keçirilən illik tədbirdə iştirak etmiş və kadrlar şöbəsinin nümayəndələri ilə görüşlər keçirmişdir. Ölkədaxili fəaliyyətlə yanaşı, Avropa Birliyinin dəstəyi ilə həyata keçirilən layihələrdə də Karyera Mərkəzi Xəzər Universitetini təmsil etmişdir. 2022-ci il dekabrın 17-də Xəzər Universiteti və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) təşkilatçılığı ilə Erasmus+ UniLab layihəsi

çərçivəsində ADNSU-da UniLab Milli Konfransı keçirilib. Konfransda “Tələbələrin və işəgötürənlərin vakansiyalara və təcrübə proqramlarına müraciət edərkən qarşılaşdıqları problemlər və onların həlli istiqamətində atılan addımlar” və “Gənclərin iş həyatında yeri və rolu: sənaye və universitet əməkdaşlığı” mövzularında panel müzakirələri aparılıb.

Karyera Mərkəzin fəaliyyət istiqamətini aşağıdakı hissələrə bölərək təsvir etmək olar:

**Karyera Konsultasiyası** - bizim burada əsas məqsədimiz universitetin 3-cü və 4-cü kursunda oxuyan və yeni məzun olmuş tələbələrini bir araya gətirib konsultasiya keçərək iş həyatına daha əmin addım atmalarına kömək etməkdir. Konsultasiya zamanı tələbələrə sahələri ilə bağlı ətraflı məlumatlar və karyeralarında hansı addımları atmaqları ilə bağlı məsləhətlər verilir.

**Təhsil konsultasiyası** - biz mərkəz olaraq burada ölkə daxili və ya xaricində təhsil almaq istəyən tələbələrə dəstək göstərir, necə və hara mürəciət etməli olduğunu deyir, sahəsi üzrə hansı magistr dərəcəsini oxuya biləcəklərini izah edirik.

**Müsahibə bacarıqları** - müsahibələr zamanı tələbə və məzunlarından mərkəzimiz tərəfindən təyin edilmiş şəxslər tərəfindən müsahibə alınır və qarşılaşa biləcəkləri potensial suallar ilə onları simulasiya edib müsahibəyə hazırlaşdırırıq. Burada tələbələr müsahibə bacarıqlarını inkişaf etdirdiyi üçün işgötürən tərəflə görüş zamanı sualları peşəkar şəkildə cavablandırır.

**Korporativ tədbirlər** - Karyera Mərkəzi müxtəlif sahələr üzrə fəaliyyət göstərən şirkətlərdən gələn təklifləri dəyərləndirir və universitetin daxilində tələbələr üçün tədbirlər təşkil edir. Xəzər Universiteti təhsil alan tələbələrin şirkət nümayəndələrinin qatıldığı tədbirlərdə və seminarlarda aktiv iştirak etməsi üçün şərait yaradır. Bu kimi tədbirlər tələbələrə şirkətləri tanıdır və onlar şirkətdaxili qəbul proseduru ilə də yaxından tanış olmaq imkanı əldə edirlər. Tədbirlərin əsas məqsədi tələbələrdə maraq oyadaraq daha məqsədyönlü bir şəkildə karyera seçimlərini etməyə yol açmaqdır.

**CV konsultasiyası** - tələbə və məzunlar mərkəzə gələrkən ilk olaraq öz CV-lərini gətirir və mərkəzin rəhbəri ilkin nəzərdən keçirdikdən sonra isə düzəlişlərini edir. Bu da öz növbəsində tələbə və məzunların daha peşəkar CV - lərinin olması deməkdir.

**Peşəkar inkişaf təlimləri seriyası** - Sosyal bacarıqlar tələbənin dərslərdə öyrənə biləcəyi bir nüans deyil.Təlimlər vasitəsilə tələbələr özünü ifadə etmə bacarığı, komanda işi və s. bu kimi bacarıqları artıra bilərlər. Təlimlərdə iştirak edərək, tələbələr təhsil proqramı ilə yanaşı profesional ünsiyyət bacarıqlarını təkminləşdirib iş həyatına daha tez adaptasiya ola bilirlər.

**Karyera sərgisi-** Şirkətlər karyera yarmarkasında iştirak etməklə, Xəzər universitetinin məzunlarını uyğun vakansiyalara işə götürürlər. Bu yolla onlar, eyni zamanda, Karyera Mərkəzi ilə uzun müddətli əməkdaşlıq edir və öz şirkət daxili güclü kadr və mütəxəssis yetişdirilməsi strategiyasını həyata keçirirlər.

**Tələbələrin və məzunların işlə təmin olunması -** İşlə təmin olunma prosesi yalnız "Karyera Sərgisi" günü ilə məhdudlaşdırılmır. Bundan əlavə, gündəlik vakansiyalar və potensiallı namizədlərin şirkətlərə yönləndirilməsi yolu ilə baş verir.

**İstehsalat təcrübəsinə yerləşdirmə -** Əsasən universitetin III və IV kurs tələbələrini oxuduqları sahə üzrə ölkənin nüfuzlu şirkətlərinə istehsalat təcrübəsinə göndəririk.

Adətən, tələbələrlə konsultasiya konfidensiallıq baxımından fərdi şəkildə Karyera Məsləhətçisi tərəfindən keçirilir. Tələbələr ilk öncə dəstək almaq istədikləri sahəni ilk konsultasiya zamanı bildirirlər. Mərkəz hər bir müraciət edən tələbənin məsələsini ayrı- ayrılıqda dəyərləndirir və tələbənin seçdiyi sahə üzrə uğurla davam etməsi üçün öz dəstəyini göstərir. Tələbələr məzun olduqdan sonrakı 1 il ərzində Karyera Mərkəzinə müraciət edə bilərlər. Tələbələr mərkəzə müraciət edərkən tələb olunan əsas faktorlar var. Hansı ki, bunlardan biri və birincisi onların şəxsi CV-dir ki, biz mərkəz olaraq həmin CV-yə baxıb tələbənin bilik və bacarıqlarına uyğun vakansiyalarına baxılıb müraciət olunur.

Aparılan sorğulara əsasən deyə bilərik ki, 2017- ci ildə sorğudan keçən məzunların 59%-i Karyera Mərkəzinin dəstəyini almışdır. Bunu illər üzrə göstərsək, mərkəz 2018-ci ildə məzun olmuş tələbələrin 56%-nə, 2019-cu ildə isə 70%-nə xidmət göstərmişdir. Qeyd etmək lazımdır ki, dünya təhsil sistemində olduğu kimi, Xəzər Universitetinin fəaliyyəti də 2020 və 2021-ci ildə pandemiya səbəbi ilə aktiv şəkildə keçirilə bilməmişdir. Lakin buna baxmayaraq, Karyera Mərkəzi 2020-ci və 2021-ci məzunları ilə 2022-ci ildə təkrar əlaqə yaradıb sorğuda iştiraka dəvət etmişdir. Son məzun olan tələblərimiz yəni, 2022-ci ilin məzunlarının 75 %-i mərkəzə işlə bağlı müraciət etmişdir.

Məzunlar ofisi Karyera Mərkəzinin idarəsi və nəzarəti altındadır. Bu da onu göstərir ki, biz Karyera Mərkəzi olaraq tələbələrlə yanaşı həm də məzunlarla işləyib onların daha uğurlu gələcək qurmasını təmin edirik.

Karyera Mərkəzi Xəzər Universitetinin məzunlarının müvafiq dövlət və ya özəl şirkətlər və qurumlarda əmək bazarındakı iştirakını, ixtisasına uyğun sahədə işlə təmin olunmasını dəstəkləyir, eyni zamanda, bu proseslə bağlı vəziyyəti nəzarət altında saxlayır. Hər il məzunlarla keçirilən sorğu vasitəsilə onların iş fəaliyyəti ilə bağlı və təmsil etdikləri qurum və şirkətlər barəsində məlumat sistemli şəkildə qeydə alınır. Bu mexanizm vasitəsilə stajlı kadrlar ilə də yeni əlaqələr yaradılır. İkitərəfli izləmə mexanizmi ilə Karyera Mərkəzi əvvəl və sonra məzun olan universitet tələbələri haqqında çalışdıqları şirkətlərdəki rəylər qeydə alınır və daha çox məzuna iş təklifi almasına şərait yaradılır.

- 2022-ci ilin sorğusunda iştirak edən məzunların 63%-i hal-hazırda əmək bazarında fəaliyyət göstərməktədir;

- Sorğu iştirakçılarının 76%-i ixtisasına uyğun sahədə işləyir;
- 70% sorğu iştirakçısının işlədiyi sahə ixtisasına uyğundur.

| **İl** | **Məzun sayı** | **Sorğuda iştirak edənlər** | **İşləyir** | **Faiz** |
|---|---|---|---|---|
| 2017 | 386 | 90 | 85 | 94% |
| 2018 | 413 | 80 | 69 | 86% |
| 2019 | 359 | 95 | 84 | 88% |
| 2020 | 382 | 90 | 71 | 78% |
| 2021 | 459 | 95 | 78 | 82% |
| 2022 | 520 | 150 | 95 | 63% |

Nəticə ilə bağlı ətraflı məlumat aşağıdakı cədvəldəki göstəricini əks edir.

| **İl** | **Sorğuda iştirak edən məzun sayı** | **İşləyən məzun sayı** | **Məzun olmadan öncə** | **3 ay ərzində** | **6 ay ərzində** | **1 ildən sonra** |
|---|---|---|---|---|---|---|
| 2017 | 90 | 85 | 23 | 17 | 10 | 35 |
| 2018 | 80 | 69 | 51 | 5 | 5 | 8 |
| 2019 | 95 | 84 | 2 | 24 | 24 | 34 |
| 2020 | 90 | 71 | 22 | 8 | 33 | 8 |
| 2021 | 95 | 78 | 39 | 12 | 15 | 12 |
| 2022 | 150 | 95 | 56 | 30 | 7 | 2 |
| **Toplam** | **600** | **482** | **193** | **96** | **94** | **99** |

Növbəti cədvəl isə sorğuda iştirak edən Xəzər Universiteti məzunlarının hansı müddətdə işlə təmin olunduğunun faiz dərəcəsini (%) göstərir.

| **İl** | **Məzun olmadan öncə** | **3 ay** | **6 ay** | **1 ildən sonra** |
|---|---|---|---|---|
| 2017 | 28% | 20% | 11% | 41% |
| 2018 | 75% | 8% | 8% | 12% |
| 2019 | 3% | 30% | 30% | 42% |

| | | | | |
|---|---|---|---|---|
| 2020 | 32% | 12% | 47% | 12% |
| 2021 | 50% | 16% | 20% | 16% |
| 2022 | 59% | 32% | 8% | 3% |

Məzunların əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğu aşağıdakı kimidir:

- 55.8% -i isə Xəzər Universitetində qazandığı bilik və bacarıqların onlara işlədiyi sahədə kömək etdiyini təsdiqləyir, bununla yanaşı 52,3% məzun bu fikirlə qismən razı olduğunu bildirib;
- 70%-i təhsil proqramı üzrə keçdikləri təcrübə hazırki iş sahəsi ilə uyğundur;
- 40%-i hal-hazırda təhsillərini davam etdirməkdədirlər;
- 79%-i təhsil aldiğı sahə bakalavr ixtisasına uyğundur.

Xəzər Universiteti hər il məzun olan tələbələrə sorğu göndərir. Tələbələrin bəziləri universiteti bitirən kimi hərbi xidmətə yola düşür və ya bəzi tələbələr xaricdə təhsillərini davam etmək qərarı alırlar. Bu isə hər il ümumi məzun olan tələbə sayı ilə sorğuda iştirak edən tələbə sayının arasında fərq yaradır. Onu da qeyd edək ki, sorğuda iştirak könüllüdür. Məsələn, 2019-da (359) tələbə məzun olub, ancaq bunlardan 26%-i sorğuda iştirak edib. Son 6 ilin sorğu nəticəsinə əsasən, hər il bu dinamika dəyişir.

Aşağıdakı cədvəldə sorğuda 2017-2022-ci illər ərzində iştirak edən məzunların (%) dərəcəsi qeyd olunub:

| | |
|---|---|
| 2017 | 23% |
| 2018 | 19% |
| 2019 | 26% |
| 2020 | 23% |
| 2021 | 20% |
| 2022 | 28% |

Pandemiya səbəbi ilə əlaqədar olaraq Azərbaycanda və eləcə də dünyada təhsil sahəsində tədris prosesi dəyişdi. Belə ki, pandemiyanın ilk illərində ənənəvi təhsil sisteminə alışmış tələbələr

onlayn təhsil formatına keçiddə çətinlik çəkərək, dərslərindən geri qalmağa başladılar. Xaricə getmək istəyən tələbələr isə ölkələr arası yaranan nəqliyyat və viza məsələsinə görə öz təhsillərini davam etdirə bilmədilər. Lakin hal-hazırda sorğudan da göründüyü kimi son illərdə məzun olan tələbələr artıq təhsil proqramının keyfiyyətindən xeyli razıdılar və xaricdə təhsil almaq ötən illərə nisbətən daha asan və əlçatan olmuşdur.

Məzunlarla davamlı əlaqə sistemi Karyera Mərkəzinin və Məzunlar Ofisinin birgə və koordinasiyalı davamlı fəaliyyəti nəticəsində sistemli şəkildə hər il icra olunmaqdadır.

Hər məzun, məzun olduqdan sonra sorğudan iştirak etmək üçün məlumatlandırılır. Məzunların sorğuda iştirak etməsi könüllüdür. Sorğuda iştirak edənlərin 74%-i məzun olduqdan sonra da işlə bağlı dəstək almaq üçün Karyera Mərkəzi ilə əlaqə saxlamışdır.

Karyera Mərkəzi mütəmadi olaraq keçirdiyi tədbirlər nəticəsində tələbələrlə sıx əlaqələr qurmuşdur. I və II kurs tələbələri bu tədbirlər nəticəsində Karyera Mərkəzi ilə tanışlıq prosesinə başlayır, Mərkəzin əsas prinsipləri haqqında məlumatlandırılır və ehtiyac olduğu təqdirdə keçirilən tədbirlərdə iştirak edir. Bu tanışlıq prosesi Mərkəz üçün də böyük əhəmiyyət kəsb edir. Maarifləndirmə nəticəsində tələbələr III kursdan etibarən məqsədyönlü şəkildə istər təcrübə proqramlarına, istərsə də CV profili və müsahibələrə tam hazır olur. III kursdan etibarən tələbələr Karyera Mərkəzinin əməkdaşlıq etdiyi şirkətlərdə təcrübə proqramlarında iştirak edirlər və təcrübə bitdikdən sonra da əlavə tədbirlərdə iştirak edirlər. Tələbələr IV kursdan etibarən məzun olduqdan sonra da iş axtarışında və vakansiya proseslərində bizə müraciət edə bilərlər.

Tələbələrlə əlaqələrin qurulması aşağıdakı vasitələrlə həyata keçirilir:

**Sorğu** - Hər il mütamadi olaraq məzun olan tələbələrlə onlayn sorğu keçirilir və məlumat bazası yığılır. Bununla da tələbə ilə daha güclü kontakt qurulur və tələbə universiteti bitirsə belə, şəbəkə yaratdığı üçün karyerasında əmin addımlar atır.

**LinkedIn** - “Karyera Mərkəzi” nin rəsmi profilində olan postlarla məzunlar daim aktiv olan vakansiyaları görür və bir başa özü həmin vakansiyaya müraciət edə bilir.

**E-mail** - məzunların elektron poçt ünvanlarına mütəmadi olaraq yeni xəbərlər, vakansiyalar, yarmarkalarla bağlı məlumatları elektron poçt vasitəsilə göndərilir.

**Əlaqə telefonları** – Karyera Mərkəzi məlumat bazasına əsasən məzunlarla əlaqə saxlanılıb lazımi məlumatı çatdırılır.

**CV** - məzunların CV-ləri Karyera Mərkəzinin məlumat bazasına əlavə olunur. 1-3 il ərzində tələbələrlə əlaqələrin qurulmasında yardımçı olur.

**Sosial platforma** - Karyera Mərkəzinin və Xəzər Universitetinin rəsmi səhifələrində postlar paylaşılır və məzunlar bu səhifələrə mesaj yazaraq əlaqə yarada bilirlər.

**Şirkətlər (Əməkdaşlıq)** - Karyera Mərkəzi şirkətlərlə əməkdaşlıq edərək yeni əlaqələr yaradır və, eyni zamanda mövcud əlaqələri qoruyub saxlayır. Karyera Mərkəzi tələblərə uyğun olaraq namizədlərlə müsahibə keçirir və şirkətlərə qısa müddətdə ixtisaslı kadrları yönləndirir.
**Müqavilələr (Qəbul şöbəsi)** - tələbə ilk dəfə universitetə qəbul olarkən müqavilə imzalayır və orada şəxsi məlumatlarını qeyd edir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

# 4. ELMİ TƏDQİQAT

## *4.1.Elmi-tədqiqat strategiyası*

Xəzər Universitetinin 2018-2023-cü illər üçün Elmi-Tədqiqat Strategiyası universitet Elmi Şurasının 2018-ci ilin 9 iyul tarixli iclasında müzakirə olunaraq təsdiq edilmişdir. Strategiya universitetin 2018-ci il 13 aprel tarixli iclasında təsdiq olunmuş 2018-2023-cü illər üçün Strateji Planına uyğun hazırlanmışdır.
Xəzər Universitetinin missiyası ali təhsilin hər üç səviyyəsində tələbə mərkəzli keyfiyyətli təhsil verən, tədqiqat yönümlü, öz fəaliyyətini davamlı inkişaf etdirən, Azərbaycana və bütövlükdə regiona xidmət edən universitet olmaqdır. Universitetin Strateji İnkişaf Planı aşağıdakı 7 istiqamətdən ibarətdir:

1. Aparıcı tədqiqat yönümlü Universitetə çevrilmək;
2. Təlim tədris prosesinin davamlı inkişafını təmin etmək;
3. Universitetin davamlı inkişafını təmin etmək üçün professor-müəllim və işçi heyətinin peşəkar inkişafına dəstək vermək;
4. Universitetin beynəlmiləlləşmə siyasətini gücləndirilmək;
5. Tələbə-müəllim, eləcə də işçi heyətinin keyfiyyətli iş aparması üçün maddi-texniki bazanı gücləndirərək universiteti rahat, cəlbedici təhsil məkanına çevirmək;
6. Tələbə mərkəzli öyrənmə mühitini daimi təkmilləşdirməklə tələbələrin daha yaxşı nəticə əldə etməsinə nail olmaq;
7. Universitet-sənaye münasibətlərini universitetin tədqiqat, innovasiya və sahibkarlıq imkanlarının inkişafı istiqamətində təkmilləşdirmək.

Universitetin Elmi-Tədqiqat Strategiyası universitetin əsas missiyası və hədəfləri nəzərə alınmaqla hazırlanmışdır. Strategiya universitet rektorunun Elmi-Tədqiqat Strategiyasının hazırlanması haqqında əmrinə əsasən yaradılmış komissiya tərəfindən, strategiyanın hazırlanması məqsədilə keçirilmiş iclaslarda irəli sürülən təkliflər nəzərə alınmaqla, Universitetin 2012-2017-ci illər üçün elmi fəaliyyəti haqqında hesabatları, Xəzər Universitetinin Strateji İnkişaf

Planı, Xəzər Universitetinin Əsasnamələr və Qaydalar Toplusu (2013), Elm haqqında Azərbaycan Respublikasının Qanunu (14 iyun 2016-cı il. № 271-VQ), Azərbaycan Respublikasinda 2009-2015-ci illərdə elmin inkisafi üzrə strategiya və həmin milli strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı (01 iyun, 2009, N 255, Prezidentin sərəncamı), 2017-ci ildə Thomson Reuters https://www.webofscience.com/wos/woscc/summary/4113b275-bacf-4515-9c5d5db5ce220419-698f975e/relevance/1) və QS World University Ranking (https://www.topuniversities.com/subject-rankings/2017) statistikasının nəticəsi, habelə universitetin pioritet istiqamətləri üzrə tədqiqatçı professor-müəllim heyətinin performansı nəzərə alınaraq hazırlanmışdır.

2018-2023-cü illəri əhatə edən Elmi-Tədqiqat Strategiyası universitetin uzunmüddətli strateji inkişaf proqramının istiqamətlərinə uyğun olan aşağıdakı 5 məqsəddən (hədəfdən) ibarətdir:

Aparıcı tədqiqat yönümlü universitetə çevrilmək;

Akademik heyətinin tədqiqat bacarıqlarını təkmilləşdirilmək və tədqiqat fəaliyyətlərinə dəstək vermək;

Magistratura və doktorantura təhsil pilləsində tədqiqat mühitini və kadr hazırlığının keyfiyyətini yaxşılaşdırmaq;

Elmi-tədqiqatlar sahəsində beynəlxalq əlaqələri genişləndirmək;

Universitet-sənaye münasibətlərini universitetin tədqiqat və innovasiya imkanlarının inkişafı istiqamətində təkmilləşdirmək.

Universitetin elmi-tədqiqat siyasəti onun strateji inkişaf planında əks olunmuşdur. Elmi-tədqiqat strategiyasının hazırlanmasında həmin siyasətin həyata keçirilməsi mexanizmləri, təşviq mexanizmləri (Strateji hədəf 2) və tədqiqat fəaliyyətinin idarə olunmasının təkmilləşdirilməsi (Strateji hədəf 1) daha detallı şəkildə verilmişdir.

Universitetin uzunmüddətli strateji inkişaf proqramında həm maddi-texniki bazasını, həm də kadr potensialının keyfiyyətinin artırılması ilə tədqiqatyönümlü universitetə çevrilmək və beynəlxalq səviyyədə rəqabətqabiliyyətli universitet statusunu daha da möhkəmləndirmək əsas istiqamətlərdəndir. Bu məqsədlə də universitetin 5 illik tədqiqat strategiyasında aparıcı yönümlü universitetə çevrilmək 1-ci hədəf kimi təsdiq olunmuşdur. Bununla bağlı beşillik fəaliyyət planında maddi-texniki bazanın təkmilləşdirilməsi, güclü tədqiqatçıların universitetə cəlb edilməsi, yeni laboratoriyaların yaradılması, ayrı-ayrı departamentlərin tədqiqat potensialının gücləndirilməsi, universitetdə beynəlxalq elmi konfransların keçirilməsi, yerli və beynəlxalq qrant müsabiqələrində alimlərin iştirakının təşviq edilməsi, tədqiqat şəbəkəsinin

genişləndirilməsi üçün nüfuzlu xarici ali təhsil və tədqiqat müəssisələri ilə əməkdaşlıq müqavilələrinin bağlanması, dövrün tələblərinə uyğun ixtisaslar üzrə elmi dərəcəli kadrların hazırlanması, prioritet sahələr üzrə dissertasiya şuralarının yaradılması üçün hazırlıq işlərinə başlanılması, universitetdə dərc olunan elmi-tədqiqat jurnallarının keyfiyyətinin yaxşılaşdırılması, müvafiq bazalarda indeksləşdirilməsi, QS və digər beynəlxalq reytinqlər üzrə göstəricilərin yüksəldilməsi və s. nəzərdə tutulmuşdur. Bundan əlavə strategiyada akademik heyətin tədqiqat bacarıqlarının təkmilləşdirilməsi və tədqiqat fəaliyyətlərinə dəstəyin verilməsi məqsədilə peşəkar təlimlərin, yerli və beynəlxalq layihələr, qrant proqramlar barədə seminarların, təlimlərin keçirilməsi, beynəlxalq elektron resurslara çıxışları genişləndirilməsi, tədqiqatçılar üçün DSpace elektron arxivində şəxsi səhifələrin davamlı yenilənməsi, SCOPUS və "Web of Science" indeksli jurnallarda elmi məqalələrin dərc olunmasının təşviq edilməsi, müxtəlif beynəlxalq əlaqələrin dəstəklənməsi, tədqiqat ezamiyyələrinə maliyyə dəstəyinin verilməsi, müxtəlif beynəlxalq elmi konfransların keçirilməsinə texniki və maddi dəstəyin göstərilməsi və təşkili, habelə məqaləsi dərc olunan tədqiqatçıların mükafatlandırılması planının hazırlanması kimi hədəflər əsas götürülmüşdür.

Strategiyada elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiyası xüsusi nəzərdə tutulmuşdur. Magistratura və doktorantura təhsili səviyyələrində tədqiqat mühitinin və kadr hazırlığının keyfiyyətinin yaxşılaşdırılması əsas hədəflərdən biridir. Bu istiqamətdə magistrant və doktorantların tədqiqat bacarıqlarının inkişafına töhfə verən müxtəlif seminar və vörkşopların keçirilməsi, tədqiqat metodologiyası fənninin sillabuslarının təkmilləşdirilməsi, tədqiqat nəticələrinin nəşr edilməsinə dəstəyin göstərilməsi, tələbələrin müxtəlif beynəlxalq proqramlar çərçivəsində tədqiqat yönümlü start-up layihələrinə, magistrant və doktorantların universitetdə aparılan elmi-tədqiqat işləri və qrant layihələrinə, xarici ölkələrin nüfuzlu universitetlərində çalışan tədqiqatçı alimlərin kadr hazırlığına, doktorantların universitetdə bakalavriat səviyyəsində tədris prosesinə cəlb edilməsi, elmi-tədqiqat fəaliyyətinin tədris prosesinə inteqrasiya edilməsində idarəetmənin təkmilləşdirilməsi və s. əsas hədəflərdir.

Elmi tədqiqat strategiyasında ikinci strateji hədəf akademik heyətin tədqiqat bacarıqlarını təkmilləşdirmək və tədqiqat fəaliyyətlərinə dəstək verməkdir. Burada əvvəlki illərin hesabatlarına və tədqiqat nəticələrinə (məqalə və s.) əsasən professor-müəllim heyətinin performansının daha da artırılması üçün müxtəlif istiqamətli fəaliyyətin icra olunması əsas məqsəd kimi qoyulmuşdur. Bu məqsədlə universitet əməkdaşlarının 2012-2017-ci ildə Thomson Reuters bazasına daxil olan jurnallarda nəşr aktivliyi diqqətə alınan məqamlardan biridir. Akademik heyətin bu sahədəki performansının artırılması və universitetin istinadetmə

indeksinin yüksəldilməsi üçün onların ehtiyaclarına uyğun davamlı peşəkar təlimlərin təşkil olunması, nəşr etdirmək performansını artırmaq üçün bibliometriklər və onların istifadəsi, müxtəlif sahələr üzrə yerli və beynəlxalq qrant layihələrinə çağırış haqqında seminarların keçirilməsi və s. bu kimi fəaliyyətlərə aiddir. Bu sahədə universitet qarşıya qoyduğu hədəfə doğru son 5 ildə uğurlu fəaliyyət göstərmiş və nəşr etmək performansının ciddi yüksəlişinə nail olmuşdur.
Universitetin elmi-tədqiqat strategiyası təsdiq olunduqdan sonra həm azərbaycan, həm də ingilis dilində universitetin rəsmi veb-səhifəsində, habelə Kitabxana İnformasiya Mərkəzinin Dspace səhifəsində yerləşdirilmişdir və bütün maraqlı tərəflər üçün əlçatandır.
Universitetin elmi-tədqiqat strategiyasının hazırlanması ilə bağlı 2018-ci ilin may ayında keçirilmiş iclasına Mərkəzi Bankın, Dünya məktəbinin və AMEA Genetik Ehtiyatlar İnstitutunun əməkdaşları dəvət olunmuş və müzakirələrdə aktiv iştirak etmişlər.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

*4.2.Tədqiqat resursları*

Universitetin hazırki infrastrukturu tədqiqatçıların elmi-tədqiqat işlərinin yerinə yetirilməsi üçün ehtiyaclara tam cavab verir. Belə ki, universitet təbiət və texniki elmlər, habelə sosial və humanitar elmlər sahəsində aparılan tədqiqatlar üçün zəruri olan avadanlıqlarla tam təchiz olunmuş laboratoriyalara və mərkəzlərə malikdir. Bütün mərkəz və laboratoriyada çalışan əməkdaşlar kompüter, yüksək sürətli internet, printer və s. kimi resurlarla tam təmin olunmuşdur. Bunlara aşağıda adları sadalanan tədqiqat laboratoriya və mərkəzləri və digərləri aiddir:

- Nanotexnologiya laboratoriyası – nanotexnologiya laboratoriyası bakalavr və magistr tələbələrinə müxtəlif nanoölçülü səciyyələndirmə və sintez üsulları haqqında praktiki təlim vermək üçün nəzərdə tutulmuş və 2018-ci ildə yaradılmış tədris və tədqiqat laboratoriyasıdır.
- Hüceyrə patologiyası tədqiqat mərkəzi – tədqiqat mərkəzinin əsas məqsədi, laboratoriyada biologiya elmlərinin müxtəlif sahələrinə aid fənlərin təcrübə dərslərinin tədrisi və elmi tədqiqat işlərinin aparılmasıdır.
- eiLink Tədqiqat və İnkişaf Mərkəzi – eiLink (Education Industry Link) Tədqiqat və İnkişaf Mərkəzi, Neft Mühəndisləri Cəmiyyətinin Azərbaycan bölməsinin (NMC) dəstəyi ilə 2015-ci ilin dekabr ayında Xəzər Universitetində yaradılmışdır. Mərkəz sənaye şirkətlərinin sifarişləri əsasında bir sıra tədqiqat layihələri yerinə yetirir.
- İnnovasiya mərkəzi – innovasiya Mərkəzi 2013-cü ildən Xəzər Universitetində olan elmi tədqiqat mərkəzlərinin, müvafiq qurumların yerli və xarici tərəfdaşlarla elmi-tədqiqat, tədris və

istehsalat sahəsində innovativ fəaliyyətin həyata keçirilməsi və inkişaf etdirilməsi üçün təsis edilmişdir.

- Təhsil Siyasəti İnstitutu – təhsil Siyasəti İnstitutu tədrisin təkmilləşdirilməsi, təhsildə idarəetmə metodlarının inkişaf etdirilməsi məqsədi ilə tədqiqatlar aparır və təlimlərin təşkili ilə məşğul olur.
- Lüğət və Ensiklopediya Mərkəzi – linqvistik və leksikoloji tədqiqatlar və lüğətlərin tərtibini həyata keçirir.
- Avrasiya Hasilat Sənayesi Bilik Mərkəzi – hasilat sənayesində bilik və bacarıqların artırılmasına xidmət edən təlim-tədqiqat mərkəzidir. Neft-qaz, dağ-mədən sənayesi, büdcə, fondlar və gəlirlərin idarə edilməsi ilə bağlı təlim və tədqiqatlar bu mərkəzdə aparılır. Mərkəzin əsas fəaliyyəti gəlirlərin idarə edilməsi istiqamətində tədqiqata yönəlmişdir.
- Avropa İttifaqı Araşdırmalar Mərkəzi – Avropa ilə bağlı müxtəlif istiqamətdə tədbirlər keçirir. Mərkəzin yaradılmasında məqsəd Xəzər universitetinin, eləcə də Azərbaycanda fəaliyyət göstərən digər universitetlərin müəllim və tələbələri üçün Avropa Birliyi üzrə araşdırma aparmaq imkanlarını genişləndirməkdir.
- Miqrasiya Araşdırmalar Mərkəzi – mərkəz Aİ-nin Tempus layihəsi və UNIMIG layihəsi çərçivəsində yaradılmış regional tədqiqat şəbəkəsinin bir hissəsidir, akademik tədqiqatları inkişaf etdirmək və aparmaq, tədqiqatçıları, tələbələri hazırlamaq; himayəsi altında aparılan tədqiqatların nəticələrini yaymaq; seminarlar, konfranslar, nəşrlər, internet və kütləvi informasiya vasitələri ictimaiyyətin məlumatlılığını artırmaq məqsədi daşıyır.
- Türk Dünyası Araşdırmaları Mərkəzi – TİKA (2014) - Mərkəzdə Türk Dünyası araşdırmaçıları üçün yeni bir platformanın yaradılması, eləcə də tələbələr üçün Türk tarixi, mədəniyyəti, dili, ədəbiyyatı və siyasi inkişafı haqqında müxtəlif seminar və tədbirlər həyata keçirilir.
- Mövlana Ədəbi-Fəlsəfi Araşdırma Mərkəzi – mərkəzin yaradılma məqsədi Cəlaləddin Ruminin fəlsəfə, ədəbiyyat və digər fəaliyyət sahələri ilə bağlı araşdırmaların aparılmasıdır.
- Asiya-Sakit Okean və Afrika Araşdırmaları İnstitutu – institutun yaradılmasının məqsədi Afrika ölkələri ilə bağlı tədqiqatların genişləndirilməsidir.
- Elm və Sənət Məclisi – Xəzər Universitetində alim və ziyalıların elm, mədəniyyət və incəsənətin mühüm məsələləri haqqında mütəmadi olaraq keçirilən konfrans və ya seminarlar, onların müzakirə olunduğu məclisdir.
- Çin Tədqiqatları Mərkəzi – mərkəz 2022-ci ildə yaradılmışdır. Azərbaycanda Çin üzrə ixtisaslaşmış ilk və yeganə araşdırma mərkəzi (“Think tank”) funksiyasını yerinə yetirəcək tədqiqat mərkəzinin əsas fəaliyyət istiqaməti iki ölkə arasında tarixi əlaqələrinin Çin və

Azərbaycan mənbələri əsasında araşdırılması, Çin mədəniyyəti, iqtisadiyyatı və Azərbaycan–Çin münasibətləri mövzularında tədqiqat işlərinin aparılması, habelə humanitar, mədəniyyət, təhsil və elm əlaqələrinin dinamik inkişafına dəstək verilməsidir.

Bunlardan əlavə universitetin bütün departamentləri, əməkdaşlarının istifadəsi üçün zəruri olan, kompüter, yüksək sürətli internet, beynəlxalq şəbəkələrə çıxış imkanları, Kitabxana İnformasiya Mərkəzi, nəşriyyat və s. kimi zəruri resurslarla tam təchiz olunmuşdur.

Universitetin infrastrukturunun, maddi və texnoloji resurslarının daha da təkmilləşdirilməsi onun elmi-tədqiqat strategiyasında qarşıda duran əsas hədəflərdəndir və bu məqsədlə də həm mövcud infrastrukturun yaxşılaşdırılması, həm də yeni mərkəz və laboratoriyaların yaradılması sahəsində davamlı olaraq yeni işlər həyata keçirilir.

2021-ci ildə elmi-tədqiqat müəssisələrinin maliyyələşdirilməsi üçün 141084 manat vəsait ayrılmışdır. 2022-ci ildə elmi-tədqiqat müəssisələrinin maliyyələşdirilməsi üçün 437240 manat vəsait ayrılmışdır.

Xəzər Universitetinin strateji hədəflərindən biri prioritet sahələr üzrə yüksək potensiallı, impakt faktorlu jurnallarda məqalələri dərc olunan tədqiqatçıların universitetə cəlb edilməsidir. Bu məqsədlə universitet hər il öz kadr potensialını artırmaq üçün yeni professor-müəllim heyətinin işə götürülməsinə xüsusi önəm verir.

2018-2022-ci illər üzrə aktiv elmi tədqiqatla məşğul olan akademik heyətin ümumi akademik heyətdə payı aşağıdakı cədvəldə göstərilmişdir:

| **İl** | **Elmi tədqiqatla məşğul olan akademik heyətin ümumi akademik heyətdə payı (faizlə)** |
|---|---|
| 2017-2018 | 41.43 |
| 2018-2019 | 47.50 |
| 2019-2020 | 37.6 |
| 2020-2021 | 76.0 |
| 2021-2022 | 62.71 |

2018-2022-ci illər üzrə universitet əməkdaşları tərəfindən çap olunan elmi işlərin sayı aşağıdakı cədvəldə verilmişdir.

| İl | Mono-qrafiya | Məqalələr | | |
|---|---|---|---|---|
| | | | o cümlədən: | |
| | | | | xaricdə |

| | | cəmi: | respubli-kada | WoS | Digər |
|---|---|---|---|---|---|
| 2018 | - | 84 | 22 | 48 | 14 |
| 2019 | 7 | 92 | 21 | 51 | 20 |
| 2020 | 7 | 121 | 23 | 79 | 19 |
| 2021 | 1 | 106 | 19 | 52 | 35 |
| 2022 | 6 | 99 | 32 | 49 | 18 |
| Cəmi | 21 | 502 | 117 | 279 | 106 |

2017-2022-ci illər üzrə universitet əməkdaşlarının Scopus indeksli jurnallarda dərc olunmuş elmi işlərin say dinamikası aşağıdakı diaqramda verilmişdir.




Bundan əlavə növbəti illərdə kadr potensialının gücləndirilməsi məqsədilə universitet “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində prioritet sahələr üzrə xaricdə təhsilə dəstək verərək 37 doktorant ilə üç tərəfli müqavilə imzalanmışdır. Həmin müqavilənin şərtlərinə görə təhsil müddəti bitmiş doktorantlar məzun olduqdan sonra 5 il müddətində Xəzər Universitetində fəaliyyət göstərəcəklər.

Universitetdə aktiv elmi tədqiqatla məşğul olan gənc tədqiqatçıların təşkilatlanması məqsədilə Doktorantura və Magistratura birliyi yaradılmışdır. Birlik, Universitetin nizamnaməsi və daxili qaydaları əsasında fəaliyyət göstərir. Birliyin fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi Universitet rəhbərliyi tərəfindən həyata keçirilir. Doktorantura və Magistratura Birliyinin əsas məqsədi universitetdə doktorantura və magistratura səvviyələrində təhsil alan tələbələrin təhsil,

tədqiqat, əməkdaşlıq və qarşılıqlı öyrənmə fəaliyyətləri ilə sıx əlaqədardır. Birlik universitetin struktur bölmələri ilə sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərir və ildə bir dəfə universitet rəhbərliyi qarşısında görülmüş işlərlə bağlı hesabat təqdim edir. 2017-ci ilin sentyabr ayından birliyin "Khazar University PhD and Master Student Assosiation" adlı facebook səhifəsi yaradılmışdır. Həmin tarixdən bu səhifə vasitəsi ilə doktorantura və magistratura təhsil səviyyələrinə qəbul imtahanları, fəlsəfə doktoru imtahanlarının təşkili, keçiriləcək konfranslar və görüşlər və s. haqqında məlumatlar tələbələrlə paylaşılır.

Doktorantura və Magistratura Birliyi 2018-2022-ci illərdə çoxsaylı tədbirlər, habelə rəhbərlik və digər idarəetmə strukturları ilə çoxsaylı görüşlər keçirmişdir.

Bundan əlavə universitetdə "Khazar University International Student Union" fəaliyyət göstərir. Birliyin məqsədi əcnəbi tələbələrin problemlərinin vaxtında həll edilməsinə, onların yerli tələbələrlə əlaqələrinin genişləndirilməsinə, mədəniyyətlərin mübadiləsinə dəstəyin göstərilməsi, mədəni tədbirlərin keçirilməsi və s. funksiyasını daşıyır. Birlik Beynəlxalq Əlaqələr Şöbəsinin koordinasiyası ilə fəaliyyət göstərir.

Aktiv elmi tədqiqatla məşğul olan gənc tədqiqatçıların elmi tədqiqatlarının keyfiyyətinin artırılması məqsədilə 2020-ci ildə Magistratura, Doktorantura və Elmi işlər bölməsinin bazasında "Təbiət elmləri, Sənət və Texnologiya" və "İqtisadiyyat və Biznes" yüksək təhsil fakültələri yaradılmışdır. Fakültələrdə magistratura və doktorantura tələbələrinin vahid qurumdan idarə olunması işi daha mütəşəkkil səviyyədə həyata keçirilir və onların təşkilatlanmasına zəruri dəstək verilir. Fakültələrin dəstəyi ilə aktiv tədqiqatla məşğul olan gənc tədqiqatçıların iştirak edə biləcəyi müxtəlif seminarlar və vebinarlar təşkil olunur.

Xəzər Universiteti aktiv elmi fəaliyyətlə məşğul olan tədqiqatçıların beynəlxalq elmi bazalara çıxışları təmin etmişdir. Bunun üçün hər il daha çox beynəlxalq elmi bazalara girişin təmin edilməsi üçün memorandumlar imzalanmış və müxtəlif nəşriyyatlara üzvlük ilə bağlı razılıqlar əldə edilmişdir.

Xəzər Universitetinin müxtəlif istiqamətlər üzrə 2018-ci ildə 24, 2019-cu ildə 26, 2020-ci ildə 25, 2021-ci ildə 25 və 2022-ci ildə 27 beynəlxalq elmi bazaya çıxışı olmuşdur.

2020-ci ildən COVİD-19 pandemiyası ilə əlaqədar iş bağlanmalarından təsirlənən müəssisələrdə onlayn təhsilə dəstək olmaq məqsədilə EBSCO məlumat sisteminin, "EBSCO Faculty Select" (müəllim heyəti için) OER (Açıq Təhsil Resursları) və DRM (Rəqəmsal Doğru İdarəetmə)-dən uzaq sinif ehtiyaclarını dəstəkləmək üçün ödənişsiz elektron kitablar tapmasına kömək etmək üçün sadələşdirilmiş versiyası hazırlamışdır. Xəzər Universiteti Kitabxana-İnformasiya Mərkəzi European Books-dan həmin vaxtdan etibarən müddətli istifadə imkanı əldə etmişdir. https://khazar.org/az/news/4953

| **LIC Databases, Digital Libraries &Trials** | **2018** | **2019** | **2020** | **2021** | **2022** |
|---|---|---|---|---|---|
| WEB OF SCIENCE | + | + | + | + | + |
| **EBSCO RESEARCH DATABASES** | + | + | + | + | + |
| • Academic Search Premier | + | + | + | + | + |
| • Business Source Premier | + | + | + | + | + |
| • ERIC | + | + | + | + | + |
| • GreenFILE | + | + | + | + | + |
| • Health Source - Consumer Edition | + | + | + | + | + |
| • Health Source: Nursing/Academic Edition | + | + | + | + | + |
| • Library, Information Science & Technology | + | + | + | + | + |
| Abstracts | + | + | + | + | + |
| • MasterFILE Premier | + | + | + | + | + |
| • MasterFILE Reference eBook Collection | + | + | + | + | + |
| • Newspaper Source | + | + | + | + | |
| • Regional Business News | | | | | |
| EBSCO eBook Collection | | | + | + | + |
| eBook Open Access (OA) Collection (EBSCOhost) | | | + | + | + |
| EDS (EBSCO Discovery) | + | + | + | + | + |
| Agape University LIRN Portal | + | + | | | |
| RICeST Regional Information Center for Science and Technology | | + | + | + | + |
| Polpred | + | + | + | + | + |
| **DIGITAL LIBRARY** | | | | | |
| • E Catalog (Follett) | + | + | + | + | + |
| https://khazaruniversity.follettdestiny.com | | | | | |
| • DSpace http://dspace.khazar.org/ | + | + | + | + | + |
| • Calibri http://elib.khazar.org/ (for internal users) | + | + | + | + | + |
| • ePortfolio https://eportfolio.khazar.org | + | + | | | |
| • Moodle https://elearning.khazar.org | + | + | | | |
| **TRIALS** | | | | | |
| *JOVE VIDEO LIBRARY* | | | | | + |
| *Biomedical Research Collection and Engineering Research* | | | | | |
| *Collection. (Begell House* | | | | | + |
| *McGraw-Hill (AccessEngineering)* | | | | | + |
| *Gale Reference Complete* | | | | | + |
| *EBSCO eBooks Academic Subscription Collection* | | + | | | + |
| *Britannica Academic* | | + | | | |
| *EBSCO Academic Search Ultimate* | | + | | + | |
| *ProQuest* | | | + | + | |

| | | | | | |
|---|---|---|---|---|---|
| *Cambridge University Press* | + | | | + | |
| ***Springer Nature*** | | | + | | |
| *Emerald Databases* | + | | | | |
| *SAGE Publication* | | | + | | |

Xəzər Universitetində beynəlxalq bazalarda indeksləşmiş jurnalların nəşr edilməsinə xüsusi önəm verilir. Universitetin Humanitar və Sosial elmlər jurnalı ildə 4 dəfə dərc olunan beynəlxalq elmi jurnaldır (Çap versiyası ISSN: 2223-2613 Elektron versiya E-ISSN: 2223- 2621). Jurnal Web of Science, Scirus (Elsevier), Dura Space, DOAJ, İnfoseek, Index Copernicus, Genamics, Crossref, EBSCO (host), Arastirmax və s. kimi nüfuzlu elmi bazalara daxildir. Jurnal Azərbaycanda humanitar və sosial elmlər üzrə Web of Science bazasına daxil edilmiş ilk jurnaldır. Universitetin nəşr etdirdiyi digər jurnal "Elm və Texnologiya" jurnalıdır, 2015-ci ildən ildən ildə 2 dəfə ingilis dilində dərc olunur. Bundan əlavə 1999-cu ildən ildən etibarən universitetdə Azərbaycan Arxeologiyası jurnalı nəşr olunur. Bu jurnalların da beynəlxalq bazalarda indeksləşdirilməsi üçün işlər görülür.

Universitet əməkdaşlarının dərc olunmuş, lakin internetdə olmayan elmi işlərinin (yerli nəşrlər, monoqrafiyalar və s.) digər tədqiqatçılara əlçatanlığının təmin edilməsi sahəsində də işlər görür. Belə ki, onların qeyd edilən kateqoriyaya aid dərc edilmiş kitab, məqalə və digər elmi işləri universitetin Kitabxana İnformasiya Mərkəzinin Dspace elektron arxivində yerləşdirilir. 2018-2022-ci illər üzrə onların sayı haqqında məlumat aşağıdakı cədvəldə verilmişdir. Bundan əlavə 2021-ci ildə bazada adı olmayan 11 tədqiqatçı üçün Dspace elektron arxivində səhifə açılmışdır.

| **İl** | **Kitab** | **Məqalə** |
|---|---|---|
| 2018 | 5 | 71 |
| 2019 | 1 | 60 |
| 2020 | 2 | 86 |
| 2021 | 4 | 90 |
| 2022 | 2 | 63 |

Universitetdə elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması məqsədilə bir sıra stimullaşdırıcı mexanizmlər tətbiq edilir. Aşağıdakı tədbirlər bu məqsədə yönəlmişdir:

- Dərc edilmiş elmi məqalələrə görə mükafatların verilməsi;
- Elmi rəhbərlərə xüsusi meyarlar əsasında ödənişin edilməsi;

- Magistr və doktorantura təhsili almaq istəyən xanım namizədlər üçün Nailəxanım Fondunun təqaüdünün verilməsi;
- Yerli doktorant tələbələrinə təhsil haqqında  20-40% güzəştin edilməsi, dövlət sifarişli yerlərin alınması;
- Əcnəbi magistrant və doktorantlara 25-75% təqaüdün verilməsi (Merit-based Scholarship);
- İslam Əməkdaşlıq Təşkilatına və Qoşulmama Hərəkatına üzv ölkələrin vətəndaşları üçün təhsil qrantı proqramları çərçivəsində magistr və doktorant tələbələrə dəstək;
- Xaricdə doktorantura təhsili alan əməkdaşlara təhsil müddətində əmək haqlarının saxlanılması ilə dəstək;
- Tədqiqatçıların uzunmüddətli (1 aydan çox) beynəlxalq tədqiqat proqramlarında iştirakına dəstək;
- Tədqiqat məqsədli səfərlərə maddi dəstəyin verilməsi;
- Tədqiqatçıların nailiyyətlərinin vaxtaşırı mükafatlandırılması.

Universitet tərəfindən aktiv elmi tədqiqatla məşğul olan əməkdaşlara nüfuzlu beynəlxalq jurnallarda dərc edilmiş elmi məqalələrin impakt faktoruna uyğun olaraq mükafat verilir.

Belə ki, universitetin 01.02.2016-cı il tarixli, U/107 saylı əmrinə əsasən universitetdə Tədqiqatlara Dəstək Mərkəzi yaradılmış, nüfuzlu beynəlxalq jurnallarda dərc edilmiş elmi məqalələrə görə professor-müəllim heyətinin stimullaşdırılması barədə əsasnamə hazırlanmış və mexanizm müəyyənləşdirilmişdir.

Elmi-tədqiqat işlərinin keyfiyyətinin artırılması üçün universitet magistratura və doktorantura tələbələrinə rəhbərliyə görə əməyin ödənilməsi meyarlarını 2021-ci ildə yenidən təkmilləşdirmişdir.

Xəzər Universitetinin nəzdində yaradılan Nailəxanım Fondu 2021-ci ildən milli mənşəyindən və vətəndaşlığından asılı olmayaraq təhsilini magistratura və ya doktoranturada davam etdirmək niyyətində olan istedadlı qadın tələbələr üçün yüksək səviyyəli müsabiqə əsasında tam təqaüd verir (https://khazar.org/az/news/5593).

Universitet yüksək balla qəbul olmuş yerli doktorantura tələbələrinə, onları elmi fəaliyyətə həvəsləndirmək üçün illik təhsil haqlarında 20-40%-ə qədər güzəşt tətbiq edir. Bununla yanaşı Xəzər Universiteti magistratura və doktoranturaya müraciət edən əcnəbi  tələbələrə illik təhsil haqqının 25-75%-i qədər təqaüd (Merit-based Scolarship) təklif edir. Təqaüd tələbələrlə aparılan

müsahibələrin nəticəsinə əsasən təyin edilir. Akademik göstəriciləri yüksək olan doktorant tələbələr tədris prosesinə cəlb olunurlar.
Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Beynəlxalq İnkişafa Yardım Agentliyi (AIDA) tərəfindən həyata keçirilən İslam Əməkdaşlıq Təşkilatına və Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşlarının Azərbaycan Respublikasının ali təhsil müəssisələrində təhsil alması üçün təsis olunmuş təhsil qrantı proqramı çərçivəsində tələbələrin Xəzər Universitetində təhsil almasına dəstək verir. Proqram çərçivəsində 2018-ci ildə 2 magistrant, 2020-ci ildə 2 magistrant və 2 doktorant, 2021-ci ildə 1 magistrant və 4 doktorant, 2022-ci ildə isə 1 doktorant və 2 magistrant tələbə universitetin yüksək təhsil fakültələrinə qəbul olmuşdur.
Xəzər Universiteti hər il professor-müəllim heyətini və tələbələrini elmi-tədqiqat işlərinin aparılması, beynəlxalq və yerli konfranslarda, müxtəlif yerli və beynəlxalq layihələr çərçivəsində görüş və tədbirlərdə iştirak etmələri üçün universitetin büdcəsi və ya müxtəlif yerli və beynəlxalq layihələr hesabına tədqiqatçılara dəstək göstərir. 2018-2022-ci ildə elmi-tədqiqat işlərinin icrası, konfrans və simpoziumlarda iştirak və s. üçün əməkdaşlar tərəfindən 45 səfər həyata keçirilmişdir.
2020-ci il yanvarın 28-də Xəzər Universitetinin rəhbərliyi tərəfindən universitetin departamentləri "Ən yaxşı departament" və "Yaxşı departament", habelə tədqiqatçılar, "Ən yaxşı tədqiqatçı", "Yaxşı tədqiqatçı" kateqoriyalarında diplom və pul mükafatları ilə təltif olunmuşdur (https://khazar.org/az/news/4719).
Xəzər Universitetinin əməkdaşların elmi tədqiqat üzrə beynəlxalq təqaüd proqramlarına müraciətini həmişə dəstəkləyir (məs., Fulbright proqramı) və lazımi şəraiti yaradır.

Elmi-tədqiqat fəaliyyəti nəticəsində 2019-cu ildə 9352.8 AZN, 2020 ci ildə 13996.99 AZN və 2021-ci ildə 17820 AZN məbləğində gəlir əldə olunmuşdur.

Xəzər Universiteti tədqiqat sahəsində uğurlu əməkdaşlıq ənənəsinə malikdir. Universitet həm yerli və həm də dünyanın müxtəlif ölkələrindəki elm və təhsil mərkəzləri ilə fəal şəkildə əməkdaşlıq layihələri və digər ortaq fəaliyyətlərdə iştirak edir.
Xəzər Universiteti 2018-ci ildə 9 ölkədən 16 ali təhsil müəssisəsi, 2019-cu ildə 2 yerli müəssisə və 9 ölkədən 20 ali təhsil müəssisəsi, 2020-cu ildə 5 ölkədən 5 ali təhsil müəssisəsi, 2021-ci ildə 1 yerli müəssisə və 3 ölkədən 6 ali təhsil müəssisəsi, 2022-ci ildə 9 yerli müəssisə və 9 ölkədən 21 ali təhsil müəssisəsi ilə tədqiqat sahəsində əməkdaşlıq müqavilələri imzalayıb.
2022-ci ildə Xəzər Universiteti ilə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Zoologiya İnstitutu, Genetik Ehtiyatlar İnstitutu, Geologiya və Geofizika İnstitutu,

Torpaqşünaslıq və Aqrokimya İnstitutu və Mikrobiologiya İnstitutu və Fizika İnstitutu arasında elm və təhsil üzrə işbirliyi haqqında müqavilə imzalanmışdır ki, şərtlərə institutların elmi tədqiqat laboratoriyalarında və təcrübə təsərrüfat sahələrində universitetin professor-müəllim heyətinin və tələbələrinin institutun alim və mütəxəsisləri ilə birlikdə elmin müasir sahələri üzrə tədqiqat işlərinin aparılması, bakalavr, magistrant və doktorantların elmi işlərinə institutun mütəxəsislərinin elmi rəhbərlik etməsi, müvafiq elm sahələrinin müasir istiqamətləri üzrə fundamental tədqiqatların genişləndirilməsi məqsədilə yeni birgə tədqiqat laboratoriyalarının yaradılma və ya mövcud laboratoriyaların təchizatının yaxşılaşdırılması və s. kimi əməkdaşlıq istiqamətləri mövcuddur.

Universitetin elmi-tədqiqatlar sahəsində beynəlxalq əlaqələri çox genişdir. Universitetin əməkdaşları hazırda dünyanın çoxsaylı ölkələrinin universitetləri ilə elmi-tədqiqat işləri sahəsində əməkdaşlıq edir. 2022-ci ildə xarici universitetlərlə bağlanmış müqavilələrə Türkiyənin Sabancı Universiteti, Atılım Universiteti, Atatürk Universiteti, Bartin Universiteti, Fenerbahçe Universiteti, Hacetepe Universiteti, Artvin Çoruh Universiteti, Yozqat Bozok Universiteti, Orta Şərq Texniki Universiteti, Bilecik Şeyh Edebalı Universiteti, Ukraynanın Milli Qərbi Ukrayna Universiteti, Qazaxıstan Tibb Universiteti və Abai Universiteti ilə, Litvanın Kazimiero Simonaviciaus Universiteti, Rusiyanın Kazan Federal Universiteti, Latviya Həyat Elmləri və Texnologiyaları Universiteti, Özbəkistanın Diplomatiya Universiteti, Çilinin Bernardo O'higgins Universiteti, Bolqarıstanın Təhlükəsizlik və İqtisadiyyat Universiteti ilə müqavilələri göstərmək olar.

Hazırda Xəzər Universiteti Fransa, İtaliya, Polşa, Rumıniya, Sloveniya, İspaniya, Türkiyə və digər ölkələrin çoxsaylı universitetləri ilə Erasmus+ KA107 müqavilə çərçivəsində mübadilə proqramları həyata keçirir. Proqramda müəllim və tədqiqatçı mübadiləsini prosesində əsasən yeni birgə elmi-tədqiqat layihələrinin icrası məsələlərinə xüsusi önəm verilir.

Universitetin fəlsəfə doktoru hazırlığı üzrə doktorant və dissertantlarının elmi rəhbərlərinin xarici ölkələrdən təyin olunmasına da xüsusi diqqət yetirilir ki, bu həm universitetlərarası əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə, həm də elmi-tədqiqat işlərinin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

Universitet əməkdaşları 2018-2023-cü illərdə 78 ölkənin 241 ali təhsil və tədqiqat müəssisələrinin əməkdaşları ilə birgə tədqiqat işləri aparmış və nəticələri Web of Science (281) bazasında indeksləşmiş jurnallarda və digər elmi jurnallarda dərc olunmuşdur (cəmi 385). Həmin məqalələrə 3,866 dəfə (without self-citation: 3224) dəfə istinad olunmuşdur (H- index 41).
(https://www.webofscience.com/wos/woscc/summary/b76c710a-50df-4737-bafe-dfed0ee55ce2-6d4e1253/relevance/1)

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

*4.3.Elmi-tədqiqat fəaliyyəti*

Universitetdə elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi məqsədilə bir neçə struktur vahidi fəaliyyət göstərir. İdarəetmə fəaliyyətlərinin təkmilləşdirilməsi üçün struktur vahidlərində son 5 ildə müəyyən dəyişikliklər edilmişdir.

- Magistratura, Doktorantura və Elmi işlər bölməsi

Xəzər Universitetinin T/16 nömrəli 2 aprel 2011-ci il tarixli əmrinə əsasən, kadr hazırlığının spektrini genişləndirmək, habelə tədqiqat işlərinin təkmilləşdirilməsi və idarə edilməsi məqsədilə Magistratura, Doktorantura və Elmi işlər bölməsi yaradılmışdır. Bölmə öz fəaliyyətini universitetin strateji inkişaf proqramı əsasında illik fəaliyyət planına uyğun olaraq həyata keçirmiş və hər ilin sonunda hesabat vermişdir.

- Elmi işlər üzrə prorektorluq

Bu ştat vahidi 15.09.2017-ci il tarixli, U39A saylı əmrlə yaradılmışdır. Əsasnaməsi və illər üzrə fəaliyyət planı mövcuddur.

- Yüksək Təhsil Fakültələri

Xəzər Universitetində elmi tədqiqatların keyfiyyətinin artırılması məqsədilə rektorun 30 sentyabr 2020-ci il tarixli U/290 saylı əmri ilə Magistratura, Doktorantura və Elmi işlər bölməsinin bazasında "Təbiət elmləri, Sənət və Texnologiya" yüksək təhsil fakültəsi və "İqtisadiyyat və Biznes" yüksək təhsil fakültəsi yaradılmışdır. Yüksək təhsil fakültələri magistratura və fəlsəfə doktoru hazırlığı üzrə yüksəkixtisaslı mütəxəssislərin, habelə elmi və elmi-pedaqoji kadrların hazırlanmasının idarə edilməsini və koordinasiyasını həyata keçirir. Fakültələrin əsasnaməsi, illik fəaliyyət planları və illik hesabatları mövcuddur.

- Xəzər Tədqiqatlara Dəstək Mərkəzi

Mərkəz 2016-cı ildə U/107 saylı əmrlə yaradılmışdır. Mərkəzin məqsədi elmi fəaliyyətin daha səmərəli inkişafı, dünya səviyyəsində tədqiqatların aparılması və dəstəklənməsidir. Əsasnaməsi və illər üzrə fəaliyyət planı mövcuddur.

Son 5 ildə universitetdə müxtəlif məqsədli çoxsaylı tədbirlər, o cümlədən elmi-tədqiqat xarakterli konfrans, seminar, görüş, təlim və s. keçirilmişdir. Universitetdə müxtəlif departamentlər tərəfindən 2018-ci ildə elmi-tədqiqat xarakterli 3 beynəlxalq konfrans, 11 seminar, 1 təlim və 4 görüş (cəmi 18), 2019-cu ildə 9-u beynəlxalq olmaqla 12 konfrans, 19 seminar, 3 təlim və 13 görüş (cəmi 47), 2020-ci ildə 2-si beynəlxalq olmaqla 3 konfrans, 13 seminar, 2 təlim (cəmi 18),

2021-ci ildə 3 beynəlxalq olmaqla 6 konfrans, 19 seminar, 3 təlim və 6 görüş (cəmi 34), 2022-ci ildə isə 3 beynəlxalq konfrans, 38 seminar və 5 görüş (cəmi 46) keçirilmişdir.
Universitet elmi konfransların, simpoziumların, seminarların, dəyirmi masaların, treyninqlərin və s. tədbirlərin keçirilməsinə daimi ciddi diqqət yetirir. Universitetdə elmi konfranslar və beynəlxalq toplantıların keçirilməsi üçün Bəşir Səfəroğlu 122 kampusunda yerləşən 285 nəfərlik "Dünya konsert salonu", Neftçilər kampusunda 190 nəfərlik "Mərmər" zal və konfrans salonu, universitetin Dünya məktəbində təqribən 300 nəfərlik konfrans/konsert salonu mövcuddur.

2018-ci ildə universitetin Riyaziyyat departamenti tərəfindən təşkil olunmuş "Operators, Functions, and Systems of Mathematical Physics" adlı beynəlxaq konfransda 14 ölkənin 48 ali təhsil müəssisəsindən 80 nəfərdən çox, Həyat elmləri departamenti tərəfindən təşkil olunan "Tək Sağlamlıq: problemlər və onların həlli" adlı beynəlxalq konfransda 7 ölkənin 7 ali təhsil müəssisəsindən 10 nəfərdən çox tədqiqatçısı iştirak etmişdir.
2019-cu ildə Xəzər Universitetinin Riyaziyyat departamenti tərəfindən təşkil olunan "Operators, Functions, and Systems of Mathematical Physics" adlı beynəlxaq konfransda 26 ölkənin 66 ali təhsil müəssisəsindən 76 nəfərdən çox, Həyat elmləri departamenti tərəfindən təşkil olunan "Tək Sağlamlıq: problemlər və həllər üzrə" beynəlxalq konfransda 5 ölkədən bir çox tədqiqatçılar iştirak etmişdir. İqtisadiyyat və Menecment departamenti tərəfindən keçirilən "Turizm və davamlı ikişaf" adlı yerli və "Futbolun iqtisadiyyatı" üzrə 3-cü beynəlxalq konfransda bir çox yerli və xarici müəssisələrin tədqiqatçıları iştirak etmişdir. Həmçinin, Tarix və Arxeologiya və Dillər və Ədəbiyyatlar departamentləri tərəfindən "Mehmet Akif Ersoydan Bəxtiyar Vahabzadəyə "İstiqlal şüuru" adlı konfransda Türkiyə Cümhuriyyətinin 6 təhsil və tədqiqat müəssisələrindən bir çox tədqiqatçılar, Psixologiya departamentinin təşkil etdiyi "6-cı Beynəlxalq Psixologiya" konfransında Türkiyə Cümhuriyyətinin ümumilikdə 5 təhsil müəssisələrindən və dərnəklərdən 5 nəfərdən çox, "5-ci Beynəlxalq Avrasiya" konfransında isə yerli müəssisələrdən bir çox tədqiqatçılar iştirak etmişdir. Coğrafiya və Ətraf Mühit departamenti tərəfindən "Hava-Quru-Dəniz Əlaqələri" üzrə beynəlxalq konfrans və "Şərqi Avropa Milli fokal idarəçilərin təbliğat və maarifləndirmə görüşü" adlı 2 beynəlxalq konfrans təşkil olunmuşdur. "Hava-Quru-Dəniz Əlaqələri" üzrə beynəlxalq konfransında Türkiyə Cümhuriyyətinin 2 ali təhsil müəssisəsindən və 1 yerli müəssisədən ümumilikdə 25 xarici və 50 yerli mütəxəssis iştirak etmişdir. "Şərqi Avropa Milli fokal idarəçilərin təbliğat və maarifləndirmə görüşü" adlı beynəlxalq konfransda isə Norveçdən və iki yerli tədqiqat müəssisəsindən cəmi 50 xarici və 65 yerli mütəxəssis iştirak etmişdir. Mexanika mühəndisliyi departamenti tərəfindən təşkil olunan

"Nanotech Eurasia 2019" adlı beynəlxalq konfransda Russiyanın Kazan Universitetindən və yerli müəssisələrdən bir çox mütəxəsislər iştirak etmişdir.
2020-ci ildə İngilis dili və Ədəbiyyatı departamenti tərəfindən təşkil olunmuş "ICPL2020 - International Conference on the Philosophy of Language, Literature, and Linguistics" adlı beynəlxalq konfransda 15 ölkənin 33 ali təhsil müəssisəsindən 40 nəfərdən çox, Tarix və Arxeologiya departamentinin təşkliatçılığı ilə "Qarabağın dünəni, bu günü və sabahı" adlı beynəlxalq konfransda Türkiyə Cümhuriyyətinin Mərmərə Universitetindən və yerli təhsil müəssisələrindən, İqtisadiyyat və Menecment departamentinin təşkil etdiyi "MEDIATS" layihəsi çərçivəsində virtual konfransda bir çox yerli və xarici təşkilatlardan tədqiqatçılar iştirak etmişdir.
2021-ci ildə İngilis dili və Ədəbiyyatı departamenti tərəfindən təşkil olunmuş "ICPL2021 - International Conference on the Philosophy of Language, Literature, and Linguistics" adlı beynəlxalq konfransda 41 ölkənin 9 ali təhsil müəssisəsindən 130 nəfərdən çox, Coğrafiya və Ətraf Mühit departamenti tərəfindən təşkil olunmuş "İqlim Dəyişikliyi üzrə öhdəliklər" konfransında Britaniya səfirliyindən və digər müəssisələrdən 5 yerli mütəxəssis, 5 xarici mütəxəssis, 30 məktəb şagirdi iştirak etmişdir. Dillər və Ədəbiyyatlar departamenti tərəfindən keçirilmiş "Bakının işğaldan azad edilməsi və Qafqaz İslam Ordusu" adlı elmi konfransda Türkiyənin Azərbaycandakı səfirliyindən, "Klassik mətnlərdə təsəvvüf simvolikası" mövzusunda elmi konfransda Üsküdar Universitetindən, "Xəzər Universitetində Beynəlxalq Nizami Gəncəvi" adlı elmi konfransda İran Mədəniyyət Mərkəzi, Misir Ain Şəms Universitetindən əməkdaşlar iştirak etmişdir.

2022-ci ildə İngilis dili və Ədəbiyyatı departamenti tərəfindən təşkil olunmuş "ICPL2022 - International Conference on the Philosophy of Language, Literature, and Linguistics" adlı beynəlxalq konfransda 5 ölkənin 13 ali təhsil müəssisəsindən 30 nəfərdən çox, Həyat elmləri departamenti tərəfindən təşkil olunan "Beynəlxalq Kakao, Qəhvə və Çay Asiya Konqresi" beynəlxalq konfransında 15 ölkənin müxtəlif universitet və tədqiqat müəssisələrindən, Dillər və Ədəbiyyatlar departamenti tərəfindən təşkil edilmiş "Qloballaşma dövründə Türk dünyası: çağırışlar, perspektivlər" mövzusunda beynəlxalq tələbə elmi konfransında 3 ölkədən tələbə və tədqiqatçılar iştirak etmişdir.
Yuxarıda sadalananlardan əlavə universitetdə keçirilən elmi-tədqiqat xarakterli görüş və digər tədbirlərdə yerli müəssisələrdən olan tədqiqatçılar da vaxtaşırı iştirak üçün dəvət olunurlar.

Xəzər Universitetinin bakalavr, magistr və doktorant tələbələri hər il beynəlxalq və yerli konfranslarda iştirak edirlər. 2018-ci ildə 3 doktorant 5, 2019-cu ildə 12 doktorant 16, 2020-ci

ildə 5 doktorant 7, 2021-ci ildə 15 doktorant 28, 2022-ci ildə isə 18 doktorant 43 elmi-tədqiqat xarakterli konfransda, seminar, görüş və s. tədbirlərdə iştirak etmişdir. Yuxarıda qeyd edilən elmi xarakterli seminarlarda və universitetin təşkil etdiyi beynəlxalq konfranslarda magistratura tələbələri aktiv iştirak edərək məruzə ilə çıxış etmişdir.

2022-ci ildə Üsküdar Universiteti Sosial Elmlər İnstitutunun Neyromarketinq şöbəsinin müdiri Prof. Dr. Sinan Cananın universitetdə "Neyro Dövrü və Neyromarketinq" adlı təşkil olunan vebinarda universitetin 300-dən çox müəllim-tələbə heyəti iştirak etmişdir.

Universitet "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə xaricdə doktorantura təhsili" proqramı çərçivəsində Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Xəzər Universiteti ilə üçtərəfli müqavilə əsasında xarici nüfuzlu Universitetlərdə təhsil alan doktorantların vaxtaşırı seminarlarını təşkil edir. Hazırda universitetin müqavilə imzaladığı və qeyd edilən proqram çərçivəsində xaricdə təhsil alan doktorantların sayı 37-dir. Hər bir doktorant tərəfindən ildə iki dəfə keçirilən seminarda universitetin doktorant və magistr tələbələri aktiv iştirak edir.

Ümumilikdə, pandemiya dövründə müəyyən azalmalar müşahidə olunsa da, hər il keçirilmiş elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə 200-dən çox gənc tələbə-tədqiqatçı iştirak etmişdir.

2018-2023-cü illərdə Xəzər Universitetində elm və təhsil sahəsində aşağıdakı beynəlxalq layihələr icra edilir:

1. "Advocacy Establishment for Students through Ombudsman Position" (AESOP) (561640-EPP-1-2015-1-AZ-EPPKA2-CBHE-JP), Avropa Komissiyası.

   Layihənin icra müddəti: 2015-2018

Layihənin məqsədi Avropa universitetlərinin tələbə vəkilliyi sahəsində təcrübəsini, xüsusən də "neytral" (digər iş öhdəlikləri və ya maraqların toqquşması olmayan) ombudsmanının resurs kimi işə götürülməsinin ümumi təcrübəsini öyrənmək və Tələbə Hüquqları Ofisini yaratmaq olmuşdur.

2. "Restructuration, Harmonisation and Upgrading of the Doctoral Studies in Azebaijan by Exchanges on Know-How with Europe (NIZAMI)" (561784-EPP-1-2015-1-FR-EPPKA2-CBHE-SP), Avropa Komissiyası

   Layihənin icra müddəti: 2015-2018

Layihənin məqsədi beynəlmiləlləşməni, tədqiqat əməkdaşlığını, işə qəbulu təşviq etmək üçün Azərbaycanda doktoranturanın Avropa standartlarına uyğun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı olmuşdur.

3. “Paving the way to interregional mobility and ensuring relevance, quality and equity of access (PAWER)” (574099-EPP-1-2016-1-IT-EPPKA2-CBHE-SP), Avropa Komissiyası

   Layihənin icra müddəti: 2016-2019

Layihənin ümumi məqsədi ali təhsil sistemlərinin beynəlxalq miqyasını və onların dörd region və EHEA arasında inteqrasiyanı gücləndirmək məqsədilə birgə alətlərin hazırlanması yolu ilə regionlararası əməkdaşlığın gücləndirilməsi, 8 ölkədən 24 universitetin modernləşdirilməsinə, əlçatanlığına və beynəlmilləşməsinə dəstək vermək olmuşdur.

4. “Promoting Excellence in Teaching and Learning in Azerbaijani Universities- PETRA” (573630-EPP-1-2016-1-ES-EPPKA2-CBHE-JP), Avropa Komissiyası

   Layihənin icra müddəti: 2016-2019

PETRA-da əsas məqsəd texnologiya və innovasiyadan istifadəni artırmaq, tədris və tədqiqata dəstək göstərmək və Avropa Tərəfdaşları ilə uzunmüddətli tərəfdaşlıq qurmaq yolu ilə Azərbaycan Universitetlərində tədris və təlimin təkmilləşdirilməsinə təşviq etmək olmuşdur.

5. “Ali Təhsildə Miqrasiya Tədqiqatlarının Təşviqi – PROMIG” (573554-EPP-1-2016-1-GE-EPPKA2-CBHE-JP), Avropa Komissiyası

   Layihənin icra müddəti: 2017-2020

Layihənin məqsədi Cənubi Qafqaz regionunun 6 universitetində miqrasiya idarəçiliyi üzrə səriştə mərkəzləri yaratmaq və təcrübə mübadiləsini gücləndirmək üçün MOODLE platformasından istifadə edərək regional tədqiqat şəbəkəsini inkişaf etdirmək olmuşdur.

6. “Social Investment Initiative”, BP

   Layihənin icra müddəti: 2017-2018

7. “Capacity Building of English Language Teachers at IDP Schools (CBELT)”, Böyük Britaniyanın Azərbaycandakı səfirliyi

   Layihənin icra müddəti: 2018-2019

ABŞ-ın Azərbaycan Respublikasındakı Səfirliyinin dəstəyi və Xəzər Universitetinin İngilis dili və Ədəbiyyatı departamentinin müəllimlərinin cəlb edilməsi ilə “Məcburi köçkün məktəblərində ingilis dilinin tədrisi üzrə potensialın gücləndirilməsi layihəsi”nin məqsədi qeyd edilən məktəblərdə ingilis dilinin tədrisinin keyfiyyətinin yüksəldilməsi olmuşdur.

8. “Erasmus+: “Mediasiya: öyrənmə və cəmiyyətin transformasiyası” (MEDİATS)

   Layihənin icra müddəti: 2018-2021

Layihənin məqsədi universitetlərin Azərbaycan, Gürcüstan və Ukraynadakı mediasiya proseslərinin asanlaşdırılmasında əsas maraqlı tərəflərdən biri olmağına imkan vermək, Avropanın ən yaxşı təcrübələrini əldə etməklə problemlərin obyektiv həllini tapmaq olmuşdur.

9. “Cənubi Qafqaz və Norveçdə akademik mühitdə mədəniyyətlərarası kommunikasiya”

   Layihənin icra müddəti: 2018-2021

Layihə mədəniyyətlərarası kommunikasiyaya həsr olunmuş layihə Norveçin koordinatorluğu ilə 3 Cənubi Qafqaz ölkəsində həyata keçirilmişdir. 3 illik layihədə mədəniyyətlərarası kommunikasiya ilə əlaqədar magistr səviyyəsində fənlərin tədrisi, Oslo və Tiflisdə yay məktəblərinin təşkil olunmasını, birgə araşdırma işlərinin aparılmasını nəzərdə tutulmuşdur. Layihəni Norveç Təhsildə Beynəlxalq Əməkdaşlıq Mərkəzi (Norwegian Centre for International Cooperation in Education – SIU) dəstəkləmişdir.

10. “From university to labour market in the 21st century: a step forward in work-based placements” (610245-EPP-1-2019-1-BE-EPPKA2-CBHE-JP), Avropa Universitetinin Davamlı Şəbəkəsi

    Layihənin icra müddəti: 2019-2022

Layihənin məqsədi üç tərəfdaş ölkədə - Azərbaycan, Belarusiya və Rusiyada - müəssisə və ali təhsil müəssisələri arasında tərəfdaşlığın genişləndirilməsi üçün ali təhsil sektorunun modernləşdirilməsinə töhfə vermək məqsədi daşıyır, məzunların işlə təmin olunmasını təkmilləşdirmək üçün iş əsaslı tədrisini təşviq etməyə yönəlmiş dəstək mexanizmi, normative hüquqi bazası və innovativ yerləşdirmə UniLab modelini özündə birləşdirmişdir

11. Jean Monnet Modulu, Avropa Komissiyası

    Layihənin icra müddəti 2019-2022

Jean Monnet Modulunun ali təhsil müəssisəsində məqsədi gənc tədqiqatçılar və alimlər arasında Avropa İttifaqı (Aİ) məsələlərində tədqiqat və tədris təcrübəsini, akademik tədqiqatların dərc edilməsini, yayılmasını təşviq etmək və Aİ-yə maraq yaratmaqdır.

Bu 3 illik layihə çərçivəsində "Simulyasiya oyunları vasitəsilə Aİ ilə tələbələrə ünsiyyət" adlı kurs hazırlanmış, Azərbaycanın müxtəlif universitetlərinin tələbələrini cəlb etməklə “Azərbaycanda simulyasiyalar vasitəsilə Aİ Diplomatiyasının Təcrübəsi” adlı ölkə miqyasında simulyasiyalar təşkil edilmiş, jurnalistlər üçün “Aİ nədir və necə işləyir?” adlı seminarlar keçirilmiş, “Aİ nədir və necə işləyir?” mövzusunda didaktik materiallar hazırlanmış və jurnalistlərin istifadəsinə verilmişdir.

12. Erasmus+: “21-ci əsrdə universitetdən əmək bazarına: işə qəbulolunmada bir addım irəli” (UNİLAB) (610245-EPP-1-2019-1-BE-EPPKA2-CBHE-JP)

    Layihənin icra müddəti: 15 noyabr 2019 - 14 noyabr 2022

Layihənin məqsədi üç tərəfdaş ölkədə - Azərbaycan, Belarusiya və Rusiyada - müəssisə və ali təhsil müəssisələri arasında tərəfdaşlığın genişləndirilməsi vəböyüməsi üçün Avropa Birliyi Proqram tərəfdaşları ilə yaxınlaşaraq cəmiyyət daxilində ali təhsil sektorunun modernləşdirilməsinə töhfə vermək məqsədi daşıyır, məzunların işə əsaslanan tədrisini təşviq etməyə yönəlmiş dəstək siyasəti, hüquqi baza və innovativ praktiki yerləşdirmə UniLab modelini həyata keçirmək və inkişaf etdirməklə işə qəbulu özündə birləşdirir.

13. “Creative Spark: Ali Təhsil Müəssisəsi Proqramı”

Layihənin icra müddəti: 2019 - davam edir

"Creative Spark" Böyük Britaniyanın dəstəyi ilə Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələrində biznes bacarıqlarını və yaradıcı iqtisadiyyatı inkişaf etdirmək məqsədilə universitetlərarası və institusional əməkdaşlığı beynəlxalq səviyyədə dəstəkləmək üçün nəzərdə tutulan beş illik təşəbbüsdür. Xəzər Universiteti Böyük Britaniyanın Middlesex Universiteti ilə birgə British Council tərəfindən dəstəklənən Creative Spark Tərəfdaşlıq Fondu 2019-un qaliblərindən biridir. Bu əməkdaşlıq Dizayn və İncəsənət tələbələrinə sahibkarlıq bacarıqlarını inkişaf etdirməyə imkan vermişdir.

14. “Təhsil və tədqiqat sahəsində çoxmillətli layihələrin inkişafı üzrə PLATFORMA”

Layihənin icra müddəti - 2020-2021

İsveç İnstitutu beynəlxalq əməkdaşlıq üçün alətlər və şəbəkə infrastrukturunu inkişaf etdirmək üçün pilot layihəni (2020-2021) maliyyələşdirmişdir. Əsas konsepsiya müxtəlif tərəfdaşların və maraqlı tərəflərin fikir və təcrübələrini bir araya gətirərək, problemləri təhlil etmək üçün keys metodlarından istifadəyə əsaslanır. Göteburq Universitetindən (İsveç; koordinasiya) əlavə olaraq ilkin PLATFORMA konsorsiumuna Xəzər Universiteti (Azərbaycan), Nijni Novqorod Dövlət Memarlıq və İnşaat Universiteti (Rusiya) və Beynəlxalq Elm Cəmiyyəti (SWS Scholarly Society, Avstriya) daxil edilmişdir.

15. “The Climate Connection - İqlim dəyişikliyi üzrə öhdəliklər”

Layihənin icra müddəti - 2021-2022

Layihənin əsas məqsədi İqlim dəyişikliyi məsuliyyəti üçün lokal təşəbbüsləri dəyərləndirmək və əldə edilən nəticələrlə COP26-ya töhfə vermək olmuşdur. Layihə çərçivəsində insanların bu sahədə məsuliyyətini dərk etməsini aşılayan maarifləndirici vebinarlar, tədbirlər, müsabiqələr təşkil olunmuşdur.

16. Erasmus+: “Xəzər bölgəsinin inkişafında universitet-müəssisə əməkdaşlığını həyata keçirmək üçün istehsalat müəssisəsi pilot kursları” – PICASP (617540-EPP-1-2020-1-IT-EPPKA2-CBHE-JP)

Layihənin icra müddəti: 2021-2024

Əsas məqsədləri: PICASP layihəsinin əsas məqsədləri: Virtual laboratoriya dəstəyi ilə tədris metodikalarının inkişafı; Sahibkarlıq və KOB idarəetmə fənlərinin tədris materiallarının hazırlanması; Akademik və texniki heyətin işgüzar səfərlərdə iştirakı ilə Avropa İttifaqı (Aİ) tərəfdaşları ilə ən yaxşı təcrübələrdən faydalanması; Tədris proqramlarının hazırlanması və məzunların yerləşdirilməsində maraqlı tərəflərin daha yaxından iştirakının təmin edilməsi; Standartların qurulması, didaktikada keyfiyyətin təmin edilməsi və layihənin davamlılığına zəmin yaradılması.

Bu layihədəki universitetlər şəbəkəsi digər tərəfdaş universitetlərdə pilot kursların həyata keçirilməsinə dəstək olacaqdır.

17. Erasmus+: "Azərbaycanda Rektorlar Konfransının yaradılması" – ECAR (619354-EPP-1-2020-1-AZ-EPPKA2-CBHE-JP)

    Layihənin icra müddəti: 2021-2024

Layihənin ümumi məqsədi milli inkişaf strategiyalarına uyğun olaraq rektorlar assosasiyasını quraraq universitetlər və bütün digər maraqlı tərəflər arasında milli şəbəkə və əməkdaşlığı inkişaf etdirmək, eyni zamanda toplanan məlumatlar və mövzu ilə bağlı qanunvericilik sənədlərinin dərin təhlili yolu ilə universitetlər, Elm və Təhsil Nazirliyi və digər maraqlı tərəflər arasında şəbəkə, kommunikasiya və əməkdaşlıqdakı mövcud vəziyyəti nəzərə alaraq qiymətləndirməkdir.

18. "İkinci Qurbanlar üzərində işləyən Avropa Tədqiqatçılar Şəbəkəsi" adlı COST layihəsi

    Layihənin icra müddəti: 2020

Xəzər Universiteti "İkinci Qurbanlar üzərində işləyən Avropa Tədqiqatçılar Şəbəkəsi" adlı COST layihəsində tərəfdaşlardan biri olmuşdur. Layihənin məqsədi dördüncü meyarın və onun səhiyyə təşkilatları üçün təsirlərinin müzakirəsini təşviq etmək; İkinci Qurbanlar fenomeninin nəzəri konseptualizasiyasını daha da inkişaf etdirmək və onun tərifinə dair ümumi bir anlayış formalaşdırmaq; şəxsi, peşəkar, sosial, hüquqi, iqtisadi və əmək baxımından neqativ halın səhiyyə işçilərinə təsiri və onların nəticələri barədə məlumatlılığı artırmaq olmuşdur.

19. HAnimSPAC "Dayanıqlı İstehsal və İstehlak üçün Xoşbəxt Heyvanlar" layihəsi

    Layihənin icra müddəti - 18 ay (2021-2022)

Layihənin əsas məqsədi tərəfdaş ölkələrin mövcud vəziyyətini, fermerlərin və istehlakçıların heyvan rifahının əhəmiyyəti ilə bağlı fikirlərini araşdırmaq, əsas problemləri müəyyən etmək və heyvanların rifahının iqtisadi təsirini qiymətləndirmək, nəticələri araşdırmaq üçün həm əyani, həm də onlayn bir simpozium təşkil etmək, gələcək fəaliyyətləri müəyyən etmək və bir plan hazırlamaqdan ibarət olmuşdur.

20. "Data, Economics and Development Policy" Micromasters program, SOCAR

Layihənin icra müddəti: 2022-davam edir

Layihənin əsas məqsədi Massaçusets Texnologiya İnstitutunun “Data, İqtisadiyyat və İnkişaf Siyasəti” MikroMagistr Proqramı üzrə 20 azərbaycanlı tələbənin ödənişsiz əsasda təhsil almasına töhfə vermək olmuşdur. 2022-ci il mayın 18-də SOCAR və onun Cənubi Qafqaz Boru Kəməri (CQBK) şirkətindəki tərəfdaşları ilə Xəzər Universiteti arasında “İnkişaf İqtisadiyyatı Akademiyası” layihəsinin başlanğıcını təsdiqləyən müqavilə imzalanmışdır.

21. Erasmus+: “DIRNA” layihəsi

Layihənin icra müddəti: 2023-2025

2022-ci ildə Xəzər Universitetinin DIRNA layihəsi Erasmus+ qrant layihəsinin qalibi olmuşdur. Layihə açıq girişi olan institusional elektron arxiv şəbəkəsinin yaradılması vasitəsilə səkkiz aparıcı Azərbaycan universitetinin tədqiqat nəticələrinin idarə edilməsi potensialının artırılması məqsədini daşıyır. Layihəyə 8 Azərbaycan və 3 Avropa ali təhsil müəssisəsi daxildir.

Xəzər Universiteti milli və beynəlxalq səviyyədə birgə tədqiqat proqramlarının icrası və s. kimi birgə təşəbbüsləri həmişə dəstəkləyir və bu sahədə professor-müəllim heyətinə lazımi dəstəyi verir. Universitetin İnkişaf  Ofisi və Beynəlxalq Əlaqələr Ofisi bu işdə tədqiqat mərkəzləri və elmi-tədqiqatların idarə olunması ilə əlaqəli struktur bölmələrlə sıx işləyir. Universitetin bu barədə strategiyasının müvafiq hədəflərini dəstəkləyən mexanizmi mövcuddur.

Universitet əməkdaşları həm yerli, həm də xarici ölkələrin müxtəlif ali təhsil və elmi-tədqiqat müəssisələrinin tədqiqatçıları ilə birgə tədqiqatlar aparırlar. Bundan əlavə Elmin İnkişafı Fondunun qrant layihəsi proqramlarına müraciət etmək üçün müxtəlif birgə layihələr hazırlanaraq təqdim edilir. 2018-ci ildə universitetin Anhui Kənd Təsərrüfatı Universiteti ilə birgə “The associated research and development of key technology for the tea planting in Agricultural Machines in Lankaran, Azerbaijan” birgə tədqiqat proqramı icra olunmuşdur (Liao, W., Liu, S., Chen, Y., Kong, Y., Wang, D., Wang, Y., Ling, T., Xie, Z., Khalilova, I. and Huang, J., 2022. Effects of Keemun and Dianhong Black Tea in Alleviating Excess Lipid Accumulation in the Liver of Obese Mice: A Comparative Study. Frontiers in Nutrition, 9.)

2019-cu ildə universitet və Almaniyanın Leibniz Bitki Genetikası və Kənd Təsərrüfatı Bitkiləri Tədqiqatları İnstitutunun əməkdaşlığı ilə universitetin genetika ixtisası üzrə doktorantı və qeyd edilən institunun Genomika və genetik ehtiyatlar qrupunun birgə tədqiqat proqramı icra olunmuş və müvəffəqiyyətlə yekunlaşdırılmışdır.
2020-ci ildə "Klassik və kvant mexanikasının bəzi məsələlərində spektral nəzəriyyənin və qeyri-harmonik Furye analizinin metodları" və "Qarabağ və Dilbaz at cinslərinin genom profilinin tədqiqi: Genetik markerlərin və allel variasiyalarının aşkar edilməsi və seleksiyada istifadəsi" layihəsi Elmin İnkişafı Fondunun elan etdiyi müsabiqədə qalib olmuşdur. 2020-ci ildə universitet CA19113, "The European researchers` network working on second victim" COST proqramına qoşulmuşdur.
2021-2022-ci ildə universitetin İsveç İnstitutu ilə birgə təqdim etdiyi HAnimSPAC "Dayanıqlı İstehsal və İstehlak üçün Xoşbəxt Heyvanlar" layihəsi Baltic Sea Neigbourhood proqramının qalibi olmuş və layihə uğurla tamamlanmışdır.

Universitet əməkdaşlarının 2018-2022-ci illərdə müxtəlif beynəlxalq elmi-şəbəkələrdə birgə əməkdaşlığın nəticəsi olaraq məşğul olan professor-müəllim heyəti tərəfindən birgə 385 elmi iş dərc edilmişdir.

| **İl** | **Beynəlxalq elmi jurnallarda dərc edilmiş məqalələr** | | |
|---|---|---|---|
| | cəmi: | WoS | Digər jurnallar |
| 2018 | 62 | 48 | 14 |
| 2019 | 71 | 51 | 20 |
| 2020 | 98 | 79 | 19 |
| 2021 | 87 | 52 | 35 |
| 2022 | 67 | 49 | 18 |
| Cəmi | 385 | 279 | 106 |

Universitetdə yerinə yerinə yetirilən elmi tədqiqat işlərinin nəticələri müxtəlif formatlarda tədrisdə tətbiq olunur. Bu prosesdə universitetdə tədris prosesində iştirak edən tədqiqatçılar əsas rol oynayır. Müxtəlif elm sahələri, o cümlədən genetika, immunologiya, biokimya, bioloji müxtəliflik, fizika, astronomiya, kompüter elmləri, nanotexnologiya, təhsil, beynəlxalq münasibətlər və s. sahələrdə universitet tədqiqatçılarının apardığı tədqiqat işləri tədris prosesində

təqdimatlar və ya əlavə materiallar kimi tələbələrə tanışlıq üçün təqdim edilir və müzakirələrdə istifadə olunur.

Bundan əlavə magistratura və doktorantura tələbələrinə dissertasiya mövzularının verilməsi zamanı universitetdə yerinə yetirilən elmi tədqiqat işlərinin profilinin əsas götürülməsinə, tələbələrin aktiv tədqiqatlar zamanı aşkarlanmış elmi problemlərin həllinə yönəlmiş işlərə istiqamətləndirilməsinə diqqət yetirilir.

Universitet elmi fəaliyyətini stimullaşdırmaq, onların beynəlxalq elmi mühitə daha sıx inteqrasiyasını təmin etmək, elmi fəaliyyətin kəmiyyət və keyfiyyət göstəricilərini yüksəltmək və beynəlxalq jurnallarda çap olunan məqalələrin sayını artırmaq məqsədilə rəhbərlik tərəfindən xüsusi tədbirlər də görülür. 01 fevral 2016-cı il tarixli, U/107 saylı əmri ilə universitetin elmi əlaqələrinin genişləndirilməsi, araşdırmalar və nəşrlərin sayının artması, tədqiqatların yerinə yetirilməsində lazım olan və nəticələrə dair informasiyanın daimi genişlənməsi sahəsində görülən işlərin əlaqələndirilməsi və sistemləşdirilməsi məqsədi ilə universitetdə Xəzər Tədqiqatlara Dəstək Mərkəzi yaradılmışdır. Həmin mərkəzin əsas funksiyalarından biri də tədqiqatçılara elmi məqalələrin yazılması və nəşr etdirilməsinə kömək göstərməkdir. Bundan əlavə nüfüzlu beynəlxalq jurnallarda dərc edilmiş elmi məqalələrə görə professor-müəllim heyətinin stimullaşdırılması haqqında əsasnaməyə uyğun olaraq Web of Science və/və ya Scopus elmi platformasına daxil olan beynəlxalq jurnallarda məqalələr çap etdirən əməkdaşlar, həmin jurnalın impakt-faktoru səviyyəsindən asılı olaraq, universitet tərəfindən mükafatlandırılır.

Xəzər Universiteti Web of Science elmi platformasına daxil olunan impakt faktorlu jurnallarda çap olunan adambaşına düşən elmi məqalələrin sayına görə Azərbaycanın ali məktəbləri arasında ön sıradadır. Universitet əməkdaşlarının, magistratura və doktorantura tələbələrinin elmi-tədqiqat nəticələrinin dərc etdirilmə imkanlarının yaxşılaşdırılması üçün müxtəlif sahələr üzrə özü də 3 elmi jurnal dərc edir. Bunlar Xəzər “Humanitar və Sosial elmlər” jurnalı, Xəzər “Elm və Texnologiya” jurnalı və “Azərbaycan Arxeologiyası” jurnallarıdır. Bu jurnalların hər üçü Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına daxildir.

Xəzər “Humanitar və Sosial elmlər” jurnalı ildə 4 dəfə ingilis dilində dərc olunan beynəlxalq elmi jurnaldır (çap versiyası ISSN: 2223-2613, elektron versiya E-ISSN: 2223-2621). Jurnal humanitar, sosial, ictimai siyasi sahələr üzrə nəzəri və tətbiqi, ciddi elmi axtarışları, orijinallıq və aktuallığını saxlayan mövzular üzrə elmi məqalələri dərc edir. Jurnal Azərbaycanda humanitar və sosial elmlər üzrə Web of Science bazasına daxil edilmiş ilk jurnaldır.

Xəzər “Elm və Texnologiya” jurnalı 2015-ci ildən ildə 2 dəfə ingilis dilində nəşr olunur. Jurnal riyaziyyat, fizika, kimya, biologiya, yer elmləri, kompüter elmləri, tibb və mühəndislik sahələri üzrə ən qabaqcıl, orijinal tədqiqat mənbəyi hesab olunur.
“Azərbaycan Arxeologiyası” urnalı 1999-cu ildən ildə iki say olaraq nəşr olunur. Jurnalın ən önəmli xüsusiyyəti birbaşa Azərbaycandakı arxeologiya fəaliyyətlərini əhatə etməsidir. Bu mənada Azərbaycan üçün nadir jurnallardan biri sayılır.

Xəzər Universitetinin tədqiqatçıları tərəfindən nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadların sayı dinamik olaraq artmaqdadır. Belə ki, 1999-2017-ci illərdə Web of Science bazasında daxil olmuş 64 məqaləyə həmin dövr ərzində cəmi 465 istinad olmuşdur ki, bu hər birinə orta hesabla 7.27 instinad deməkdir. Həmin dövrlər üzrə ümumi H indeksi 10-a bərabər olmuşdur. 2018-2022-ci illər üzrə statistika isə daha yüksək rəqəmlərlə səciyyələnir. Belə ki, bu illər ərzində universitetin tədqiqatçıları tərəfindən Web of Science bazasında 279 məqalə dərc olunmuşdur ki, onlara ümumilikdə 3899 (2358 – without self-citation) istinad olunmuşdur. Yəni, 2018-ci ildə 48 məqaləyə 99 istinad, 2019-cu ildə 51 məqaləyə 492 istinad, 2020-ci ildə 79 məqaləyə 905 istinad, 2021-ci ildə 52 məqaləyə 1022 istinad, 2022-ci ildə isə 48 məqaləyə 1290 istinad olmuşdur. Bu hər bir məqaləyə orta hesabla 14.03 istinad deməkdir. Nəticədə bu illər ərzində ümumi H indeksi 41-ə yüksəlmişdir.
https://www.webofscience.com/wos/woscc/citation-report/70bce092-18ef-4b71-a37c-261b97930aa5-70feb2bf

Xəzər Universiteti magistratura səviyyəsində təhsil alan tələbələrə ixtisaslarından asılı olaraq aşağıda adları qeyd olunan tədqiqat yönümlü fənləri tədris edir:
~~Azərbaycan dili ixtisası üzrə “Humanitar elmlərdə tədqiqat metodları”,~~ Azərbaycan Ədəbiyyatı ixtisası üzrə “Ədəbiyyatşünaslıqda tədqiqat metodları”, Dilşünaslıq, Regionşünaslıq (Avropa), Neft və qaz yataqlarının işlənməsi, Konfliktologiya və Beynəlxalq münasibətlər tarixi və nəzəriyyəsi ixtisasları üzrə “Tədqiqat metodları”, Beynəlxalq münasibətlər və diplomatiya və Dünya siyasi prosesləri ixtisasları üzrə “Tədqiqat metodları” və “Tədqiqat layihə təkliflərinin işlənməsi”, Elektron cihazları və qurğuları və Elektronika ve avtomatika ixtisasları üzrə “Tədqiqat metodları (Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi üzrə)”, İnformatika  və Kompüter mühəndisliyi ixtisasları üzrə “Kompüter elmlərində tədqiqat metodları”, Kliniki psixologiya və Ümumi psixologiya ixtisasları üzrə “Kliniki psixologiyada tədqiqat və statistika-1” və “Kliniki psixologiyada tədqiqat və statistika-2”, Kompüter sistemlərinin və şəbəkələrinin proqram təminatı ixtisası üzrə “Kompüter elmlərində tədqiqat

metodları və etika”, tərcümə ixtisası üzrə “ Tədqiqat metodları” və “Tədqiqat işinin tərtibi və yazılması” kimi tədqiqatyönümlü fənlər tədris edilir. MBA və MSc ixtisaslarında “Tədqiqat metodları” və statistika dərsləri keçirilir.
Universitetin doktorantura və dissertantura tələbələrinə isə “Tədqiqat metodologiyası” və “Statistika” dərsləri tədris edilir.

Xəzər Universitetinin Tədqiqatlara Dəstək Mərkəzi, İnkişaf Ofisi və Təlim Tədris Mərkəzi akademik heyətin tədqiqat bacarıqlarını inkişaf etdirmək üçün çoxlu sayda təlimlər və seminarlar və digər silsilə tədbirlər həyata keçirir. 2018-ci ildə bu məqsədlə 16, 2020-ci ildə 7, 2021-ci ildə 8, 2022-ci ildə 7 tədbir təşkil edilmişdir. Bundan əlavə, universitet akademik heyətin tədqiqat və peşəkar inkişaf yönümlü təlimlərdə, vörkşoplarda, konfranslarda və s. tədbirlərdə iştirakları üçün geniş imkanlar yaradır.

Universitet, yüksək balla qəbul olmuş yerli doktorantura tələbələrinə, onları elmi fəaliyyətə həvəsləndirmək üçün, illik təhsil haqlarında 20-40%-ə qədər güzəşt tətbiq edir. Bundan əlavə 2022-ci ildən etibarən dövlət sifarişli yerlərin ayrılması üçün Elm və Təhsil Nazirliyinə müvafiq qaydada müraciət edilir və prioritet sahələr üzrə dövlət sifarişli kadr hazırlığını həyata keçirir. 2022-ci ildə universitetə dövlət sifarişli doktorantura 7 yer ayrılmışdır.
Xəzər Universitetinin nəzdində yaradılan Nailəxanım Fondu 2021-ci ildən milli mənşəyindən və vətəndaşlığından asılı olmayaraq təhsilini magistratura və ya doktoranturada davam etdirmək niyyətində olan istedadlı qadın tələbələri üçün yüksək səviyyəli müsabiqə əsasında tam təqaüd verir (https://khazar.org/az/news/5593).
Universitet magistratura və doktoranturaya müraciət edən əcnəbi tələbələrə illik təhsil haqqının 25-75%-i qədər təqaüd (Merit-based Scholarship) təklif edir. Təqaüd tələbələrlə aparılan müsahibələrin nəticəsinə və digər göstəricilərə əsasən təyin edilir.
2018-ci ildə ümumilikdə, 18 yerli, 14 əcnəbi, 2019-cu ildə 16 yerli, 6 əcnəbi, 2020-ci ildə 7 yerli, 17 əcnəbi, 2021-ci ildə 7 yerli, 12 əcnəbi, 2022-ci ildə isə 12 yerli, 7 əcnəbi doktorant universitetə qəbul olmuşdur.
Xəzər Universiteti hazırladığı kadrların işə cəlb edilməsinə xüsusi önəm verir. Bununla bağlı aktiv doktorant tələbələri və yeni məzun olmuş doktorantlarla danışıqlar aparılır və onların işə qəbulu məsələləri müzakirə olunur. 2018-ci ildə 1, 2019-cu ildə 1, 2020-ci ildə 3, 2021-ci ildə 3, 2022-ci ildə isə 1 məzun olmuş doktorant işə qəbul edilmişdir. Bundan əlavə, aktiv tədqiqatla məşqul olan doktorant və dissertantların təhsil aldıqları müddətdə də tədris prosesinə cəlb edilməsinə xüsusi önəm verilir. Hazırda 4 nəfər əcnəbi doktorant bakalavr pilləsində tədris aparır.

Universitet "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində prioritet sahələr üzrə xaricdə təhsilə dəstək verərək nüfuzlu xarici ali təhsil müəssisələrində doktoranturaya qəbul edilmiş 37 doktorant ilə üç tərəfli müqavilə imzalamışdır. Bu prosesdə Xəzər Universiteti Azərbaycan universitetləri arasında ən qabaqcıl mövqeyini tutur.

Universitetdə bakalavr, magistratura və doktorantura səviyyəsində tədris prosesində yerli və xarici ölkələrdən olan professor-müəllim heyəti iştirak edir. Onların sayının dəyişilmə dinamikası aşağıdakı cədvəldə verilmişdir:

Universitetdə bakalavr, magistratura və doktorantura səviyyəsində tədris prosesində yerli və xarici ölkələrdən olan professor-müəllim heyəti iştirak edir. Onların sayının dəyişilmə dinamikası aşağıdakı cədvəldə verilmişdir:

| İl | Elmlər doktoru | Professor |
|---|---|---|
| 2018 | 10 | 7 |
| 2019 | 10 | 7 |
| 2020 | 10 | 6 |
| 2021 | 7 | 6 |
| 2022 | 13 | 9 |

2018-2022-ci illər üzrə elmi dərəcəsi olan tədqiqatçıların ümumi akademik heyətə olan nisbəti aşağıdakı cədvəldə verilmişdir:

| İl | Elmi dərəcəsi olanlar (cəmi) | Akademik heyət (tədris ili üzrə verilmişdir) | % |
|---|---|---|---|
| 2018 | 93 | 211 | 44 |
| 2019 | 102 | 210 | 49 |
| 2020 | 88 | 240 | 37 |
| 2021 | 85 | 251 | 34 |

| | | | |
|---|---|---|---|
| 2022 | 86 | 323 | 27 |

Universitetdə fəlsəfə doktoru hazırlığı üzrə aşağıdakı doktorantura proqramları mövcuddur:

- Analiz və funksional analiz - 1202.01
- Kompüter elmləri - 1203.01
- Biokimya - 2406.02
- Genetika -2409.01
- İmmunologiya - 2412.01
- Mikrobiologiya - 2414.01
- Molekulyar biologiya - 2415.01
- Neft və qaz yataqlarının işlənməsi və istismarı - 2525.01
- İnşaat materialları və məmulatları - 3305.07
- Nanotexnologiya və nanomateriallar - 3347.01
- German dilləri - 5708.01
- Müqayisəli-tarixi və müqayisəli-tipoloji dilçilik - 5714.01
- Azərbaycan ədəbiyyatı - 5716.01
- Dünya ədəbiyyatı - 5718.01
- Təhsilin təşkili və planlaşdırılması - 5802.01
- Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi - 5804.01
- Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası - 5801.01
- Beynəlxalq münasibətlər - 5901.01
- Siyasi nəzəriyyə - 5908.01
- Ümumi psixologiya - 6107.01
- Ümumi iqtisadiyyat – 5308.01
- Dünya iqtisadiyyatı - 5310.01
- Müəssisələrin təşkili və idarə olunması - 5311.01

Kadr hazırlığı həyata keçirilən bütün istiqamətlərin kvalifikasiyası müəssisənin elmi tədqiqat hədəflərinə uyğundur. Belə ki, qeyd edilən doktorantura ixtisaslarınının hamısı, müvafiq olaraq hazırda universitetdə fəaliyyət göstərən Riyaziyyat, Həyat elmləri, Neft mühəndisliyi, İnşaat mühəndisliyi, Kompüter elmləri, Kimya və kimya elmləri, İngilis dili və ədəbiyyatı, Dillər və ədəbiyyatlar, Təhsil, Siyasi elmlər və fəlsəfə və İqtisadiyyat departamentlərinin tədris və elmi-tədqiqat fəaliyyətinə uyğun ixtisaslardır.

Dövrün və universitetin yeni tələblərinə uyğun olaraq son illərdə yeni istiqamətlərdə doktorantura proqramlarının açılması üçün Elm və Təhsil Nazirliyinə müvafiq müraciətlər olmuşdur. Belə ki, 2020-ci ildə Nanotexnologiya və nanomateriallar - 3347.01 ixtisasının açılması üçün müraciətə müsbət cavab verilmişdir və hazırda bu ixtisas üzrə 3 kadr hazırlanılır. Bundan əlavə 2023-cü il üçün qəbul planının layihəsində Sistemli analiz, idarəetmə və informasiyanın işlənməsi- 3338.01

və Ekoloji kimya - 2391.01 ixtisasları üzrə doktoranturaya qəbul üçün vakant yerlərin verilməsi məqsədilə müraciət edilmişdir.

Universitetdə elmi tədqiqat fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi ilk növbədə onların Web of Science və Scopus bazalarına daxil olan jurnallarda dərc edilmiş məqalə sayına və illik hesabatlara əsasən aparılır. Fəaliyyətlərin monitorinqi ildə biri dəfə həyata keçirilir. Bu prosesdə Keyfiyyət Təminatı Komitəsi və Yüksək Təhsil fakültələri iştirak edir.

Xəzər Universiteti rektorunun 30 sentyabr 2020-ci il tarixli U/290 saylı əmri ilə Magistratura, Doktorantura və Elmi işlər bölməsinin bazasında iki "Təbiət elmləri, Sənət və Texnologiya" və "İqtisadiyyat və Biznes" yüksək təhsil fakültələri yaradılmışdır. Fakültələr universitetdə magistr, doktorant və dissertantların hazırlanmasına, tədris prosesinin keyfiyyətli təşkilinə, tezis və dissertasiya işlərinin müdafiəsinə nəzarət edir və bütün proseslərin müvafiq qanunvericiliyə uyğun şəkildə təşkil olunmasına dəstək verir. Yüksək təhsil fakültələri yaranana qədər Magistratura, Doktorantura və Elmi işlər bölməsi tərəfindən koordinasiya edilib.

Xəzər Universiteti fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün doktorant hazırlığını həyata keçirir. Hər il müxtəlif ixtisaslar üzrə doktorant və dissertantların ilkin müzakirəsi təşkil edilərək sənədləri müdafiə üçün müvafiq dissertasiya şurasına təqdim edilir.

2018-ci ildə 2 doktorant və 2 dissertantın, 2019-cu ildə 2 doktorant və 1 dissertantın 2021-ci ildə 2 doktorant, 2022-ci ildə isə 6 doktorant və 3 dissertantın dissertasiya işlərinin departamentlərin genişləndirilmiş iclaslarında ilkin müzakirələri keçirilmişdir.

2018-ci ildə 1 doktorant, 2021-ci ildə 2 doktorant və 1 dissertant, 2022-ci ildə isə 2 doktorant və 2 dissertant müvafiq dissertasiya şuralarında dissertasiya işlərini müvəffəqiyyətlə müdafiə etmiş və fəlsəfə doktoru elmi dərəcəsinə layiq görülmüşlər.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiöz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

*4.4. Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti*

Xəzər Universiteti Plagiat.pl MMC ilə StrikePlagiarism antiplagiat internet sisteminin istifadəsi üçün bağlı müqavilə imzalamışdır və müqavilə vaxtaşırı yenilənilir. StrikePlagiarism.com sistemi ENAI (Akademik Dürüstlük üzrə Avropa Şəbəkəsi) tərəfindən tanınmış və təsdiq olunmuş ən yaxşı antiplagiat sistemlərindən biri kimi təsdiq olunmuşdur. (https://strikeplagiarism.com/az/about_us.html).

Universitet əməkdaşları tərəfindən təqdim olunan məqalə və ya dissertasiyaların və s. plagiat yoxlamasını həyata keçirir və plagiarizmə yolverilməsinin qarşısını almaq üçün onları lazımi təlimatlarla tanış edir.

Universitetdə tədqiqat və tədris prosesində köçürmə halları yolverilməzdir. Bu universitetin İmtahan Qaydaları haqqında Əsasnaməsində müvafiq bəndlərdə öz əksini tapmışdır, eyni zamanda tədris prosesində bu məsələnin icrasını həyata keçirmək üçün müxtəlif alətlərdən istifadə olunur. Universitetin əksər auditoriyaları müvafiq kamera çəkiliş sistemləri ilə təmin olunmuşdur. İmtahanların keçirilməsi nəzarətçilərin rəhbərliyi ilə aparılır və köçürməyə cəhd kimi halların aşkarlanması zamanı protokollaşdırılaraq nəticələr ləğv edilir. Köçürmə hallarının qarşısının alınması üçün tədqiqat işlərinin plagiat yoxlanılmasının həyata keçirilməsi haqqında "Magistr tezisinin yazılması və müdafiəsi qaydaları", habelə "Fəlsəfə doktoru hazırlığı üzrə doktorant və dissertantlar üçün yaddaş kitabçası"nda məlumat verilmişdir.

Universitetin istifadə etdiyi antiplagiat sistemindən həm tələbələr, həm də professor-müəllim heyəti yararlanır. Belə ki, universitetin bakalavr tələbələrinin müxtəlif məqsədli tədqiqat layihələri və kurs işləri, magistratura və doktorantura tələbələrinin dissertasiya işlərinin ilkin müzakirəsindən əvvəl tezis və dissertasiya işləri, habelə universitet jurnallarına təqdim etdiyi məqalələri mütləq şəkildə StrikePlagiarism antiplagiat internet sistemi vasitəsilə yoxlanılır və müraciətçi müvafiq arayışla təmin olunur. Bundan əlavə, universitet əməkdaşları tərəfindən vaxtaşırı təqdim olunmuş məqalə, layihə təklifi və s. də plagiat sistemində yoxlanılır və müvafiq arayışlar təqdim edilir. Son 5 ildə plagiat yoxlanılması aparılmış sənədlər barədə statistika aşağıda verilmişdir:

| **İstifadə edən bölmə** | **Sənəd sayı** | **İşarə sayı** |
|---|---|---|
| Humanitar, təhsil və sosial elmlər fakültəsi | 74 | 11130,248 |
| Mühəndislik və tətbiqi elmlər fakültəsi | 42 | 2402,208 |
| İqtisadiyyat və menecment fakültəsi | 8 | 403,703 |
| Yüksək təhsil fakültələri, Keyfiyyətin Təminatı Mərkəzi, Kitabxana İnformasiya Mərkəzi və s. | 341 | 31903,435 |
| Magistratura, Doktorantura və Elmi işlər bölməsi | 91 | 9562,78 |
| ***Qeyd: https://strikeplagiarism.com/en/.*** | | |

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

## 5. İDARƏETMƏ SİSTEMİ

### *5.1. İdarəetmə orqanları*

Xəzər Universitetinin idarə olunması və onun fəaliyyəti Azərbaycan Respublikasının Təhsil Qanununa, Ali təhsil müəssisələri haqqında Əsasnaməyə, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin hüquqi-normativ aktlarına, universitetin Nizamnaməsinə, universitetin ümumi idarəetmə orqanı hesab olunan Elmi Şuranın qərarlarına və daxili əsasnamələrinə müvafiq olaraq həyata keçirilir.

Xəzər Universitetinin məqsəd və vəzifələri, fəaliyyət prinsipləri, idarə edilməsinin, tədris və elmi fəaliyyətinin təşkili xüsusiyyətləri, maliyyələşdirmə mənbələri və s. məsələlər onun Nizamnaməsində və digər universitetdaxili əsasnamə və qaydalarda öz əksini tapmışdır. Adı çəkilən idarəetmə orqanlarının hər birinin müvafiq iş planı mövcuddur və qurum ona uyğun fəaliyyətini həyata keçirir.

Universitetin strukturu aşağıdakı kimidir:

**1. Direktorlar və Qəyyumlar Şurası**

Universitetin ali idarəetmə orqanı Universitetin Direktorlar və Qəyyumlar Şurasıdır. Şura 2010-cu ildən fəaliyyət göstərir. Şuranın təsis edilməsi və tərkibi haqqında müvafiq əmr mövcuddur. Universitetin təsisçisi professor Hamlet İsaxanlı Şuranın sədridir.

**2. Rektor**

Rektor universitetin rəhbəridir. Rektor universitetin idarə edilməsinə və fəaliyyətinə məsul şəxsdir. Rektor, eyni zamanda universiteti ictimaiyyət qarşısında təmsil edir.

Şuranın sədri prof. H. İsaxanlının 04 fevral 2019-cu il tarixli əmrinə əsasən dosent İradə Xəlilova Xəzər Universitetinin rektoru təyin edilmişdir.

**3. Prorektorlar**

Universitetin idarəetmə məqsəd və vəzifələrinə, habelə mövcud idarəetmə strukturuna müvafiq olaraq hazırda 3 prorektor fəaliyyət göstərir:

Akademik işlər üzrə prorektor – Professor Məhəmməd Nuriyev,

İdarəetmə və tələbə işləri üzrə prorektor – dosent İsaxan İsaxanlı,

Beynəlxalq əlaqələr üzrə prorektor - Vlad Alex Vernygora

**4. Elmi Şura**

Universitetin ali kollegial idarəetmə orqanı Elmi Şuradır. Şuranın tərkibi hər tədris ilinin əvvəlində 1 il müddətinə təsdiq edilir. Universitetdə Elmi Şuranın hazırki tərkibi 39 nəfərdən ibarətdir. Elmi şuranın tərkibi 3 əsas meyar üzrə müəyyənləşdirilir:

1. Tutduğu vəzifəyə uyğun olaraq Şuraya birbaşa daxil edilənlər – 15 nəfər
2. Rektorun təqdimatı əsasında Şuraya daxil edilənlər – 3 nəfər
3. Fakültələrin təqdimatı ilə Şuraya daxil edilənlər – 21 nəfər

Tutduğu vəzifələrə uyğun olaraq Elmi Şuranın tərkibinə Tələbə Məclisinin nümayəndəsi də daxildir və iclasda fəal iştirak edir.

**5. Rektorluq**

Gündəlik məsələrin müzakirəsi və tövsiyələrin hazırlanması üçün rektorun yanında məsləhət orqanı yaradılmışdır. Bu qurumun tərkibinə prorektorlar, dekanlar, İnkişaf direktoru, KTM-nin rəhbəri daxildir. Müzakirə olunan məsələrin mahiyyətindən asılı olaraq digər struktur bölmələrin rəhbəri rektorluğun iclaslarına dəvət oluna bilərlər. Rektor iclaslara rəhbərliyi edir.

**6. Məsləhət Şurası**

Xəzər Universitetində Məsləhət Şurası fəaliyyət göstərir. Məsləhət şurasının əsas vəzifəsi tədris və tədqiqat işlərinin yüksək səviyyədə yerinə yetirilməsinin istiqamətləndirilməsidir.

**7. Keyfiyyət Təminatı Komitəsi**

Universitet fəaliyyət göstərən Keyfiyyət Təminatı Komitəsi Universitetin daxili keyfiyyət sisteminin təkmilləşdirilməsi yolu ilə təhsilin keyfiyyətinin yüksəldilməsi və davamlı olaraq yaxşılaşdırılması istiqamətlərinə dair təkliflərin hazırlanmasında iştirak edən və həyata keçirilməsini izləyən kollegial orqandır. Komitənin sədri Universitetin rektoru, dosent İradə Xəlilovadır. Komitənin tərkibi rektorun əmri ilə 2 il müddətinə təyin edilir.

**8. Fakültələr**

Xəzər Universitetində 5 fakültə (Təbiət elmləri və Mühəndislik fakültəsi, İqtisadiyyat və Menecment fakültəsi, Humanitar, Təhsil və Sosial Elmlər fakültəsi, Təbiət elmləri, Sənət və Texnologiya yüksək təhsil fakültəsi, İqtisadiyyat və Biznes yüksək təhsil fakültəsi), 19 akademik departament, çoxsaylı mərkəzlər və institutlar, nəşriyyat və mətbəə fəaliyyət göstərir. Hər fakültənin nəzdində mövcud olan fakültə Elmi Şurasına fakültə dekanı sədrlik edir. Şurada fakültənin fəaliyyəti ilə bağlı bütün vacib məsələlər müzakirə edilir və uyğun qərarlar verilir.

Universitetin ümumi idarəetmə orqanı olan Elmi Şurada Tələbə Məclisinin nümayəndəsi təmsil olunub. Elmi Şurada Tələbə Məclisinin nümayəndəsi bir qayda olaraq tələbələrin səsverməsi ilə seçilən ən aktiv və uğurlu tələbə olur ki, o da rotasiya yolu ilə iki ildən bir yenidən seçilir. Fakültə Şuralarında işə götürənlər və ictimaiyyət nümayəndələri təmsil olunur.

Universitetin Məsləhət Şurasında işəgötürənlər və ictimaiyyət nümayəndələri təmsil olunur, Keyfiyyət Təminatı Komitəsinə akademik və inzibati heyət, məzun, tələbə (lər) daxildir.

İdarəetmə orqanlarının iclaslar, yığıncaqlar və tədbirlər hər birinin fəaliyyət planına uyğun aparılır. İclas və yığıncaqların bir qismi Universitetin təqvim planına uyğun olaraq (məsələn, tədris ilinin sonunda məzun tələbələrlə bağlı iclaslar), digər qismi isə həyata keçirilən tədbir və təşkil olunan yığıncaqların gündəliyinə uyğun həyata keçirilir. İclasların, yığıncaqların və keçirilən tədbirlərin protokolları müvafiq idarəetmə orqanlarında saxlanılır.

Universitetin Elmi Şurasında məsələlərin müzakirə edilməsi qaydaları Universitetin Əsasnaməsi ilə tənzimlənir. İl ərzində keçirilən Elmi Şuranın iclasları onun üzvlərinin 2/3 hissəsi iştirak etdikdə səlahiyyətli sayılır. Şuranın işini təşkil etmək, iclasları gündəliyini hazırlamaq və qərarların həyata keçirilməsinə nəzarət etmək məqsədilə şura üzvləri içərisindən elmi katib seçilir.

Elmi Şura tədris ili üçün nəzərdə tutulmuş iş planı üzrə fəaliyyət göstərir və iş planı onun iclasında müzakirə olunub qəbul edildikdən sonra rektor tərəfindən təsdiq edilir.

Tədris, elmi-tədqiqat və inzibati işlərin bütün məsələləri üzrə Elmi Şuranın qərarları açıq səsvermədə səs çoxluğu (iştirakçıların 50%-dən çoxu) ilə qəbul edilir.

Elmi Şurada müzakirə olunan qərarlar iclas bitdikdən sonra protokollaşdırılır, Elmi Şuranın sədri və katibi tərəfindən imzalanır. Qərarlar yalnız rektor tərəfindən təsdiq olunduqdan sonra qüvvəyə minir.

Eyni zamanda, Rektorluq Nizamnamənin ayırdığı səlahiyyətlər daxilində Universitetin daxili və kənar məsələlərini mütəmadi olaraq müzakirə edir və qərarlar qəbul edir.

Universitetin Direktorlar və Qəyyumlar Şurası, Elmi Şura, rektor və fakültələr, habelə digər qurumlar tərəfindən qəbul edilmiş qərarlar mövcud qanunvericiliyin və Elm və Təhsil Nazirliyinin tələblərinə uyğundur. Qərarlar aidiyyəti qurum və şəxslərə Kadr Şöbəsi tərəfindən müntəzəm olaraq, müvafiq əmr və qərarlar qəbul edilən anda email vasitəsilə çatdırılır, ictimai əhəmiyyətli məlumatlar isə universitetin veb səhifəsində yerləşdirilir.

Direktorlar və Qəyyumlar Şurası ilə Rektorluq, habelə digər aidiyyəti qurumlar və fakültə dekanları arasında əlaqə müntəzəm və sıx şəkildə qurulmuşdur. Universitetin strateji əhəmiyyətli məsələləri bu məqsədlə təşkil edilmiş görüşlərdə müzakirə edilir və müvafiq qərarlar qəbul edilir.

Cari xarakter daşıyan məsələlər Rektorluq və departament, o cümlədən mərkəz rəhbərləri ilə görüşdə müzakirə edilir və qərar qəbul olunur, departament-fakültə əhəmiyyətli məsələlər isə fakültə iclaslarında müzakirə edilir.

Səlahiyyət və vəzifə bölgüsü Universitetin Nizamnaməsinə və Əsasnaməsinə uyğun həyata keçirilir. Universitetin idarəetmə orqanı Elmi Şuradır. Şuranın səlahiyyət müddəti 1 ildir. Elmi

Şuranın tərkibi, vəzifələri, habelə, fakültə Elmi Şuralarının tərkibi, vəzifələri və prosedur məsələləri Universitetin Əsasnaməsi ilə müəyyən edilmişdir.

Universitetin mülkiyyət, təsərrüfat, strukturlaşma, rəhbər kadrların təyin olunması məsələlərində ali orqanı Direktorlar və Qəyyumlar Şurasıdır. Şura rektoru təyin edir; nizamnaməni təsdiq edir, ona əlavə və düzəlişlər edir; Universitetin mülkiyyəti olan xüsusi əmlakının mülkiyyətçilərini təmsil edir; Universitetin maddi bazasının möhkəmləndirilməsi ilə məşğul olur və nizamnamənin müəyyən etdiyi digər səlahiyyətləri daşıyır.

Rektor mütəxəssis hazırlığının keyfiyyətinə, universitetdə tədris, elm, tərbiyə, maliyə-təsərrüfat işlərinin təşkilinə və büdcənin icrasına görə məsuliyyət daşıyır. Rektor Universitetin inzibati-funksional idarəetmə strukturunu və ştat cədvəlini təsdiq edir.

İdarəetmə orqanlarının fəaliyyəti illik hesabatlar əsasında monitorinq edilir və qiymətləndirilir.

Universitetin bütün idarəetmə orqanları öz fəaliyyətini şəffaf və nəticəyönümlü şəkildə qururlar. Onların fəaliyyətini əks etdirən müvafiq hesabatlar, habelə qəbul edilmiş qərarlar bir qayda olaraq bütün əməkdaşlar üçün əlçatandır, onlar bu haqda məlumatlandırılır, ictimai əhəmiyyət daşıyan məlumatlar isə ictimailəşdirilir. Hesabatların və aparılmış qiymətləndirmələrin əsasında mövcud çatışmazlıqların aradan qaldırılması yolları öz əksini tapır. Onlara uyğun olaraq hər qurum üçün müvafiq hədəflər müəyyənləşdirilir və onların fəaliyyətinin təkmilləşdirilməsi istiqamətləri vəzifə kimi qoyulur.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

*5.2.İnsan resurslarının idarə edilməsi*

Xəzər Universitetinin professor-müəllim heyətinin işə qəbul qaydaları haqqında Əsasnaməsi işə qəbul prosesinin qayda və şərtlərini müəyyən etməklə, bu prosesin şəffaf şəkildə keçirilməsinə şərait yaradacaq bir sistem qurulmasını, bərabərlik və müxtəliflik prinsiplərinə sadiq qalaraq ən doğru namizədin seçilməsini təmin edir. Əsasnamə müsabiqənin təşkili qaydalarını, professor-müəllim heyətinin işə qəbulu üçün qoyulan ümumi tələb və öhdəlikləri, işə qəbul prosesinin mərhələlərini müddəalar şəklində ehtiva edir. Professor-müəllim heyətinin işlə təmin olunması proseduru qanunvericiliyin tələblərinə uyğun hazırlanır.

Sənədə əsasən professor-müəllim heyətinin işə qəbulu müsabiqə yolu ilə aparılır. Potensial müəllimlər üçün təşkil edilən sınaq dərslərinin keçirilməsini İşə qəbul komissiyası və uyğun ixtisas departamenti təşkil edir. Sınaq dərsin nəticələrindən asılı olaraq namizədin işə qəbuluna dair təklif verilir.

Əsasnamənin potensial professor-müəllim heyəti üçün müəyyən etdiyi tələb və öhdəliklər əsasında müvafiq departamentlər tərəfindən ehtiyaca uyğun olaraq vakansiya elanları, həm Universitetin saytında, həm də sosial şəbəkələrdə paylaşılaraq Universitetdə işləmək imkanlarını əlçatan edir.

Xəzər Universitetinin 2018-2023-cü illəri əhatə edən Strateji Planı universitetin akademik və inzibati heyətinə dair aşağıdakı strateji hədəfləri müəyyən edir:
- müəllim və inzibati heyətin keyfiyyətli iş aparması üçün maddi-texniki bazanı gücləndirərək universiteti cəlbedici təhsil məkanına çevirmək;
- universitetin davamlı inkişafını təmin etmək üçün professor-müəllim və inzibati heyətinin peşəkar inkişafına dəstək vermək.

Bu istiqamətlərin əsas məqsədi professor-müəllim və işçi heyətinin düzgün seçilməsini və davamlı təlim və inkişafını və universitetin onlarla uzunmüddətli əməkdaşlığını təmin etmək üçün zəmin yaratmaqdır. Universitetdə fəaliyyət göstərən akademik və inzibati heyət universitetin strateji inkişaf proqramına uyğunlaşdırılır. Akademik və inzibati heyətin uyğunlaşdırılması zamanı əlavə maliyyə resurslarına tələbat yarandıqda gərək olan resurslar ayrılır.

Universitetdə işçilərin diferensiallaşdırılmış əməkhaqqı sisteminə uyğun olaraq yeni işçi qəbul ediləndə ştat cədvəlində nəzərdə tutulmuş əmək haqqının minimum həddi müəyyənləşdirilir. Fəaliyyəti dövründə göstərdiyi performansa, habelə digər uğurlarına (məsələn, reytinqli jurnallarda məqalə dərc edilməsi) müvafiq olaraq onun əmək haqqında dəyişiklik edilir. Əmək haqqı sistemində ədalətliliyi təmin etmək üçün dəyişikliklər rektorluqda müzakirə edilir, bütün meyarlar nəzərə alınır və sonda qərar qəbul edilir.

Xəzər universitetində işçilərin motivasiyası və mükafatlandırılması müxtəlif şəkildə həyata keçirilir.

Universitetdə 2017-ci ildən başlayaraq ənənəyə çevrilən il ərzində ən yaxşı işçinin mükafatlandırılması mexanizmi mövcuddur. Tədris ilin sonunda hər fakültə üzrə ən uğurlu fəaliyyət nümayiş etdirən (işdə nöqsanın olmaması, işinin öhdəsindən məharətlə gəlməsi, konkret nəticə nümayiş etdirməsi, habelə həmkarları ilə səmərəli komunikasiyanı qurması, və s.) bir işçi rektorun xüsusi təşəkkürnaməsi ilə təltif edilir və ona mükafat təqdim edilir. Professor-müəllim heyətinin mükafatlandırılmasında elmi-tədqiqat işlərinin nəticələri həlledici rol oynayır.

Universitetdə akademik və inzibati heyəti fəaliyyəti vaxtaşırı qiymətləndirilir və ona uyğun olaraq onların karyera pilləsinin, habelə əmək haqqı səviyyəsinin artımı həyata keçirilir. Bunun üçün sorğuların nəticələri, habelə qurum rəhbərlərinin müvafiq əməkdaşı ilə bağlı dəyərləndirməsi əsas götürülür.
İşçilərin səmərəliliyinin qiymətləndirilməsi təmsil etdiyi struktur bölmənin uğurlu nəticələrinə görə də həyata keçirilə bilər. Bütün hallarda mövcud vəziyyət və uğur hekayələri fakültə və rektorluğun iclaslarında müzakirə edilib, qərar qəbul edilir.

Xəzər Universitetinin strategiyasında əməkdaşların peşəkarlıq səviyyəsinin artırılması əsas hədəflərdən biri kimi öz əksini tapmışdır. Bu məqsədlə, həm beynəlxalq əməkdaşlıq çərçivəsində əməkdaşların təlimlərdə iştirakı təmin edilir, həm də universitetdə peşəkarlıq səviyyəsinin artırılması üçün bir sıra təlimlər keçirilir. Həmin təlimlərdən biri də xarici dil bacarıqlarının artırılması üçün İngilis Dili və Ədəbiyyatı departamenti tərəfindən təşkil olunmuş ingilis dili təlimləridir. Təlimin nəticəsi olaraq cəlb edilmiş inzibati heyətin ingilis dili səviyyəsi xeyli yaxşılaşmışdır.

Xəzər Universiteti sosial və mədəni tədbirlərin keçirilməsində olduqca aktivdir. Bu işin təşkili ilə əsasən Universitetin Musiqi və İncəsənət departamenti məşğul olur. Departament nəzdində kamera orkestri fəaliyyət göstərir. İl ərzində, həm bayram günləri ərəfəsində, həm də xüsusi günlər üçün təşkil olunan və orkestrin müşayiəti ilə keçirilən mədəni tədbirlər Universitetin müəllim-işçi heyəti və tələbələri üçün açıq olur.
Universitetin Nizami korpusunda "Fikrət Əmirov" adına konfrans zalı bu tədbirlərin əksəriyyətinin keçirilməsi üçün əsas mərkəz hesab edilir. Universitet daxili mədəni tədbirlərlə yanaşı ölkə üçün mədəniyyət sahəsində görkəmli şəxsiyyətlərin yubiley və tədbirlərinin keçirilməsinə də diqqət ayırır.
Mədəni tədbirlərlə yanaşı Universitetdə cəmiyyətin aktual sosial mövzu və problemlərinə həsr olunan tədbirlər də təşkil olunur.

Universitetdə, həmçinin Elm və Sənət məclisi fəaliyyət göstərir. İndiyə qədər Elm və Sənət Məclisinin 76 məşğələsi keçirilib. Elm və Sənət Məclisində bir qayda olaraq aktual mövzulara həsr olunmuş müzakirələr aparılır, ölkənin tanınmış alimləri və sənət adamları dəvət edilir.
Keçirilən bütün tədbirlər haqqında məlumat Universitetin saytında işıqlandırılır.

İnzibati heyətdə təmsil olunmaq üçün potensial namizəd ilkin olaraq mövcud vakansiyaya uyğun olan vəzifəyə sənədlərini təqdim edir. İşə götürmə ilə bağlı mövcud qaydalar, habelə rəqabət prinsiplərini əsas tutaraq ən yaxşı namizədi işə götürmək vəzifə kimi qoyulur. İşə qəbul komissiya tərəfindən qərar qəbul edilir və namizədin işə götürülməsi ilə bağlı Universitet rəhbərliyinə tövsiyə verilir. Universitet rəhbərliyi öz növbəsində Komisiyanın rəyini nəzər alaraq son qərarı qəbul edir.
Vakansiya haqqında elanlar həm Universitetin veb-səhifəsində, həm də müvafiq portallarda yerləşdirilir.

Universitetin qeyri-akademik işçi heyətinin qiymətləndirilməsi tabe olduqları qurumlar tərəfindən həyata keçirilir. Bunun üçün qurum rəhbərləri dövrü olaraq işçi haqqında məlumatlar toplayır və tədris ili dövründə onun öz vəzifəsinin öhdəsindən necə gəldiyini, işçinin nümayiş etdirdiyi nəticəyə uyğun olaraq müəyyənləşdirir. Müvafiq təqdimatlar hazırlanıb rektorluqda müzakirə edilir, uyğun qərar qəbul edilir, həmçinin növbəti dövr üçün işçinin müqaviləsinin uzadılmasına əsas verir.

Xəzər Universitetinin professor-müəllim heyətinin və bütövlükdə qeyri-akademik heyətin işə qəbul qaydaları haqqında Əsasnamə işə qəbul olmuş namizədin elmi-pedaqoji təcrübəsindən, bilik və bacarığından asılı olaraq 2 aylıq sınaq müddəti şərti ilə əmək müqaviləsi ya semestr sonuna kimi, yaxud da 1-3 il müddətinə imzalanır.
Əsasnaməyə əsasən həm işə götürən, yəni Xəzər Universiteti, həm də işçi (akademik və qeyri-akademik heyət) Azərbaycan Respublikasının Qanunvericiliyinin tələblərinə uyğun müqaviləyə xitam vermək hüququna malikdir.
Sınaq müddəti dövründə tərəflərdən biri digərinə əvvəlcədən yazılı məlumat verməklə əmək müqaviləsini poza bilər. Əgər bu baş verməyibsə işə qəbul olmuş akademik və qeyri-akademik işçinin əmək müqaviləsinə Azərbaycan Respublikasının Əmək Məcəlləsinin müəyyən etdiyi qayda və əsaslarla xitam verilə bilər.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

*5.3.Maliyyə resurslarının idarə edilməsi*

Xəzər Universiteti mövcud qanunvericilik çərçivəsində öz nizamnaməsi ilə müəyyən edilmiş qaydada fiziki və hüquqi şəxslərə ödənişli təhsil xidməti göstərir, habelə ianələr və könüllü yardımlar almaq hüququna malikdir.  Universitet özünün nizamnaməsində də əksini tapmış bu

müddəalara uyğun fəaliyyət göstərir. Onun əsas gəlir mənbəyi ödənişli təhsil xidmətindən əldə edilən gəlirdir. Bununla yanaşı Universitet xarici və daxili mənbələrdən müxtəlif qrantlar qazanmaqla özünün maddi-texniki bazasını gücləndirir.

Universitetin illik və 5 illik maliyyə planları mövcuddur. Strategiyada əks olunan hədəflərə müvafiq olaraq maliyyə planı hazırlanır. Bunun üçün həm ekzogen (ölkədə və onun xaricində Universitetin təklif etdiyi ixtisaslara maraq, konyunktur və s.), həm də endogen (Universitetin daxili imkanları və mövcud maliyyə resursları) nəzərə alınır. İllik plan daha detallı və konkret xarakter daşıyır.

Xəzər Universitetinin 2018-2023-cü illəri əhatə edən Strateji Planına əsasən departamentlərin inkişaf planına, ondan irəli gələn ehtiyacına uyğun olaraq müvafiq həcmdə resursların ayrılması üçün şəffaf və ədalətli mexanizmlərin hazırlanmasını təmin etmək Universitetin əsas hədəf istiqamətlərindən biridir. Maliyyə resurslarının istifadəsinə nəzarəti Universitetin təsisçisi və ya onun səlahiyyət verdiyi şəxs həyata keçirir.

Xəzər Universiteti, həmçinin innovasiya və sahibkarlığın inkişafı üçün müxtəlif mənbələrdən maliyyənin cəlb olunması istiqamətində də işlər görür. Ayrı-ayrı qrant layihələri çərçivəsində istifadə edilən resurslar layihənin şərtlərinə və məqsədlərinə uyğun cəlb edilir. Nəticə etibarilə, Xəzər universiteti də öz inkişafı üçün həmin layihələrdən bəhrələnir, məsələn, Universitetdə fəaliyyət göstərən və daha öncə layihələr çərçivəsində yaradılmış mərkəzlər Universitet üçün əhəmiyyətli infrastrukturlardan biridir.

Universitet əsasən ödənişli təhsillə yanaşı aşağıdakı mənbələrdən də maliyyə resursları əldə etmək imkanı var:

- hüquqi və fiziki şəxslərin, o cümlədən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, xarici hüquqi şəxslərin qanunvericiliyə uyğun olaraq verilən qrantları, vəsiyyət olunan vəsaitləri, ianələri və yardımları;
- müsabiqə əsasında dövlət tərəfindən ayrılan elmi tədqiqat qrantları;
- universitetin təhsil, elm, istehsal, məsləhət (konsaltinq) və qanunvericiliklə müəyyən edilmiş digər xidmətlərdən əldə etdiyi vəsaitlər;
- hüquqi və fiziki şəxslərin müqavilə əsasında mütəxəssis hazırlığı, ixtisasartırma və kadrların yenidən hazırlanması üçün ayırdıqları vəsait;
- dövlət orqanları tərəfindən maliyyələşdirilən məqsədli proqramlar və layihələr üzrə əldə olunan vəsaitlər;

- universitetin mülkiyyətində olan köhnəlmiş avadanlığın, nəqliyyat vasitələrinin və təhsil məqsədləri üçün yararsız olan digər əmlakın satışından qanunvericiliyə uyğun olaraq əldə edilən vəsaitlər;
- universitetin beynəlxalq əməkdaşlıq nəticəsində qanunvericiliyə uyğun olaraq əldə etdiyi qrantlar və vəsaitlər;
- qanunvericiliklə qadağan edilməyən digər mənbələrdən əldə olunan vəsaitlər.

Universitet əsas etibarilə ödənişli təhsildən əldə etdiyi gəlir və həmçinin, xarici və daxili mənbələrdən qrantlar hesabına büdcəsini formalaşdırır.

Xəzər Universiteti maliyyə resurslarının şəffaflığını aşağıdakı formalarda təmin edir:

- Ödənişli əsaslarla təhsil alan yerli və əcnəbi tələbələrdən təhsil haqqı qəbul zamanı tələbələrlə bağlanılmış müqavilə əsasında bank hesabına köçürülür, dövlət sifarişi ilə təhsilalan, eyni zamanda ödənişli əsaslarla daxil olmuş, lakin dövlət hesabına təhsil alan imtiyazlı tələbələrin təhsil haqqı isə Nazirlər Kabinetinin 2010-cu il tarixli 120 nömrəli qərarına əsasən hər bir təhsilalana düşən illik təhsil xərci əsasında müəyyən edilib hər il təqdim edilmiş hesabat əsasında Maliyyə Nazirliyin təsdiq etdiyi büdcə hesabına Elm və Təhsil Nazirliyi tərəfindən bank hesabına köçürülür;
- Qrant və ianələr, qrantın qeydiyyatı sənədi və Universitetlə qarşı tərəf arasında bağlanılmış müqavilə əsasında bank hesabına daxil olur;
- Elmi tədqiqat nəticəsində əldə olunan maliyyə resursları Xəzər Universitetinin təsisçisi olduğu EİLİNK Cəmiyyəti tərəfindən təsisçi qərarı əsasında bank hesabına daxil olur;
- İcarədən, İSBN kodların satışından, balansda olan əmlakın, avadanlıqların, nəqliyyat vasitələrinin satışından və digər qeyri-sahibkarlıq fəaliyyətindən əldə edilən maliyyə resursları müqavilələr, qiymət razılaşdırma protokolu və təqdim edilmiş elektron qaimələr əsasında bank hesabına daxil olur.

Universitetin Nizamnaməsinə uyğun olaraq, Universitetin əmlakı təsisçilər, hüquqi və fiziki şəxslər tərəfindən onun mülkiyyətinə və ya istifadəsinə verilən, eləcə də qanunvericiliklə qadağan olunmayan və nizamnaməsində öz əksini tapan fəaliyyəti nəticəsində əldə etdiyi əmlakdan, o cümlədən ona məxsus əqli mülkiyyət məhsullarından ibarətdir. Universitet mülkiyyətində və istifadəsindən olan əmlakın saxlanılması, qorunması və ondan səmərəli istifadə edilməsi üçün məsuliyyət daşıyır.

Universitet maddi-texniki bazasının möhkəmləndirilməsi və genişləndirilməsini sərancamında olan büdcə vəsaitləri və büdcədənkənar vəsaitlər hesabına həyata keçirir.

Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetası son olaraq 2017-2022-ci illəri əhatə edir və Universitetin Nizamnaməsinə uyğun olaraq təsdiqlənmişdir. Smeta sadalanan illər üzrə ümumi gəlirləri, xərcləri, hər birinin komponentlərini və il sonuna qalan mənfəəti göstərir.
Hər il üzrə ümumi gəlirin hesablanması ondan əvvəlki ilin bir tələbəyə düşən gəlirinin cari hesablanan ilin tələbə sayına vurulması ilə əldə edilir. Ümumi xərclərin bir qismi - əməkhaqqı xərcləri – ötən ilin müvafiq gəlirinin (ümumi) müəyyən olunmuş faiz hissəsi qədər hesablanır. Digər xərclər isə nəzərdə tutulan, planlaşdırılan işlər və əvvəlki ilin göstəriciləri nəzərə alınaraq hesablanır.

Universitetin maliyyə resurslarının idarə olunması ilə bağlı fəaliyyətinə nəzarət təsisçi və ya onun səlahiyyət verdiyi şəxs tərəfindən həyata keçirilir.
Universitetin maliyyə resurslarından təyinatı üzrə istifadəsinə nəzarəti həyata keçirmək üçün hər il kənar audit dəvət olunur.
Həyata keçirilmiş audit hesabatları universitetin mühasibatlıq strukturunda saxlanılır və onun veb-səhifəsində yerləşdirilir.

Universitet öz nizamnaməsində göstərdiyi xidmətlər (tədris, elmi tədqiqatlar, məsləhət-konsaltinq, və digər xidmətlər) nəticəsində daşınan və daşınmaz əmlak, o cümlədən bina, avadanlıq, yeni texnologiya, nəqliyyat vasitələri və s. əldə edir.
Universitetdə həyata keçirilən bütün satınalmalar "Dövlət Satınalmalar haqqında" qanuna uyğun həyata keçirilir, alqı-satqı proseduru tender əsasında baş verir.

Universitetin həyata keçirdiyi bütün mal alqıları, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibatlıq əməliyyatları Azərbaycan Respublikasının "Mühasibat Uçotu haqqında" qanununa uyğun təşkil edilir.
Xəzər Universiteti Vergilər Nazirliyinə hər il aşağıda göstərilən hesabat formaları təqdim etmişdir:

- hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq "Mənfəət vergisi bəyannaməsi" , "Əmlak vergisi bəyannaməsi";
- həmin ilin may ayının 15-dən gec olmayaraq "Torpaq vergisi bəyannaməsi";
- hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq "Əlavə dəyər vergisi bəyannaməsi";

- rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq və hər rüb üçün ayrı-ayrılıqda “Ödəmə mənbəyində tutulan vergilər bəyannaməsi” .

Dövlət Statistika Komitəsinə hər il aşağıda göstərilən hesabat formaları təqdim edilmişdir:

- hesabat ilindən sonrakı ilin aprel ayının 30-dək “1-Müəssisə №-li forma” (Müəssisənin (təşkilatın) maliyyə vəziyyəti, maliyyə fəaliyyətinin nəticələri və digər iqtisadi göstəriciləri haqqında);
- hesabat ilindən sonrakı ilin martın 15-dək “1-əmək №-li forma” (Əmək üzrə hesabat);
- hesabat ayından sonrakı ayın 15-dək “4-əmək №-li forma” (İşçilərin sayı,hərəkəti və əmək haqqına dair hesabat);
- hesabat ilindən sonrakı ilin yanvar ayının 28-dək “4–enerji №-li forma” (Enerji məhsullarının hərəkəti haqqında);
- hesabat ilindən sonrakı ilin mart ayının 30-dək “1-Təhsil xidmətləri №li forma” (Təhsil xidmətləri haqqında);
- hesabat ilindən sonrakı ilin fevralın 5-dək “4-təhsil (maliyyə) №-li forma” (Maliyyə vəsaitlərinin daxil olması və onlardan istifadə edilməsi haqqında hesabat);
- hesabat ayından sonrakı ayın 5-ci iş günü “12-xidmət №-li forma” (Xidmətlərin göstərilməsi, malların təqdim edilməsi və işlərin yerinə yetirilməsi haqqında).

Elm və Təhsil Nazirliyinə hər il aşağıda göstərilən hesabat formaları təqdim edilmişdir:

- Cari ilin dekabr ayında növbəti ilin büdcəsinin təstiqlənməsi üçün təhsil və təqaüd xərclərinin tələb olunan məbləği ilə bağlı hesabat;
- İldə iki dəfə “Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşları üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrində təhsil qrantının məbləğinin təsdiq edilməsi haqqında” hesabat;
- Hər ayın sonu bakalavriat, magistratura, doktorantura səviyyələri və valideyn himayəsi üzrə cəmi təqaüd məbləği, gələcəyin müəllimi tələbələrinin təqaüd məbləği ilə bağlı sifariş forması;
- Rüblük və illik olaraq “Büdcə təşkilatları və dövlət büdcəsindən maliyyə yardımı alan təşkilatlar üçün büdcə vəsaitlərindən istifadə barədə hesabat”.

“Kommersiya təşkilatlarının illik maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının təqdim edilməsi və dərc edilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 27 may tarixli, 97 nömrəli qərarın 5.1.1

maddəsinə əsasən illik maliyyə hesabatı və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatları auditor rəyi ilə birlikdə Universitetin internet səhifəsində dərc olunmuşdur.
https://khazar.org/en/news/6489 (2018)
https://khazar.org/az/news/5032 (2019)
https://khazar.org/az/news/5505 (2020)
https://khazar.org/az/news/6101 (2021)
Qeyd: 2022-ci il üzrə audit yoxlaması isə may ayında yekunlaşacaq.

Universitetdə müntəzəm olaraq həyata keçirilən kənar auditlə yanaşı daxili audit də aparılır. Belə ki, Universitetin İdarəetmə və Tələbə işləri üzrə Prorektorunun rəhbərliyi ilə maliyyə departamenitinin fəaliyyəti təftiş edilir, ehtiyac duyulduqda maliyyə mütəxəssinin və mühasibin cəlbi ilə lokal yoxlamalar da aparılır. Universitetdə bütün maliyyə tranzaksiyaları, Universitetin bu məqsədlə yaradılmış daxili qaydalarına uyğun olaraq Prorektorun nəzarəti ilə həyata keçirilir.

Universitetdə maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə kənar audit rəyləri və hesabatları hər il Universitetin rəsmi internet saytında dərc olunur.
31 dekabr 2018-ci il tarixinə Maliyyə hesabatları və Müstəqil Auditor rəyi 30 oktyabr 2020-ci ildə
(https://khazar.org/en/news/6489)
31 dekabr 2019-cu il tarixinə Maliyyə hesabatları və Müstəqil Auditor rəyi 30 oktyabr 2020-ci ildə (https://khazar.org/az/news/5032)
31 dekabr 2020-ci il tarixinə Maliyyə hesabatları və Müstəqil Auditor rəyi 23 sentyabr 2021-ci ildə (https://khazar.org/az/news/5505)
31 dekabr 2021-ci il tarixinə Maliyyə hesabatları və Müstəqil Auditor rəyi 20 iyul 2022-ci ildə əldə edilmişdir. (https://khazar.org/az/news/6101)

Universitetin maliyyə resurslarının əsas hissəsi dövlətin, əhalinin və həmçinin, xarici ölkələrdən gələn tələbələrin ödədiyi təhsil haqqı hesabına formalaşır. Universitet daimi olaraq verdiyi təhsil xidmətinin keyfiyyətini və səmərəliyini artırmaqla çoxlu sayda tələbə cəlb etməyə və bazar tələbatına uyğun olan mütəxəssislərin hazırlanmasına əhəmiyyət göstərir. Universitetin xərclərinin əhəmiyyətli hissəsi əməkhaqqı və ona bərabər tutulan xərclərə yönəlir. Bu isə öz növbəsində yüksək hazırlıqlı peşəkar mütəxəssislərin cəlb edilməsilə bərabər keyfiyyətli təhsilin verilməsinə xidmət edir. Universitet gəlirləri hesabına müxtəlif tətbiqi ixtisaslar yönümlü

yaradılan laboratoriyalar tələbələrin bilikli və bacarıqlı mütəxəssislər kimi yetişdirilməsində müstəsna rola malikdir.

Əlavə olaraq universitet müxtəlif beynəlxalq proqramlarda iştirak etməklə Avropa İttifaqının ayırdığı qrantlar hesabına digər universitetlərlə əməkdaşlıqların inkişaf etdirilməsilə öz insan resurslarının, tələbələrin aldığı təhsilin keyfiyyətini və maddi resurslar təminatını təkmilləşdirməyə qadirdir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

*5.4.İnformasiya idarəetmə sistemi*

Xəzər universitetində informasiya idarəetmə sisteminin ayrı-ayrı elementlərinin yaradılmasına 1994-cü ildən başlanılmışdır. Tam miqyaslı informasiya idarəetmə sistemi (SIMS) 2014-cü ildə istifadəyə verilib və bu sistemin təkmilləşdirilməsi, imkan və əhatə dairəsinin genişləndirilməsi ilə əlaqədər işlər davam edir. 2021-ci ildə sistemin tam yenilənmiş versiya istifadəyə verilib.

SIMS tələbələrin fənlərə qeydiyyatını, bilik və bacarıqlarının qiymətləndirilməsinin uçotunu, tələbələrə transkriplərin verilməsini, tələbələrin dərs cədvəllərinin formalaşdırılmasını, dərslərə davamiyyət uçotunu, müxtəlif hesabatların və statistik məlumatların verilməsini, müəllimlərin yükləri haqqında məlumatların formalaşdırılmasını, tədris prosesinin idarəçiliyini əhatə edən müxtəlif məlumatların əldə edilməsini təmin edir.

Sistem aşağıdakı imkanlara malikdir:

- tələbəyə dair şəxsi məlumatların saxlanılması və emalı, məlumata düzəliş və əlavələrin edilməsi, tələbələrin fənn qiymətlərinin qeydiyyatı;
- müxtəlif sorğuların keçirilməsi;
- statistik məlumatların hazırlanması (tələbələrin sayı, təqaüdə namizədlər və s.).
- istifadəçilərə statuslarına uyğun olaraq fərqli səlahiyyətlərin verilməsi (tələbə, müəllim, və s.);
- universitet, fakültələr, kafedralar, ixtisaslar, əməkdaşlar və s. dair məlumatların saxlanılması və emalı.

Digər bir sistem, SİNAM Müəssisə Resurslarının İdarə Edilməsi (“SERP”) sistemi müəssisə və təşkilatlarda kadrların idarə olunması və maliyyə-mühasibatlıq uçotunun təşkili və idarə edilməsi üçün nəzərdə tutulmuşdur. SERP sistem kadr və mühasibat uçotunu avtomatlaşdırır və rəhbərliyin idarəetmə və qərar vermə proseslərinə dəstək verir.

Hər iki sistemin istifadəçiləri və onlara verilən səlahiyyətlər müvafiq qaydalarda (reqlamentlərdə) müəyyən olunmuşdur.

SIMS sistemi tədrisin idarə edilməsinin bütün funksiyalarını əhatə edir, onun vasitəsilə aşağıdakılar həyata keçirilir: (üç əsas istiqamət üzrə: idarəetmə, müəllim (ABİS) və tələbə (OBİS) kabinetləri)

- tələbənin statusuna (möhlət, köçürülmə, nizam-intizam tədbirləri və s.) dair məlumatların saxlanılması və emalı, arayışların və müxtəlif sənədlərin verilməsi;
- fənlərə dair məlumatın qeydiyyatı, sorğuların email və məlumatın verilməsi, fərdi tədris planların formalaşdırılması;
- semestrlər üzrə tələbələrin fənlərə qeydiyyatı;
- məzunların uçotu və tələbələrin arxivləşdirilməsi;
- ingilis dilində diplom əlavəsinin verilməsi;
- tədris planları, semestrdə açılacaq fənlər, cədvəllər və s. haqqında məlumatların verilməsi;
- təhsilə dair digər məlumatların uçotu və emalı;
- bal bölgüsü, elektron jurnal, fənlər üzrə tapşırıqların yerinə yetirilməsinin, aralıq və yekun imtahan nəticələrinin, apellyasiya müraciət və nəticələrinin qeydiyyatı;
- transfer.

SERP sistemi inzibati idarəetmənin əsas funksiyalarını – inzibatçılıq, insan resursları, maliyyət uçotu, mühasibatı əhatə edir.

Hər iki sistemdə universitetin idarəetmə orqanları səlahiyyətləri çərçivəsində müvafiq funksiyaları həyata keçirirlər.

SIMS üzrə idarəetmədə ən yüksək səlahiyyət rektor və prorektorlara məxsusdur. Tələbə və idarəetmə işləri üzrə prorektor sistemə ödənişlərin daxil edilməsinə nəzarət edir.

Universitetin fəaliyyət göstərən Tələbə Qeydiyyat və məlumat şöbəsi imtahan nəticələrinin habelə, digər əlaqəli məlumatların sistemə yerləşdirilməsinə cavabdehlik daşıyır.

Tələbələrin gündəlik akademik fəaliyyətlərini izləmə səlahiyyəti isə fakültələrə məxsusdur. Fakültələr tələbələrin dərs qeydiyyatını hazırlayır, müəllim və tələbələrin şifrə əməliyyatlarına nəzarət edir, tədris planını sistemə daxil edir, apellyasiya prosedurunun SIMS vasitəsilə keçirilməsini təmin edir və s. Monitorinq və nəzarətin keçirilməsi Keyfiyyət Təminatı Mərkəzinin səlahiyyətindədir.

Səlahiyyət bölgüsü “SIMS reqlamenti” və “SERP reqlamenti” sənədlərində öz əksini tapmışdır.

Xəzər Universitetində tədris prosesini müasir tələbələrə uyğun təşkil etmək məqsədilə, müxtəlif rəqəmsal texnologiyalardan geniş istifadə olunur. Bunların arasında kompüter sinifləri (virtual laboratoriyalar), proyektorlar, ağıllı lövhələr və müxtəlif multimedia avadanlığı öz əksini tapır. Xəzər Universitetində tədris prosesi ilə bağlı İKT fəaliyyəti aşağıdakılardan ibarətdir:

- Bütün universitet kampusunu əhatə edən lokal kompüter və Wi-Fi şəbəkələri;
- Ayrılmış xətt üzrə yüksək sürətli (fiber optik) İnternet xidməti (orta sürəti) – 150 Mbit/s;
- Korporativ elektron poçt xidməti @khazar.org domeni üzərində;
- Universitetin hər bir tələbə, professor-müəllim heyəti və əməkdaşlar üçün Microsoft Office 365 (Word, Excel, PowerPoint, Teams, OneNote, SharePoint, OneDrive, OutLook, Sway, Forms) lisenziyalı hesablar;
- Tədris laboratoriyaları və auditoriyalarında İnternetə çıxışı olan kompüterlərin sayı – 178;
- Kompüter laboratoriyalarının sayı – 4;
- İnternetə qoşulmuş kompüterlərin sayının ümumi təhsilalan sayına nisbəti (faizlə) – 95%;
- Proyektorla təmin edilmiş auditoriyaların umumi auditoriyalara faiz nisbəti – 82%;
- Ağıllı lövhələrlə təmin edilmiş auditoriyaların ümumi auditoriyalara faiz nisbəti – 38%;
- İnternetlə təchiz olunmuş auditoriyaların ümumi auditoriyalara faiz nisbəti – 100%;
- İnformasiya təhlükəsizliyini təmin etmək məqsədilə Internet Firewall (Palo Alto Networks) və antivirus proqram təminatları.

Xəzər Universitetinin tədris prosesində müxtəlif rəqəmsal texnologiyaların tətbiqi:

- Blended Learning - Qarışıq Öyrənmə (Onlayn kursların mühazirələrində iştirak, sinifdə müəllimlə müzakirə və praktiki tapşırıqların yerinə yetirilməsi);
- Adaptive Learning - Adaptiv Öyrənmə (Big Data və süni intellekt (ML və AI) alətlərin istifadəsi nəticəsində, tədris materialların mənimsənilməsi barədə məlumatlar əsasında qeyri-xətti irəliləyiş metodikası vasitəsilə tələbənin bilik səviyyəsinə görə uyğunlaşdırılmış tədris kursların hazırlanması);
- Müxtəlif fənlər üzrə simulyator və trenajor proqram təminatları;
- Virtual laboratoriyalar (MatLab, LabVIEW, Aspen Hysys, Schlumberger Petrel, Techlog, Eclipse və s.)
- Tədqiqat işlərinin plagiat olub-olmadığının yoxlanılması (StrikePlagiarism);

- Bulud Texnologiyaların tədris prosesində tətbiqi (Google Classroom, Microsoft Teams, Google Cloud Platform, Microsoft Azure, Amazon Web Services, Oracle Cloud).

Həmçinin tədris prosesində "Microsoft Teams", "Google Classroom", "Zoom", "Go To Meeting" rəqəmsal xidmətlərindən də geniş istifadə olunur (təqdimatlar, vebinarlar, virtual sinif otaqları, videokonfranslar).

Tələbə universitetə daxil olan andan ona SIMS platformasında qeydiyyatdan keçmək üçün fərdi istifadəçi adı və şifrə təqdim olunur. Bu tələbəyə özünə dair bütün məlumatları əldə etmək imkanı verir. Bütün tələbələrə korporativ elektron poçt hesabı açılır. Həmin mail adresi ilə tələbələr Microsoft Teams onlayn sisteminə də daxil edilir. Covid-19 pandemiyası zamanı Xəzər Universiteti "Microsoft Teams" platformasından (sinxron öyrənmə) geniş istifadə etmişdir. Hal-hazırda "Microsoft Teams" LMS "Moodle" i-öyrənmə platforması ilə inteqrasiya işləri davam edir. Bu inteqrasiya sinxron və asinxron tədris üçün vahid bir platforma yaradacaq.

Xəzər Universiteti "Moodle" platforması əsasında (https://elearning.khazar.org), qarışıq (sinxron və asinxron) təhsil mühitini tətbiq edir. Bu mühit özündə ənənəvi və onlayn əsaslı tədrisin həyata keçirilməsinə imkan yaradır. "Moodle" Learning Management System (LMS) adlandırılan bir proqram təminatı i-öyrənmə üsulu ilə həyata keçirilən tədris və təlimləri idarə etməyə, onlayn tədbirləri həyata keçirməyə, tədris prosesini əvvəldən axıradək sənədləşdirməyə, öyrətmə və öyrənmə proseslərinin irəliləməsini izləməyə, aralıq və yekun nəticələri barədə hesabatları hazırlamağa imkan verir.

Tədrisin effektivliyini artırmaq məqsədilə professor-müəllim heyəti tələbələrə tədris materialları ilə təmin edir. Adətən multimedia materialları (video, audio, prezentasiya, elektron kitablar) mühazirə şəklində təqdim olunur ki, bu da tələbələrə kursun nəzəri materialını aralıq və ya yekun imtahanlarına hazırlıq zamanı təkrar etməyə imkan verir. Bəzi kurslarda professor-müəllim heyəti tələbələr üçün əlavə videolar da (kənar mənbələrdən) yerləşdirirlər.

LMS "Moodle" əsasında tələbə və professor-müəllim heyəti üçün təlimlər "PETRA" ERASMUS+ layihəsi çərçivəsində həyata keçirilmişdir.

Hal-hazırda Xəzər Universitetində LMS "Moodle" üzərindən müəyyən sayda tədris kursları həyata mövcuddur:

- Strategic Business Communications;
- Historical and Philosophical Foundations of Education;
- Təhsilə giriş;
- Design, Innovation and Entrepreneurship;
- ICT in Education;

- Curriculum and Assessment Strategy (Təhsil proqamları və qiymətləndirmə strategiyaları);
- Leadership and Organizational Behavior;
- ICT in Education;
- Teaching and Learning in HEIs;
- CMS101 Introduction to Computer Science (Spring);
- CMS101 Introduction to Computer Science (Fall) və s.

Hal-hazırda LMS “Moodle” platformasında 350-dən artıq tələbə, professor-müəllim heyəti və əməkdaş qeydiyyatdan keçib.

SIMS vasitəsilə hazırlanan hesabatlar təhsilin keyfiyyətinin müxtəlif aspektlərini təhlil etməyə və uyğun qərarları qəbul etməyə imkan verir. SIMS tədris proses və prosedurların praktikada avtomatik təmin edilməsinə xidmət edir.

Onun vasitəsilə, tələbə və ya müəllimə münasibətdə subyektivlik aradan qaldırıb və ümumi yanaşma və qaydalar əsasında müəllim-tələbə və qeyri-akademik heyət arası münasibətlər nizamlı və axıcı idarə olunur. Həmçinin, sistemin operativ idarəolunması və daim təkmilləşdirilməsi, hər üç tərəfin vaxt ehtiyatına qənaət etməsinə kömək etməklə, lazımi məlumatların onlayn şəkildə izlənməsini təmin edir.

Universitetin informasiya sistemlərinin Elm və Təhsil Nazirliyinin sistemləri ilə inteqrasiyası mümkündür. İnteqrasiyanı həyata keçirmək üçün uyğun tələb və şərtlər Elm və Təhsil Nazirliyinin İnformasiya sisteminin İnzibatçılıq bölməsi (Administration) müəyyən etməlidir. Universitetın hazırkı informasiya texnologiya imkanları və sistemi buna imkan verir.

İnformasiya İdarəetmə sisteminin təhlükəsizliyi bir neçə formada həyata keçirilir. İlk öncə universitetin giriş və çıxış trafikinin tam monitorinqi aparılır. Aktual zərərverici resursların bloklanması və onlardan gələn sorğuların qadağan olunması forması ilə məhdudlaşdırılır.

Həm serverlərdə, həm də istifadəçilərdə son nəsil antiviruslar fəaliyyət göstərir və bazalar daimi mərkəzləşdirilmiş formada yenilənir. Şəxsi məlumatlara malik olan resurslara qoşulmada isə trafikin tam şifrələnməsi üzərindən SSL və digər sertifikatların dəstəyi ilə həyata keçirilir.

Daxili şəxsi məlumatlar toplayan resurslara  xaricdən qoşulmalar isə yenə şifrələnmiş VPN dəstəyi ilə təmin olunur. İstənilən insidentə cavab olaraq qabaqlayıcı rezervləşdirilmə nüsxələrin və resursların ani nüsxələrinin də yaradılaraq toplanılması həyata keçirilir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

*5.5.İctimaiyyətlə əlaqələr*

Xəzər Universiteti öz fəaliyyəti ilə bağlı bütün məlumatları www.khazar.org saytında mütəmadi olaraq yeniləyir. Sayt azərbaycan və ingilis dillərində fəaliyyət göstərir. Saytda universitetin təşkilati və akademik strukturu, müəllim və işçi heyəti məlumatları, qəbul qaydaları və şərtləri, kadr hazırlığı aparılan ixtisaslar, onlar haqqında ətraflı məlumatlar, bütün potensial yerli və xarici tələbələrin adətən maraqlandığı prosedur və keyfiyyət məsələləri ilə bağlı digər məlumatlar ətraflı şəkildə öz əksini tapır. Universitetin xarici təhsil proqramlarında iştirakı, xarici universitetlərlə əməkdaşlıq əlaqələri və digər beynəlxalq əlaqələri barədə məlumatlar da saytın "Beynəlxalq Əlaqələr" bölməsində geniş yer tutur.

Həmçinin, universitetin elmi naliyyətlərini və departamentlərin professor-müəllim heyəti tərəfindən müxtəlif yerli və beynəlxalq indeksli jusnallarda dərc olunmuş məqalələri haqqında məlumat mütəmadi olaraq saytda nəşr olunur. Saytda həmçinin universitetin nəşr etdiyi jurnallar, təşkil etdiyi konfrans, seminar və görüşlər haqqında xəbərlər paylaşılır.

Universitet barədə qısa tarixi məlumatlar, faktlar, tabeliyində olan qurumlar, təşkil etdiyi ictimai və sosial layihələr və həmçinin, məzun tələbələr barədə məlumatlar da saytda yer alır.

Universitetin yuxarıda adı çəkilən saytı paylaşılan məlumatların aktuallığına, xəbərlərin mütəmadi olaraq yenilənməsinə xüsusi diqqət ayırır. Universitet daxilində keçiriləcək seminar və konfranslar, başlayacaq layihələr və tələbə təqaüdləri barədə xəbər və elanlar saytın ana səhifəsində daim yenilənərək potensial və cari tələbələrin universitetin gördüyü fəaliyyətlər barədə əvvəlcədən məlumatlı olmağına və faydalanmağına xidmət edir. Eyni zamanda, Universitetin digər xarici universitetlə birgə əməkdaşlıq çərçivəsində təşkil etdiyi mübadilə proqramları, kurslar, təcrübə proqramları barədə xəbərlər də ana səhifədə daim işıqlandırılır.

Xəzər Universitetinin ictimaiyyəti məlumatlandırması, həm də aktiv şəkildə təşkil etdiyi görüşlər vasitəsilə həyata keçirilir.

Xəzər Universiteti ayda bir dəfə "Xəzər xəbər" jurnalını nəşr edir və onu həm universitet daxili, həm də kənar oxucuların əldə etməsini təmin edir. Jurnal həm elektron, həm də kağız formada dərc edilir və baş vermiş Universitetin akademik və sosial həyatına dair məlumatları özündə əks etdirir.

http://khazar-review.khazar.org/

Xəzər Universitetinin ictimaiyyətin məlumatlandırılması ilə bağlı fəaliyyət planı mövcuddur. "Xəzər Universitetində Rəsmi Görüşlərin və Tədbirlərinin Keçirilməsi Haqqında Əsasnamə", "İctimai Əlaqələr və Media Qurumunda görülmüş işlər haqqında Hesabat", "İctimaiyyət və İş

dünyası ilə əlaqələr departamentinin illik hesabatı” kimi sənədlərdə fəaliyyət planı əsasında görülmüş işlər barədə ətraflı məlumat yer alır.

Xəzər Universiteti maraqlı tərəflərə fəaliyyətinin qiymətləndirilməsi üçün imkan yaradır. Bunu müxtəlif miqyaslarda və müxtəlif maraq qrupları üçün həyata keçirir. Elm və Təhsil Nazirliyinin əməkdaşları və digər universitet nümayəndələri ilə birgə vatsap platformasında ATM-PR-ETN adlı qrup yaradılmışdır ki, Xəzər Universitetinin nümayəndələri də bu qrupun 2 ildir üzvüdür. Bu qrup kommunikasiyanı asanlaşdıraraq, Universitet fəaliyyəti ilə bağlı yaranan suallara birbaşa cavablar verilməsinə şərait yaradır.

Xəzər universitetinin məlumatlandırma fəaliyyəti və monitorinqi əsasən universitetin İctimaiyyətlə əlaqələr və media şöbəsi tərəfindən həyata keçirilir. Şöbənin əsas öhdəliklərindən biri yerli və beynəlxalq media qurumları ilə əlaqələr yaradaraq radio-televiziya, KİV və sosial şəbəkələrdə universitet ilə əlaqədar mühüm xəbərlərin paylaşılmasının monitorinqin keçirilməsidir. Həmçinin, şöbə mətbuatda dərc edilən məlumatları toplayaraq Universitetin Mətbuat arxivində saxlayır.

Əlavə olaraq, Universitet Kalibri sistemindən də faydalanır. Bu sistem vasitəsilə Azərbaycan və dünya mediasında Universitet ilə bağlı yazılan xəbərlər real vaxt rejimində Universitetin müvafiq strukturunun məlumat bazasına yığılır. Sistemin sayəsində Universitet mütəmadi olaraq haqqında verilən xəbərləri monitorinq edərək çatışmayan və ya zəif tərəflərini müəyyən etmək və onların üzərində işləmək imkanı əldə edir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

## 6. İNFRASTRUKTUR

### *6.1. Tədris infrastrukturu*

Xəzər Universitetinin maddi-texniki bazası, infrastrukturu, auditoriya fondu, kabinet və laboratoriyaları, texniki vəsaitlərlə təchizi tədris prosesinin müasir tələblər səviyyəsində qurulmasına tam cavab verir və dövlət standartlarına uyğundur.

Universitetin ümumi sahəsi 12625.78 kv. m-dir. Tədris prosesi üç binada - Neftçilər Korpusu, Bəşir Səfəroğlu (Nizami) Korpusu, Dünya məktəbi - təşkil olunmuşdur. Universitet Bakı şəhəri, Məhsəti küçəsi, bina 41 ünvanında ümumi sahəsi 4123 kv.m olan beşmərtəbəli (inzibati) bina və birmərtəbəli mətbəə binası, həmin ünvanda ümumi sahəsi 4208 kv.m olan altımərtəbəli (tədris) bina, Bakı şəhəri, Bəşir Səfəroğlu küçəsi, 122 ünvanında ümumi sahəsi 1115 kv.m (o cümlədən

280 nəfərlik teatr salonu, 20 auditoriya) olan dördmərtəbəli bina, Naxçıvani küçəsi, 9 ünvanında ümumi sahəsi 12105 kv.m və torpaq sahəsi 7000 kv.m olan altımərtəbəli binanı (Xəzər Universitetinin nəzdində fəaliyyət göstərən "Dünya" məktəbi, bir neçə laboratoriya burada yerləşir), Buzovnada ümumi sahəsi 3018 kv.m olan 2 binanı (İstirahət və Konfrans Mərkəzində konfrans zalları və istirahət otaqları ilə yanaşı, idman kompleksi, yeməkxana və üzgüçülük hovuzu) əhatə edən xüsusi əmlaka malik olan özəl təhsil müəssisəsidir.

Universitetin hər bir inzibati qurumu üçün normativlərə uyğun iş otaqları mövcuddur. Auditoriyalar zəruri texniki və əyani vəsaitlərlə təchiz olunmuşdur. Universitetdə bütün binalarda ən müasir kompüterlərlə təchiz olunmuş kompüter mərkəzləri fəaliyyət göstərir. Bu mərkəzlər ümumi Universitet şəbəkəsinə və internetə qoşulmuşdur. Əlavə olaraq müxtəlif mərkəzlər, proqramlar və layihələrə xidmət edən ixtisaslaşdırılmış kompüter laboratoriyaları fəaliyyət göstərir. Onlar müasir kompüter, printer, skaner, LCD proyektor və digər zəruri ləvazimatlarla təchiz olunmuşdur. Tədrisin təşkili üçün auditoriyaların sayı normalara uyğundur. Hər tələbəyə 8,5 $m^2$ sahə düşür ki, bu da müvafiq normalara uyğundur.

Universitetdə Məhsəti küçəsi, 41 ünvanında yerləşən tədris binasının bütövlükdə 5-ci və 6-cı mərtəbəsi, Bəşir Səfəroğlu küçəsi 122 və Əcəmi Naxçıvani 9 ünvanında yerləşən Bakı Dünya məktəbi, Sumqayıt və Gəncə Dünya məktəbi kitabxana-informasiya mərkəzi Azərbaycanda və xaricdə ən yaxşı tanınan kitabxana-informasiya mərkəzlərindəndir . Dünyanın bir çox ölkələrindən dərc olunmuş, elmin müxtəlif sahələrinə aid ən müasir dərslik və monoqrafiya, jurnal, qəzet və elektron məlumat bazaları zəngin kitabxana- informasiya mərkəzi tələbə, müəllim və kənardan gələnlərə xidmət edir.

Mərkəzi kitabxanada elektron-informasiya xidmətləri, komplektləşdirmə, kataloqlaşma, sorğu-məlumat və xidmət (abonement) şöbələri vardır. Kitabxana İnformasiya Mərkəzi informasiya xidmətlərini aktiv şəkildə inkişaf etdirir.

Kitabxana İnformasiya Mərkəzi (KİM) dövrün tələblərinə uyğun olaraq yeni texnoloji üsullardan istifadə etməyi qarşısına məqsəd qoymuşdur:

- Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemi (AKİS) – Follett Destiny (Electron Catalog) https://khazaruniversity.follettdestiny.com;
- Elektron arxiv – Dspace (Institutional Repository) (http://dspace.khazar.org);
- Elektron kitabxana – Calibre (eLibrary) (http://elib.khazar.org);
- Elektron portfolio – Mahara (ePortfolio) – tələbə, magistrant, doktorant və tədqiqatçıların elektron portfolio şəklində elmi işlərinin nəticələrini qiymətləndirmək və təhlil etmək üçün (https://eportfolio.khazar.org);

Xəzər Universitetin Kitabxana İnformasiya Mərkəzinin veb-səhifəsində müxtəlif onlayn elektron resurslar haqqında məlumat yerləşdirilib:

- Kitabxana kolleksiyaları (https://khazar.org/az/item/1335);
- Depozitar kitabxana kolleksiyası (https://khazar.org/az/item/1337);
- Azərbaycan onlayn dövri mətbuatı (https://khazar.org/az/item/1336);
- Azərbaycanın elmi onlayn jurnalları (https://khazar.org/az/item/1297);
- Xəzər Universiteti e-Nəşrləri (https://khazar.org/az/item/1308);
- Təlim və tədqiqat xidmətləri (https://khazar.org/az/item/1352);
- Sərbəst giriş mənbələri (https://khazar.org/az/item/1307);
- Yeni istifadəçilər üçün sual-cavab (FAQ) (https://khazar.org/az/item/1320).

Elektron təhsil resurslarının monitorinqi nəticəsində bəzi boşluqların aradan qaldırılması məqsədilə Xəzər Universitetinin elektron arxivinə (DSpace) aşağıdakı tematik kolleksiya növlərini daxil olunmuşdur:

**Xəzər Universitetin nəşrləri, İSBN və xəbərlər:**

- Elektron kitablar (http://dspace.khazar.org/handle/20.500.12323/975);
- Xəzər Universitetinin bütün dövri nəşrləri, o cümlədən 1500-dən çox nəşr (http://dspace.khazar.org/handle/20.500.12323/47);
- Açıq mənbəli tam mətnli dissertasiyalar (təxminən 300) (http://dspace.khazar.org/handle/20.500.12323/601);
- Xəzər Universitetinin təhsilə aid xəbərlər (http://dspace.khazar.org/handle/20.500.12323/4687);
- ISBN xidmətləri: https://khazar.org/en/item/10137

Xəzər Universiteti Azərbaycanda ISBN agentliyi kimi fəaliyyət göstərərək Azərbaycanda çap olunan kitablara beynəlxalq nömrə verir. Bu işdə Kitabxana İnformasiya Mərkəzinin üzərinə öhdəliklər düşür.

**Xəzər Universitetindən kənarda nəşr olunan təhsil resursları:**

- Elektron kitablar, o cümlədən Azərbaycan bədii ədəbiyyatı (azərbaycan dilində) (http://dspace.khazar.org/handle/20.500.12323/2487);
- Elektron kitablar, o cümlədən xarici bədii ədəbiyyat (azərbaycan dilində) (http://dspace.khazar.org/handle/20.500.12323/2682);
- Xarici ədəbiyyat (azərbaycan dilində) (http://dspace.khazar.org/handle/20.500.12323/2682);
- Təlim və tədris üzrə elektron kitablar (http://dspace.khazar.org/handle/20.500.12323/4213);
- Elektron təhsillə bağlı aktual məqalələr (http://dspace.khazar.org/handle/20.500.12323/4395);
- Elektron lüğətlər (http://dspace.khazar.org/handle/20.500.12323/2696).

Universitetdə müxtəlif tədris və elmi-tədqiqat (Fizika, Alternativ enerji laboratoriyası, Elektronika, Telekommunikasiya və Radiomühəndislik labaratoriyası, İnşaat materialları sınağı

laboratoriyası, Neft və qaz mühəndisliyi laboratoriyası, Neft və qaz yataqlarının kompüter simulyasiyası laboratoriyası, Hüceyrə Patologiyasının Tədqiqat Mərkəzi laboratoriyası, Analitik kimya laboratoriyası, Nanotexnologiya laboratoriyası, Mexanika mühəndisliyi laboratoriyası) laboratoriyaları, xüsusi təyinatlı auditoriyalar, eləcə də mərkəzlər və institutlar (Türk Dünyası Araşdırmaları Mərkəzi-TİKA, Avropa İttifaqı Araşdırmalar Mərkəzi, Təlim və Tədris Mərkəzi Təhsil Siyasəti İnstitutu, Asiya-Sakit Okean və Afrika Araşdırmaları İnstitutu) fəaliyyət göstərir. Universitetin tədris-laboratoriya bazası tədris prosesinin yüksək səviyyədə təşkil edilməsi üçün tam kifayətdir və bütün tələbləri ödəyir. Tədris prosesininin effektivliyi üçün müvafiq ixtisaslara uyğun dərslərdə mövcud təlim və tədris bazasından istifadə olunur.

Universitetdə müasir standartlara uyğun ləvazimatlarla təchiz olunmuş ixtisaslaşmış tədris laboratoriyaları fəaliyyət göstərir. Belə ki, tədris prosesinin həyata keçirilməsində universitet üzrə mövcud departamentlərin laboratoriya bazalarından istifadə edilir.  Universitetdə 4 kompüter laboratoriyası mövcuddur. Departamentlər üzrə mövcud tədris laboratoriyaları aşağıda qeyd olunmuşdur:

1. Fizika və Elektronika departamenti- Ümumi fizika laboratoriyası, Alternativ enerji laboratoriyası, Elektronika, Telekommunikasiya və Radiomühəndislik  laboratoriyası

Müvafiq ixtisaslarda təhsil alan tələbələr öz nəzəri biliklərini tədris laboratoriyalarında praktiki tədbiq edirlər. Belə ki, onlar Rabitənin əsasları laboratoriyasında telekommunikasiya üzrə laboratoriya işlərinin operativ aspektləri ilə tanış olur, bu tələbələrə əsas anlayışları aydın şəkildə eksperimental olaraq vizual dərk etməyə imkan verir. Elektrik dövrələrinin əsasları laboratoriyasında tələbələrlə elektrik enerji mənbəyi, funksional generator və əsas qurğularda quraşdırılan analoq və rəqəmsal ölçmələr üzrə eksperimentlərdə elektrik dövrələri və zəruri avadanlıqlar üçün tələb olunan eksperimentlər aparılır. Analoq laboratoriyasında tələbələrə elektrik dövrələrinin əsas mövzuları müxtəlif modullar vasitəsi ilə tədris olunur. Alternativ enerji laboratoriyasında  tələbələr alternativ enerji mənbələrində konstruktiv və yeni texnologiyaların tətbiqi ilə effektivliyin artırılması, polimer-yarımkeçirici tərkibli işığa həssas sensorların hazırlanması və onlardan müxtəlif növ elektronik qurğularda istifadəsi yollarını öyrənirlər. Laboratoriya həm tədris, həm də elmi-tədqiqat məqsədilə istifadə edilir.

2. İnşaat mühəndisliyi departamenti- İnşaat materialları sınağı laboratoriyası

Laboratoriyada beton qarışığı, sement və gips kimi tikinti materiallarının sınağı üçün nəzərdə tutulmuş 10-dan çox əsas avadanlıq mövcuddur. Bu avadanlıqlar adı çəkilən materialların yumşalma temperaturunu, xüsusi çəkisini, çökməsini, qranulometrik tərkibini, hermetikliyini və

hava tərkibi kimi müxtəlif xüsusiyyətlərini ölçə bilir. Həmçinin əsas ölçmələr üçün tələb olunan avadanlıqlar mövcuddur. Laboratoriya həm tədris, həm də elmi-tədqiqat məqsədi ilə istifadə edilir.

3. Neft mühəndisliyi departamenti-Neft və qaz mühəndisliyi laboratoriyası, Neft və qaz yataqlarının kompüter simulyasiyası laboratoriyası

Laboratoriyada tələbələrə bir sıra cihazlarla kern analizi nümayiş etdirilir. Məsələn, kern sulaşdırma sistemi cihazı ilə aparılan eksperimentdə kollektor şəraitində ənənəvi mayevurma, kimyəvi sulaşdırma və keçiricinin ölçülməsi kimi işlər aparmaq mümkündür. Əllə idarə olunan nəmləndirici cihazda isə kollektor xüsusiyyəti və effektiv keçiriciliyi təyin olunur.
İstilik dəyişdirici avadanlıq vasitəsilə tələbələrə istilik dəyişdiricinin məhsuldarlığının artırılması, istilik ötürmə əmsalının tədqiqi və istilik dəyişdiricidə faktoru müəyyənləşdirilir. Laboratoriya həm tədris, həm də elmi-tədqiqat məqsədilə istifadə edilir.

4. Həyat elmləri departamenti- Hüceyrə Patologiyasının Tədqiqat Mərkəzi laboratoriyası

Laboratoriyada tələbələr kök hüceyrə biologiyası, ekologiya, radiobiologiya, biostatistika, immunologiya, tibbi biologiya, mərkəzi sinir sisteminin biologiyası və sairə bu kimi fənlərdən ibarət fundamental fənlərə aid təcrübə dərslərini keçir və həmçinin, tədqiqat işlərini aparırlar. Laboratoriya həm tədris, həm də elmi-tədqiqat məqsədilə istifadə edilir.

5. Kimya və Kimya mühəndisliyi- Analitik kimya laboratoriyası, Nanotexnologiya laboratoriyası

Nanotexnologiya laboratoriyasında tələbələr müxtəlif nanoölçülü səciyyələndirmə və sintez üsulları haqqında praktiki biliklər əldə edirlər. Laboratoriyada biotibbi texnoloji və sənaye yönümlü nanoliflər istehsal etmək üçün elektrospinning cihazlarından istifadə edilir.
Bundan əlavə, tələbələr nano mayeləri sintez etmək və onların xüsusiyyətlərini və tətbiqlərini araşdırmaq üçün bu laboratoriyada Elektron Boşalma Emalı (EDM) kimi müxtəlif cihazların iş prinsipləri ilə tanış olur və praktiki işlər görürlər. Laboratoriya həm tədris, həm də elmi-tədqiqat məqsədilə istifadə edilir.

6. Mexanika mühəndisliyi departamenti- Mexanika mühəndisliyi laboratoriyası

Laboratoriya-materialların müqaviməti, istilik keçiriciliyi, maye mexanika və istehsalat dərslərinə aid olan cihazlarla təchiz edilmişdir. Mühazirələrdə keçirilən mövzuların praktiki cəhətləri tələbələr üçün laboratoriyada əyani şəkildə nümayiş etdirilir.

Bu tədris laboratoriyalarının əsas missiyası- təhsil və təlim üzrə tədqiqatda qabaqcıl mövqedə olmaq, tələbələrin uyğun ixtisaslar üzrə tədris proqramına yiyələnərək biliklərinin laboratoriyalarda tətbiq etmək və gələcəkdə önəmli sahələrdə tədqiqat işi aparmaq vərdişi qazandırmaqdır.

Hazırda laboratoriyalarda rabitənin əsasları, AM/FM ötürücü və qəbuledici sistemləri, fiber-optik ötürücü təlim sistemi, elektrik dövrəsi, nanotexnoloji təcrübələr, biotibbi ölçü sistemləri, sənaye elektronik təlim sistemi, məntiq dizaynı, analoq elektronika, rəqəmsal elektronika, alternativ enerji, neft-qaz yataqlarının kompüter proqramlarının mənimsənilməsi və digər sahələr üzrə elmi-tədqiqat işləri də davam etdirilir. Növbəti illərdə "Baytarlıq təbabəti" ixtisası üzrə laboratoriya qurulması planlaşdırılır.

Universitetin tələbələri hər il tədris planına və tədris qrafikinə uyğun olaraq istehsalat və pedaqoji təcrübələrdə iştirak edirlər.
Universitetin tələbələri üçün istehsalat təcrübəsini aparmaq məqsədilə aparıcı şirkətlər və müəssisələrlə müqavilələr bağlanmışdır. Tələbələr SOCAR, SİNAM, Radio-Televiziya Yayım və Peyk Rabitəsi İstehsalat Birliyi, ENKOTEK və digər şirkətlərdə, Heydər Əliyev adına Bakı Neft Emalı zavodunda, Texnopark və İnformasiya Texnologiyaları İnstitutu, Aztelekom MMC-yə aid rabitə qovşaqları, Baku Steel Company, STP MMC, Socar Methanol, Pilot İnşaat MMC, Standard Insurance, Azərbaycan Respublikası Sahibkarlar Təşkilatı, Crocusoft MMC, Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzi, Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti, Azərbaycan Respublikası Milli Məclisi, Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondunda istehsalat təcrübəsi keçirlər.
Humanitar, Təhsil, Sosial elmlər fakültəsində pedaqoji təcrübə Xəzər Universiteti Dünya Məktəbi ilə bağlanmış müqavilə əsasında bakalavriat səviyyəsinin 4-cü və 5 illik ixtisaslarda 5-ci ilində, payız və yaz semestrlərində təşkil olunur. Fənlər üzrə müəllimlik ixtisasının sonuncu il tələbələri payız semestrində passiv, yaz semestrində isə aktiv pedaqoji təcrübə keçirlər. Həmçinin, Turizm ixtisasının tələbələri istehsalat təcrübəsini universitetin Buzovna kampusunda keçir.

Xəzər Universitetində 2010-ci ildən tədris prosesini daha səmərəli təşkil etmək Moodle onlayn platforması müəllim və tələbələrin istifadəsinə verilmişdir. Burada professor-müəllim heyətinə elektron kursların yaradılması, onlayn quizin keçirilməsi, zəruri olan informasiya resurslarının yerləşdirilməsi, mövzular ətrafında müzakirənin keçirilməsi və s. imkanlar verilir. Başlanğıc mərhələdə müxtəlif ixtisaslar üçün 30-dan çox e-kurslar yaradılmışdır. Pandemiya dövründə isə

bütün kursların Microsoft Teams, Zoom, Google platformaları üzərindən onlayn şəkildə tədrisi təşkil olunmuşdur. Bu fənlərin lazımi elektron materialları tələbələr üçün Teams platformasında yerləşdirilmişdir. Dərslərin səmərəli təşkili üçün texniki fənləri tədris edən müəllimlərə onlayn dərs zamanı istifadə üçün tabletlər təqdim edilmişdir. Hal-hazırda da bu platformalardan istifadə edilərək vörkşoplar, seminarlar hibrid formada konfransların keçirilməsi reallaşdırılır. Dərslərdə mütəmadi olaraq MS Teams üzərindən Dövlət proqramı ilə xaricdə təhsil alan doktarantların, qonaq professorların onlayn seminarları keçirilir. Universitetin tədris infrastrukturu onlayn təhsilin təşkili üçün tam əlverişlidir.

Xəzər universitetinin balansında olan üç nəqliyyat vasitəsindən ikisi 4 nəfərlik minik avtomobili, biri 17 nəfərlik avtobusdur. Bu nəqliyyat vasitələri əməkdaş və tələbələrin tədbir və görüşlərə danışma xidmətini həyata keçirir. Universitetə məxsus nəqliyyat vasitələrinin daha səmərəli istifadəsi məqsədilə aşağıdakı qaydalar çərçivəsində reallaşdırılır:

-Bütün işlər iş qrafiki çərçivəsində (səhər saat 09:00-18:00) həyata keçirilir;

-İstisna hallarda (qonaqların hava limanında qarşılanması, otelə yerləşdirilməsi, qeyri-iş günləri həyata keçirilən tədbirlər) sürücülərin xidmətindən yazılı sifarişə uyğun istifadə olunur;

-Ehtiyac duyulan hallarda əlavə nəqliyyat vasitələri kənardan cəlb olunur (taksi, avtobus).

Xəzər universitetində həm professor-müəllim heyəti və tələbələr, həm də inzibati işçilər üçün tədris infrastrukturundan istifadənin əlçatanlığı tam təmin edilmişdir. Tələbələr (bakalavr, magistr, doktorantura) bütün tədris infrastrukurundan - dərs otaqları, laboratoriyalar, kompüter mərkəzləri, kitabaxanadan rahat şəkildə istifadə edirlər. Tələbələrin kitabxananın elektron resurslarına kənardan daxil olub istifadə edə bilir. Bununla yanaşı kitabxana 1-ci, 3-cü və 5-ci günlər saat 9-dan 18:00-a kimi, 2-ci və 4-cü günlər saat 9-dan 20:00-a kimi, 6-cı günlər saat 9-dan 15:00-a kimi iş rejimi ilə fəaliyyət göstərir. Tələbələr kənardan universitetin veb-saytından informasiyaları (universietin strukturu, tədbirlər, seminarlar, ixtisaslarına uyğun tədris planları) əldə edə bilirlər. Veb-saytda, həmçinin, hər tədris semestrinin əvvəli bütün fakültələr üzrə sillabuslar yerləşdirilməklə hər kəsə əlçatanlığı təmin edilir. Fənn müəllimləri tədris materiallarını tələbələrin istənilən vaxt istifadə etmələri üçün MS Teams platformasında yerləşdirirlər. Eyni zamanda, Xəzər universitetində çoxlu sayda tələbə klubları (SPA, debat klubu, texnoklub, astroklub və s.) fəaliyyət göstərir. Universitet onların təşkil etdiyi seminar və yarışların keçirilməsi üçün də (otaqların təyini, lazımi avadanlıqlarla təmin etmək) şərait yaradır və daima lazımi dəstəyi göstərir.

Xəzər Universiteti sağlamlıq imkanları məhdud şəxslər üçün inkişaf imkanları və şəraiti təmin etməyi və həmçinin, onların təhsilə inteqrasiyasını dəstəkləməyi öz mənəvi və hüquqi vəzifəsi olduğunu qəbul edir və bu istiqamətdə mütəmadi işlər görür. Bu məqsədlə Universitetdə 23 iyun 2015-ci il tarixindən Avropa İttifaqının "Əlilliyi olan şəxslərin Azərbaycanın ali təhsil müəssisələrinə inteqrasiyası" layihəsi çərçivəsində "Fiziki məhdudiyyəti olan tələbələr üçün Mərkəz" fəaliyyətə başlamış və bugün də işini davam etdirir. Mərkəzin maddi resursları və avadanlıqları layihə çərçivəsində yaradılmış, onların davamlılığı mərkəz tərəfindən təmin olunmuş və layihə başa çatdıqdan sonra Universitetin mülkiyyətinə çevrilmişdir. Hal-hazırda sağlamlıq imkanları məhdud şəxslərin təhsilinin təmin olunması üçün universitetdə tədris infrastrukturu mövcuddur. Belə ki, Neftçilər korpusunun yeni binasının girişində fiziki məhdudiyyəti olan tələbələr üçün lift (ramp) mövcuddur. Fiziki məhdudiyyətli tələbələr üçün dəsrlərin planlaşdırılması (dərs otaqları, dərslərin və imtahanların keçirilmə üsulları) uyğun dekanlıqlarla həyata keçirilir. Tədris prossesi interaktiv (təqdimatlar) şəkildə həyata keçirildiyi üçün bu sağlamlıq imkanları məhdud şəxslərə təhsili əlverişli edir.
Hal-hazırda universitetdə təhsil alan üç görmə məhdudiyyətli tələbədən Humanitar, Təhsil və Sosial elmlər fakültəsində Tarix müəllimliyi (1 tələbə, 3-cü kurs), Filologiya və Azərbaycan dili Ədəbiyyatı (2 tələbə, 3-cü kurs) ixtisaslarındandır. Tədris materiallarının brayl əlifbasına çevrilməsində tələbələr köməklik göstərilir, fərdi dərslər təşkil edilir. Dərs zamanı tələbələr dərsin gedişatını mikrafona yazmağa icazə verilir. Dekanlıq tərəfindən bu tələbələr üçün şifahi imtahanlar təşkil edilir.

Universitetin bütün binalarında əməkdaşlar və tələbələr üçün yeməkxanalar fəaliyyət göstərir. Tələbələrin və akademik heyətin növbələr üzrə yüz faiz yerləşdirilməsi təmin edilmişdir. Yeməkxanalar, bazar günü istisna olmaqla, həftənin 6 günü (9:00-20:00) tələbə və əməkdaşların xidmətindədir. Xüsusi hallarda (konfranslar, görüşlər və s.) yeməkxanalar bazar günləri də işləyir.

Xəzər universitetinin Neftçilər korpusuna yaxın ərazidə Şirin Mirzəyev 32 ünvanında ümumi sahəsi 1500 kv m. olan üç mərtəbəli bina - Qonaq evi və yataqxana mövcuddur. Xəzər Universitetinin tələbə yataqxanası həm yerli, həm də əcnəbi tələbələr, eləcə də əcnəbi professor-müəllim heyəti üçün istifadəyə yararlıdır. Yataqxanada onlara lazım olan hər cür avadanlıq və xidmətlər təklif olunur. Yataqxana tələbə və qonaqların təhlükəsizliyini təmin etmək məqsədilə kameralar təchiz olunmuşdur. Bina 24/7 video nəzarətdədir və mühafizə xidməti mövcuddur.

Universitetdə yaradılmış Tibbi yardım mərkəzi tələbə və işçilərə xidmət edir. Bu mərkəz əsas ilk tibbi yardım kimi xidmət göstərir.
Ehtiyac olarsa mərkəzə ixtisaslı mütəxəssislər dəvət olunur. Bütün tibbi qeydlər, o cümlədən səhiyyə ilə bağlı tələb olunan məlumatlar mərkəzdə saxlanılır. Bu qeydlər məxfi hesab edilir və onlara yalnız mərkəzin peşəkar heyət üzvləri tanış ola bilərlər. Tibbi yardım mərkəzi şənbə və bazar günü istisna olmaqla, hər gün saat 9:00-dan 18:00-a qədər açıqdır.
Tibbi yardım mərkəzinin xidmətləri ilə bərabər, Xəzərin Psixoloji Xidmət Mərkəzi vasitəsilə sosial, psixoloji dəstək verilir.

Universitetdə İT xidmətinin səmərəli təşkil edilməsi üçün İnformasiya Texnologiyaları departamenti fəaliyyət göstərir. universitetin bütün korpuslarına xidmət göstərən departamentin fəaliyyəti bir neçə əsas istiqamətdə ayrılır:

- Serverlərin istismarı;
- İnformasiya Sistemlərinin istismarı;
- İnformasiya təhlükəsizliyinin qorunması;
- İstifadəçilərin təhlükəsizliyi;

Departament öz növbəsində İT parkına aid olan bütün avandanlıqların düzgün qaydada çalışmasını, vaxtaşırı yenilənməsini, yarana biləcək problemlərin öncədən qarşısının alınmasını və istifadəçilərin rahat, problemsiz İT avadanlıqları ilə işləməsini təmin edir. Departament informasiya məxfiliyinin, İT infrasturuktura dəyə biləcək ziyanı internet və lokal istiqamətdə analiz edir və qarşısını alır. Ziyanverici proqram təminatları, viruslar və internet üzərindən gələn hücumların qarşısını alır və mütəmadi olaraq təhlükəsizliyini artırır. Korpuslar üzrə 62 dərs auditoriyası internetlə tam təchiz olunmuşdur, xüsusi fiber-optik internet xətti çəkilmiş, sürətli internet (150 mbps) xəttinə qoşulmaqla yanaşı internet şəbəkəsinə simsiz rabitə kanalları vasitəsilə sürətli çıxış təmin olunmuşdur. Bundan başqa, universitet ərazisi sürətli wi-fi ilə təchiz olunmuşdur. Universitet üzrə internetə qoşulmuş kompüterlərin sayı 361-dir. 62 auditoriya proyektor, onlardan 12 auditoriya ağıllı lövhə ilə təmin edilmişdir.
Professor-müəllim heyəti və tələbələr İT departament tərəfindən təmin olunmuş korporativ email ünvanından istifadə edirlər.

Xəzər Universitetində hər tədris ilinin sonunda mütəmadi olaraq tədris infrastrukturunun monitorinqi aparılır. Nasaz kompüterlər təmir edilir, lazım gəldikdə yenisi ilə əvəzlənir. Hazırda bütün korpuslar üzrə auditoriya və ofislər ən müasir kompüter avadanlığı və digər rəqəmsal avadanlıqla təchiz edilmişdir. Auditoriyaların bəzilərində elektron lövhələr quraşdırılmış,

proyektorlar qoyulmuşdur. Tədris prosesinin və imtahanların keçirilməsinin şəffaflığını təmin etmək məqsədilə auditoriyalara video-kameralar quraşdırılmışdır. Mütəmadi olaraq dərs otaqlarında və kompüter laboratoriyalarında istifadə olunan kompüterlər, proyektorlar yeniləri ilə əvəzlənir.

Hər tədris ilinin sonunda tədris laboratoriyalarında departamentlərdən gələn təqdimatlar əsasında növbəti tədris ilində tədris zamanı lazım olacaq yeni avadanlıqların (laboratoriya cihazlarları, əlavə detallar, kompüterlərə lazımi proqramların alınıb quraşdırılması) siyahısı çıxarılır və onların yeni dərs ili üçün məsul qurum tərəfindən alınıb yerləşdirilməsi təşkil edilir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

### *6.2. Elmi-tədqiqat infrastrukturu*

Xəzər Universitetinin İnnovasiya Mərkəzinin fəaliyyəti elmi tədqiqat mərkəzlərinin, müvafiq qurumların yerli və xarici tərəfdaşlarla elmi-tədqiqat, tədris və istehsalat sahəsində innovativ fəaliyyətin həyata keçirilməsi, inkişaf etdirilməsinə yönəlmişdir. Mərkəz universitet və biznes arasında qarşılıqlı münasibətlərin inkişaf etdirilməsi, yeni layihələrin yerli və xarici bazarda tətbiq edilməsi, elmi və kadr potensialından səmərəli və rasional istifadə etməklə Xəzər Universitetinin innovasiya fəaliyyətinin stimullaşdırılması, Spin-off (törəmə) fərdi kompaniyalarının işini planlaşdıran və yüksək texnologiyalardan istifadə edən alimlər, doktorantlar və tələbələr üçün əlverişli başlanğıc şərtlərin yaradılması, universitetinin kadr və elmi potensialından istifadə etmək məqsədilə maraqlı mövcud kiçik və orta innovasiya kompaniyaları üçün sərfəli mühitin yaradılması, həmçinin tələbələ və professor-müəllim heyətinin birgə layihə və müsabiqələrdə iştirakının dəstəklənmsəi istiqamətlərində işlər görür. Son beş il ərzində mərkəzin rəhbərliyi ilə tələbələr müxtəlif Startap layihələrində, Hakaton, Robototexnika və Teknofest müsabiqələrində uğurla çıxış etmiş (Robotetexnika və Teknofest üzrə ölkə təmsilçiləri olmuşlar) və qaliblər sırasına yüksəlmişlər.

Xəzər Universitetində müasir standartlara uyğun avadanlıqlarla ixtisaslaşmış elmi tədqiqat laboratoriyaları fəaliyyət göstərir. İxtisaslaşmış laboratoriyalar müxtəlif sahələrdə tədqiqatların aparılmasına xidmət edir. Bunlara aşağıda adları sadalanan tədqiqat laboratoriya və mərkəzləri aiddir:

- Neft və qaz mühəndisliyi laboratoriyası
- İnşaat materialları sınağı laboratoriyası
- Alternativ enerji laboratoriyası
- Neft və qaz yataqlarının kompüter simulyasiyası laboratoriyası

- Hüceyrə patologiyası tədqiqat mərkəzi
- Nanotexnologiya laboratoriyası
- eiLink Tədqiqat və İnkişaf Mərkəzi - eiLink (Education Industry Link) Tədqiqat və İnkişaf Mərkəzi, Neft Mühəndisləri Cəmiyyətinin Azərbaycan bölməsi (NMC) dəstəyi ilə 2015-ci ilin dekabr ayında Xəzər Universitetində yaradılmışdır.

Qeyd olunan laboratoriya və mərkəzlərdə aparılan təcrübələrin nəticələri elmi məqalələrdə öz əksini tapır.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

## 7. BEYNƏLMİLƏLLƏŞMƏ

### *7.1.Beynəlmiləlləşmə siyasəti*

Xəzər Universitetinin beynəlmiləlləşmə siyasəti universitetin strategiyasının mühüm hissəsini təşkil edir.

Beynəlxalq əlaqələrin genişləndirilməsi, yeni akademik tərəfdaşlıqların qurulması, mübadilə proqramları vasitəsilə əməkdaşlığın inkişafı və beynəlxalq layihələrdə iştirak daim diqqət mərkəzində saxlanılır. 2018-2023-cü illəri əhatə edən dövr üçün Universitetin Strateji İnkişaf planında təhsil müəssisəsinin beynəlmiləlləşmə siyasətinin daha da gücləndirilməsinin zəruriliyi öz əksini tapmışdır (Strateji Məqsəd 4). Xəzər Universiteti 2018-2023-cü illərində universitetin strateji yanaşması əsasında özünün siyasətini işləyib hazırlamışdır. 2019-cu ildə rektorun əmri ilə təsdiq edilmiş Beynəlmiləlləşmə Siyasəti sənədi beş illik müddəti əhatə edir. Xəzər Universitetinin beynəlmiləlləşmə siyasəti və onun universitetin Strateji Planına uyğunluğunun beynəlxalq səviyyədə tanınmasına əsasən "QS inkişaf etməkdə olan Avropa və Mərkəzi Asiya" regionu üzrə reytinq cədvəlində (QS EECA University Rankings 2022) "əsası qoyulmuş", "kiçik", "özəl qeyri-kommersiya", "orta, tədqiqat intensivliyi baxımından", və "fokuslanmış" ali təhsil müəssisəsi kimi tanımışdır. Xəzər Universiteti Avropa və Mərkəzi Asiya regionunun ən yaxşı ali məktəbləri siyahısında 210-220 aralıqda qərarlaşaraq, elmi məqalələrdən sitat gətirmə göstəricisi üzrə regionda 9-cu yeri tutaraq, beynəlxalq səviyyədə tanınmış tədqiqatların aparılmasında yüksək potensialını bir daha təsdiqləmişdir.

Beynəlmiləlləşmə siyasəti Xəzər Universitetində fəaliyyət göstərən tədqiqatçıların digər dünya universitetlərinin tədqiqat qrupları ilə əməkdaşlıqlarına dəstək olunmasını, eləcə də, tələbələrin və əməkdaşların peşəkarlığının artırılması üçün xaricdə təcrübə əldəetmə prosesinin təşkilini özündə ehtiva edir. Xəzər Universitetinin tələbələri, professor-müəllim və işçi heyəti müxtəlif

proqramlarda (Erasmus Mundus, ABŞ Fullbright Təqaüd Proqramı, Türkiyə Respublikasının Mövlana Mübadilə Proqramı və s.) iştirak edirlər.

Xəzər Universiteti təsis oldunduğu dövrdən bəri müxtəlif mübadilə proqramları ilə əcnəbi professor-müəllim heyətini təlim-tədris prosesinə cəlb edən Azərbaycanın aparıcı ali təhsil müəssisələrindən biridir.

Qeyd etmək lazımdır ki, Universitet Azərbaycanda elmi tədqiqatların beynəlmiləlləşdirilməsi siyasətinin həyata keçirilməsi prosesini öz fəaliyyətinin ayrılmaz hissəsi hesab edir.

Bununla yanaşı, Universitetin İqtisadiyyat və Biznes Yüksək Təhsil Fakültəsi ABŞ-ın Massaçusetts Texnologiya İnstitutunun (MİT) İqtisadiyyat departamenti tərəfindən "Data, İqtisadiyyat və İnkişaf Siyasəti/Data, Economics, and Development Policy" MicroMaster Proqramı vasitəsilə hər iki tərəf üçün təcrübə mübadiləsi həyata keçirilir. Proqramda dərslər MİT Universitetinin müəllimləri (Nobel mükafatçıları daxil olmaqla) tərəfindən onlayn şəkildə keçirilir. Proqram çərçivəsində tələbələrin mürəkkəb nəzəri və praktiki məsələləri daha yaxşı qavraması üçün Xəzər Universitetinin müəllimləri tərəfindən həftəlik fasilitasiya dərsləri təşkil olunur.

Bütün beynəlxalq proqramlar və bu proqramlarda yaranan imkanlar haqqında məlumat universitetin veb-saytı vasitəsilə maraqlı tərəflərə çatdırılır.

Beynəlxalq təcrübəyə malik olan Xəzər Universiteti öz strategiyası əsasında bir çox regionları əhatə etməklə əcnəbi tələbələrin təhsil müəssisəsinə cəlbini müxtəlif vasitələrlə təşviq edir. Xəzər Universiteti əcnəbi tələbələrə bakalavriat, magistratura və doktorantura səviyyələrində təqaüd imkanları təklif edir. Xəzər Universitetində təhsil almaq istəyən tələbələr üçün akademik göstəricələrə görə təqaüd imkanı təqdim edilir. 2021/2022-ci tədris ilindən etibarən əcnəbi tələbələrin həm qəbulu, həm təqaüdə müraciəti vahid müraciət əsasında həyata keçirilir. Akademik göstərici əsasında müəyyənləşdirilən təqaüdlər təhsil haqqının 25%, 50% və 75%-ə qədər azad olunması ilə təklif olunur.

2021-ci ildən etibarən Nailəxanım İsayevanın xatirəsini əbədiləşdirmək üçün təsis edilmiş Nailəxanım Fondunun Nailəxanım təqaüdü magistr və doktorantura təhsili almaq istəyən xanım namizədlər üçün tam maliyyələşdirilmiş təqaüd proqramı təklif edir. Nailəxanım Fondu milli mənşəyindən və vətəndaşlığından asılı olmayaraq təhsilini magistratura və ya doktoranturada davam etdirmək niyyətində olan istedadlı xanım namizədlər üçün yüksək səviyyəli müsabiqə əsasında tam təqaüd imkanı yaradır.

İndiyədək üç ölkədən (Əfqanıstan, İtaliya və İndoneziya) olan istedadlı tələbələr Nailəxanım təqaüdünü qazanmışdır.

Bununla yanaşı, Xəzər Universiteti Türkiyənin İstanbul şəhərində təşkil olunan Avrasiya Ali Təhsil Sammitində (EURIE) yarandığı ildən bəri təmsil olunaraq, universitetin fəaliyyəti və imkanları, əcnəbi tələbələrin qəbul prosesi haqqında müxtəlif ölkələrdən olan iştirakçılara və universitet nümayəndələrinə məlumat verir.

Müxtəlif təhsil sərgilərində fəal iştirak etməklə yanaşı, əksər universitetlərin tanınmış akademik proqramları ilə Keystone Group-un Osloda yerləşən marketinq/ tələbələrin təhsil müəssisələrinə qəbulu platforması vasitəsilə qlobal miqyasda tanıdılması aparılır. Xəzər Universiteti uzunmüddətli perspektivdə əməkdaşlıq etdiyi ölkələri şaxələndirməyi və əksər regionları əhatə etməyi hədəfləyir.

Keystone platformasından istifadə edərək, 2018-ci ildən 2022-ci ilə qədər Xəzər Universiteti 47659 tələbənin marağına səbəb olmuşdur və onlar on minlərlə digər seçim arasından Xəzər Universitetinin təklif etdiyi proqramlar haqqında daha çox məlumat əldə etməyə qərar vermişdirlər (ətraflı məlumat aşağıdakı cədvəldə öz əksini tapıb).

| **İl** | **Xəzər Universitetinin təklif etdiyi proqramları axtaran tələbələrin sayı** | **Xəzər Universitetinin təklif etdiyi proqramlara baxan tələbələrin sayı** | **Növbəti mərhələləri davam edən tələbələr** | **Qeydlər** |
|---|---|---|---|---|
| 2018 | 57197 | 5389 | 0 | Keystone platformasından istifadə üçün sınaq ili |
| 2019 | 132484 | 6332 | 44 | Müqavilə rəsmi olaraq 01.12.2019-cu il tarixindən qüvvəyə minib. |
| 2020 | 347804 | 10262 | 643 | 2020 – Covid müddətində digər illər ilə müqayisədə maraq daha çox idi |
| 2021 | 233178 | 11278 | 574 | 01.09.2021-ci il tarixindən etibarən Xəzər Universiteti bir tədris ili üçün Keystone-nun tətbiq etmək funksiyasını aktivləşdirdi |
| 2022 | 285048 | 14398 | 652 | Keystone vasitəsilə daha çox tələbə Xəzər |

| | | | | |
|---|---|---|---|---|
| | | | | Universitetinin təklif etdiyi proqramlarına baxmışdır |

Cədvələ nəzər salarkən, həm “maraq göstərənlər” (tələbə universitetin ümumi veb-sayt səhifəsinə baxdıqda) və “kliklərin olunması” (tələbə daha çox məlumat əldə etmək üçün müəyyən bir proqramı kliklədikdə) üzrə illik statistik məlumat göstərilmişdir. 2022-ci ildən etibarən bu növ beynəlxalq təşviqat başlayandan indiyə qədər ən yaxşı nəticə əldə olunmuş və o, ən çox sayda potensiallı tələbələrin marağı ilə nəticələnmişdir.

Xəzər Universiteti əcnəbi təhsilalanların cəlb olunmasının təşviqi prosesini müxtəlif xətlərlə həyata keçirir. Əcnəbi tələbələrin Xəzər Universitetində təhsil alması ilə bağlı həm dünya ölkələrinin Azərbaycandakı, həm xaricdə fəaliyyət göstərən səfirliklərə, həm də Azərbaycan diaspor təşkilatları ilə əlaqə saxlanılaraq cari təhsil ili üzrə qəbul prosesi haqqında məlumatlar paylaşılır. 2021-ci ilin aprel ayından noyabr ayına qədər 10 ölkədə diasporla əlaqəli 370 qurumla, eləcə də səfirliklərlə əlaqə saxlanılmışdır.

Xəzər Universiteti müxtəlif ölkələrdə fəaliyyət göstərən əcnəbi akademik heyət ilə əməkdaşlıq imkanlarını müzakirəsini aparmış və onların bir qismi universitetə cəlb olunmuşdur. Aşağıdakı cədvəldə 2018-2023-cü illərdə Xəzər Universitetində fəaliyyət göstərən əcnəbi akademik heyətin sayı göstərilmişdir:

| **İl** | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|
| **Əcnəbi akademik heyətin sayı** | 5 | 10 | 11 | 20 | 18 | 20 |

Tədqiqatçılıq Xəzər Universitetinin Beynəlmiləlləşmə siyasətinin mühüm tərkib hissəsidir. Xəzər Universiteti xüsusi olaraq ətraf mühit, İT, süni intellekt, biznesyönümlü tədqiqatları, molekulyar biologiya, dilçilik, fundamental elmlər sahəsi üzrə və digər sahələrdə tədqiqat aparan beynəlxalq tədqiqatçıların cəlbinə diqqət yetirir.

Professor-müəllim heyəti aktiv elmi-tədqiqatlarla məşğul olur və onlar tərəfindən çap olunan elmi işlərin sayı aşağıdakı cədvəldə verilmişdir.

| **İl** | | **Məqalələr** | | **Tezislər** | |
|---|---|---|---|---|---|
| | | | o cümlədən: | cəmi | o cümlədən |

| | Mono-qrafiya | cəmi: | respubli-kada | xaricdə | | | Respubli kada | xaricdə |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | cəmi | WoS | | | |
| 2018 | - | 80 | 20 | 60 | 48 | | | |
| 2019 | 7 | 86 | 20 | 66 | 51 | 42 | 29 | 13 |
| 2020 | 7 | 105 | 22 | 83 | 79 | 14 | 5 | 9 |
| 2021 | 1 | 90 | 18 | 72 | 52 | 49 | 48 | 1 |
| 2022 | 6 | 90 | 26 | 64 | 49 | 87 | 81 | 6 |
| Cəmi | 21 | 451 | 106 | 345 | 279 | | | |

Universitet akademik karyerasının başlanğıcında olan tədqiqatçıları, ilkin mərhələdə olan alimləri xüsusi diqqət mərkəzində saxlayır. Xəzər Universiteti təqaüd proqramları vasitəsilə bu tədqiqatçılarla əlaqəni dəstəkləmək üçün müvafiq imkanlar təqdim edir.

| **İl** | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|
| **Əcnəbi doktorant tələbələrin sayı** | 23 | 28 | 42 | 49 | 40 |

Universitetin beynəlxalq imicinin formalaşması və beynəlxalq nüfuzunun artırılması istiqamətində məqsədyönlü fəaliyyətlər aparılmışdır. Daim yenilənən əməkdaşlıqların qurulması, layihələrin hazırlanması və universitetin bu kimi layihələrdə fəallığının artırılması, tanıdılması məqsədilə təşkil olunan yerli və müxtəlif beynəlxalq konfransların, seminarların, görüşlərin və digər ictimai-mədəni tədbirlərin təşkil olunması istiqamətində Xəzər Universitetinin tədqiqatını, beynəlxalq və akademik sahədə keyfiyyətini artırmışdır.

Universitet müxtəlif mübadilə proqramları vasitəsilə Avropa və Türkiyə universitetləri ilə əməkdaşlıq edir, dünyanın müxtəlif universitetləri ilə ikitərəfli əməkdaşlıq müqavilələri bağlamaqla müəllim və tələbə heyətinin mübadiləsi, müəssisələr arasında seminar, konfrans və akademik görüşlərin, elmi-tədqiqatların aparılmasını dəstəkləyir. Bu Universitetin Beynəlmiləlləşmə Siyasəti sənədinin "Azərbaycan və onun beynəlxalq tərəfdaşları arasında müsbət sosial-iqtisadi qarşılıqlı əlaqə"nin yaradılması bəndində öz əksini tapmışdır.

Son 5 il ərzində Xəzər universiteti çoxsaylı xarici universitetlər və digər qurumlar ilə əlaqə yaratmışdır. Xəzər Universiteti Dünya Bankı, DAAD, YUNESKO, UNICEF, British Council, BP Explore, Schlumberger, İsveç Baltik Dənizi Əməkdaşlıq İnstitutu, Avropa, Asiya və Amerikadakı hökumətlər və fondlar üçün müxtəlif layihələrin həyata keçirilməsi prosesində birbaşa iştirak etməklə yanaşı, Avropa Universitetləri Alyansı, Planet Sağlamlıq Alyansında,

BMT-nin səhralaşma ilə mübarizə Konvensiyasında, BMT-nin Dağ Tərəfdaşlığında, Sağlamlıq və Çirklənmə üzrə Qlobal Alyans (GAHP), Avrasiya Universitetlər Birliyi (EURAS), Qara dəniz Universitetləri Şəbəkəsi (BSUN) Xəzəryanı Ölkələrin Dövlət Universitetləri Assosiasiyası, AUDEM (Dünya Universitetlərinin Demokratiya Uğrunda Alyansı), İnformasiya Təhlükəsizliyi Tədqiqatları üzrə Beynəlxalq Konsorsium və Akademik Əməkdaşlıq üzrə Qafqaz Beynəlxalq Konsorsiumunda da yer alır.
2023-cü ilin fevral ayında Xəzər Universiteti Avropanın ən böyük akademik dürüstlük şəbəkəsi olan ENAI-yə (Akademik Dürüstlük üzrə Avropa Şəbəkəsi) qoşulmaq üçün müraciət etmişdir.

Xəzər Universiteti ilə Bragansa Politexnik İnstitutu arasında əməkdaşlıq 2017-ci ildə Anlaşma Memorandumu və İkili Diplom Proqramları haqqında anlaşma imzalamaqla başlamışdır. Hazırda Xəzər Universiteti Mühəndislik və tətbiqi elmlər fakültəsi (bakalavr proqramları: kompüter mühəndisliyi, kompüter elmləri və kimya mühəndisliyi; magistr proqramları: mühəndislik, informatika) və İqtisadiyyat və menecment fakültəsi (bakalavr proqramı: menecment, magistr proqramı: MBA Menecment) tələbələri üçün ikili diplom proqramları təklif edir. 2018/2019-cu tədris ilində Mühəndislik və tətbiqi elmlər fakültəsinin 3 bakalavr tələbəsi, İqtisadiyyat və Menecment fakültəsinin 2018/2019-cu tədris ilində 1 magistr tələbəsi, 2019/2020-ci tədris ilində isə 1 bakalavr tələbəsi təhsil almışdır.
Bu tədris ilində isə İqtisadiyyat və Menecment fakültəsinin 1 bakalavr tələbəsi ikili diplom proqramı çərçivəsində təhsilini davam etdirir. 2023/2024-cü tədris ilində İqtisadiyyat və Biznes yüksək təhsil fakültəsinin 1 magistr tələbəsi təhsilini Braqansa Politexnik İnstitutunda davam etdirəcək (Tələbə Xəzər Universitetinin Seçki Komitəsi tərəfindən nominasiya olunmuşdur).
Bununla yanaşı, hal-hazırda ikili diplom proqramları ilə bağlı Okan Universiteti (Türkiyə), Kozminski Universiteti (Polşa), Vistula Universiteti (Polşa), və Hollandiya Biznes Akademiyası (Hollandiya) ilə əlaqə qurulmuş və danışıqlar aparılır.

Universitetin beynəlmiləlləşmə siyasəti hər 5 ildən bir yenilənir və 2024-cü ildən 2028-ci illəri əhatə edəcək dövr üçün də yenilənmiş siyasətin formalaşdırılması prosesi hazırda davam edir. Universitet təhsil və tədrisin keyfiyyətinə beynəlmiləlləşmə istiqamətində təsir göstərən əməkdaşlıqlara üstünlük verir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

*7.2.Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi və təşkilatı strukturu*

Universitetin beynəlxalq əlaqələrini möhkəmləndirmək, həmçinin bu sahə üzrə Universitet daxili işi təkmilləşdirmək məqsədilə 27.10.1992-ci il 53\K saylı əmrə əsasən 27 oktyabr 1992-ci ildə Xəzər Universitetinin Xarici İşlər Şöbəsi yaradılmışdır.
29.09.2021-ci il K\1231 saylı Əmrə əsasən 01 oktyabr 2021-ci il tarixindən Beynəlxalq Əlaqələr üzrə prorektor vəzifəsinə Vlad Alex Vernygora təyin olunmuşdur və o, Beynəlxalq Əlaqələr ofisinin də rəhbəri vəzifəsini icra edir. Hazırda, Beynəlxalq Əlaqələr ofisində Beynəlxalq Əlaqələr üzrə Prorektorun rəhbərliyi ilə üç koordinator fəaliyyət göstərir. Bundan əlavə, Erasmus+ tələbə mübadiləsi proqramlarında və tədqiqatların beynəlmiləlləşdirilməsi prosesi zamanı Beynəlxalq Əlaqələr ofisi fakültə əməkdaşları ilə əlaqə saxlayır.




Mövcud olan struktur beynəlmiləlləşmə siyasətinə uyğundur.

Xəzər universitetində tələbələrin başqa universitetlərdə əldə edilmiş kreditlərin tanınması mexanizmi mövcuddur və bu mexanizmin tətbiqi “Kreditlərin transferi (köçürülməsi) haqqında” əsasnamə vasitəsilə tənzimlənir.
Mübadilədən öncə tərəfdaş universitetin və Xəzər Universitetinin müvafiq fakültələri ilə İnstitusional Müqavilə imzalanır.
Öyrənmə Müqaviləsində (Learning Agreement) tələbənin tərəfdaş universitetdə tədris olunacaq fənlər və AKTS kreditləri qeyd olunur. Mübadilə yekunlaşdıqdan sonra tələbələrin kreditləri imzalanmış Öyrənmə müqaviləsi (Learning Agreement) və tərəfdaş universitet tərəfindən göndərilən transkript əsasında qəbul olunur və tanınır.

Əcnəbi professorların və tədqiqatçıların cəlb edilməsi Xəzər Universiteti üçün beynəlmiləlləşmənin əsas istiqamətlərdən biridir.
Əcnəbi professor-müəllim heyətinin tədris prosesinə cəlb olunmasını Xəzər Universiteti aşağıdakı şəkildə həyata keçirir.
1) beynəlxalq tərəfdaş müqavilələrində mövcud olan imkanlarla; 2) fərdi müqavilər əsasında işləyən müəllim heyəti vasitəsilə; 3) Fulbrayt Təqaüd Proqramı çərçivəsində;
4) digər mübadilə proqramları vasitəsilə.
Universitet bir çox nüfuzlu universitetlərdən elmi dərəcəsi olan əcnəbi işçi qüvvəsi, professorlar və tədqiqatçıları cəlb etmişdir.
Hal-hazırda Xəzər Universitetində Fulbrayt təqaüd proqramı çərçivəsində Humanitar, Təhsil və Sosial Elmlər fakültəsində qonaq professor fəaliyyət göstərir.
Aşağıdakı cədvəldə 2018-2022-ci illərdə Xəzər Universiteti müxtəlif proqramlar çərçivəsində professor heyətini cəlb etmişdir.

| **İl** | **2018** | **2019** | **2020** | **2021** | **2022** |
|---|---|---|---|---|---|
| Əcnəbi professor-müəllim heyəti | 18 | 26 | 22 | 27 | 30 |

Tədris və tədqiqat işinin beynəlmiləlləşdirilməsini Xəzər Universiteti aşağıdakı üç aspektdən təhlil edir: a) mükəmməllik (mümkün olan ən yaxşı işi görməyə çalışmaq); b) müsbət transformasiya (inkişafın və müsbət təkamülün effektivliyin əsası olduğuna inanaraq); c) təkmilləşdirilməsi (prosesin davamlı təkmilləşdirilməsini nəzərə alaraq). Bu yanaşma Xəzər Universitetinin beynəlmiləlləşmə ilə əlaqəli idarəetmənin effektivliyinin struktur, monitorinq və fəaliyyətin idarə edilməsində öz əksini tapmışdır.
Beynəlxalq Əlaqələr Ofisi Xəzər Universitetində Erasmus+ KA107\171 proqramı çərçivəsində akademik\inzibati işçi heyəti və tələbə mübadiləsi proqramlarının təşkili, sənədlərin hazırlanması və icrası ilə bağlı məsələləri koordinasiya edir. Beynəlxalq Əlaqələr Ofisi mübadilə proqramlarının iştirakçılarını bütün mərhələlərdə istiqamətləndirir və dəstəkləyir (viza, yaşayış yeri, kurs seçimi, əlaqədar akademik bölmə ilə əlaqə, təhsil müqavilələri, müraciət formaları və s). Eyni zamanda, Xəzər Universiteti qabaqcıl təcrübələrin bölüşdürülməsi, yeniliklərin ötürülməsi və ali təhsilin potensialının inkişafı üçün müxtəlif milli və beynəlxalq proqramlar çərçivəsində Azərbaycan universitetləri və xarici tərəfdaşlar ilə fəal əməkdaşlıq edir.

2017-ci ildən Xəzər Universiteti ilə həm bakalavr, həm də magistr tələbələri üçün səkkiz ikili təhsil proqram Mühəndislik və tətbiqi elmlər fakültəsi (bakalavr proqramları: kompüter mühəndisliyi, kompüter elmləri və kimya mühəndisliyi; magistr proqramları: mühəndislik, informatika) və İqtisadiyyat və menecment fakültəsi (bakalavr proqramı: menecment, magistr proqramı: MBA Menecment) təklif edir.

Xəzər Universiteti ilə Braqansa Politexnik İnstitutu (Portuqaliya) arasında bağlanmış müqavilənin 2-ci bəndinə əsasən, ikili diplom proqramları bir və ya hər iki təhsil səviyyəsində (bakalavriatura və magistratura) həyata keçirilir. Bakalavriat səviyyəsində proqramlar aşağıdakı prinsiplər əsasında qurulur: Xəzər Universitetinin tələbələri 180 AKTS kreditinə uyğun olaraq 4 illik bakalavr dərəcəsinin altı semestrini başa vurduqdan sonra Braqansa Politexnik İnstitutu (Portuqaliya) təhsilini davam etdirirlər. Yeddinci və səkkizinci semestrlər ərzində Xəzər Universitetinin tələbələri Portuqaliyada 60 və 78 AKTS kreditdən ibarət tədris planından fənləri götürürlər.

Xəzər Universiteti tələbələrin Braqansada əldə etdikləri bütün kreditləri qəbul edir.

Xəzər Universitetinin tədris və tədqiqat işinin beynəlmiləlləşdirilməsi siyasətinin üç əsas komponentindən biri "Azərbaycan və onun beynəlxalq tərəfdaşları arasında müsbət sosial-iqtisadi qarşılıqlı əlaqələrin qurulması və artırılması" dır.

Aşağıdakı cədvəldə 2018-2022-ci illərdə akademik heyətin mübadilə dinamikası verilmişdir.

| **İl** | **2018** | **2019** | **2020** | **2021** | **2022** |
|---|---|---|---|---|---|
| Akademik heyətin mübadilə proqramında (Erasmus+ İşçi heyətinin mübadiləsi-KA107\171), beynəlmiləlləşdirmə tədbirlərində iştirakı | 34 | 41 | 15 | 9 | 31 |

Universitetin həyata keçirdiyi mübadilə proqramları çərçivəsində çox sayda tələbə və müəllim heyəti müxtəlif ölkələrdə təlim və seminarlarda, təcrübə proqramlarında iştirak edir. Elanlar tərəfdaş universitetlə bağlanılan institusional müqavilədə qeyd olunan kvota və istiqamət üzrə verilir. Akademik və inzibati heyətinin mübadiləsi üçün elanlar əsasən məlumat lövhələrində poster materialları, veb-sayt vasitəsilə məlumatlandırılır. Bununla yanaşı, mübadilə imkanları barədə məlumat fakültələr vasitəsilə yayılır. Müraciət etməkdə maraqlı olan akademik və inzibati

heyət tələb olunan sənədlər toplusunu (CV, müraciət forması) Beynəlxalq Əlaqələr Ofisinə (Neftçilər kampusu, Otaq 512) təqdim edir.
Akademik və inzibati heyətin Erasmus+ proqramında iştirakı üçün seçim prosesinin şəffaflığı və obyektivliyini təmin etmək məqsədilə yaradılmış komitə nominasiya prosesini həyata keçirir.
Mübadilədən öncə və mübadilə müddətində iştirakçılara viza proseduru, sənəd dəstəyi və yerləşdirmə ilə bağlı müvafiq məlumatlar verilir. Mübadilədən qayıtdıqdan sonra Universitet tərəfindən iştirak sertifikatı və proqram zamanı görülən işlər haqqında qısa hesabat xarakterli məlumat bazada saxlanılır. Mübadilə haqqında məlumat universitetin vebsaytında və sosial media platformalarında yayımlanır.

Xəzər Universitetində mübadilə proqramlarında iştirakın təmin olunması üçün məlumat sessiyaları keçirilir və elan lövhələrində posterlər paylaşılır. Həm akademik və inzibati heyətin, həm də tələbə mübadiləsində iştirakçıların sənədləri və nominasiya olunma nəticəsini əks etdirən hesabat sənədləri tərəfdaş universitetə elektron poçt vasitəsilə göndərilir.
Tələbələrin mübadilə proqramlarında, beynəlmiləlləşmə üzrə proqram və tədbirlərdə iştirakını özündə əks etdirən aşağıdakı cədvəldə dinamika göstərilmişdir.

| **İl** | **2018** | **2019** | **2020** | **2021** | **2022** | **2023** |
|---|---|---|---|---|---|---|
| Tələbələrin Erasmus+ Mübadilə proqramı, Mevlana proqramı, və digər beynəlmiləlləşmə tədbirləri | 28 | 18 | 13 | 13 | 15 | 19 |

Xəzər Universitetində Avropa İttifaqı tərəfindən maliyyələşdirilən Erasmus+ proqramı çərçivəsində tələbə mübadiləsinin həyata keçirilməsi və proqramda iştirak edəcək tələbələrin seçiminin müvafiq qaydaya uyğun olaraq təşkil edilməsi məqsədilə 16.05.2019-cu il U\181S saylı əmrə əsasən Xəzər Universitetinin bakalavriat, magistratura və doktorantura tələbələrinin Erasmus+ proqramında iştirakı üçün seçim prosesinin şəffaflığı və obyektivliyini təmin etmək məqsədilə komitə yaradılmışdır.
2019/2020-ci tədris ilinin yaz semestri və 2020/2021-ci tədris ilində koronavirus pandemiyası ilə əlaqədar olaraq, nəzərdə tutulan mübadilə proqramlarında iştirak reallaşdırıla bilməmişdir.
Mübadilə proqramlarında fənlərin həcmi əsasən AKTS-ə uyğun dəyərləndirilir, hər-hansı bir universitetdə fərqli sistem tətbiq olunduğu halda kreditlərin AKTS uyğunluğu təmin olunur.

Xəzər Universiteti dünyada universitetlərin reytinqinin müəyyənləşdirilməsi sahəsində ən nüfuzlu təşkilatlardan biri olan QS təşkilatının son 10 ilin reytinq cədvəllərində Azərbaycan universitetləri arasında həmişə birincilərdən olmuş, Dünyanın ən yaxşı 700 universitetindən biri, Şərqi Avropa və Mərkəzi Asiyanın ən yaxşı 70 universitetindən biri seçilmiş, həmçinin, dünyanın 150 gənc universiteti (yaşı 50-dən az olan) siyahısına daxil edilmiş və bu siyahıda Azərbaycandan yeganə universitet olmuşdur.

2021-ci ilin dekabr ayına olan aparıcı reytinq cədvəllərində Xəzər Universiteti yüksək nəticələr göstərmişdir: "QS EECA University Rankings 2022" reytinq cədvəlində Azərbaycan Universitetləri arasında 1-ci yerdə qərarlaşmış, "Eduniversal" təşkilatının dünya üzrə ən yaxşı biznes məktəblərinin reytinq cədvəlində Xəzər Universitetinin İqtisadiyyat və Menecment fakültəsi Azərbaycanın biznes məktəbləri arasında 1-ci yerdə qərarlaşmışdır.

Xəzər Universiteti, həmçinin, Azərbaycan üzrə bu sahədə ən nüfuzlu təşkilat olan "Times Higher Education"-ın BMT-nin "Dayanıqlı İnkişaf Məqsədləri"nə əsaslanan reytinq cədvəlində bütün sahələr üzrə yüksək nəticə göstərən ali təhsil müəssisəsidir.

Dünyanın ən nüfuzlu reytinq təşkilatlarından biri olan "Times Higher Education" (THE) 2022-ci il üçün BMT-nin "Dayanıqlı İnkişaf Məqsədləri"nə əsaslanan, sosial və iqtisadi töhfələrinə görə fərqlənən ən yaxşı dünya universitetlərini müəyyənləşdirərək reytinq cədvəlində Xəzər Universiteti Azərbaycandan bütün sahələr üzrə ən yüksək nəticə göstərərək 601-800 aralığında qərarlaşmışdır. "QS Emerging Europe & Central Asia University Rankings 2022"-ə əsasən ölkənin ən yaxşı universiteti olan "Məqalə başına Sitatlar" indiqatoru üzrə regionda 9-cu yeri təsdiqləmişdir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

*7.3.Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar*

Xəzər Universiteti müxtəlif fəaliyyət sahələrinin büdcələşdirilməsi, o cümlədən tədrisin və tədqiqatların beynəlmiləlləşdirilmənin həyata keçirilməsi üzrə mərkəzləşdirilmiş siyasət aparır.

Xəzər Universiteti tədrisin və tədqiqatların beynəlmiləlləşdirilməsi üçün aşağıdakı resursları ayırmışdır.

| **İl** | **2022** | **2021** | **2020** | **2019** | **2018** |
|---|---|---|---|---|---|
| Beynəlmiləlləşmə istiqamətində ayrılmış resurslar | 487 753.162 | 383 426.14 | 285 450.6 | 339 475.43 | 289 970.63 |

Qeyd etmək lazımdır ki, beynəlmilləşmə siyasətinin həyata keçirilməsində əlavə resurslara ehtiyac yarandığı halda məsələ universitet rəhbərliyi tərəfindən operativ həll edilir.
Xəzər Universitetində Beynəlxalq Əlaqələr üzrə prorektor tərəfindən idarə olunan Beynəlxalq Əlaqələr Ofisi (Beynəlxalq Əlaqələr ofisində fəaliyyət göstərən 3 koordinator) tam heyətə malikdir. Bundan əlavə, qeyd olunduğu kimi, hər bir fakültədə, Beynəlxalq Əlaqələr ofisi ilə birbaşa əlaqəni təmsil edən beynəlxalq məsələlərə məsul şəxslər fəaliyyət göstərir. İnsan resurslarına ehtiyac olduğu halda ştat cədvəlinə uyğun dəyişiklər etməklə əlavə işçilər cəlb olunur.

Beynəlmiləlləşmə prosesinin həyata keçirilməsi üçün uyğun infrastruktur mövcuddur. Həm Beynəlxalq Əlaqələr ofisi, həm də Beynəlxalq Əlaqələr üzrə prorektor gərək olan maddi-texniki bazaya malikdirlər.

Xəzər Universitetində Beynəlxalq Əlaqələr Ofisi illik qiymətləndirmə və monitorinq aparılması üçün fəaliyyət planına malikdir. Qiymətləndirmə əsasən layihə/tədbir başa çatdıqdan sonra aparılır və layihə/tədbir hesabatının bir hissəsi kimi əlavə olunur (Yazılı hesabat, xəbərlər, fotolar).
Keystone Group-un Osloda yerləşən marketinq/tələbələrin təhsil müəssisələrinə qəbulu platforması vasitəsilə qlobal miqyasda tanıdılması aparılır.
01.09.2021-ci il tarixindən etibarən Xəzər Universiteti bir tədris ili üçün Keystone-nun tətbiq etmək funksiyasını aktivləşdirmişdir.
Elm və Təhsil Nazirliyi tərəfindən aparılan təhlil göstərir ki, əcnəbi vətəndaşların ali təhsil müəssisələrinə cəlbinin təşviqi və onların təhsilinin təşkili sahəsində ali təhsil müəssisələrinin fəaliyyətinə müsbət məqamların artdığı müşahidə edilmişdir.
Xəzər Universiteti Elm və Təhsil Nazirliyi tərəfindən göndərilmiş məktublara, sorğulara məsuliyyətli yanaşma, operativ icra, əcnəbilərin sayında son 5 tədris ili üzrə artım dinamikası, atis.edu.az və portal.edu.az sistemlərinin səmərəli istifadəsi, əcnəbi tələbələrin ictimai-sosial aktivliyinin təmin edilməsi nəzərə alınmaqla, fəaliyyəti digər ATM-lər ilə müqayisədə müsbət mənada fərqlənmiş və 3-29/3-1-250K/2023 nömrəli, 20.02.2023-cü il tarixli əmri ilə "Təşəkkürnamə" ilə təltif olunmuşdur.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

*7.4.Beynəlmiləlləşmə performansı*

Xəzər Universitetinin müxtəlif təşkilati struktur, nəticələrin monitorinqi, o cümlədən beynəlmiləlləşmə kontekstində məqsədyönlülük və davamlılıq prinsiplərindən istifadə etməyə və saxlamağa imkan verir. Beynəlmiləlləşmə prosesi çərçivəsində əldə edilən nəticələr və yaranan problemlər rektorluqda müzakirə edilir və ehtiyac yarananda uyğun müvafiq qərarlar qəbul edilir.

Beynəlmiləlləşmə yönümlü müxtəlif əməkdaşlıq görüşləri, konfranslar, seminarlar, qonaq əcnəbi professor-müəllim tərəfindən təlimlər və seminarlar, sərgilərdə təmsilçilik, səfirlərlə görüşlər, əcnəbi tələbələrin iştirakı ilə müxtəlif ölkələrin "ölkə günlər"nin qeyd edilməsi keçirilmişdir.

| **İl** | **2018** | **2019** | **2020** | **2021** | **2022** | **2023** |
|---|---|---|---|---|---|---|
| Beynəlmiləlləşmə yönümlü tədbirlər | 85 | 70 | 14 | 28 | 79 | 24 |

Struktur olaraq, Xəzər Universiteti tədrisin və tədqiqatların beynəlmiləlləşdirilməsi siyasətinin təşkili və həyata keçirilməsində əldə edilmiş təcrübələri müzakirə etmək və araşdırmaq üçün yaxşı təchiz edilmişdir. Məsələn, Beynəlxalq Əlaqələr ofisindəki müntəzəm ofis saatları onlarla tələbə tərəfindən hər həftə öz rəyləri və tövsiyələrini ifadə etmək və mühüm məsələləri müzakirə etmək üçün yaxşı fürsət olaraq dəyərləndirilir. Beynəlxalq Əlaqələr üzrə prorektor məlumatları əldə etmək üçün bütün fakültələrlə əlaqə saxlayır. Asiya-Sakit Okean və Afrika Araşdırmaları İnstitutunun (ASAAİ) yaradılması bu xüsusi ehtiyaca əsaslanan təkmilləşdirməyə nail olmaq üçün ilk addımlardan biridir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

**5. Təhsil müəssisəsinin özünütəhlil nəticələri**

| İstiqamətlər və meyarlar | Yekun Bal | Uyğun deyildir | Qismən uyğundur | Əsasən uyğundur | Uyğundur |
|---|---|---|---|---|---|
| **1. Strateji inkişaf** | | | | | |
| 1.1 Ali təhsil müəssisəsinin (ATM) missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri | 42 | | | | Uyğundur |
| 1.2 Strateji inkişaf proqramının icrası və monitorinqi | 15 | | | | Uyğundur |
| **İstiqamət üzrə yekun bal** | **57** | | | | Uyğundur |
| **2. Keyfiyyət təminatı** | | | | | |
| 2.1 Keyfiyyət təminatı siyasəti | 12 | | | | Uyğundur |
| 2.2 Daxili keyfiyyət təminatı mexanizmləri | 31 | | | | Uyğundur |
| 2.3 Keyfiyyət təminatı mədəniyyəti | 11 | | | | Uyğundur |
| **İstiqamət üzrə yekun bal** | **54** | | | | Uyğundur |
| **3.Təlim və tədris** | | | | | |
| 3.1 Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması | 12 | | | | Uyğundur |
| 3.2 Təhsil proqramları | 29 | | | | Uyğundur |
| 3.3 Tədrisin təşkili | 64 | | | | Uyğundur |
| 3.4 Tədris metodları və üsulları | 24 | | | | Uyğundur |
| 3.5 Təlim və tədris resursları | 48 | | | | Uyğundur |
| 3.6 Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi | 35 | | | | Uyğundur |
| 3.7 Professor-müəllim heyəti | 32 | | | Əsasən uyğundur | |
| 3.8 Tələbəyönümlü tədris | 36 | | | | Uyğundur |
| 3.9 Təhsil proqramlarının monitorinqi və yenilənməsi | 15 | | | | Uyğundur |
| 3.10 Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi | 15 | | | | Uyğundur |
| **İstiqamət üzrə yekun bal** | **310** | | | | Uyğundur |

| | | | | | |
|---|---|---|---|---|---|
| **4. Elmi tədqiqat** | | | | | |
| 4.1 Elmi-tədqiqat strategiyası | 24 | | | | Uyğundur |
| 4.2 Tədqiqat resursları | 17 | | | Əsasən uyğundur | |
| 4.3 Elmi-tədqiqat fəaliyyəti | 54 | | | Əsasən uyğundur | |
| 4.4 Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti | 9 | | | | Uyğundur |
| **İstiqamət üzrə yekun bal** | **104** | | | | Uyğundur |
| **5. İdarəetmə sistemi** | | | | | |
| 5.1 İdarəetmə orqanları | 26 | | | | Uyğundur |
| 5.2 İnsan resurslarının idarə edilməsi | 28 | | | | Uyğundur |
| 5.3 Maliyyə resusrlarının idarə ediləsi | 45 | | | | Uyğundur |
| 5.4 İnformasiya idarəetmə sistemi | 24 | | | | Uyğundur |
| 5.5 İctimaiyyətlə əlaqələr | 18 | | | | Uyğundur |
| **İstiqamət üzrə yekun bal** | **141** | | | | Uyğundur |
| **6. İnfrastruktur** | | | | | |
| 6.1 Tədris infrastrukturu | 42 | | | | Uyğundur |
| 6.2 Elmi-tədqiqat infrastrukturu | 6 | | | | Uyğundur |
| **İstiqamət üzrə yekun bal** | **48** | | | | Uyğundur |
| **7. Beynəlmiləlləşmə** | | | | | |
| 7.1 Beynəlmiləlləşmə siyasəti | 24 | | | | Uyğundur |
| 7.2 Beynəlmiləlləşmə prosesinin idarə edilməsi və təşkilatı strukturu | 29 | | | | Uyğundur |
| 7.3 Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar | 11 | | | | Uyğundur |
| 7.4 Beynəlmiləlləşmə performansı | 6 | | | | Uyğundur |
| **İstiqamət üzrə yekun bal** | **70** | | | | Uyğundur |
| **Təhsil müəssisəsi  üzrə akkreditasiya qiymətləndirilməsinin yekun nəticəsi** | **784** | | | | |

## 6. Təşkilat komissiyasının gəldiyi nəticə və qeydlər

Universitetin apardığı özünütəhlilə əsaslanaraq belə bir qənaətə gəlmək olar ki, universitet müasir dövrün tələblərinə cavab verən, davamlı və dinamik inkişaf edən və öz fəaliyyətini müntəzəm olaraq təkmilləşdirən, tədris və tədqiqatı inteqrasiya edən ali təhsil müəssisəsidir.

Universitetin fəaliyyəti uzunmüddətli strategiyaya və strateji planlara əsaslanır. Strategiyaya uyğun olaraq hesabat dövrü ərzində bakalavriat, magistratura, doktorantura səviyyələrində kadr hazırlığının keyfiyyətinin artırılmasına, yeni ixtisasların açılmasına, elmi-tədqiqat işlərinin dəyər və əhəmiyyətliyinin gücləndirilməsinə, beynəlmiləlləşmə potensialından tədris və tədqiqatlarda geniş istifadəsinə, idarəetmə sisteminin təkmilləşdirilməsinə, maraqlı tərəflərlə əlaqələrimizin genişləndirilməsinə, infrastrukturun gücləndirilməsi və günün tələblərinə uyğunlaşdırılmasına xüsusi diqqət yetirilmiş və qeyd olunan istiqamətlər üzrə gözəçarpan irəliləyiş əldə edilmişdir.

Bütün səviyyələr və ixtisaslar üzrə tədris proqramları dövlət təhsil standartlarının tələblərinə cavab verir və proqramların hazırlanmasında qabaqcıl beynəlxalq təcrübədən geniş istifadə edilmişdir. Bakalavriat, magistratura və doktorantura səviyyələrində kadr hazırlığı yüksəkixtisaslı professor-müəllim heyəti tərəfindən həyata keçirilir, beynəlxalq təcrübəsi olan mütəxəssislərin tədris və tədqiqat işlərinə cəlb edilməsinə xüsusi diqqət yetirilir. Universitetin zəngin müasir maddi-texniki bazası keyfiyyətli kadr hazırlığına imkan verir, müasir informasiya texnologiyasından tədrisdə geniş istifadə edilməsinə önəm verilir. Universitetin potensialının inkişaf etdirilməsinə töhfə verən innovativ xarakterli beynəlxalq layihələrdə iştirak edilməsi, tədris-tədqiqat laboratoriyalarının və kompüter mərkəzlərinin gücləndirilməsi, kitabxana informasiya mərkəzinin ənənəvi və elektron resurslarla tam komplektləşdirilməsi və digər önəmli məsələlər daim diqqətdə saxlanılır.

Universitet fəaliyyətinin əsas göstəriciləri tədris prosesinin kifayət qədər yüksək səviyyədə təşkil olunması, peşəkar və elmi kadr hazırlığının həyata keçirilməsi üçün zəruri şəraitin mövcudluğu barədə nəticə çıxarmağa imkan verir. Eyni zamanda, özünətəhlilin nəticələri göstərir ki, universitet tədrisin və tədqiqatların, beynəlmiləlləşmə və idarəetmənin keyfiyyətinin və effektivliyinin artırılması baxımından daha geniş imkanlara malikdir və bu imkanlardan tam istifadə edilməsinə gələcək fəaliyyətində xüsusən əhəmiyyət verilməlidir.

Özünütəhlil komissiyasının yekun rəyi: Xəzər Universitetinin fəaliyyəti Dövlət Təhsil Standartlarının tələblərinə uyğundur.